ƏLİ ƏLİYEV

# AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINDA

## (XX əsrin 20-30-cu illəri)

- 8630 -

Bakı – «Elm» – 2011

65.304,13(5Aze) + 63.3(5Aze)6-2
Ə 65

**Elmi redaktor:** tarix elmləri doktoru,
prof. Qabil Əliyev

**Rəyçi:** AMEA-nın müxbir üzvü,
prof. Teymur Vəliyev

**Ə.P.Əliyev. Azərbaycan nefti dünya bazarında (XX əsrin 20-30-cu illəri). Bakı: «Elm» nəşriyyatı, 2011, 360 səh.**

ISBN 978-9952-453-32-4

Monoqrafiya Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsi və neft sənayesinin milliləşdirilməsindən sonra Sovet dövlətinin neft və neft məhsullarını dünya bazarına çıxarmaq uğrunda mübarizəsinə həsr edilmişdir. Əsərdə dünyanın ən böyük neft trestlərinin və onların arxasında duran siyasi dairələrin kəskin müqavimətinə baxmayaraq yüksək keyfiyyətli və ucuz Azərbaycan neftinin dünya bazarında qazandığı uğurlar, neft satışından qazanılan vəsaitin sovet iqtisadiyyatının inkişaf etdirilməsində çox mühüm rolu geniş faktik material əsasında şərh olunmuşdur.

***Əsərin nəşr edilməsi təşəbbüsü və nəşriyyat xərcləri müəllifin ömür-gün yoldaşı Sürəyya xanıma və övladlarına aiddir.***

0503020907
655 (07) - 2011

© «Elm» nəşriyyatı, 2011

## Müəllimim haqqında bir neçə söz

XX əsrin 60-80-ci illərində Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin tarix fakültəsində təhsil almış gənclər Əli müəllimi yaxşı xatırlayırlar. Xarici görünüşü ilə digər müəllimlərdən o qədər də seçilməsə də, son dərəcə intizamlı, özünə və ətrafındakılara qarşı olduqca tələbkar olması, sərt baxışı, zabitəli görünüşü ilə auditoriyada dərhal sakitlik yaradardı.

Sonra dərsə başlardı. Aramla, səsini ucaltmadan, kəskin ifadələr işlətmədən audotoriyaya tam hakim olardı. Onun dərin məzmunlu, yüksək peşəkarlıqla söylədiyi mühazirələr hər bir tələbəni valeh edirdi. Hətta dərsdən qaçmağa meylli olanlar da Əli müəllimin mühazirələrində müntəzəm iştirak etməyə səy göstərirdilər.

Əli müəllimin mühazirələri son dərəcə məntiqli, hadisələrin səbəb və nəticələrinin, hadisə iştirakçılarının niyyət və məqsədlərinin tam şəkildə aydınlaşdırıldığı, adi təsvirçilikdən uzaq, bir çox mətləblərin incə eyhamlarla vurğulandığı canlı dərslər idi. Sərt senzura şəraitinə baxmayaraq, bu böyük alim auditoriyada tələbələrinə Sovet cəmiyyətinin tarixi ilə bağlı əsl həqiqətləri anlatmaqdan çəkinməyən son dərəcə cəsur insan idi.

O, gənclərin savadlı, öz xalqına, vətəninə sədaqətlə xidmət edən, qeyrətli, təəssübkeş ziyalı kimi yetişməsinə çox ciddi tələbkarlıqla yanaşır, öz gündəlik fəaliyyəti ilə, yaşam tərzi ilə onlara örnək olurdu. Əli müəllim elmi şuralarda, müxtəlif iclaslarda həmişə haqqı, haqlı olanı cəsarətlə müdafiə edir, obyektiv və güzəştsiz mövqeyi ilə hamını onunla hesablaşmağa vadar edirdi.

Əli müəllim 1927-ci il mayın 10-da Ucar rayonunun Qazyan kəndində anadan olmuşdur. Həmin kənd məktəbində təhsil almış, daha sonra Göyçay Pedaqoji Texnikumuna daxil olmuşdur. 1942-ci ildə texnikumda təhsilini başa çatdırıb Qazyan kənd məktəbində ibtidai sinif müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 1945-ci ildə Azərbaycan (Bakı) Dövlət Universitetinin hüquqşünaslıq fakül-təsinin əyani şöbəsinə qəbul edilmiş, 1950-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurmuş, ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

1950-1955-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasında SSRİ tarixi ixtisası üzrə təhsilini davam etdirmiş, 1955-ci ildə "Azərbaycan neft sənayesində sosializm yarışı (1935-1941-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1955-1960-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunun SSRİ tarixi kafedrasında baş müəllim, dosent vəzifələrində çalışmışdır. Ali məktəbdə pedaqoji fəaliyyətinin ilk illərindən SSRİ tarixi fənnindən seminar məşğələləri aparmış, mühazirə oxumağa başlamışdır.

1960-cı ildən ömrünün sonuna kimi Azərbaycan (Bakı) Dövlət Universitetində dosent, professor, kafedra müdiri vəzifələrində çalışmışdır. 1966-cı ildə "Kapitalist neft inhisarlarına qarşı mübarizə və Sovet neftinin dünya bazarına çıxması tarixi (1920-1937-ci illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. 1973-1976-cı illərdə Arxivşünaslıq kafedrasının, 1977-1988-c illərdə SSRİ tarixi (Oktyabr inqilabına qədərki dövr) kafedrasının müdiri olmuşdur.



160-dan çox elmi əsərin, o cümlədən 10 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifi olmuşdur. Onun 1987-ci ildə nəşr etdirdiyi "İmperializm dövründə çarizmin xarici siyasəti" adlı monoqrafiyası elimi yaradıcılığında xüsusi yer tutur. Bu əsərdə Rusiya imperiyasının XIX əsrin sonu – XX əsrin ilk onilliklərində yeritdiyi müstəmləkəçi xarici siyasət konkret tarixi faktlarla şərh edilmiş, təcavüzkar siyasi xəttinin sinfi kökləri səriştə ilə araşdırılmışdır. Rusiya hakim dairələrinin Uzaq Şərqdə, Qafqazda və Mərkəzi Asiyada yeni müstəmləkələr ələ keçirmək, əvvəlki dövrdə işğal etdiyi torpaqlarda mövqeyini möhkəmləndirmək üçün atdığı addımlar, Birinci dünya müharibəsi dövründə rus diplomatiyasının fəaliyyəti tədqiq edilmişdir.

Əli müəllimin yüksək ixtisalı tarixçi kadrlar yetişdirmək sahəsində də böyük xidmətləri olmuşdur. Onun rəhbərliyi altında 12 gənc tədqiqatçı tarix elmlər namizədi alimlik dərəcəsi almışdır. Onlardan 8 nəfəri, o cümlədən bu sətirlərin müəllifi sonrakı dövrdə elmi tədqiqat işini uğurla davam etdirmiş, doktorluq dissertasiyası müdafiə etmişdir. Əli müəllim həmçinin 10 nəfər elmlər doktorunun, 20-dən çox elmlər namizədinin rəsmi opponenti olmuşdur.

Əli müəllim 1992-ci il aprelin 7-də yaradıcılığının çiçəkləndiyi bir vaxtda vəfat etmişdir. Onun nəzərdə tutduğu bir çox planları yarımçıq qalsa da, təsəlli verən odur ki, yetirmələri öz sevimli müəlliminin yolunu davam etdirir, xatirəsini əziz tutur, adını hər zaman sonsuz minnətdarlıq duyğusu ilə anırlar.

Bir neçə kəlmə də "Azərbaycan nefti dünya bazarında (XX əsrin 20-30-cu illəri)" adlı monoqrafiyası haqqında...

Əsəri Əli müəllim doktorluq dissertasiyası əsasında çapa hazırlamışdır. Giriş hissəsində 1980-ci illərin sonunda Sovet cəmiyyətində aşkarlığın, fikir müxtəlifliyinə dözümlülüyün nisbətən artdığı, senzuranın yumşaldığı bir şəraitdə bəzi əlavələr və düzəlişlər edilsə də, o dövrün ideoloji tələbləri əsas götürülmüşdür. Lakin 90-cı illərin əvvəlində əsər Azərnəşrə təqdim edildikdən sonra baş verən köklü dəyişikliklər: Sovet dövlətinin çökməsi, müstəqilliyin bərpasının çətin və sıxıntılı dövründə monoqrafiyanın çapı baş tutmamışdır. Müəllif nüsxəsi isə nəşriyyatın yeni yerə köçürülməsi zamanı itirilmişdir.

İndi oxucuların diqqətinə təqdim edilən əsər müəllifin arxivində saxlanılan makina nüsxəsi əsasında çapa hazırlanmışdır. Həm də bu zaman müəllifin dəst-xəttini maksimum dərəcədə saxlamağa, üslubuna xələl gətirməməyə çalışılmışdır.

**Qabil Əliyev**
**tarix elmləri doktoru, professor**



**«Azərbaycan nefti dünya bazarında (XX əsrin 20-30-cu illəri)» adlı monoqrafiya haqqında**

Prof. Ə.P.Əliyevin rəy üçün təqdim etdiyi «Azərbaycan neft dünya bazarında» adlı monoqrafiya, indiyədək sovet tədqiqatçılarının diqqət mərkəzindən kənarda qalmış, elmi, siyasi və praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edən bir məsələyə həsr edilmişdir. Azərbaycan tarixşünaslığında respublika neft sənayesinin sovet hakimiyyəti illərindəki fəaliyyətinə dair irili-xırdalı bir sıra əsərlər həsr edildiyi halda, Azərbaycan neftinin dünya bazarına çıxarılması uğrunda gedən inadlı mübarizə, imperialist dövlətlərinin və onların himayə etdikləri neft inhisarlarının kəskin müqavimətini qıraraq, dünya bazarında özünə mövqe əldə etməsi, gənc sovet dövlətinin maliyyə vəziyyətinin çətin olduğu bir şəraitdə onun küllü miqdarda maliyyə vəsaiti mənbəyinə çevrilməsi və s. bu kimi məsələlərin tədqiqi, dərindən araşdırılması təkcə Azərbaycanın deyil, bütün sovet tarixşünaslığında mövcud olan boşluğun doldurulması işində mühüm addım kimi qiymətləndirilməlidir.

Monoqrafiyada sovet hakimiyyətinin qələbəsindən sonra Azərbaycan neftini ələ keçirmək uğrunda imperialist dövlətlərin apardıqları inadlı mübarizə, bu məqsəd üçün onların Genuya və Haaqa beynəlxalq konfranslarından istifadə etmək cəhdləri, «Standart oyl» və «Royal datçi-şell» kimi nəhəng dünya neft trestlərinin tətbiq etdikləri boykot taktikası və göstərdikləri digər müqavimət üsulları səriştə ilə təhlil edilmişdir. Müəllif sovet neftinin bütün manеələri uğurla dəf edərək dünya bazarına çıxma-

sı və orada möhkəmlənməsi istiqamətində atılan addımları ətraflı surətdə şərh etmişdir.

Bunlardan başqa, əsərdə Azərbaycan neftinin ixracından əldə edilmiş gəlirin həcminin XX əsrin 20-30-cu illərdə artım dinamikası dəqiq izlənilmiş, qazanılmış vəsaitin sosializm quruculuğundakı roluna da geniş yer verilmişdir.

Bütün bu yuxarıda göstərilən müddəalar və fikirlər müəllif tərəfindən rəsmi sənədlər və faktiki materiallar vasitəsilə inandırıcı surətdə təsdiq edilir.

Monoqrafiyanın Rusiya Federasiyasının və Azərbaycan Respublikasının arxivlərindəki sənədlər və materiallar əsasında yazılması və xeyli miqdarda xarici dillərdə olan ədəbiyyatın müəllif tərəfindən elmi dövriyyəyə cəlb edilməsi işin elmi dəyərini və obyektivlik dərəcəsini daha da yüksəltmişdir.

Ümid edirəm ki, prof. Ə.P.Əliyevin «Azərbaycan nefti dünya bazarında (XX əsrin 20-30-cu illəri)» adlı monoqrafiyasının nəşr edilməsi o dövrün siyasi və iqtisadi konyukturasının daha aydın anlaşılmasına, Azərbaycan netinin Sovet dövlətinin qarşıya qoyduğu nəhəng iqtisadi vəzifələrin yerinə yetirilməsində oynadığı mühüm rolun dərk edilməsinə layiqli töhfə olacaqdır.

*Azərbaycan MEA-nın müxbir*
*üzvü, professor* ***T.S.VƏLİYEV***



# GİRİŞ

1920-ci il aprelin 27-də Sovet Rusiyasının XI Qırmızı Ordusunun yaxından iştirakı ilə Azərbaycanda Xalq Cümhuriyyəti yıxıldı, sovet hakimiyyəti qalib gəldi. Lakin həmin hadisədən böyük bir müddət keçməsinə baxmayaraq bu məsələ, xüsusilə Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə prosesində XI Qırmızı Ordunun bilavasitə iştirakında güdülən məqsəd və vəzifələr hələ də Azərbaycan tarixşünaslığında hərtərəfli və obyektiv olaraq öz əksini tapmamışdır.

Bu məsələ ilə məşğul olan Sovet dövrü tədqiqatçıları hamılıqla belə bir məlum tezislə yekdil razıdırlar ki, Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizəyə XI Qırmızı Ordunun müdaxiləsi o zaman Sovet Rusiyası rəhbərliyinin elan etdiyi proletar beynəlmiləlçiliyi prinsipindən doğurdu. Yəni Rusiyada siyasi hakimiyyəti ələ almış proletariat bununla kifayətlənə bilməzdi. O özünün milli ucqarlarda olan sinfi qardaşlarına da hakimiyyət uğrunda mübarizədə bütün vasitələrlə, hətta lazım gələrsə silahlı qüvvə ilə də yardım etməyi özünə borc bilirdi. Həqiqətən də belə idi. Bu tezis özlüyündə inkar edilməzdir. Lakin Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə prosesində, siyasi konyukturaya uyaraq, təkcə bu tezisə sığınmaqla, bu işdə mühüm rol oynayan digər amillərin kənarda qoyulması da bir həqiqətdir.

Oktyabr çevrilişindən sonra, Sovet Rusiyasının rəhbəri V.İ.Leninin dili ilə desək, döyülüb yarımcan hala salınmış və qoltuq ağacları ilə belə yeriyə bilməsi şübhə

altında olan Rusiyanın ictimai-siyasi, iqtisadi və hərbi vəziyyətinin ağırlığı yuxarıda göstərilən tezisin yeganəliyini və səmimiliyini açıq-aşkar rədd edir. Məlumdur ki, Oktyabr çevrilişindən sonra daxili və xarici irtica birləşərək Rusiyadakı gənc sovet hakimiyyətinə qarşı vahid cəbhədə ayağa qalxmışdı. Burada Sovet hakimiyyətinin varlığı ciddi təhlükə altına düşmüşdü. Beynəlxalq imperializm gənc proletar diktaturasına qarşı bir-birinin ardınca kəskin hərbi hücumlar edirdi. Çox yerlərdə daxili əksinqilabi qüvvələr tərəfindən sovet hakimiyyəti devrilmişdi.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində arxasında Antanta dövlətləri duran Polşa Şərqi Ukrayna və Belorusiyanın dərinliyinə doğru hərəkət edirdi. Bu istiqamətdə döyüşən sovet silahlı qüvvələrinin arxasını kəsmək məqsədilə Krımda yerləşən baron Vrangelin böyük bir ordusu hərəkətə başlamışdı. Söhbət Rusiyanın özündə sovet hakimiyyətinin varlığından gedirdi. Proletar beynəlmiləlçiliyinin bayraqdarı rolu oynayan Sovet Rusiyasının hərbi və siyasi imkanlarının belə məhdud olduğu bir şəraitdə, ancaq beynəlmiləlçilik naminə, Azərbaycan fəhlə sinfinin inqilabı mübarizəsində yardım etmək üçün böyük bir nizami ordunun Bakıya göndərilməsi ya uşaq sadəlövhlüyü, yaxud da siyasi donkixotçuluq olardı.

Hadisələrin obyektiv və qərəzsiz təhlili, əldə olan küllü miqdarda rəsmi və faktiki sənədlər yuxarıda haqqında danışılan tezisi tam inkar etmədən göstərir ki, Sovet Rusiyası rəhbərliyinin özünün böhranlı dövründə bu tədbirə əl atması başlıca olaraq onun XX əsrin əvvəllərində Rusiya imperiyasının yeganə duru yanacaq bazası olan Bakıya misilsiz marağı ilə bağlı idi. Həmin dövrdə Rusiya



imperiyasında hasil edilən neftin orta hesabla 77-80 faizini yalnız Azərbaycan verirdi. Azərbaycan nefti olmadan Sovet Rusiyasının (hələ biz digər sovet respublikalarını demirik – Ə.Ə.) çoxtərəfli xalq təsərrüfatını, nəinki inkişaf etdirməkdən, hətta onun qısa müddətdə bərpasından söhbət belə ola bilməzdi. Dünya neft dövlətləri və onların neft inhisarı birliklərinin gənc sovet dövlətinə bəslədikləri düşmən münasibəti, onun həddindən artıq iqtisadi və maliyyə çətinlikləri Sovet Rusiyasının neftə olan ehtiyacının idxal yolu ilə ödənməsi imkanını da aradan qaldırırdı. Həmin dövrdə Azərbaycanda mövcud olan xalq demokratik respublikası ilə dinc qonşuluq və işgüzar əlaqələr vasitəsilə Rusiyanın neft yanacağına olan ehtiyacın ödənilə biləcəyi məsələsinə gəldikdə isə, onların iqtisadi-ictimai quruluşları arasındakı fərq heç də buna etibarlı təminat vermirdi.

Belə bir şəraitdə Rusiya özü üçün yeganə və məqsədəuyğun çıxış yolunu Azərbaycan fəhlələrinin inqilabi mübarizəsinə real kömək etmək adı altında hərbi müdaxiləyə başlamaqda görürdü.

Beləliklə, Sovet Rusiyası öz beynəlmiləlçilik borcunu yerinə yetirməklə yanaşı, həm də hər iki respublika arasında mövcud olan iqtisadi maneələri də aradan qaldırmış olardı.

Belə də oldu. Həmin yolun həyatiliyi özünü elə Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin lap ilk günündən göstərməyə başladı. Azərbaycan neft sənayesi milliləşdirildiyi vaxtdan RSFSR hökumətinin, SSRİ təşkil edildikdən sonra isə ittifaq dövlətinin sərəncamına verildi və Sovet İttifaqının dağılmasına qədər belə də davam etdi.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi nə-

ticəsində onun tükənməz duru yanacağı RSFSR başda olmaqla bütün sovet respublikalarının iqtisadi və siyasi inkişafının başlıca amillərindən biri oldu.

Azərbaycan nefti SSRİ xalq təsərrüfatının duru yanacağa olan ehtiyacını gen-bol ödəmişdi. 1920-1934-cü illərdə SSRİ üzrə hasil edilmiş 182 892,9 min ton neftin 120 227,9 min tonu təkcə Azərbaycanın, qalan 62 665 min tonu isə ölkənin digər 10 neft rayonunun payına düşmüşdü.[1] 1935-ci ildə ölkə üzrə hasil edilmiş neftin 77 faizini Azərbaycan vermişdi[2]. Bununla yanaşı, Azərbaycan nefti gənc sovet dövlətinin kapital yığımında da çox mühüm bir mənbə kimi iştirak etmişdi.

Fikrimizcə, belə bir faktı aşkarlamaq oxucular üçün də maraqlı olardı. 1922-1937-ci illəri əhatə edən 15 il ərzində də dünya bazarına çıxarılmış sovet neftindən nə az, nə çox 5 milyard rubl (beynəlxalq valyuta ilə) gəlir əldə edilmişdi. Lakin bu heç də həmin dövrdə dünya bazarına çıxarılmış sovet neftindən əldə edilmiş gəlirin hamısı deyildi. Sovet dövləti xarici bazara çıxmaq və möhkəmlənmək üçün öz məhsulunu beynəlxalq bazarda dünya neft trestlərinin məhsullarına nisbətən yarıdan da aşağı qiymətə satırdı. Onun dünya neft trestlərinin əli ilə satdığı məhsulların qiyməti də bundan yuxarı deyildi. Faktlar və rəsmi sənədlər göstərir ki, bu və ya digər bazarda sovet neftini satan "Standart oyl" və "Royal datç-şell" trestləri bu neftin əsil sahibindən daha çox qazanc götürürdülər. Bütün bunlar nəzərə alınarsa, bəhs edilən dövrdə sovet neftinin dün-

[1] "Нефтяное хозяйство", № 9, 1935, с. 91
[2] "Внешняя торговля" № 2, 1937, с. 24



ya bazarında satışından əldə edilən gəlir 10 milyard rubldan çox idi. Lakin biz həmin dövrdə sovet dövlətinin əlinə çatan məbləği qeyd etməklə kifayətlənirik. Müəyyən taktiki mülahizələrlə dünya bazarında suyu qiymətinə satılan sovet nefti əsasən Azərbaycan neft sənayesi məhsulları olub, respublikada əldə edilən neft məhsullarının ümumi miqdarının 18-20 faizini təşkil edirdi. Əgər biz rəsmi sənədlərə inansaq, bu onunla izah edilirdi ki, həmin dövrdə dünya bazarına çıxmaq və möhkəmlənmək, öz keyfiyyətinə görə beynəlxalq standartlara az-çox uyğun olan və strateji, coğrafi baxımından əlverişli yerdə yerləşmiş Azərbaycanın nefti ilə mümkün idi. Lakin SSRİ-nin xarici neft əməliyyatları sənədlərində bir yerdə də olsa Azərbaycan nefti xatırlanmır.

Azərbaycan nefti dünya bazarına öz milli mənsubiyyəti ilə deyil, dövlət mənsubiyyəti və markası altında çıxarılırdı.

Bəhs edilən dövrdə Azərbaycan neftinin SSRİ-nin təkcə iqtisadi həyatında oynadığı misilsiz rola dair daha maraqlı bir fakt: həmin illərdə Azərbaycan neftindən gələn gəlir (həm daxili, həm də xarici bazarlarda satılan neft məhsulları hesabına) orta hesabla o zamankı dünya bazarında mövcud olan qiymətlərlə 50 milyard rubldan (beynəlxalq valyuta ilə) çox idi. Müqayisə üçün qeyd etmək maraqlıdır ki, qarşısına çox böyük və əzəmətli vəzifələr qoymuş SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi üçün I beşillikdə qoyulmuş kapitalın ümumi miqdarı 64,6 milyard rubl idi. Beynəlmiləlçilik, siyasi və mənəvi borcun ödənilməsinə sərf edilmiş bu məbləğ həmin illərdə orta hesabla respublika əhalisinin hər nəfərinin sayına

bölünərdisə, nə az-nə çox 197350 rubl, ildə isə 13157 rubl təşkil edərdi.

Hələ indiyə qədər beynəlmiləl siyasi və mənəvi köməyə görə olan borcun vahid ödəmə meyarı olmadığı üçün, onun nə vaxta qədər davam edəcəyi məlum deyildi.

Əsərdə haqqında söhbət açılan 1922-1937-ci illərdə Azərbaycan nefti sovet dövlətinin siyasi cəhətdən möhkəmləndirilməsində də qüdrətli bir silah idi. Sovet neftini ələ keçirmək uğrunda dünya neft trestləri arasında gedən inadlı mübarizə və şiddətli rəqabət təkcə həmin trestlərin deyil, həm də onların mənsub olduqları dövlətlərin SSRİ-yə qarşı vahid cəbhədə çıxış etmək imkanını aradan qaldırırdı. Beynəlxalq Genuya və Haaqa konfranslarının rəsmi materialları, 1929-1932-ci illərin dünya iqtisadi böhranı ilə əlaqədar olan hadisələr və faktlar bizə belə bir qəti qənaətə gəlməyə əsas verir.

Sovet neftinin dünya bazarına çıxması və yeni-yeni mövqelər əldə etməsi prosesinin əsasən 1937-ci il illə məhdud edilməsi isə aşağıdakı səbəblərlə izah edilir:

30-cu illərin ikinci yarısından başlayaraq beynəlxalq gərginliyin aydan-aya artması, dövlətlər arasındakı münasibətlərin getdikcə kəskinləşməsi, bəşəriyyətin İkinci dünya müharibəsinə sürətlə yaxınlaşması faktı Sovet dövlətinə indiyə qədər yeritdiyi neft siyasətinə yenidən baxmağı zəruri edirdi. Tezliklə müharibə hədəflərindən birinə çevriləcəyinə şübhə etməyən sovet dövləti nəinki kifayət qədər duru yanacaq ehtiyatlarına malik olmalı, həm də onun neftinin dünya bazarı vasitəsilə ehtimal olunan hər hansı bir rəqib dövlətin əlinə keçməsinə yol verməməli idi.

Böyük Vətən müharibəsi illərinə gəldikdə isə, sovet



nefti döyüşən ordunun və arxa cəbhənin duru yanacağa olan ehtiyacına sərf edilirdi.

Böyük Vətən müharibəsi qurtardıqdan sonra isə daxili vəzifələrin həlli üçün yanacağa ehtiyac o qədər artmışdı ki, hətta SSRİ-nin bir çox yerlərində yeni neft rayonlarının aşkar edilməsi və istifadəyə verilməsinə baxmayaraq, bu ehtiyacı gen-bol ödəmək mümkün deyildi. Bundan başqa, dünyanın iki müxtəlif hərbi-siyasi bloklara bölünməsi də sovet neftinin dünya bazarına çıxarılması məsələsinə əsaslı təsir göstərmişdi. İndi sovet dövləti təkcə öz ehtiyacını deyil, İkinci dünya müharibəsindən sonra meydana çıxmış sosialist dövlətlərinin də duru yanacağa olan ehtiyacını ödəməli idi. Bu işdə isə bir çox mülahizələrə görə Azərbaycan nefti demək olar ki, iştirak etmirdi. Xarici bazara SSRİ-nin digər rayonlarından əldə edilmiş məhsul çıxarılır, daha yüksək keyfiyyətə malik olan Azərbaycan nefti isə əsasən daxildə, xüsusi təyinatlı sahələrdə istifadə edilirdi. Ona görə də, XX əsrin 30-cu illərinin sonlarından etibarən SSRİ-nin xarici bazara çıxardığı neft məhsulları içərisində Azərbaycan neftinin xüsusi çəkisinin azalması, onu başqa bir tədqiqatın mövzusu edir.

# I FƏSİL

## AZƏRBAYCAN NEFTİNİ ƏLƏ KEÇİRMƏK UĞRUNDA BEYNƏLXALQ İMPERİALİZMİN MÜBARİZƏSİ

Neft insan cəmiyyətinə uzun illərdən bəri məlum olmasına baxmayaraq, bu məhsul heç zaman XX əsrdə olduğu kimi mühüm iqtisadi, siyasi və hərbi əhəmiyyət kəsb etməmişdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində edilmiş bir sıra texniki ixtiralar, əvvəllər o qədər də nəzərə çarpmayan neftə tezliklə dünyəvi əhəmiyyət qazandırdı. XX əsrin başlanğıcındakı bir sıra görkəmli kəşflər təkcə sənaye və nəqliyyat sahələrində texniki inqilab olmayıb, həm də neftin indiyə qədər məlum olmayan böyük gücünün kəşfi idi.

Neftin digər yanacaq növlərinə nisbətən çox böyük üstünlüyü Birinci dünya müharibəsi dövründə özünü daha parlaq sürətdə göstərdi.

Neft məsələsi dünya müharibəsinin başlanması səbəblərinə daxil olmasa da, lakin o, müharibənin gedişinə öz əhəmiyyətli təsirini göstərdi.

Bu, bir həqiqətdir ki, Antanta üzrə müttəfiqlər Verdeni ancaq benzinin yardımı ilə xilas etdilər. Onlar general Foşa avtomobillər ilə lazımı qədər hərbi qüvvə göndərməklə böhranlı vəziyyəti aradan qaldıra bildilər.

Fransa ordusunun baş komandanı Foş Verden əməliyyatında əldə edilmiş qələbədə avtomobilin oynadığı rola böyük əhəmiyyət verərək göstərirdi: "Bizim Almaniya üzərində qələbəmiz yük avtomobilinin paravoz üzərində



qələbəsi idi"[1].

Fransız marşalı Peten də bunu təsdiq edərək yazırdı: "Neft də, kömür də çörək kimi ən zəruri məhsullardandır. Hər hansı xalqın dinc dövrdə həyatı və onun azad surətdə inkişafı, eləcə də müharibə dövründə qüdrəti neft hasilatından və yaxud onun əldə edilməsindən asılıdır. Məncə belə bir həqiqəti təkrar etmək artıqdır ki, əgər ardı-arası kəsilməyən avtomobil karvanları Verden əsgərlərinə kömək çatdırmasaydı, onların göstərdikləri cəsurluq heç bir nəticə verməzdi".[2]

Fransanın prezidenti və hərbi naziri Klemanso 1917-ci ilin dekabrında ABŞ prezidenti Vilsona yazırdı: "...Fransa ordusu bir an da olsun öz avtomobilləri, təyyarələri və səhra toplarını dartan traktorları üçün lazım olan benzinin çatışmazlığına məruz qalmamalıdır. Bu, nəticə etibarı ilə müttəfiqləri heç də əlverişli olmayan sülhə gətirib çıxara bilər".[3]

Fransanın ən məşhur neft ideoloqlarından sayılan senator Anri Beranje 1918-ci ildə "Müttəfiqlərarası neft komitəsinin" iclasında Birinci dünya müharibəsində əldə edilmiş qələbədə neftin oynadığı roldan bəhs edərək bildirmişdi: "Almaniyanın ölümcül surətdə məğlub edilməsinə... neft səbəb oldu. Öz kömür və dəmiri ilə öyünən Almaniya bizim neft sahəsində olan üstünlüyümüzü kifayət qədər nəzərə almamışdı. Nəticədə həmin üstünlük bizi qəti

---

[1] В.Петров-Уральцев. "Нефть царица мира", М.-Л., 1925, с.37

[2] "Мировое хозяйство и мировая политика", № 6, 1935, с. 83.

[3] "Внешняя торговля", № 9, 1939, s. 22

qələbəyə gətirib çıxartdı".[1]

İngiltərənin xarici işlər naziri lord Kerzon 1918-ci il noyabrın 21-də, Londonda qələbə münasibətilə təşkil edilmiş ziyafətdəki çıxışında neftin Birinci dünya müharibəsindəki rolu və əhəmiyyətindən bəhs edərək göstərmişdi: "...Milli və beynəlxalq məhsullar içərisində ən mühüm məhsul neftdir. Neft hələ müharibəyə qədər xalq təsərrüfatının ən mühüm sahələrindən biri hesab edilirdi... Lakin müharibənin başlanması ilə neft və ondan alınan məhsullar müharibəni davam etdirmək və udmaq işində ən əsas amil oldu... Məgər neft olmadan donanmamızın hərəkətini təmin etmək mümkünmü idi?... Bütün neft məhsulları... müharibə dövründə eyni dərəcədə mühüm rol oynamışdır. Həqiqətən də gələcək deyəcəkdir ki, müttəfiqləri qələbəyə neft dalğaları gətirib çıxarmışdır".[2]

Birinci dünya müharibəsində Antanta dövlətlərinin qələbə çalmasında neftin fövqəladə rol oynamasını Almaniya Baş qərargahının rəisi general Lüdendorf da açıq-dan-açığa etiraf edirdi. O, göstərmişdi ki, müttəfiqlərin Birinci dünya müharibəsində üstünlükləri onların neftdə olan üstünlükləri ilə bağlı idi[3].

Neftin Birinci dünya müharibəsində oynadığı rola aid yuxarıda gətirilən faktların üzərinə onun sənayedə, məişətdə və digər sahələrdə oynadığı rol da əlavə edilərsə XX əsrin əvvəllərindən başlayaraq neftin kəsb etdiyi əhəmiyyət qismən tamamlanmış olar.

---

[1] "Мировое хозяйство и мировая политика", № 6, 1935, с. 84
[2] Ф.Делези. "Нефть", М., 1923, с. 79
[3] Людендорф. "Мои воспоминания о войне 1914-1918 гг". Т. I, М., 1923, с. 277



Bütün bu üstünlüklər neftə, digər yanacaq növlərini (kömür və odun və s.) getdikcə dünya iqtisadiyyatından sıxışdırmağa imkan verdi. Məs.: 1913-cü ildə dünya energetika balansında daş kömür 89,9 faiz yer tutduğu halda, bu 1920-ci ildə onun payı 85,3 faizə enmiş, neftin mövqeyi isə 9,4 faizdən 14,3 faizə qalxmışdı[1].

Neftin dünya təsərrüfatında özünə geniş meydan açması, onun hasilatının sürətlə artmasına səbəb oldu. 1901-1921-ci illər arasındakı müddətdə dünya üzrə daş kömür istehsalı cəmi 1,2 dəfə artdığı halda, müqayisə edilən illərdə neft hasilatının artımı 4,2 dəfədən çox idi[2].

1913-cü ildə, 1900-cü ilə nisbətən, ABŞ 294 faiz, Rumıniya 654 faiz, Hollandiya Hindistanı 3552 faiz, Britaniya Hindistanı 159 faiz və s. artıq neft hasil etmişdi[3].

XX əsrin əvvəllərindən başlayaraq dünya üzrə neft hasilatının sürətlə artmasına baxmayaraq, hasilat zaman keçdikcə neftə olan tələbdən geri qalırdı. Hələ neft məhsullarının daha geniş miqyasda işlədilməsinə ciddi təkan verən Birinci dünya müharibəsindən qabaq, 1913-cü ildə Amerika qitəsi ölkələri 30600 min ton, Avropa ölkələri 16135 min ton, Asiya ölkələri 3915 min ton, Afrika ölkələri 350 min ton və Avstraliya 200 min ton olmaqla, dünya üzrə 51200 min ton neft məhsulları işlədilmişdi. Həmin ildə isə dünyada hasil edilmiş neftin ümumi miqdarı 50400

---

[1] А.А.Манукян и К.Н.Козарез. "Капиталистический рынок нефти", М., 1953, с. 9
[2] Е.М.Юшкин. "Мировая нефтяная промышленность и место СССР и Северного Кавказа в ней", Ростов н/Д, 1925, с. 3
[3] Э.А.Годзишевский. "Русская нефть на мировом рынке", М., 1924, с. 8

min ton idi. Deməli, təkcə 1913-cü ildə hasilata nisbətən 800 min ton artıq neft məhsulları istehlak edilmişdi[1].

Neft məhsullarına olan tələblə təklif arasında getdikcə artmaqda olan uyğunsuzluq neft məhsullarının qiymətinin sürətlə artmasına səbəb olmaya bilməzdi. Fransa iqtisadçısı F.Delezinin hesablamasına görə dünya üzrə xam neftin qiyməti təkcə 1914-1920-ci illər ərzində 3 dəfəyə qədər[2], Rusiyada isə hələ 1902-1909-cu illərdə 6 dəfədən çox artmışdı[3].

Bütün yuxarıdakı göstərilən faktlar əyani surətdə göstərir ki, neft sənayesinin sürətli inkişafı, neft məhsullarına olan ehtiyacın getdikcə artması, tələblə təklif arasında yaranmış uyğunsuzluq və bu zəmindən doğan neft məhsulları qiymətinin bahalaşması bilavasitə kapitalizmin imperializm mərhələsinin məhsulu idi.

Lakin neft uğrunda mübarizənin təməl daşını qoymuş imperializm ilə neft sənayesi arasındakı qarşılıqlı münasibətlər təkcə bunlardan ibarət deyildi. Bu sahədə ən başlıca iqtisadi amil digər sənaye sahələrinə nisbətən neft sənayesinin imperializmin əsas xüsusiyyətini təşkil edən inhisarçı təbiətə malik olmasıdır. İstehsalın, xüsusilə neftin emalı, daşınması və neft məhsulları ticarətinin yüksək dərəcədə təmərküzləşməsi, kapitalın əsasən səhm formasında intensiv toplanması, sənaye kapitalının bank kapitalı ilə digər sənaye sahələrinə nisbətən burada daha erkən birləşməsi, külli miqdarda izafi gəlir verməsi və s. bu kimi

---

[1] В.И.Фролов. "Экономика нефтяного хозяйства", М.-Л., 1928, с. 255
[2] Ф.Делези. "Нефть", с. 120
[3] V.İ.Lenin. Əsərləri, 19-cu cild, s. 15



inhisarçı kapitala xas olan xarakterik cəhətlərə neft sənayesi digər sənaye sahələrindən daha tez malik olmuşdu.

Başqa sənaye sahələrinə nisbətən neft sənayesinin daha çox inhisarçı təbiətinə malik olması hər şeydən qabaq onunla izah edilir ki, o, ağır sənayenin yeni sahəsi olmaqla, öz inkişafını demək olar ki, kapitalizmin imperialist mərhələsində tapmışdı. Ona görə də imperializmin başlıca xüsusiyyətləri öz əksini burada daha qabarıq surətdə göstərməyə bilməzdi. Digər tərəfdən isə, neft sənayesi başqa sənaye sahələrinə nisbətən özünün elə spesifik xüsusiyyətdərinə malik idi ki, bunlar istehsalın təmərküzləşməsini daha ciddi tələb edirdi.

Məhz bütün bu amillərə görə dünya miqyasında neft istehsalı emalı, daşınması və ticarəti hələ Birinci dünya müharibəsindən çox əvvəl əsas iki kompaniyanın – ABŞ tresti "Standart oyl"un və ingilis-holland tresti "Royal datç-şell"in əlində toplanmışdı.

V.İ.Lenin 1917-ci ildə yazırdı: "Neft işini götürün. Bu iş kapitalizmin hələ bundan əvvəlki inkişafı nəticəsində nəhəng bir dərəcədə "ictimailəşdirilmişdir". Bir-iki neft kralı milyonlar və yüz milyonlarla pula sərəncam çəkir... Ağlagəlməz dərəcədə mənfəət götürməklə məşğul olur"[1].

ABŞ tresti "Standart oyl" neft sənayesinin əkizi hesab edilir[2]. Əsası XIX əsrin 70-ci illərində Con Rokfeller tərəfindən qoyulmuş bu trest özündə 17 nəhəng, 9 orta və 9 xırda neft şirkətlərindən ibarət 35 cəmiyyəti birləşdirir-

---

[1] V.İ.Lenin. Əsərləri, 25-ci cild, s. 355-356
[2] Педж. Арнот. "Мировая политика нефти", М.-Л., 1925, с. 25



PREZIDENT KİTABXANASI

di[1]. O, təkcə ABŞ-da deyil, Rusiyada, İngiltərədə, Kanadada və s. ölkələrdə filiallara malik idi. XX əsrin birinci rübündə dünya üzrə hasil edilmiş neft məhsulları ticarətinin 65 faizə qədəri[2], hasil edilən neftin isə 27 faizi onun əlində toplanmışdı[3].

"Royal datç-şell" tresti isə "Standart oyl"dan bir qədər sonra, XX əsrin əvvəllərində, Hollandiya şirkəti "Royal datç" ilə ingilis şirkəti "Şell"in birləşməsindən əmələ gəlmişdi. Bu şirkətlərin birləşməsinə səbəb dünya neft bazarında "Standart oyl" ilə gedən mübarizəni uğukla davam etdirmək istəyindən ibarət idi.

"Royal datç-şell"in dünyanın bir çox yerlərində, o cümlədən Bakıda, Qroznıda, Maykopda və Embada fəaliyyət göstərən xüsusi təşkilatları var idi[4]. XX əsrin əvvəllərində dünya üzrə hasil edilən neftin 13 faizi "Royal datç-şell"in payına düşürdü[5].

Faktlardan göründüyü kimi, dünya neft sənayesi özünün çiçəklənmə dövrünə qədəm qoyduğu vaxtdan, neftin əhəmiyyəti məişət çərçivəsindən çıxaraq ümumdünya təsərrüfat əhəmiyyətinə çevrilməyə başladığı dövrdən etibarən neft hasilatı, emalı, daşınması və ticarəti dünyanın əsas iki nəhəng tresti arasında bölüşdürülmüşdü.

XX əsrin əvvəllərindən başlayaraq bu iki dünya tresti arasında neft uğrunda ölüm-dirim mübarizəsi gedir-

---

[1] В.Вронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", М., 1933, с. 78
[2] "Бакинский рабочий", 18 yanvar 1928-ci il
[3] "Нефтяное и сланцевое хозяйство", № 1, 1923, с. 129
[4] "Бакинский рабочий", № 101, 9 may 1922-ci il
[5] "Нефтяное и сланцевое хозяйство", № 1, 1923, с. 130



di. Bu mübarizə imperializmin iqtisadi mahiyyətindən doğurdu[1]. İmperializm iqtisadi nöqteyi-nəzərdən inhisarçı kapitalizmdir. İnhisarın mükəmməl olması, onun yalnız daxili bazarda deyil, habelə xarici bazarda, bütün dünyada rəqiblərini aradan qaldırılmasını tələb edirdi[2].

V.İ.Lenin göstərirdi: "Ən yeni kapitalizmin əsas xüsusiyyəti ən iri sahibkarların inhisarçı ittifaqlarının hökmranlığından ibarətdir... Kapitalistlərin beynəlxalq ittifaqları var qüvvələrilə çalışıb müqabil tərəfi hər cür rəqabət göstərə bilmək imkanından məhrum etməyə çalışır"[3].

İmperializm dövrünün məhsulu olan neft uğrunda beynəlxalq mübarizə tarixini, məzmununa, xarakterinə və mübarizə üsullarına görə əsasən iki mərhələyə bölmək olar.

Birinci mərhələ XX əsrin əvvəllərindən Birinci dünya müharibəsinə qədər olan dövrü əhatə edir. Bu dövrün xarakterik xüsusiyyəti ondan ibarət idi ki, burada neft uğrunda gedən mübarizənin tərəflərini yalnız inhisarçı ittifaqlar təşkil edirdi. Mübarizə əsasən satış bazarları uğrunda aparılırdı. Tərəflərin birinin qələbəsi üçün siyasi və hərbi üsullardan istifadə edilmirdi. Hər iki tərəfin yeganə mübarizə silahı sırf iqtisadi-ticarət xarakterli üsullardan ibarət idi.

Birinci dünya müharibəsi illərindən başlayaraq neftin təkcə dünya iqtisadiyyatında deyil, habelə imperialist

---

[1] V.İ.Lenin. Əsərləri, 23-cü cild, s. 35
[2] Yenə orada, s. 36
[3] Yenə orada, 22-ci cild, s. 274

dövlətlərinin siyasətində də hakim mövqe tutmağa başlaması, onun uğrunda gedən mübarizənin xarakterini dəyişdi və daha da kəskinləşdirdi.

Əvvəllər neft uğrunda mübarizə məfhumu altında bazarlar uğrunda gedən mübarizə anlaşılırdısa, ikinci mərhələdə bu öz yerini daha çox neft mənbələri uğrunda gedən mübarizəyə verdi.

Bazarlar uğrundakı mübarizə əsasən imperialist dövlətlərinin neft inhisarları arasında gedirdisə, indi neft mənbələri və bazarlar uğrundakı mübarizənin arxasında inhisar birlikləri ilə yanaşı, həm də onların mənsub olduqları dövlətin siyasəti dururdu. Neft uğrunda gedən mübarizənin bu yeni mərhələsində inhisar birliklərinin iqtisadi mənafelərilə ayrı-ayrı imperialist dövlətlərin siyasi mənafeləri bir-birləri ilə çulğalaşmışdı.

Neft uğrunda ümumdünya mübarizəsinin ikinci mərhələsində imperialist dövlətlərin maraqları ilə onların neft inhisarı birliklərinin mənafelərinin birləşməsi bir çox siyasi və iqtisadi amillərdən irəli gəlirdi.

V.İ.Leninin göstərdiyi kimi, imperializm dövründə artıq bütün torpaqlar və satış bazarları bölüşdürülüb qurtarmışdı. İndi söhbət yalnız onları müharibələr yolu ilə yenidən bölüşdürmək üzərində gedə bilərdi. Bunun üçünsə hər hansı dövlət külli miqdarda neft yanacağına malik olmalı idi. Bundan başqa imperialist dövləti neft mənbələrini ələ keçirməyə cəhd edərkən, burada yalnız özünün neftə olan ehtiyacını təmin etməyə deyil, həm də digər rəqib dövləti belə bir qüdrətli vasitədən məhrum etməyi nəzərdə tuturdu. Daha sonra hər hansı bir imperialist dövlət bu və ya digər ölkədə öz neft trestinin möhkəmlənməsinə



nail ola bilərdisə, o, həmin ölkəyə yeridilmiş neft kapitalı vasitəsilə onun iqtisadi və siyasi həyatına qarışmaq istəyini də xeyli asanlaşdırmış olardı.

İmperialist dövlətlərlə onların neft inhisarlarının qarşılıqlı münasibətləri nöqteyi-nəzərindən aşağıdakı fakt olduqca səciyyəvidir. ABŞ hökuməti azad rəqabət tərəfdarları olan xırda və orta sənaye sahibkarlarının təsir və tələbi ilə 1911-ci ildə onları sıxışdıran "Standart oyl" tresti əleyhinə yönəlmiş qanun vermişdi[1]. "Şerman qanunu" adlanan bu sənəd neft sənayesi üzrə trest halında birləşməyə qarşı çevrilmişdi[2]. Lakin neftin dünya təsərrüfatı və siyasətində rolunun artması ilə əlaqədar olaraq ABŞ hökuməti öz verdiyi qanunu həyata keçirməyə nəinki səy göstərmədi, əksinə çox tez bir zamanda sözdə əleyhinə çıxdığı "Standart oyl"un qəyyum və müttəfiqinə çevrildi[3].

Birinci dünya müharibəsindən sonra imperialist dövlətləri və onların inhisar birliklərinin arasında neft uğrunda gedən mübarizədə sovet nefti xüsusi yer tuturdu.

Oktyabr inqilabının qələbəsindən sonra Rusiyada neft sənayesinin milliləşdirilməsi beynəlxalq imperializmə vurulmuş ən ölümcül zərbələrdən biri idi.

Proletar diktaturasının ən ədalətli və zəruri aktı hesab edilən bu tədbirlər nəticəsində neft uğrunda ölüm-dirim mübarizəsinə qalxmış imperialist dövlətlər və onların inhisar birlikləri dünyanın ən zəngin neft mənbələrinin birindən əbədi olaraq məhrum edildilər. Çünki Amerika

---

[1] SSRİ Xarici Ticarət Nazirliyinin Mərkəzi arxivi, fond 1, siyahı 11066, iş 205, s. 6

[2] Yenə orada

[3] Yenə orada

geoloji komitəsinin Birinci dünya müharibəsindən sonra elan etdiyi məlumata əsasən, dünya neft ehtiyatının 15,7 faizi SSRİ ərazisində idi.[1]

İkinci dünya müharibəsi ərəfəsində aparılmış hesablamalara görə dünya üzrə mövcud olan 50 neft ehtiyatı rayonundan 35-i Sovet İttifaqının payına düşürdü[2]. Xarici şirkətlər həmçinin küllü miqdarda kapitaldan məhrum edildilər. Belə ki, S.Boqdanoskinin fikrincə, Oktyabr inqilabı ərəfəsində Rusiya neft sənayesinə qoyulmuş əcnəbi kapitalın ümumi miqdarı ("Nobel" cəmiyyəti də daxil olmaqla) 300 milyon rubla bərabər idi; V.İ.Frolovun hesablamasına görə isə bu ("Nobel" cəmiyyəti daxil edilmədən) 257,9 milyon rubl idi. B.Axundovun müəyyən etdiyinə görə milliləşdirilmə ərəfəsində Rusiyanın neft sənayesindəki əcnəbi kapital ümumi miqdarın 56 faizini təşkil edirdi[3]. Xarici şirkətlər Sovet dövlətinin atdığı addımlar nəticəsində böyük bir neft bazarından məhrum edildilər. Birinci dünya müharibəsi ərəfəsində Rusiya daxilində neft məhsulları ticarətinin 75 faizə qədəri əcnəbi kapitalistlərin əlində idi[4]. Onlar Rusiyada əldə etdikləri neft məhsullarını elə buradaca baha qiymətə satmaqla küllü miqdarda gəlir götürürdülər).

Deməli, Rusiyada sosialist inqilabının qələbəsilə

---

[1] "М.Герцбах. "Международные монополии", М., 1930, с. 119

[2] "Рабочий-нефтяник", № 8, 1939, с. 5

[3] С.Богдановский "Нефтяной империализм", М.-Л., с. 79; В.И.Фролов. "Экономика нефтяной промышленности", М.-Л., 1928, с. 123; "Azərb. SSR EA Xəbərləri", № 4, 1953, s. 82

[4] Б.Ахундов. "Монополистический капитал в дореволюционной Бакинской нефтяной промышленности", М., 1959, с. 62



çoxcəhətli ciddi zərbələr almış neft imperializmi bununla heç cürə razılaşa bilməzdi. İtirilmiş kapital və qazanc mənbəyi kimi məsələnin sırf iqtisadi tərəfi bir yana dursun, sovet neftinə sahib olmadan, dünya neft hegemonluğundan söhbət belə gedə bilməzdi.

Sovet nefti uğrunda gedən mübarizə, bir çox cəhətlərinə görə imperialist dövlətləri və onların inhisarları arasındakı beynəlxalq neft mübarizəsindən ciddi surətdə fərqlənirdi. Bu, hər şeydən əvvəl Oktyabr çevrilişi nəticəsində dünya imperializm sistemindən ayrılmış Rusiyada yaranan yeni ictimai quruluşla kapitalist quruluşu arasındakı köklü fərqlərin nəticəsi idi.

Sovet nefti uğrunda mübarizədə imperialist dövlətlərinin siyasi və iqtisadi məqsədləri bir-birilə çulğalaşmışdı. Onların gənc sovet hakimiyyətinə qarşı mübarizəsi, həm də sovet nefti uğrunda apardıqları mübarizə idi. Nə qədər ki, söhbət Sovet hakimiyyətini yıxmaq haqqında gedirdi, o zaman imperialist dövlətləri bu məqsəd ətrafında dərhal birləşirdilər. Məsələ gəlib ayrılıqda sovet neftinə çatarkən, kapitalist dövlətləri arasındakı bu birliyi kəskin ziddiyyətlər, amansız mübarizələr əvəz edirdi.

Sovet nefti uğrunda gedən mübarizə yuxarıda göstərilən səbəblər üzündən ikitərəfli xarakter daşıyırdı. İmperialist dövlətləri və onların inhisar birlikləri sovet neftini ələ keçirmək uğrunda Sovet hakimiyyətinə qarşı birlikdə çıxmaqla yanaşı, öz aralarında rəqabət mübarizəsini də davam etdirirdilər. Bunların ən kəskini Sovet dövləti ilə imperialist dövlətlər arasında gedən mübarizə idi. Sovet hökuməti öz varlığını qoruyub saxlamaq üçün hər iki tərəfə qarşı mübarizə aparmalı olurdu. Xarici hərbi müdaxilə

və vətəndaş müharibəsində güdülən məqsədlər nəzərə alınmazsa, imperialist dövlətləri və onların neft inhisarlarının birliklərinin bilavasitə sovet nefti uğrunda apardıqları birbaşa mübarizə 1922-ci ilin ikinci yarısından – Genuya və Haaqa beynəlxalq konfranslarından sonra başlandı.

Xarici hərbi müdaxiləçilər və daxili əksinqilabi qüvvələr üzərində Sovet Rusiyasının çaldığı qələbə nəticəsində beynəlxalq burjuaziya Sovet hakimiyyətinə qarşı öz mübarizə taktikasını dəyişməyə məcbur oldu. Sovet hakimiyyətinə qarşı mübarizə döyüş meydanlarından diplomatiya salonlarına köçürüldü. İmperialistlər silah gücünə nail ola bilmədiklərini, bu dəfə diplomatik yol ilə əldə etmək qərarına gəldilər. Onların fikrincə gənc Sovet dövləti, vahid cəbhədə birləşmiş imperialistlərin ona göstərdikləri diplomatik təzyiqə davam gətirməyərək, irəli sürülən bütün şərtləri sözsüz qəbul etməyə məcbur olacaqdı.

Bu işdə, "Avropa iqtisadiyyatını bərpa etmək məqsədilə" Genuyada çağırılacaq beynəlxalq iqtisadi konfrans həlledici rol oynamalı idi. Genuya konfransına beynəlxalq neft inhisarları böyük ümid bəsləyirdilər. Vaxtı ilə Rusiya neft sənayesinə böyük həcmdə kapital qoymuş Fransa, Belçika, Danimarka kapitalistləri bu konfrans vasitəsilə Rusiyadakı köhnə mülkiyyətlərinə yenidən sahib olacaqlarına ümid etdikləri halda, ABŞ və İngiltərənin neft maqnatları ondan daha çox şey gözləyirdilər. İstər "Standart oyl"un başçısı Rokfellerə, istərsə də "Royal datç-şell"in rəhbəri Henri Deterdinqə görə, Genuya konfransı bu sahədə daha irəli gedərək, sovet nefti vasitəsilə bu iki trestin birinin dünya miqyasında neft hegemonluğunu təmin etməli idi.



Məhz buna görə də sovet nefti uğrunda onların arasında gedən mübarizə hələ Genuya konfransından çox-çox qabaq başlamışdı. Konfrans isə bir növ bu mübarizəyə yekun vurmalı, onun qalibini rəsmi şəklə salmalı idi.

"Standart oyl" ilə "Royal datç-şell" arasında sovet nefti uğrunda başlanan bu yeni ölüm-dirim mübarizəsi həmin trestlərin mənsub olduqları dövlətləri ciddi düşündürməyə bilməzdi. Onlar yaxşı bilirdilər ki, onlardan birinin bu mübarizədə qazandığı qələbə, həm də həmin trestin mənsub olduğu dövlətin beynəlxalq aləmdə qazandığı qələbə olacaqdır. Məhz buna görə də, ABŞ və İngiltərə hökumətləri də bu trestlər arasında gedən mübarizənin sadəcə müşahidəçiləri deyil, onun qalibiyyətli sonunun fəal təşkilatçıları idilər.

İngiltərə hökuməti Fransada, Meksikada və digər yerlərdə olduğu kimi Rusiyada olan neft mənbələrinin də "Royal datç-şell"in əlinə keçməsinə, onun mövqeyinin möhkəmlənməsinə ciddi səy göstərirdi.

Bunu, İngiltərənin xarici işlər naziri lord Kerzonun köməkçisi Esmond Ovey tərəfindən Sovet hökumətinin Londondakı səfiri Krasinə, Kerzonun adından yazılmış və "Royal datç-şell"in nüfuzlu şəxslərindən biri olan polkovnik Boyl vasitəsilə göndərilmiş 19 oktyabr 1921-ci il tarixli məktubdan daha aydın görmək olar. Həmin məktubda deyilirdi: "Krasin cənablarına. Markez Kerzon Of Kedlston polkovnik U.Boyldan belə bir məlumat almışdır ki, o, Qafqazda və Cənubi Rusiyada keçmişdə ona məxsus olan neft sahələrini Sovet hökumətindən konsesiyaya götürməyi arzu edir.

Sizə bildirmək mənə həvalə edilmişdir ki, polkov-

nik Boyl bu məsələ üzrə sizə əlahəzrət hökumətinin tam razılığı və yardımı ilə müraciət etmişdir. Əlahəzrət hökuməti əmin olduğunu bildirir ki, bu danışıqlar tezliklə qənaətbəxş razılığa gətirib çıxaracaqdır"[1].

İngiltərə hökumətinin hərtərəfli yardım və qayğısını hiss edən "Royal datç-şell" tresti özünü sovet neftinin gələcəkdə yeganə sahibi kimi təsəvvür edirdi. Bütün bunların nəticəsi idi ki, trestin prezidenti Deterdinq vaxtı ilə İngiltərənin Rusiya neft sənayesinə qoyduğu 172,8 milyon rublla[2] kifayətlənməyərək "uzaqgörənlik" etmiş və daha bir sıra səhmləri "ələ keçirmişdi". O, 1920-ci ilin iyul ayında Montaşev və Lionozovun heç bir hüquqi qüvvəyə malik olmayan külli miqdarda səhmlərini və gələcəkdə istənilən yerə neft kəməri çəkmək üçün isə Nikopol-Mariupol trubaprokat zavodunu və s. də "münasib qiymətə" almışdı[3].

İngiltərə hökumətinin neft uğrunda öz tresti ilə birgə hərəkəti və onun bu sahədə göstərdiyi cəhdlər ABŞ-da ciddi narazılıq doğurmaya bilməzdi.

ABŞ hökuməti 1921-ci ilin fevral ayında Millətlər Cəmiyyəti sədrinin adına nota göndərərək, dünya neftindən bir dövlətin deyil, bütün dünya ölkələrinin azad istifadə etməsi prinsipinə ciddi riayət edilməsini qəti olaraq tələb etmişdi[4].

ABŞ "bir dövlət" dedikdə şübhəsiz burada İngiltərəni nəzərdə tuturdu. ABŞ hökuməti sovet nefti barəsində də hamının istifadə edə biləcəyi "açıq qapı" prinsipini müdafiə edirdi[1].

[1] "Нефтяное хозяйство", № 10, 1926, с. 596
[2] В.И.Фролов. "Экономика нефтяного хозяства", с. 123
[3] "Нефтяное хозяйство", № 10, 1926, с. 597
[4] "Бакинский рабочий", № 105, 14 may 1922-ci il



Bu narahatlıq ondan irəli gəlirdi ki, ABŞ-ın vaxtilə Rusiya neft sənayesinə qoyduğu kapital İngiltərəyə nisbətən cüzi azlıq təşkil edirdi. İngiltərənin qoyduğu kapitalın miqdarı, ümumiyyətlə, Rusiya neft sənayesinə qoyulmuş əcnəbi kapitalın 67 faizini təşkil etdiyi halda, ABŞ-ın payına isə vur-tut 0,1 faiz düşürdü[2]. Rusiya neft sənayesində ABŞ-ın mövqe zəifliyini bir də bu faktdan görmək olardı ki, İngiltərənin Rusiya iqtisadiyyatının qoyduğu ümumi kapitalın 34,05 faizi, Hollandiya kapitalının 28,8 faizi, Fransa kapitalının 7,2 faizi, Almaniya kapitalının 3,2 faizi, Belçika kapitalının 2,3 faizi neft sənayesinin payına düşdüyü halda, ABŞ-ın Rusiya neft sənayesinə qoyduğu kapital onun buradakı ümumi kapitalının vur-tut 1,01 faizini təşkil edirdi[3]. Maraqlı burasıdır ki, ABŞ bu kapitalı da neft sənayesinin əsas sahəsinə deyil, neft emalı və ticarəti sahəsinə qoymuşdu[4].

Yuxarıda göstərilən faktlardan aydın olur ki, ABŞ-ın sovet nefti barədə yeritdiyi "açıq qapı" prinsipi heç də təsadüfi olmayıb, onun burada əvvəlki mövqeyinin zəifliyindən irəli gəlirdi. O, sovet nefti uğrunda gedən mübarizədə öz rəqiblərinə ancaq bu yol ilə üstün gələr və mövqe əldə edə bilərdi.

Bunu biz, "Standart oyl"un direktorlar şurasının sədri Bedfordun bəyanatlarının birindən də açıq-aydın

[1] Bax: "Известия ЦК и БК КП (б) Азерб." № 20, 1923, с. 78
[2] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 174
[3] Р.И.Берзин. "Мировая борьба за нефть", с. 75
[4] Л.Денни. "Борьба за нефтяную монополию", с. 121

görə bilərik. O, göstərirdi ki, "bizim fikrimizcə Genuya konfransı və ayrı-ayrı dövlətlər qrupu rus neft zənginliklərindən nə ümumi, nə də qismən istifadə etmək haqqında saziş bağlamamalıdır. Bütün maraqlı tərəflər üçün bərabər və ədalətli imkan prinsipi saxlanılmalıdır"[1].

Şübhəsiz ki, burada maraqlı tərəf deyəndə Bedford "Standart oyl" terstini nəzərdə tuturdu. O, öz rəqibi "Royal datç-şell"in başçılarına və İngiltərə hökumətinə bununla açıq şəkildə işarə edirdi ki, əgər iş gəlib sovet neftini bölməyə çatarsa, "açıq qapı" prinsipi hökmən gözlənilməlidir.

Genuya konfransı ərəfəsində ABŞ və İngiltərə arasında getdikcə kəskinləşməkdə olan neft ixtilafları açıq-aşkar göstərirdi ki, imperialist dövlətləri digər bütün məsələlərdə olduğu kimi, neft məsələsi üzrə də Sovet hakimiyyətinə qarşı vahid cəbhədə birləşə bilməmişdilər. Bu isə gənc sovet dövləti üçün öz iqtisadi müstəqilliyini, xüsusilə müstəqil neft siyasətini qoruyub saxlamaqda həlledici əhəmiyyətə malik idi.

Genuya konfransı iki müxtəlif ictimai quruluşa malik olan dövlətlərin nümayəndələrinin rəsmi surətdə görüşdükləri birinci konfrans idi. Sovet dövləti çox yaxşı bilirdi ki, kapitalist dövlətləri öz aralarında hökm sürən ziddiyyətlərə baxmayaraq, sovet hakimiyyətinə qarşı az-çox birgə hərəkət etməyə cəhd edərək, bu ziddiyyətləri əsasən Sovet ölkəsi hesabına həll etməyə səy göstərəcəklər. Sovet hökuməti Genuya konfransı ərəfəsində imperialist dövlətlərində hökm sürən əhval-ruhiyyədən və "xeyirxahlıq" ibarələrilə pərdələnmiş bu konfransın güddüyü başlıca məqsədlərdən xəbərsiz deyildi.

[1] "Tayms" qəzeti, 12 aprel 1922-ci il



Rusiyada əmlakları müsadirə edilmiş əcnəbi kapitalistlər Genuya konfransı ərəfəsində xüsusi fəallıq göstərirdilər. Onlar təşkil etdikləri ittifaqlar, komissiyalar, konfranslar və s. vasitəsilə öz hökumətlərinin bu konfransda tutacağı mövqeyə indidən istiqamət verməyə çalışır, onu öz vətəndaşlarının mülkiyyət hüquqlarının müdafiəsinə çağırırdılar.

1922-ci il fevralın ortalarında Parisdə 12 dövlətin nümayəndələrinin iştirakı ilə beynəlxalq konfrans keçirildi[1].

Konfrans "Rusiyada xüsusi marağı olanların hüquqlarının müdafiə edilməsi məsələsini" müzakirə edərək qəti şəkildə bildirdi ki, istehsalın böyük amili olan xüsusi mülkiyyət Rusiyada bərpa edilmədən, diplomatiyanın göstərdiyi bütün cəhdlər faydasızdır[2].

Həmin il fevralın sonunda Parisdə "Rusiyada əmlakları müsadirə edilmiş kapitalistlərin hüquqlarını müdafiə etmək məsələsi üzrə komissiya"yaradıldı[3]. Komissiyanın fikrincə, Fransa hökuməti Genuya konfransında Rusiya ilə öz münasibətində bu komissiyanın qərar və tələblərinə istinad etməli idi. Komissiya hökumətdən tələb edirdi ki, o, hələ konfransdan qabaq Rusiyadan sahibkarların hüquqlarının bərpa ediləcəyi haqqında təminat al-

[1] Н.Рубинштейн. "Советская Россия и капиталистические государства в году перехода от войны к миру (1921-1922), М., 1948, с. 219

[2] Yenə orada

[3] Yenə orada

malıdır[1]. Bunu, Rusiya neftində maraqlı olan kapitalistlər xüsusilə ciddi tələb edirdilər[2].

Puankare 31 mart 1922-ci ildə Fransa parlamentindəki çıxışında açıq-aydın bildirdi ki, onun hökuməti köhnə neft sahibkarlarının hüququnu müdafiə edəcəkdir. Onlar yenidən Bakı neftini öz əllərinə ala biləcəklər[3].

Sovet dövləti beynəlxalq imperializmin elan etdiyi bu diplomatik müharibədən qələbə ilə çıxmaq üçün Genuya konfransına ciddi hazırlaşmağa başladı.

Başda V.İ.Lenin olmaqla Rusiya Kommunist (bolşeviklər) partiyasının Mərkəzi Komitəsi və Sovet hökuməti Genuyaya gedəcək sovet nümayəndə heyətinin proqram və taktikasını işləyib hazırladı.

Sovet nümayəndə heyətinin proqramının əsas məzmununu sülh və xalqların iqtisadi əməkdaşlığı uğrunda mübarizə və sovet respublikaları ilə kapitalist ölkələri arasında işgüzar ticarət münasibətlərinin yaradılması təşkil edirdi[4]. Məhz buna görə də V.İ.Lenin haqlı olaraq göstərirdi ki, "biz Genuyaya kommunist sifətilə deyil, tacir sifətilə gedirik"[5].

Sovet hökuməti öz proqramının əsasını təşkil edən prinsipləri, Genuya konfransının təşəbbüsçüsü olan ölkələrin hökumətlərinə göndərdiyi 15 mart 1922-ci il tarixli

[1] Н.Рубинштейн. "Советская Россия и капиталистические государства в году перехода от войны к миру (1921-1922), М., 1948, с. 219
[2] Azərb. SSR OİMDA. f. 28. siyahı 2, iş 37, vər. 26
[3] Yenə orada
[4] Vladimir İliç Lenin. Tərcümeyi-hal. Bakı, 1961, s. 558
[5] V.İ.Lenin. Əsərləri, 33-cü cild, s. 267



notasında bir daha təsdiq edirdi. Notada göstərilirdi ki, sovet respublikaları və kapitalist ölkələrinin siyasi və iqtisadi quruluşlarındakı köklü fərqlərə baxmayaraq, onların arasında razılıq əldə edilməsi şərtsiz mümkündür. Notada həmçinin Sovet dövlətinin bütün kapitalist dövlətlərlə iqtisadi əməkdaşlığa girməyə hazır olduğunu bildirilirdi[1].

Lakin Sovet hökuməti Genuya konfransına hazırlaşarkən işin digər cəhətini də unutmamışdı. O, çox yaxşı bilirdi ki, Sovet dövlətinin bu konfransa dəvət edilməsinə baxmayaraq, imperialist dövlətlər ona heç də konfransın bərabərhüquqlu iştirakçısı kimi yanaşmayacaq, onu iqtisadi cəhətdən tərksilah etməyə ciddi səy göstərəcəklər.

V.İ.Lenin Amerika qəzeti "Nyu-York herold"un əməkdaşı ilə müsahibəsində bu münasibətlə imperialist dövlətlərinə xəbərdarlıq edərək göstərirdi: "...Rusiya yaxşı bilir ki, o, burjua dövlətlərindən nə gözləyir. Rusiyanın burjua dövlətlərilə ticarət etməyə ehtiyacı vardır. Digər tərəfdən burjua dövlətləri də yaxşı bilirlər ki, Avropanın iqtisadiyyatını Rusiyasız tənzim etmək olmaz.

Lakin kim Genuya konfransında Rusiya nümayəndəliyinə alçaldıcı şərtlər təklif etmək istəyirsə, o böyük səhv edir. Rusiya onunla məğlub edilmiş bir dövlət kimi rəftar etməyə razı ola bilməz. Əgər burjua hökumətləri Rusiyaya belə münasibət bəsləməyə cəhd etsələr, onlar ən böyük səhv etmiş olarlar".[2]

V.İ.Lenin, imperialistlərin Sovet dövlətinə məğlub

[1] "История международных отношений и внешней политики СССР", М., 1957, с. 151
[2] V.İ.Lenin. Əsərləri, 33-cü cild, s. 367

bir ölkə kimi şərtlər qəbul etdirmək cəhdlərini cavab verilməyə layiq olmayan bir cəfəngiyyat adlandırırdı[1]

İstər Genuya konfransının gedişi və istərsə də ondan sonra beynəlxalq aləmdə cərəyan edən hadisələr Sovet hökuməti başçısının bu uzaqgörənliyini tamamilə təsdiq etdi.

Lakin təkcə xəbərdarlıqla kifayətlənmək olmazdı. Sovet hökuməti Genuya konfransında ona edilə biləcək hücumlara qarşı da hərtərəfli hazırlaşırdı.

Konfransdan öncə RSFSR ilə Azərbaycan, Ermənistan, Gürcüstan, Belorusiya, Ukrayna, Xarəzm, Buxara və Uzaq Şərq respublikaları arasında diplomatik saziş bağlandı[2]. Bu sazişə əsasən səkkiz müstəqil respublika RSFSR-ə, Genuya konfransında onların hüququnu müdafiə etmək səlahiyyəti verdi[3].

1922-ci ilin mart ayının sonunda Sovet hökuməti Polşa, Latviya və Estoniya ilə iqtisadi əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyi təmin etmək haqqında saziş bağladı. Həmin sazişdə göstərilirdi ki, dörd dövlət Genuya konfransında bir-birilə razılıqlı surətdə hərəkət edəcəklər[4].

Sovet dövləti imperialistlərin irəli sürə biləcəkləri tələblərə qarşı öz əks tələblərini qoymaq üçün də geniş iş aparırdı. Xarici hərbi müdaxilə nəticəsində Rusiyaya vurulmuş maddi ziyanın miqdarı dövlət orqanları tərəfindən hesablanıb müəyyən edildi. Bəyan edildi ki, xarici hərbi

[1] Vladimir İliç Lenin. Tərcümeyi-halı, s. 559
[2] История международных отношений и внешней политики СССР, с. 152
[3] Yenə orada
[4] Yenə orada



müdaxilə nəticəsində Rusiyanın xalq təsərrüfatına vurulmuş ziyanın miqdarı qızıl pul ilə 39 milyard rubldan çoxdur[1].

Sovet dövləti Genuya konfransı üçün gördüyü bütün hazırlıq işlərini, özünün təmsil etdiyi zəhmətkeş siniflərin sinfi mənafeyi üzərində qururdu.

Sovet hakimiyyətinin əsas tələbi imperialist dövlətləri qarşısında bir addım da olsun geri çəkilməməkdən, sosialist inqilabının siyasi və iqtisadi nailiyyətlərini qoruyub saxlamaqdan ibarət idi.

Bunu Genuya konfransında iştirak edəcək sovet nümayəndə heyətinə ölkənin zəhmətkeşlərinin verdikləri ciddi "tapşırıqlar"dan da aydın görmək olardı. Azərbaycan xalqının N.Nərimanovun simasında sovet nümayəndə heyətinə verdiyi tapşırıqda ("Tapşırıq" Bakı Sovetinin 11 fevral 1922-ci il tarixli geniş iclasında qəbul edilmişdi) göstərilirdi: "Möhkəm sülh, işgüzar iqtisadi və ticarət əlaqələri yaratmaq xatirinə, sazişə girərkən və güzəştə gedərkən belə unutmamalısan ki, sən zəhmətkeş xalqı təmsil edirsən. Onun siyasi və iqtisadi hüquqlarını müdafiə etməli, torpağın, sənayenin, neft mədənlərinin qanuni sahibi olduğunu unutmamalı və həmin hüquqların toxunulmazlığını qoruyub saxlamalısan"[2].

Azərbaycan zəhmətkeşləri öz "tapşırıqlarında" imperialist dövlətlərin hərbi müdaxiləsi nəticəsində ölkənin iqtisadiyyatına və birinci növbədə neft sənayesinə vurulan maddi zərərin ödənilməsini də qəti olaraq tələb edirdilər.

[1] Документы внешней политики СССР, V том, М., 1961, с. 295
[2] "Бакинский рабочий", № 33, 12 fevral 1922-ci il

Ölkənin neft sənayesinə vurulmuş ziyan isə həqiqətən də külli miqdarda idi.

Maliyyə komissarlığının İqtisadi tədqiqatlar institutunun apardığı hesablamalara görə xarici hərbi müdaxilə nəticəsində ölkənin neft sənayesinə 189342000 rubl həcmində bilavasitə, 220750000 rubl həcmində dolayı yolla ziyan vurulmuş və 30000000 rublluq hazır neft məhsulu aparılmışdı[1].

Ölkənin neft sənayesinə bilavasitə vurulmuş 189342000 rublluq ziyanın 71,548 milyon rublu təkcə Azərbaycan neft sənayesinin payına düşürdü[2].

Faktlardan aydın görünür ki, xarici hərbi müdaxiləçilər tərəfindən ölkənin neft sənayesinə vurulan ziyan, əcnəbi kapitalistlərin burada itirdikləri kapitaldan 253520100 rubl[3], yaxud da təxminən 60 faiz çox idi[4].

N.Nərimanov "tapşırığın" bütün şərtlərinə Genuya konfransında var qüvvəsi ilə əməl edəcəyi haqqında Bakı Sovetinin iclasında təntənəli surətdə and içdi. Azərbaycan xalqının tələbi, ümumi sovet xalqının tələbi idi. Sovet nümayəndə heyəti hər gün ölkənin müxtəlif yerlərindən belə xarakterli onlarca "tapşırıq" alırdı.

Sovet nümayəndə heyəti martın 28-də Moskvadan Genuyaya yola düşdü. Nümayəndə heyətinə Xarici işlər üzrə xalq komissarı Q.V.Çiçerin rəhbərlik edirdi[5].

Genuya konfransı 1922-ci il aprel ayının 10-da işə

---

[1] "Красный нефтяник", № 28, 17 fevral 1925-ci il
[2] Документы внешней политики СССР, V т., с. 321
[3] Р.И.Берзин. "Мировая борьба за нефть", с. 75
[4] "Красный нефтяник", № 28, 17 fevral 1925-ci il
[5] "Бакинский рабочий" qəzeti, № 73, 2 aprel, 1922-ci il



başladı.

Müharibədən sonra Avropa iqtisadiyyatının bərpasını sürətləndirmək pərdəsi altında çağırılmış Genuya konfransının əsil məqsədi işə başlayan kimi dərhal aydın oldu. Konfransın lap ilk iclasları göstərdi ki, imperialist dövlətləri bura heç də Avropa iqtisadiyyatını nizama salmaqdan ötrü tədbirlər hazırlamaq üçün deyil, gənc Sovet hökumətini iqtisadi cəhətdən tərksilah etmək, Sovet ölkəsini xarici kapitala tabe etmək məqsədilə gəlmişlər.

Məhz bunun nəticəsi idi ki, "rus məsələsi" əsas məsələ olan "Avropanın bərpası" məsələsinin yalnız bir hissəsini təşkil etməsinə baxmayaraq, Genuya konfransının diqqət mərkəzində duran yeganə əsas məsələ idi.

Genuya konfransında "Avropa iqtisadiyyatının bərpa edilməsi" məsələsinin imperialist dövlətlərin Sovet Rusiyasına qəbul etdirmək istədikləri iqtisadi tələbləri örtbasdır etməkdən ötrü bir pərdə rolu oynamasını sübut etmək üçün, sovet nümayəndə heyətinin bir neçə rəsmi sənəd və məlumatına müraciət etmək kifayətdir.

Q.Çiçerin RSFSR Xarici işlər komissarlığına göndərdiyi 1922-ci il 15 aprel tarixli 5 №-li məktubunda yazırdı: "Maliyyə, iqtisadiyyat və nəqliyyat komissiyaları sırf formal fəaliyyət göstərirlər... Bütün bu komissiyalar ancaq dekorasiya rolunu oynayır". Burada əsas diqqət mərkəzində "rus məsələsi"ni həll etməli olan birinci komissiya durur[1].

Genuya konfransında sovet nümayəndə heyətinin üzvü, Ümumrusiya Həmkarlar İttifaqları Şurasının Baş

---

[1] Документы внешней политики СССР, V т., с. 217

katibi Y.E.Rudzutak 1922-ci il may ayının 12-də ÜRMİK-nin III sessiyasında RK(b)P fraksiyanın iclasında "Genuya konfransının gedişi" haqqında etdiyi məruzədə göstərirdi:

"Əslində bütün Genuya konfransı rus məsələsi üzrə çağrılmışdır. Çünki "Avropa məsələsinə" aid olan maliyyə, iqtisadiyyat və nəqliyyat məsələləri üzrə məşğul olan komissiyalar nəticə etibarilə elə bir qətnamələr qəbul etdilər ki, onlarda irəli sürülən məsələlərin həlli üçün 34 Avropa ölkəsinin toplanması heç də zəruri deyildi. Məsələn, maliyyə komissiyası qərara almışdır ki, bütün dövlətlər öz maliyyə işlərini sabitləşdirməyə çalışmalıdırlar. Bunun üçün hər hansı ölkənin məxarici mədaxilindən artıq olmamalıdır. Əgər əksinə olarsa, həmin dövlət öz məxaricini azaltmalıdır... və s.

Beləliklə, həmin komissiyalar gözdən pərdə asmaq məqsədi güdürdülər. Əsas ağırlıq mərkəzini "rus məsələsi" təşkil edirdi.[1]

İ.Mayski özünün 1922-ci ildə nəşr etdirdiyi "Sovet Rusiyası və kapitalist dünyası" adlı kitabında bu məsələdən bəhs edərək yazırdı:

"Belə güman etmək olar ki, Genuya konfransı özünün əsas diqqətini Avropa təsərrüfatını bərpa etmək məsələsi üzərində toplayacaq və Rusiya isə buraya Avropa iqtisadiyyatı ilə əlaqədar olan bir ölkə kimi qatılacaqdır. Lakin həqiqətdə isə məsələ başqa cür oldu.

"Avropanın bərpası" bir neçə mənasız və faydasız deklorasiyalarla "həll edilmiş" oldu. Avropanın təsərrüfatı

[1] "Исторический архив", № 2, 1962, s. 83



məsələləri ilə məşğul olan maliyyə, iqtisadiyyat və nəqliyyat komissiyalarında üraksıxıcı bir sakitlik hökm sürürdü. Doyunca nahar etdikdən sonra buraya mürgüləməyə gəlmiş komissiyaların üzvləri də daxil olmaqla, həmin komissiyaların gördüyü iş ilə heç kim maraqlanmırdı. Konfransın diqqət mərkəzində duran əsas məsələ "rus məsələsi" idi[1].

İmperialist dövlətlərin Genuya konfransında güddüyü məqsəd onun işə başladığı birinci gündən özünü tam çılpaqlığı ilə göstərdi. Konfrans açıldıqdan dərhal sonra, ikinci günü, aprelin 11-də imperialist dövlətlərin nümayəndələri sovet nümayəndə heyətinə ekspertlər komissiyasının məruzəsini təqdim etdilər.

Sovet nümayəndə heyətinə təqdim edilmiş bu sənəd Oktyabr sosialist inqilabının nailiyyətlərinə və sovet Rusiyasının suverenliyinə qarşı imperialistlərin açıq-aşkar qəsdinin parlaq təzahürü idi. Sırf həyasızlıq prinsipləri üzərində qurulmuş bu "sənəddə" Sovet hökumətindən çar hökumətinin müharibədən əvvəlki və müharibə dövründə aldığı borcların, həmçinin burjua müvəqqəti hökumətinin aldığı borcların ödənilməsi, əcnəbi kapitalistlərin vaxtı ilə ölkədə olan və müsadirə edilən bütün mülkiyyətlərinin geri qaytarılması, Oktyabr inqilabından sonrakı dövrdə əcnəbi kapitalistlərə vurulmuş bütün "ziyanların" ödənilməsi və s. tələblər irəli sürülürdü[2].

[1] И.Майский. "Советская Россия и капиталистический мир", М., 1962, с. 15-16

[2] "Материалы Генуэзеской конференции" Полный стенограф. Отчет. М., 1922, с. 92

Şübhəsiz bu sənəddə irəli sürülən tələblər Sovet hökuməti ilə kapitalist dövlətləri arasında razılıq əldə edilməsi üçün zəmin yarada bilməzdi. Bu, həmin sənədin müəllifləri olan kapitalist dövlətlərinin nümayəndələri üçün də aydın idi. Onlar yaxşı başa düşürdülər ki, irəli sürülmüş bu əsassız tələblər Sovet hökuməti tərəfindən qəti surətdə rədd ediləcəkdir.

Məhz buna görə imperialist dövlətlərinin Genuya konfransında iştirak edən nümayəndələri başlıca diqqətlərini bu toplantı vasitəsilə həllinə nail olmaq istədikləri əsas məqsəd üzərində cəmləşdirdilər. Bu məqsəd hansı yolla olur-olsun sovet neftini ələ keçirməkdən ibarət idi.

Genuya konfransının iclaslarında, memorandumlarında, protokollarında və digər sənədlərində neft haqqında açıq-açığına bir dəfə də olsun söhbət getməməsinə, nə İngiltərə nümayəndəsi Lloyd Corc, nə Fransa nümayəndəsi Bartu, nə sovet nümayəndələri Çiçerin, Litvinov, nə İtaliya nümayəndələri Şanser və Fakt, nə Almaniya nümayəndələri Virt və Ratenau və Avropanın digər iri dövlətlərini təmsil edən şəxslər konfransın davam etdiyi müddətdə neft məsələsini açıq və rəsmi surətdə ortaya atmadıqlarına baxmayaraq[1], sübut etmək heç də çətin deyildi ki, burada diqqət mərkəzində duran əsas məsələ sovet nefti məsələsi idi.

Genuya konfransı dünyanın iri neft trestlərinin və dövlətlərinin sovet neftini dinc yolla ələ keçirmək üçün göstərdikləri ilk ən böyük cəhd idi. Elə buna görə də konfransda nəinki Avropa məsələsi ikinci plana keçirilmiş,

[1] Bax: "Материалы Генуэзской конференции", с. 19-20



hətta Sovet dövlətinə verilən digər tələblər də bu məsələyə nisbətən kölgədə buraxılmışdı.

Genuya konfransı zamanı imperialist dövlətlərin nümayəndələrinin "əcnəbi kapitalistlərin mülkiyyəti", "müsadirə edilmiş mülkiyyət", "əvəzi ödənilməli olan müəssisələr", "milliləşdirilməsi ləğv olunmalı olan müəssisələr" və s. ad altında irəli sürdükləri tələblərdə əsasən sovet nefti nəzərdə tutulurdu. Y.E.Rudzutakın göstərdiyi kimi, Genuya konfransında "neft məsələsi bütün məsələlərdən başda dururdu"[1].

Bir çox burjua qəzetləri Genuya konfransının işinin əsasını sovet nefti uğrunda mübarizənin təşkil edəcəyini öz oxucularına hələ qabaqcadan xəbər vermişdi. Almaniyada çıxan "Reyniş Vestfellişe Tseytunq" yazırdı: "Bir çoxları belə düşünür ki, Genuya konfransının tarixi neftlə yazılacaqdır, konfrans mahiyyət etibarı ilə "Standart oyl" və "Royal datç-şell" kompaniyaları arasında mübarizə meydanı olacaqdır"[2].

Mançestrdə çıxan "Hardien Kommerşel" qəzeti göstərirdi ki, bir halda ki, konfransda Rusiya təmsil edilmişdir, deməli burada olan mübahisənin ən mühüm bəndlərindən birini neft məsələsi təşkil edəcəkdir"[3].

Genuya konfransının gedişi ilk gündən burjua qəzetlərinin bu mülahizələrini təsdiq etdi.

Sovet nefti məsələsi konfransın əsas diqqət mərkəzində duran başlıca məsələyə çevrildi. Fikrimizi təsdiq

[1] "Исторический архив", № 2, 1962, с. 94
[2] "Reyniş Vestfellişe Tseytunq", 6 aprel, 1922-ci il
[3] "Hardien Kommerşel", 13 aprel, 1922-ci il

etmək üçün istər əcnəbi mənbələrə və istərsə də sovet mənbələrinə əsasən onlarca dəlil və sübutlar gətirmək mümkündür. Genuya konfransının gedişini izləyən Amerika mütəxəssislərindən biri bu münasibətlə yazırdı ki, Genuya konfransının protokollarına nəzər salarkən adama elə gəlir ki, guya onun neft məsələsinə az dəxli olmuşdur. Lakin bununla belə sübut etmək çətin deyildir ki, neft Genuya teatrının əsasını təşkil edirdi. Neft, konfransda mübahisə təşkil edən hər hansı bir məsələyə nisbətən böhran və ixtilafların həllinin ən yaxşı açarı idi[1].

Fransa neft mütəxəssisi Şarl Pomare göstərirdi ki, "Genuya konfransında dərhal aydın oldu ki, beynəlxalq siyasət neft ilə idarə olunur"[2]. Başqa bir müəllif, Jak Bardu isə daha irəli gedərək, konfransda ümumiyyətlə deyil, məhz sovet nefti uğrunda ciddi mübarizə getdiyini təsdiq edirdi. O, yazırdı ki, "Bakı neft buruqlarının kölgələri Genuya teatrı dekorasiyasının fonunu təşkil edirdi"[3].

Bu da təsadüfi deyildi ki, Genuya şəhərinə Rusiya iqtisadiyyatının digər sahələrində marağı olan kapitalistlər deyil, ancaq neft dəllalları axışıb gəlmişdilər[4].

"Royal datç-şell" trestinin nümayəndəsi polkovnik Boyl, Uolter Samuel, Fransa kapitalisti Qassuen[5], "Standart oyl" trestinin başçısı C.Rokfellerin şəxsi katibi[6] və

---

[1] "Вопросы Истории", № 2-3, 1946, с. 14
[2] Yenə orada
[3] Yenə orada
[4] "Нефтяное хозяйство", № 10, 1926, с. 601
[5] К.Гофман. "Нефтяная политика и англо-саксонский империализм", с. 133
[6] "Бакинский рабочий", № 103, 11 may 1922-ci il



digər sovet neftinin ehtiraslı hərisləri Genuyaya gələrək konfransın işini (oxu: neft məsələsini) kənardan "tənzim" edirdilər.

ABŞ-ın Genuya konfransına münasibətində yaranmış dəyişiklik də bu cəhətdən çox xarakterikdir. Dövlət katibi Yuz 1922-ci ilin mart ayının 8-də ABŞ-ın Genuya konfransında iştirak etməyəcəyini rəsmi surətdə bildirdiyi halda[1], konfransda sovet nefti uğrunda gedən mübarizə, ABŞ-ı öz əvvəlki mövqeyini dəyişməyə məcbur etdi. "Standart oyl" tresti ilə sıx əlaqədar olan Yuz ABŞ-ın Romadakı səfiri Çayldı və Cems Loqanı "müşahidəçi" sifətilə Genuyaya göndərdi[2].

Genuya konfransında "üstüörtülü" halda olsa da, başlıca diqqət mərkəzində duran məsələnin məhz neft məsələsi olmasını yuxarıdakılarla yanaşı, daha bir faktla təsdiq etmək olar ki, Fransa hökuməti konfransda iştirak edən öz nümayəndə heyətini sonradan heç də başqaları ilə deyil, ölkənin görkəmli neft mütəxəssisləri və siyasətçiləri olan Loran Eynak və Pino ilə "qüvvətləndirməyi" lazım bilmişdi.[3]

Əslində isə, Rusiya iqtisadiyyatının müxtəlif sahələrinə qoyulmuş 2242974100 rubl əcnəbi kapitalından neft sənayesinin payına vur-tut 11,4 faiz düşürdü. Əcnəbi kapitalın miqdarına görə birinci yerdə metallurgiya sənayesi gedirdi[4].

---

[1] "Материалы Генуэзской конференции", с. 36
[2] К.Гофман. "Нефтяная политика и англо-саксонский империализм", с. 133
[3] "Нефтяное хозяйсво", № 11-12, 1925, с. 861
[4] Р.Берзин. "Мировая борьба за нефть", с. 75

Faktlardan göründüyü kimi Genuya konfransı, sovet nefti uğrunda gedən döyüş meydanına çevrilmişdi.

Genuya konfransının əsil məqsədi Sovet hökumətinə hələ əvvəllər məlum olduğu üçün, onun nümayəndə heyəti bura bütün məsələlər üzrə tam hazırlıqlı gəlmişdi. Sovet nümayəndə heyəti Oktyabr sosialit inqilabının nailiyyətlərini imperializmin birləşmiş diplomatik hücumundan necə olursa-olsun qoruyub saxlamalı və bu məqsədlə konfransda yarana biləcək lap kiçik imkandan belə bacarıqla istifadə etməli idi.

Sosialist inqilabı düşmənlərinin hücumunu dəf etməkdə sovet nümayəndə heyətinə, imperialist hökumətlərinin özləri kömək etmiş oldular.

1922-ci ilin aprel ayının 14-15-də Albertis yaylağında (İngiltərə baş naziri Lloyd Corc burada məskunlaşmışdı) Böyük Britaniya, Fransa, İtaliya, Belçika nümayəndə heyəti ilə qeyri-rəsmi danışıqlar zamanı sovet nümayəndə heyətinə aydın oldu ki, imperialist dövlətləri Sovet hakimiyyətinə qarşı heç də möhkəm vahid cəbhə yarada bilməmişlər. Onlar tutduqları mövqeyə görə bir-birlərindən fərqlənirdilər. İngiltərə ilə Rusiya arasında keçmişdə mövcud olan ənənəvi ticarət əlaqələri, müharibədən sonra onun qarşısına çıxan təsərrüfat çətinlikləri və İngiltərə ilə onun rəqibləri arasında davam edən kəskin ziddiyyətlər İngiltərə hökumətini Sovet Rusiyası ilə iqtisadi əlaqə yaratmaq yoluna sövq edirdi. Məhz buna görə də İngiltərə hökumətinin tutduğu mövqe digər hökumətlərin mövqeyindən fərqlənir və bir növ kompromis xarakter daşıyırdı.

İngiltərənin baş naziri Lloyd Corc Rusiyanın keç-



miş hökumətlərinin borclarını hərbi müdaxilənin Sovet ölkəsinə vurduğu ziyanın əvəzinə ləğv etmək, əcnəbilərin mülkiyyətini qaytarmaq yerinə isə həmin mülkiyyəti köhnə sahiblərinə konsessiyaya və icarəyə verməyə razı olmağa meyil göstərirdi[1].

Fransa nümayəndə heyəti isə Sovet Rusiyası ilə əlaqə yaratmağın, hər hansı bir kompromisə girməyin qəti əleyhinə çıxırdı. O, çar Rusiyası iqtisadiyyatına kapital qoymuş bir ovuc kapitalistlərin iradəsini ifadə edərək, Rusiyada siyasi hakimiyyətdən devrilmiş hökumətlərin aldıqları borcların tam şəkildə ödənilməsini, Fransa vətəndaşlarına məxsus olan mülkiyyətlərin keçmiş sahiblərinə qaytarılmasını və yaxud onların haqqının tamamilə verilməsini tələb edirdi[2].

Fransa ilə İngiltərə arasında yaranmış mövqe ayrılığı, "San-Remo müqaviləsinin" ruhuna zidd olaraq Fransa siyasətində yaranmış bu sərt dönüş, bir sıra məsələlərlə, o cümlədən Fransanın "Yeni neft siyasətilə" sıx surətdə əlaqədar idi.

1922-ci ilin yanvar ayında Puankarenin baş nazir vəzifəsinə keçməsi Fransanın neft siyasətində və beləliklə də ABŞ və İngiltərənin əvvəlki neft mövqeyində ciddi dəyişiklik yaratdı. Puankare öz fəaliyyətinin ilk günündən başlayaraq neft siyasətində ingilis təsirindən yaxa qurtarmaq mövqeyini tutdu. Lakin o, bunun üçün istər-istəməz digər bir qüvvətli arxaya malik olmalı idi. Belə arxa isə ancaq neft siyasətində Fransanı İngiltərədən uzaqlaş-

---

[1] "История международных отношений и внешней политики СССР", с. 153-154

[2] Yenə orada, s. 153

masına çalışan ABŞ ola bilərdi.

Belə də oldu. Fransa özünə yeni arxa ABŞ-ı, İngiltərə təsirindən yaxa qurtarmaq yeri kimi isə Genuya konfransını seçdi. Beləliklə də, Fransanın Genuya konfransında yeridəcəyi "İngiltərə siyasəti" dönüb "Amerika siyasəti" oldu.

Əslində isə, Fransanın bu yeni mövqeyi də ona heç bir müvəffəqiyyət qazandıra bilməzdi. O, bir nəhəngdən xilas olmaq üçün, başqa bir nəhəngin pəncəsinə keçmişdi.

Lakin Fransanın tutduğu bu mövqe onun özünə heç bir şey qazandırmasa da, bu, ABŞ üçün ciddi əhəmiyyətə malik idi. ABŞ bununla öz rəqibi İngiltərəyə, "Standart oyl" isə "Royal datç-şell" trestinə aralarında gedən mübarizədə üstünlük əldə etmək imkanı verdi.

Fransa ilə Belçikanın tutduqları mövqe bir-birinə uyğun olduğuna görə, nəticə etibarı ilə onun nümayəndə heyəti də ABŞ-ın təsiri altında hərəkət edirdi.

Belçikadan fərqli olaraq İtaliya nümayəndə heyətinin konfransda və qeyri-rəsmi danışıqlardakı mövqeyi tam başqa idi. Onun sovet neftinə və digər əmtəələrə olan həddən artıq ehtiyacı Fransa kimi tərslik göstərməsinə imkan vermirdi.

İmperialist dövlətləri arasında ciddi ixtilafların mövcud olduğunu qəti yəqin edən sovet nümayəndə heyəti özünün hərəkət taktikasını məhz düşmən cəbhəsinin ən əsaslı, lakin zəif cəhəti üzərində qurdu.

1922-ci ilin aprel ayının 16-da Sovet Rusiyası ilə Almaniya arasında bağlanan "Rapallo müqaviləsi" imperialist dövlətləri tərəfindən Sovet hakimiyyətinə qarşı yaradılmış vahid, lakin möhkəm olmayan cəbhəyə qüdrətli



bir zərbə endirdi.

Sovet hökuməti "Rapallo müqaviləsini" həmin dövrdə sovet diplomatiyasının böyük müvəffəqiyyəti kimi qiymətləndirirdi. Bu müqavilə imperialistlərin Sovet hakimiyyətinə qarşı təşkil etdikləri diplomatik hücum planına vurulan güclü zərbənin müqəddiməsini təşkil edirdi.

Sovet nümayəndə heyətinin üzvü Y.S.Rudzutak "Rapallo müqaviləsinin" əhəmiyyətindən bəhs edərək göstərirdi: "Almaniya ilə bu müqavilə bizim üçün bir tərəfdən sırf iqtisadi əhəmiyyətə, digər tərəfdən isə sırf siyasi əhəmiyyətə malikdir. Avropa dövlətlərindən biri olan Almaniya bu müqavilə vasitəsilə bizdən öz xüsusi mülkiyyət tələblərindən əl çəkdiyini təsdiq edirdi. Bu müqavilə Genuyada bizə qarşı yaradılmış vahid kapitalist cəbhəsində müəyyən boşluq yaradırdı"[1].

Sovet hökumətinin 20 aprel 1922-ci il tarixli xüsusi memorandumu "Rapallo müqaviləsinin" vurduğu zərbədən hələ özünə gəlməmiş imperializm cəbhəsindəki ziddiyyətləri daha da kəskinləşdirdi. Sovet nümayəndə heyəti özünün 20 aprel 1922-ci il tarixli memorandumu ilə imperialist dövlətlərinin Rusiyadan köhnə borclarının ödənilməsi və əcnəbi kapitalistlərin mülkiyyətlərinin qaytarılması haqqındakı əsassız tələblərini rədd etdi[2]. Bununla birlikdə sovet nümayəndə heyəti mübahisəli məsələlərin həlli üçün yollar axtarmağa hazır olduğunu da bildirdi.

Sovet nümayəndə heyətinin fikrincə, hər iki tərəf

---

[1] "Исторический архив", № 2, 1962, с. 91

[2] "История международных отношений и внешней политики СССР", с. 157

üçün belə əlverişli yollardan biri konsessiya ola bilərdi.

Sovet nümayəndə heyəti konfrans iştirakçılarının nəzərinə çatdırdı ki, o, xalq təsərrüfatının müəyyən sahələrini İngiltərə, Amerika, Fransa, İtaliya, Belçika və Almaniyaya konsessiyaya verməyə razıdır[1].

Genuya konfransında Sovet hökumətinin yeritdiyi konsessiya siyasəti əsasən siyasi məqsəddən irəli gəlirdi. Sovet nümayəndə heyəti konsessiya məsələsini irəli sürərkən V.İ.Leninin belə bir rəhbər göstərişini əldə əsas tuturdu ki, konsessiyalar vasitəsilə "iki imperializm arasında, iki kapitalist dövlətləri qrupu arasında olan əksliklərdən və ziddiyyətlərdən istifadə edib, onları bir-birlərilə salışdırmaq lazımdır[2].

"...Əlbəttə, konsessiyalar bizim üçün məhsul əldə etmək mənasında da əhəmiyyətlidir. Bu, şübhəsiz doğrudur. Lakin başlıca cəhət siyasi münasibətlərdədir"[3].

Lakin Sovet hökumətinin Genuya konfransındakı konsessiya siyasətinin iqtisadi məqsəddən tam məhrum olduğunu da demək olmazdı. Məsələ onda idi ki, burada yaranmış şəraitə uyğun olaraq iqtisadi məqsəd əsasən siyasi məqsədə tabe edilmişdi.

Sovet hökuməti yaxşı bilirdi ki, onun yeritdiyi konsessiya siyasəti siyasi cəhətdən müvəffəqiyyət qazanarsa, bununla da onun qarşısında duran iqtisadi məqsədin gələcək müvəffəqiyyəti təmin edilmiş olardı.

Sovet nümayəndə heyətinin Genuya konfransında

---

[1] Денни. "Борьба за нефтяную монополию", с. 123
[2] V.İ.Lenin. Əsərləri. 31-ci cild, s. 451-452
[3] Yenə orada, s. 467



yeritdiyi bu taktika dərhal öz müsbət nəticəsini göstərməyə başladı. Konfrans iştirakçıları arasındakı ziddiyyətlər, sovet hökumətinin konsessiya təklifindən sonra daha da kəskinləşərək yeni mərhələyə qalxdı.

Sovet dövləti tərəfindən əcnəbilərin mülkiyyətlərinin sahiblərinə qaytarılmasının qəti rədd edildiyini görən İngiltərə baş naziri Lloyd Corc, konfransın digər iştirakçılarına nisbətən xeyli uzaqgörənlik edərək, Sovet dövlətinin konsessiya təklifinə tərəfdar çıxdı. O, əcnəbilərin Rusiyada olan mülkiyyətlərini öz sahiblərinə 99 il müddətə konsessiyaya verilməsi təklifini irəli sürdü.

Lloyd Corc konsessiyaya götürülməli olan mülkiyyət dedikdə burada əsasən neft mədənlərini nəzərdə tuturdu. Buna görə də həmin təklif bilavasitə İngiltərə baş naziri tərəfindən irəli sürülməsinə baxmayaraq, onun əsil müəllifi "Royal datç-şell" trestinin prezidenti ser Henri Deterdinq idi.

Sovet hakimiyyətinin tezliklə yıxılacağı və Rusiya neftinə yenidən sahib olacağı ümidi boşa çıxmış Deterdinq əcnəbi kapitalistlərin mülkiyyət hüquqlarının bərpa edilməsi tələbi Sovet hökuməti tərəfindən qəti rədd edildikdən sonra, sovet neftinə malik olmağın yeganə yolunu məhz uzun müddətli konsessiyada görürdü. Deterdinq yaxşı bilirdi ki, o Rusiyada itirdiyi küllü miqdarda kapitalı tədricən də olsa, ancaq bu yol ilə qaytara və əsas rəqibi olan "Standart oyl" üzərində qələbə çala bilərdi.

1922-ci il may ayının əvvəllərində Genuya konfransındakı neft ziddiyyətləri özünün kulminasiya nöqtəsinə çatdı.

Yaranmış vəziyyətdən istifadə edib "Standart oyl"u

qabaqlamaq və sovet neft mədənlərini əlverişli şərtlər üzrə konsessiyaya götürmək haqqında polkovnik Boyl, 1922-ci il aprelin sonunda sovet nümayəndə heyətinin üzvü Krasinə müraciət etdi[1]. Krasin cavabında Boylun təklifini mədəni olaraq rədd edərək bildirdi ki, hələ konfrans qurtarmayanadək, bu məsələ ilə məşğul olmaq tezdir[2].

"Royal datç-şell" tresti nümayəndəsi ilə Krasin arasında gedən bu danışıqlar nəticəsindən asılı olmayaraq bütün kapitalist ölkələrinin hakim dairələri və neft inhisarları içərisində ciddi çaxnaşma yaratdı. Burjua qəzetləri İngiltərə hökumətini və onun neft trestini gizli qəsd təşkil etməkdə ittiham edirdilər. "Tan", "Maten", "Liberte", "Evr" və digər fransız qəzetləri Lloyd Corcu açıq-açığına təqsirləndirirdilər ki, o, Rusiya neftini Böyük Britaniyanın xeyrinə inhisara almaq üçün gizli iş görürmüş.

Əsassız şayiədən əl-əyağa düşmüş Fransada sovet neftinin taleyilə bilavasitə maraqlı olan kapitalistlərin təşəbbüsü ilə "Sənaye və ticarət komitəsi", "Ümumistehsal konfederasiyası", "Tacirlər və sənaye sahibləri federasiyası" və s. təşkilatlar baş nazir Puankareyə kollektiv surətdə tərtib edilmiş bəyanatla müraciət etdilər. Bəyanatda deyilirdi: "Genuya konfransında mülkiyyət hüququ haqqındakı məsələ ilə əlaqədar yaranmış vəziyyəti nəzərə alaraq... yuxarıda göstərilən təşkilatlar Fransa hökumətindən qəti olaraq tələb edirlər ki, o, Genuya konfransında mülkiyyət hüququ məsələsində heç bir güzəştə getməmək

---

1 В.Ф.Лопатин. "Провалантисоветских планов США", М., 1963, с. 205

2 Н.Н.Любимов, А.Н.Эрлих. "Генуэзская конференция", М., 1963, с. 101



haqqında konfransdakı öz nümayəndəsinə təlimat versin"[1].

Fransız qəzeti "Fiqaro" həmin günlərdə hökuməti sovet nefti məsələsində möhkəm mövqe tutmağa çağıraraq yazırdı: "...Azərbaycanda yerləşən Bakı neft hövzəsi, dünyanın heç bir yerində, hətta Meksikada belə hasil edilməyən miqdarda çox neft verir. Bu rayonun neft zənginliyi tükənməzdir. Məhz buna görə də bizim fəaliyyətimizin mərkəzi Bakı olmalıdır"[2].

Konsessiya danışıqları haqqında şayiənin Krasin[3] və Boyl[4] tərəfindən təkzib edilməsinə baxmayaraq, bu barədə yaranmış şübhələr aradan qalxmadı. Fransa hökuməti sovet neftinin İngiltərənin əlinə keçməsindən və yaxud da bu məsələ üzrə İngiltərənin ABŞ-la birləşməsindən və Fransanın danışıqlarından kənarda qalmasından ehtiyat edərək, Genuyaya neft mütəxəssisləri sayılan Loran Eynak və Pinodan ibarət xüsusi nümayəndə heyəti göndərdi[5]. Onlar Lloyd Corcu sovet neftində maraqlı olan ölkələrin xüsusi konfransını çağırmağa təhrik etməli idilər[6].

Lakin Fransa ABŞ ilə İngiltərənin ümumi dil tapacağına əbəs yerə ehtiyat edirdi. ABŞ-ın İngiltərənin konsessiya təklifinə şərik olması, faktiki olaraq "Standart oyl"un sovet neftindən əl çəkməsi, onun bu sahədə "Royal datç-şell" trestindən asılı vəziyyətə düşməsi demək idi.

---

1 "Международная жизнь", № 7, 1922, с. 2

2 "Fiqaro", 6 may 1922-ci il

3 "Бакинский рабочий", № 103, 11 may 1922

4 "Koryerredella", 4 may 1922-ci il

5 "Бакинский рабочий", № 104, 11 may 1922

6 Yenə orada, 12 may 1922-ci il

"Stantart oyl"un dünya neft hegemonluğu və beləliklə də dünya hegemonluğu uğrunda mübarizə aparan ABŞ, İngiltərənin bu mövqeyinə heç cür tərəfdar çıxa bilməzdi.

Lloyd Corcun konsessiya təklifi və ingilis-sovet neft danışıqları haqqında şayiələr ABŞ hökumətini və "Standart oyl" trestini də ciddi narahat etmişdi. Məhz indiyə qədər Genuya konfransı barədə özünü qismən təmkinli aparan (İndiyədək ABŞ-ın Genuya konfransında "müşahidəçi" rolu və "təmkinli" mövqeyini kapitalist ölkələrinin işgüzar dairələrində belə qiymətləndirirdilər: ABŞ nümayəndəsi konfransda nə söz istəyəcək və nə də çıxış edəcəkdir. O, ancaq izləyəcək ki, borclar məsələsi burada qaldırılmasın. Lakin susmağı o zaman sona yetər ki, hər hansı bir nümayəndə heyəti tərəfindən Azərbaycan, Gürcüstan və Ermənistanın təbii zənginliklərinin bölünməsi haqqında məsələ qaldırılmış olsun. Onlar burada sovet neftinə işarə edərək, bunu istehza ilə ABŞ dövlət departamentinin Rusiyanın bütövlüyünün "qayğısına" qalması kimi qiymətləndirirdilər) ABŞ, bu məsələdən sonra onun işinə fəal qarşımağa başladı. Sovet nefti ABŞ-ın sükut buzunu qıraraq onu hərəkətə gətirdi.

ABŞ Dövlət departamenti özünün 2 may tarixli teleqramı ilə Caylddan təkidlə tələb etdi ki, ingilis-sovet danışıqları faktını ətraflı araşdırsın və dərhal məlumat versin[1].

Bundan bir gün sonra, may ayının 3-də Cayld ABŞ Dövlət departamentinin iqtisadi məsələlər üzrə müşaviri

---

[1] Н.Н.Любимов, А.Н.Эрлих. Генуэзская конференция, с. 101



Milspo tərəfindən yazılmış məktubu aldı[1]. Burada "Standart oyl"un Rusiya neftindəki marağı haqqında ətraflı məlumat verilirdi. Milspo bildirirdi ki, əgər müttəfiqlər Rusiya tərəfindən mülkiyyətlərin milliləşdirilməsini qəbul etsələr, yaxud da "Royal datç-şell" Rusiya neft sahələrini konsessiyaya götürsə, "Standart oyl" burada öz mənafeyini müdafiə etmək üçün hər cür tədbir görəcəkdir[2].

3 may 1922-ci ildə Cayld ABŞ Dövlət katibi Yuza bildirdi ki, ingilis-sovet neft danışıqları haqqında heç bir rəsmi məlumat yoxdur. Lakin Yuz bununla arxayınlaşmayaraq yenidən Cayldan tələb etdi ki, o, bu faktın dəqiq olub-olmamasını aydınlaşdırmaq üçün bütün imkan və vasitələrdən istifadə etsin. Hətta lazım gələrsə, Rusiya nümayəndə heyətinin üzvlərilə əlaqəyə girsin[3]. Lakin bu olduqca məxfi edilməli idi.

Dövlət departamenti ilə Cayld arasında gedən bu yazışmalardan səbri tükənmiş "Standart oyl" trestinin rəhbərləri hökumətdən daha qəti hərəkət etməyi tələb etdi. Bedford özünün Yuza yazdığı 5 may tarixli məktubunda Rusiya nefti ilə əlaqədar olaraq "Standart oyl"un mövqeyini yenidən şərh edir, müttəfiqlərin 2 may tarixli memorandumunun 7-ci maddəsinə qarşı qəti çıxdığını bildirirdi. Onun fikrincə, bu maddə Rusiyada marağı olan əcnəbi mülkiyyətçilərin hüquq və mənafeyinə toxunurdu[4].

ABŞ prezidenti Hardinq məsələyə özü qarşımalı

---

[1] В.Ф.Лопатин. "Провал антисоветских планов США", с. 206
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada, s. 207

oldu[1]. o, ABŞ-ın London və Romadakı səfirlərinə tapşırıq verdi ki, "məsələni tezliklə aydınlaşdırsınlar və əgər Sovet-İngiltərə danışıqları neft mədənlərinin konsessiyaya verilməsi ilə nəticələnərsə, dərhal İngiltərəyə etiraz notası versinlər"[2]. Hardinqin bilavasitə iştirakı ilə qabaqcadan hazırlanmış etiraz notasının mətnində göstərilirdi ki, "Amerika, onun hüquqlarına və "açıq qapı" siyasətinə qarşı yönəldilmiş heç bir müqavilləni tanıya bilməz"[3].

ABŞ-ın bu mövqeyini Genuyadakı sovet nümayəndə heyətinin sənədlərinin birində haqlı olaraq belə qiymətləndirilirdi: "ABŞ-ın Genuyadakı iştirakı gözətçi itinə bənzəyirdi. O, izləyirdi ki, onun gəmirməyə "hüququ" olan sümüyü başqası qapmasın"[4]. Sovet nefti ABŞ üçün məhz belə sümüklərdən idi. "ABŞ izləyirdi ki, heç kim Rusiya ilə neft məsələsi üzrə müqavilə bağlamasın. Bu, Amerika üçün məlum zərbə olardı"[5].

ABŞ dövlət başçısından qəti göstəriş almış Cayld bu istiqamətdə ciddi fəaliyyətə başladı. O, İngiltərə, Fransa, Belçika, İtaliya və s. dövlətlərin nümayəndələrinə rəsmən bildirdi ki, ABŞ rus məsələsində ya xüsusi, ya da ümumi saziş yolu ilə bu və ya digər dövlətin üstünlük təşkil etməsinə yol verməyəcəkdir[6]. Cayld öz hökuməti adından təklif edirdi ki, ya konfrans təxirə salınsın, yaxud da onun xarakteri dəyişsin. Konfrans iştirakçıları Sovet Ru-

[1] "Бакинский рабочий", № 103, 11 may 1922-ci il
[2] Yenə orada
[3] Yenə orada
[4] "Исторический архив", № 2, 1962, с. 93
[5] Yenə orada
[6] В.Ф.Лопатин. "Провал антисоветских планов США", с. 208



siyası ilə separat müqavilə bağlamayacaqlarına söz verməli idilər[1].

Göründüyü kimi, Genuya konfransı sovet nefti üstündə ciddi böhran keçirirdi. Mahiyyətcə artıq onun taleyi həll edilmişdi. Genuya konfransının təşəbbüsçüsü olan Lloyd Corc onun pozulması ilə siyasi cəhətdən iflasa uğrayacağını nəzərə alaraq, yeni-yeni yollar axtarmağa başladı. O, ABŞ-la da açıq-açığına üz-üzə gəlmək istəmirdi. Lloyd Corc mayın 7-də Cayldla görüşərək[2] onu əmin etdi ki, İngiltərə ABŞ-ın iştirakı olmadan Rusiya ilə neft konsessiyası haqqında heç bir saziş bağlamayacaqdır[3].

ABŞ (oxu: "Standart oyl") və Fransa-Belçika blokunun ciddi müqavimətinə rast gələn İngiltərə (oxu: "Royal datç-şell") öz əvvəlki məqsədinə bu dəfə başqa yol ilə nail olmağı qət etdi. İngiltərə nümayəndə heyətinin fikrinə görə, sovet neft mədənləri bu və ya digər dövlətə konsessiyaya verilərkən, əcnəbi neft sahibkarlarının vaxtı ilə burada qoyduğu kapitalın miqdarına proporsional olaraq verilməsi prinsipi rəhbər tutulmalıdır[4].

Bu, yenə də nəticə etibarilə sovet neftinin İngiltərənin nəzarəti altına verilməsi demək idi. Çünki Rusiya neft sənayesində İngiltərə kapitalı başqa dövlətlərə nisbətən hakim mövqe tuturdu. Fransa, Almaniya, Hollandiya, Belçika, Danimarka və ABŞ kimi altı dövlətin Rusiya nef-

[1] В.Ф.Лопатин. "Реакционная политика США в отношении Советской России в период подготовки и проведения Генуэзской конференции", М., 1956, с. 13
[2] Yenə orada
[3] "Бакинский рабочий", № 104, 12 may 1922-ci il
[4] Денни. "Борьба за нефтяную монополию", с. 123

ti sənayesinə qoyduqları kapital ümumi miqdarın 33 faizini, təkcə İngiltərənin qoyduğu kapital isə 67 faizini təşkil edirdi[1].

ABŞ-ın Romadakı səfiri Cayld özü "müşahidəçi" sifəti ilə Genuyaya gəldi. O, 1922-ci ilin may ayının 11-də xüsusi bəyanat verərək bildirdi ki, ABŞ hökuməti Rusiya barəsində yenə də "açıq qapı" prinsipini müdafiə edir. Onun hökuməti bu prinsipə zidd olan heç bir sazişi qəbul etmir[2].

Fransa-Belçika nümayəndə heyəti ABŞ-a tərəfdar çıxdı. Onlar yenə də sovet nümayəndə heyətinin təklif etdiyi və İngiltərənin cəhd göstərdiyi konsessiyaya qarşı, özlərinin köhnə tələblərini – əcnəbi kapitalistlərin mülkiyyətlərinin tamamilə qaytarılmasını qoydular.

Sovet nümayəndə heyəti özünün 11 may 1922-ci il tarixli memorandumu ilə müttəfiqlərin xüsusi mülkiyyətin toxunulmazlığı haqqında tələbini qəti rədd etdi[3].

Genuya konfransı heç bir iş görmədən 1922-ci il may ayının 19-da öz işini dayandırmalı oldu.

İmperialist dövlətlər Genuya kofransında öz məqsədlərinə çatmasalar da, bu fikirdən tam əl çəkmədilər. "Rus məsələsi" və onun tərkib hissəsi olan sovet nefti məsələsi də Genuyadan Haaqaya köçürüldü.

Sovet nümayəndə heyətinin üzvü N.Nərimanov Genuya konfransının aqibətindən və Haaqa konfransının perspektivlərindən bəhs edərək göstərirdi:

[1] В.Бронштейн, И.В.Роземблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 174
[2] "Нефтяное хозяйство", № 10, 1926, с. 601
[3] "Материалы Генуэзской конференции...", с. 230



"Genuya, Sovet Federasiyasını boğmaq üçün kapitalistlər tərəfindən düzələn bir uydurma idi. Lakin burada düşdükləri gülünc vəziyyətdən sonra Haaqanı uydurmaqdan başqa digər çarə tapmadılar. Kapitalist dövlətləri bu müddət ərzində (Genuya ilə Haaqa konfransları arasında müddət nəzərdə tutulur) xüsusi mülkiyyətçilərlə danışıq aparıb onları inandırmalıdırlar ki, Sovet ölkəsindəki mülkiyyət hüquqlarının bərpa edilməsinə heç bir ümid yoxdur"[1].

Genuya konfransının nümayəndələri hələ öz yerlərinə çatmamış beynəlxalq aləmdə mürəkkəb diplomatik oyun başlandı. ABŞ, Fransa, İngiltərə və digər dövlətlər öz mövqelərini və aralarındakı münasibətləri bir daha qəti müəyyən etməyə başladılar.

Genuya konfransının sonuncu plenumunda Bartu Fransa hökuməti adından Haaqa konfransının çağırılmasına razılıq verdiyi halda, fransız diplomatiyası onu pozmaq üçün mümkün olan hər şeyi edirdi. Fransa qorxurdu ki, İngiltərə Genuyada əldə edə bilmədiyinə Haaqa konfransı vasitəsilə nail olsun.

ABŞ da Haaqa konfransının baş tutmasının tərəfdarı deyildi. ABŞ hökuməti belə hesab edirdi ki, İngiltərənin təşəbbüsü ilə olan bu yeni beynəlxalq oyunda ABŞ qazanacağından çox itirə bilər. Genuya bu cəhətdən ABŞ üçün bir ibrət dərsi olmaya bilməzdi.

Deməli, Haaqa konfransına dair ABŞ və Fransanın mövqeyi təxminən eyni idi. Məhz buna görə də onlar Haaqa konfransını pozmaq üçün əlbir hərəkət etməyə başladılar.

[1] "Бакинский рабочий", № 121, 2 iyun 1922-ci il

1922-ci il may ayının sonunda Fransanın ABŞ-dakı diplomatik nümayəndəsi Jusseran ilə ABŞ Dövlət katibi Yuzun Vaşinqtonda görüşü oldu[1]. Yuz Fransa nümayəndəsini öz hökuməti adından əmin etdi ki, ABŞ Rusiya barədə yenə əvvəlki mövqeyində qalmaqdadır. Onun hökuməti də Fransa kimi Haaqa konfransına mənfi münasibət bəsləyir. ABŞ o zaman bu konfransda iştirak edər ki, ya Rusiya özünün 11 may tarixli memorandumundan əl çəkmiş olsun, ya da sovet nümayəndələrinin iştirakı olmadan məsələlərin həlli üçün ekspert komissiyası yaradılsın[2].

ABŞ və Fransanın əlbir əməkdaşlığı öz ifadəsini Puankarenin Haaqa konfransına dəvət edilmiş dövlətlərə göndərdiyi 2 iyun 1922-ci il tarixli memorandumunda tapdı[3]. Memorandumun güddüyü yeganə məqsəd – Haaqa konfransının çağırılmasına yol verməmək – təkcə Fransanın deyil, hər iki ölkənin birgə səsi idi.

Puankare həmin memorandumda irəli sürürdü ki, Haaqa konfransı məşvərətçi xarakter daşımaqla dövlətlərin səlahiyyətli müvəkkillərinin deyil, ekspertlərin konfransı olmalıdır. O, məsələləri işləyə, hazırlaya bilər, lakin həll edə bilməzdi. Puankareyə görə Haaqa konfransı "rus məsələsinin" əsas üç cəhətini: borclar məsələsini, əcnəbilərin mülkiyyəti məsələsini və Rusiyaya borc verilməsi məsələsini müzakirə etməklə kifayətlənməli, heç bir siyasi

---

[1] В.Ф.Лопатин. "Реакционная политика США в отношении Русии в подготовки и проведения Генуззской и Гаагской конференции", с. 13
[2] Yenə orada
[3] "Известия", 10 iyun 1922-ci il



məsələyə toxunmamalı idi[1].

Fransa baş naziri öz memorandumunda tələb edirdi ki, Sovet Rusiyası özünün 11 may tarixli memorandumundan imtina etsin[2].

Fransanın Sovet hakimiyyətinə qarşı tutduğu barışmaz mövqe Sovet Rusiyasına borc verilməsi məsələsində özünü daha açıq və qabarıq surətdə göstərirdi. Puankarenin fikrincə, Sovet Rusiyasına borc verilməsi məsələsi əcnəbilərin mülkiyyət hüquqlarının bərpasına razılıq alındıqdan sonra müzakirə edilməli, müttəfiqlər Rusiyanın xalq təsərrüfatının bərpası üçün bilavasitə Sovet hökumətinə deyil, Rusiyadakı xüsusi şəxslərə və təşkilatlara borc verilməsinə razılıq verməli idilər[3].

Fransa baş naziri memorandumda nəzərdə tutulmuş bu şərtlərin yerinə yetirilməsinin başlıca təminatını müttəfiqlərin sovet dövlətinə qarşı vahid cəbhədə birləşmələrində görürdü[4].

Lakin İngiltərənin Haaqa konfransı qabağı tutduğu mövqe, əvvəlki kimi yenə də Fransanın mövqeyindən xeyli fərqlənirdi. İngiltərə, Fransanın memorandumuna verdiyi 11 iyun 1922-ci tarixli cavabında Fransanın xüsusi mülkiyyət məsələsi barədəki mövqeyinin qəti əleyhinə çıxır və yenə də onun ödənilməsinin ən yaxşı yolunu konsenssiyada görürdü[5].

---

[1] "Гаагская конференция". Полный стенографический отчет, М., 1922, с. 72
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada, s. 72

Orada deyilirdi ki, Rusiya hökuməti tərəfindən müsadirə edilmiş əmlakların köhnə sahiblərinə qaytarılması, yaxud da əvəzi ödənilməsi ancaq onun özünə məxsus məsələdir. İngiltərənin fikrincə, Rusiya hökumətini bu və ya digər prinsipi qəbul etməyi məcbur etmək, heç bir suveren dövlətin, heç vaxt razı ola bilməyəcəyi hüquq pozğunluğuna bərabərdir[1].

Lakin İngilətərə hökumətinin bu cavabı heç də onun Sovet Rusiyasına bəslədiyi hüsn-rəğbətdən irəli gəlmirdi. Bu, sadəcə İngiltərənin Genuya konfransındakı mövqeyinin davamı idi.

Fransa İngiltərənin cavabını dərhal – iyunun 13-də etiraz notası ilə qarşıladı. Fransa özünün bu notasında İngiltərənin konsessiyaya meylini qəti pisləyərək göstərdi ki, bir ölkənin vətəndaşına məxsus olan müəssisənin digər ölkə vətəndaşı tərəfindən konsessiyaya götürülməsi, ancaq quldurluq aktı kimi qimətləndirilə bilər[2].

Genuya və Haaqa konfransları arası dövrdə Sovet hökumətinin mövqeyi yenə də dəyişilməz olaraq qalmışdı.

Sovet dövləti Haaqa konfransına da, Genuya konfransına olduğu kimi ciddi yanaşırdı. Kapitalist dövlətlərinin nümayəndə heyətlərindən fərqli olaraq sovet nümayəndə heyətinə Litvinov, Krestinski, Krasin və s. kimi görkəmli dövlət xadimləri daxil edilmişdi.

ABŞ Genuya konfransında olduğu kimi Haaqa konfransında da iştirak etməyi lazım bilmirdi. O, Genuya

[1] "Гаагская конференция". Полный стенографический отчет, М., 1922, с. 7

[2] И.Майский. "Советская Россия и капиталистический мир", с. 29



konfransına "müşahidəçi" göndərdiyi halda, bu konfransın işini izləmək vəzifəsini özünün Hollandiyadakı nümayəndəsinə tapşırmışdı. ABŞ, burada öz məqsədini Fransa və Belçika kimi sadiq tərəfdarları vasitəsilə həyata keçirəcəyinə əmin idi.

Haaqa konfransında imperialist dövlətlərini təmsil edən rəsmi nümayəndələr ikinci dərəcəli şəxslərdən ibarət olduğu halda, bu dəfə buraya imperialist neft aləminin daha görkəmli nümayəndələri gəlmişdi. Onların fikrincə, Haaqa soevt nefti uğrunda gedən son döyüş olmalı idi. Formal olaraq konfransdan kənar, lakin əslində isə konfransda "Royal datç-şell"i ser Henri Deterdinq, polkovnik Boyl, Uolter Semuel, Fransa-Belçikanı Lui Lambo, Şarl Loran təmsil edirdilər[1]. Burada "Standart oyl" trestinin və digər nisbətən xırda neft qruplarının nümayəndələri də vardı.

İmperialist dövlətləri Genuyada çata bilmədikləri məqsədə Haaqada nail olmalı idilər. Haaqa konfransı əcnəbilərin Rusiyadakı mülkiyyət tələblərini, çar hökuməti və müvəqqəti hökumətin müttəfiq dövlətlərə borcları məsələsini qəti olaraq həll etməli idi.

Haaqa konfransı öz işinə rəsmi olaraq 1922-ci ilin iyun ayının 26-da başladı. İmperialist dövlətlərin nümayəndələrə konfransın elə birinci iclasında əcnəbilərin mülkiyyətlərini qaytarmaq və yaxud da onların əvəzini tamamilə ödəmək tələbini yenidən qaldırdılar.

Sovet nümayəndə heyəti Genuya konfransında olduğu kimi, burada da xüsusi mülkiyyət sahiblərinin hüqu-

[1] "Нефтяное хозяство", № 10, 1926, с. 602

qunun bərpa edilməsi tələbini qəti olaraq rədd etdi. Lakin bununla yanaşı, o, bildirdi ki, Sovet hökuməti kapitalist ölkələri ilə işgüzar əlaqə yaratmaq və öz xalq təsərrüfatının bərpasını sürətləndirmək məqsədilə iqtisadiyyatın bəzi sahələrini əvvəlki sahiblərinə və ya başqalarına konsessiyaya verməyə hazırdır.

İngiltərə nümayəndə heyətinin başçısı, eyni zamanda, konfransın xüsusi mülkiyyət bölməsi komissiyasının sədri Lloyd Qrimm, İtaliya nümayəndə heyətinin başçısı, konfransın borclar bölməsi komissiyasının sədri Avetseano öz maraqlarını saxlaya bilməyib sovet nümayəndələri ilə bir neçə dəfə qeyri-rəsmi görüşdülər. Hər iki ölkənin nümayəndəsi xüsusi mülkiyyətin qaytarılması əvəzinə, əlverişli şərtlərlə konsessiyaya meyil göstərirdilər[1].

İngiltərənin konsessiyalar barədə əvvəlki mövqeyində qalması ingilis hökumətinin 10 iyun 1922-ci il tarixli memorandumunda bir daha təsdiq edilirdi. Orada açıq-aydın göstərilirdi ki, İngiltərə hökuməti Rusiyada keçmiş mülkiyyət sahiblərinin hüquqlarının bərpa ediləcəyinə ümid etmədiyinə görə, o, yenə də əcnəbi kapitalistlərin mülkiyyətlərinin uzun müddətli konsessiyaya götürmək təklifi üzərində durur[2].

İngiltərə hökumətinin bu təklifi Deterdinqin Haaqa konfransı vasitəsilə sovet neftinə sahib olmağın sonuncu cəhdi idi. Lakin istər Deterdinq və istərsə də onun hökuməti bu mövqedə çox qalmadı.

---

[1] "История международных отношений и внешней политики СССР", с. 161

[2] "Нефтяное хозяство", № 10, 1926, s. 62



Sovet nümayəndə heyətinin iyul ayının 7-də irəli sürdüyü təklifdən sonra İngiltərə öz əvvəlki mövqeyini dəyişdirib, Fransa-Belçika tərəfə keçdi.

Sovet nümayəndə heyətinin sədri M.Litvinov konfransın 7 iyul tarixli iclasında sovet hökuməti adından hansı sahələrin konsessiyaya veriləcəyini və onun şərtlərini irəli sürdü[1]. Sovet nümayəndə heyətinin konfransa təqdim etdiyi siyahıda Bakının, Qroznının, Embanın, Kuban vilayətinin, Zakaspi və Fərqanə vilayətinin bir çox neft sahələri, zavod və müəssisələri, mis mədənləri, qızıl və platin sənayesi sahələrini müəyyən şərtlərlə konsessiyaya verilməsi nəzərdə tutulurdu[2].

Konfransda təqdim edilən siyahıdan və ona əlavə edilmiş izahatdan imperialist dövlətlərinin nümayəndələrinə aydın oldu ki, Sovet hökuməti daha vacib və mühüm sahələrin hamısını heç də konsesiyaya vermək fikrində deyildir. Burada həlledici iqtisadi üstünlük yenə də Sovet dövlətinin əlində qalır.

Bununla yanaşı, konsessiyanın şərtləri də imperialist dövlətlərini təmin etmirdi. Orada göstərilirdi ki, Sovet hökuməti təklif etdiyi mülkiyyət növlərini kapital nümayəndələrinə ayrı-ayrılıqda aparılan fərdi danışıqlar və müəyyən edilmiş şərtlər üzrə konsessiyaya verə bilər. Burada əvvəlki "sahibkar" ilə ilk dəfə Sovet dövləti ilə konsessiya münasibətinə girən kapitalist arasında qəti fərq qoyulmurdu. Sovet dövləti bu və ya digər kapital nümayəndəsi ilə konsessiya münasibətinə girib-girməmək hüququnu

---

[1] "Гаагская конференция", с. 38-39

[2] Yenə orada, s. 218-225

özündə saxlayırdı.

Şübhəsiz Sovet hökumətinin konsessiya haqqında təqdim etdiyi siyahı və onun şərtləri Fransa, Belçika nümayəndələrini və onların arxasında duran ABŞ-ı razı sala bilməzdi. Onlar yenə də öz əvvəlki mövqelərində dururdular. Onlar bu mövqeyi nə Genuya konfransında, nə konfranslararası müddətlərdə və nə də Haaqa konfransında əsla dəyişməmişdi. Əksinə, iyunun 16-da Fransa və Belçika neft dəllalları "Fransa-Belçika" sindikatı" halında birləşərək öz mövqelərini sona qədər müdafiə edəcəklərini bəyan etmişdilər[1].

Onlardan fərqli olaraq İngiltərə hökuməti konfransda müəyyən müddət sovet neftini ələ keçirməyin yeganə yolu olan konsessiya mövqeyini tuturdu. Lakin sovet nümayəndə heyətinin iyulun 7-də irəli sürdüyü şərtlər onun planını tam şəkildə alt-üst etdi. Sovet nümayəndəliyinin konfransa təqdim etdiyi sənədlərdən İngiltərə hökumətinə və Deterdinqə aydın oldu ki, Sovet hökuməti heç də Rusiya neft sənayesində daha çox kapital qoymuş "Royal datç-şell" ilə Fransa, yaxud Belçika kapitalist şirkəti ("Fransa-Belçika sindikatı"nın yaranma ideyası Fransanın görkəmli neft mütəxəssisi Loran Eynaka məxsus idi. Sindikatın əsas vəzifəsi Rusiyada neft sahələrindən məhrum olmuş Fransa və Belçika kapitalistlərinin hüquqlarını müdafiə etmək və burada hər iki ölkə vətəndaşlarına məxsus olan neft yataqdarını birgə istismar etməkdən ibarət idi. Sindikatın Haaqa konfransındakı Fransa və Belçika ekspertlər heyətinin tərkibində öz nü-

[1] "История дипломатии", т. 3, М.-Л., 1945, с. 199



mayəndəsi vardı) arasında heç bir fərq qoymur. Bundan başqa konsessiya şərtlərində Deterdinqə, digərləri ilə eyni dərəcədə də olsa konsessiya münasibətlərinə girəcəyinə təminat verilmirdi. Sovet neftinin əsil sahibi olmaq iddiasının boşa çıxdığını görən İngiltərə-Deterdinq öz əvvəlki taktikasını birdən-birə qəti olaraq dəyişdi. İngiltərə nümayəndə heyətinin başçısı Lloyd-Qrimm konfransın 7 iyul tarixli iclasında konsessiyaya verilməli sahələrin siyahısından bəhs edərək göstərirdi ki, "Əgər bu siyahı, qaytarmağı lazım bildiyi mülkiyyət haqqında Rusiya hökumətinin son sözüdürsə, o qətiyyən qəbul edilə bilməz"[1].

İngiltərə hökumətinin ekspert heyəti özünün 1922-ci il 12 iyul tarixdə təqdim etdiyi sənəddə hökumət adından bildirdi ki, köhnə mülkiyyətin əvəzinin ödənilməsinin yeganə yolu, əcnəbi kapitalistlərin mülkiyyət hüquqlarının bərpa edilməsidir.

İngiltərə hökumətinin bu sənədlə tutduğu yeni mövqe bir neçə səbəbdən irəli gəlirdi. Hər şeydən əvvəl o, konsessiya siyasəti vasitəsilə özünün deyil, digər dövlətin sovet neftini ələ keçirəcəyindən ehtiyat edirdi. Bundan başqa onun bu mövqeyi, konsessiya məsələsinə görə Fransa və Belçika ilə öz arasında xeyli pisləşmiş münasibətlərin yenidən normal hala salınmasına imkan verirdi. Bu, ABŞ və İngiltərə münasibətlərinə də eyni dərəcədə şamil idi.

İngiltərənin sırf xüsusi mənafeyindən irəli gələn bu yeni mövqe, Sovet hökumətinə qarşı imperialist dövlətlərinin vahid cəbhəsini xeyli möhkəmləndirdi. Onlar danışıqlar yolu ilə istədiklərinə anil ola bilməyəcəklərini yəqin

[1] "Сборник документов внешней политики СССР", т.V, с. 750-751

edərək, konfransı pozmaq və onun günahını sovet nümayəndə heyətinin üzərinə yıxmaq qərarına gəldilər.

"Rus məsələsi" üzrə fəaliyyət göstərən bütün komissiyalar 1922-ci il iyulun 14-də rus nümayəndəliyi ilə bundan sonra bu və ya digər məsələnin müzakirəsini davam etdirməyəcəklərini bildirdilər[1]. Guya sovet nümayəndə heyəti ilə danışıq aparmaq və razılığa gəlmək qeyri-mümkün idi. Əslində isə, bu konfransı pozmaq üçün imperialist dövlətlərin nümayəndələrinin gətirdikləri əsassız bir bəhanə idi.

Sovet nümayəndə heyəti, imperialist dövlətləri nümayəndələrindən tam fərqli olaraq, Haaqa konfransının birinci günündən müzakirə edilən məsələlər üzrə qarşılıqlı razılığa gəlmək üçün ciddi səy göstərirdi.

Bunu Haaqa konfransında iştirak etmiş sovet nümayəndə heatinin Rusiya Xalq Komissarları Sovetinə təqdim etdiyi 21 iyul 1922-ci il tarixli məruzədən daha aydın görmək olar. Orada deyilirdi: "Sovet nümayəndə heyəti Haaqaya müzakirə edilən məsələlər üzrə qəti razılaşmaq məqsədilə getmişdi. Əgər kapitalist dövlətləri hərbi müdaxilə və blokada nəticəsində ölkənin xalq təsərrüfatına vurulmuş ziyanı aradan qaldırmaq üçün kifayət qədər borc verər və hərbi borcların ödənilməsi tələbindən əl çəkərdilərsə, o zaman Rusiya aşağıdakı şərtlərə razı olardı:

1) Hərbi müdaxilə və blokada zamanı ölkəyə vurulmuş ziyanın ödənilməsi tələbindən əl çəkmək;

2) Müharibədən əvvəl alınmış dövlət borclarını keçmiş müddət üçün faiz hesablanmamaq şərtilə qaytarılmasına razılaşmaq;

[1] "Сборник документов внешней политики СССР", т. V, с. 49



3) Əcnəbi vətəndaşların tələbini, müsadirə edilmiş sahələri onların özlərinə konsessiyaya vermək yolu ilə ödəmək"[1].

Sovet nümayəndə heyəti konfransın son gününə qədər bu mövqedə dururdu. O, konfransın imperialist dövlətlərinin nümayəndələri tərəfindən pozulmasına imkan verməmək məqsədilə iyul ayının 16-da qeyri-rus komissiyasının sədrinə məktubla müraciət edərək, konfransı davam etdirmək arzusunda olduğunu və məsələləri daha konkret surətdə müzakirə etməyə hazır olduğunu bildirdi.[2]

Lakin Sovet hakimiyyətinə qarşı vahid cəbhədə birləşmiş kapitalist dövlətlərin nümayəndələri əcnəbi vətəndaşların mülkiyyət hüquqlarının bərpasını konfransı davam etdirməyin yeganə şərti kimi irəli sürdülər.

Paten özünün 18 iyul tarixli cavab məktubunda göstərdi ki, müttəfiqlər danışıqları davam etdirməyə bu şərtlə razı olarlar ki, sovet nümayəndə heyəti əcnəbi vətəndaşların hüquqlarının bərpa edilməsi üçün danışıqlara daha real təkliflərlə gəlmiş olsun[3].

Şübhəsiz sovet nümayəndə heyəti danışıqların davam etdirilməsinin nə qədər tərəfdarı olmuş olsa da, o, imperialist dövlətlərinin açıq-aydın göstərdiyi bu təzyiqə razı ola bilməzdi. Sovet nümayəndə heyətinin sədri M.Litvinov konfransın 19 iyul tarixli son iclasında imperializ-

[1] "Сборник документов внешней политики СССР", т. V, с. 515
[2] Yenə orada, s. 505.
[3] Yenə orada, s. 508

min göstərdiyi bütün cəhdləri alt-üst etdi.

Genuya konfransı kimi, bu konfrans da imperialist dövlətlərinin gözlədiyi nəticələri vermədiyi üçün, onların özləri tərəfindən pozuldu. Haaqa konfransı 1922-ci il iyulun 20-də öz işini dayandırdı.

Genuya konfransı kimi Haaqa konfransının da pozulmasının ən mühüm səbəblərindən birini sovet iqtisadiyyatını, xüsusilə onun neft zənginliklərini konfrans vasitəsilə imperialistlərin ələ keçirmək cəhdinin boşa çıxması təşkil edirdi. İmperialistlərin məhz bu məqsədinə xidmət edən "xüsusi mülkiyyət məsələsi ilə məşğul olan komissiyanın tutduğu barışmaz mövqe, başqa komissiyaların da qərarlarına mənfi təsir etməklə, həm də bütün konfransın müvəffəqiyyətsizliyinin əsas səbəbi oldu"[1].

Genuya və Haaqa konfranslarının pozulmasında imperialist dövlətləri arasındakı neyt ziddiyyətlərinin böyük rol oynamasından bəhs edərək Azərb.K(b)P MK və BK-nın orqanı olan "Xəbərlər" jurnalı yazırdı: "İmperialist dövlətləri siyasətinin mübtədası və xəbəri olmuşdur. Hər hansı "beynəlxalq" imperialist konfransı neftlə başlayır və neftlə qurtarır. ...Haaqa konfransı da əsas etibarilə rus nefti əsasında qızışan ingilis-amerikan rəqabəti üstündə pozulmuşdur"[2].

III İnternasionalın MİK-nın orqanı "Kommunist İnternasionalı" jurnalı da bu fikirdə idi[3]. L.Fişerin fikirinə görə, dinc dövrün vəzifələrini belə bir mübarizə şəraitində

---

[1] "Сборник документов внешней политики СССР", т. V, с. 517
[2] "Известия ЦК и БК АКП(б), № 20, 1923, с. 76
[3] Вах: "Коммунистический интернационал", № 5, 1925, с. 68-69



həll etmək mümkün olmadığı üçün, hər iki konfransın müvəffəqiyyətsizliklə nəticələnməsi labüd idi.

İmperialist dövlətləri Rusiyada mülkiyyətdən məhrum olmuş əcnəbi sahibkarların hüquqlarını təkcə Haaqa konfransında deyil, bundan sonra da müdafiə etmək əzmində olduğunu bildirdilər.

Haaqa konfransı bağlandıqdan sonra, qeyri-rus komissiyası iyulun 20-də məhz bu məqsədlə yenidən toplandı. Yığıncaq, Belçika nümayəndəsi Katyenin təklifilə Sovet hökuməti tərəfindən milliləşdirilmiş əcnəbilərin mülkiyyəti haqqında qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: "Konfrans, özündə təmsil olunmuş bütün hökumətlərin nəzərinə çatdırır ki, əvvəllər əcnəbi təbəələrə məxsus olan, lakin 1 noyabr 1917-ci ildən sonra isə müsadirə edilən mülkiyyətləri, onların öz sahiblərinin razılığı olmadan ələ etməyə cəhd edən özünün digər təbəəsinə bu işdə heç bir yardım etməsin"[1].

Qeyri-rus komissiyasının qəbul etdiyi bu qətnamə imperialistlərin sovet neftinə qarşı gələcəkdə yeridəcəkləri xətti-hərəkətin başlanğıcını qoydu.

---

[1] "Сборник документов внешней политики СССР", т. V, с. 753

## II FƏSİL

# İMPERİALİSTLƏRİN NEFT BLOKADASINA QARŞI MÜBARİZƏ. AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARINA ÇIXMASI

İmperialist dövlətlərinin Azərbaycan neftini istər hərbi müdaxilə, istərsə də Genuya və Haaqa konfransları vasitəsilə ələ keçirmək cəhdləri boşa çıxdıqdan sonra da, bu məqsəd uğrunda öz mübarizələrini dayandırmadılar.

Sovet hökumətinin inhisarında olan Azərbaycan nefti uğrunda gedən beynəlxalq mübarizə Haaqa konfransından sonra özünün yeni mərhələsinə daxil oldu. Bu mərhələdə də imperialistlərin qarşısında duran məqsəd əvvəllər olduğu kimi eyni idi. Onlar ancaq mübarizə taktikalarını dəyişmişdilər. İndi onlar sovet neftini ələ keçirməyin əsas yolunu hərbi müdaxilə və diplomatik təzyiqlə yanaşı, həm də onun dünya bazarında boykot edilməsində görürdülər.

Sovet neftini xaricə buraxmamaq, hətta Sovet dövləti konsessiya şərtlərində güzəştlər etsə belə, onunla konsessiya münasibətinə girməmək və beləliklə də Sovet hökumətini köhnə sahibkarların mülkiyyətlərini qaytarmağa məcbur etmək və s. bütün bunlar imperialistlərin yeni taktikasının məzmununu təşkil edirdi.

Lakin sovet neftində marağı olan beynəlxalq neft dəllalları və onların dövlətlərinin vahid taktika qəbul etmələrinə baxmayaraq, onlar öz məqsədlərinə görə bir-birlərindən əsaslı surətdə fərqlənirdilər. Fransa, Belçika



və digər dövlətlərin xırda neft cəmiyyətləri boykot yolu ilə Rusiyadakı öz köhnə mülkiyyətlərinə yenidən sahib olmaq məqsədi güddükləri halda, ABŞ və İngiltərənin neft kralları isə bundan daha çox şey gözləyirdilər.

İstər ABŞ neft tresti "Standart oyl" və istərsə də ingilis-holland neft tresti "Royal datç-şell" boykot yolu ilə sovet neftini ələ keçirməklə yanaşı, həm də gələcəkdə özlərinin inhisarçı mövqelərinə mane ola biləcək sovet neftinin dünya bazarına çıxmasına imkan verməmək, onun öz qorxulu rəqibinin əlinə keçməsinə mane olmaq və s. bu kimi əlavə məqsədlər də güdürdülər.

Göründüyü kimi, "Standart oyl" və Royal datç-şell" trestlərinin sovet neftini boykot etməkdən güddükləri əlavə məqsədlər də, öz nəticələri etibarilə ciddi əhəmiyyət kəsb edirdi. Sovet neftinin dünya bazarına çıxması ilə onlar bu və ya digər bazardan məhrum edilmiş olardılar; bundan başqa sovet nefti dünya bazarında ABŞ və İngiltərə neft trestlərinin öz istehlakçıları ilə etdikləri özbaşınalıqlara son qoya və onların qiymət siyasətinə mane ola bilərdi.

Beynəlxalq neft dəllallarının boykot taktikasından irəli gələn məqsədlərinin müxtəlifliyi onların vahid cəbhədə birləşməsinə nəinki mane olmadı, əksinə bu, onun həyata keçirilməsi üçün hətta bir stimul oldu.

1922-ci il sentyabr ayının 19-da Parisdə, sovet neftində marağı olan əcnəbi və rus neft cəmiyyətləri nümayəndələrinin beynəlxalq konfransı çağırıldı[1]. O, sovet nef-

---

[1] SSRİ Xalq Təsərrüfatının Mərkəzi Dövlət Arxivi, (XTMDA), f. 2309, siyahı 1, iş 31, vər. 43

tinin boykot edilməsi tərəfdarlarının vahid hərəkət proqramını müzakirə və qəbul etməli idi.

Konfrans "Royal datç-şell", "Standart oyl" dünya trestlərini, "Nobel qardaşları cəmiyyəti", "Fransa-Belçika sindikatı", "Xəzər cəmiyyəti", "Rus neft cəmiyyəti", "Qroznı neft cəmiyyəti" və s. daxil olmaqla 18 neft şirkətini təmsil edirdi"[1].

Ser Henri Deterdinq ("Royal datç-şell" trestinin prezidenti") Bedford, Qustav Nobel ("Standart oyl" tresti) (Nobel 1920-ci il iyun ayında Bakı neftinə məxsus olan küllü miqdarda öz köhnə səhmlərini "Standart oyl"a satmış və onunla şərik olmuşdu). Lionozov, Mantaşev, Lambo, Skitladze, Beloversti, Pavel və Abram Qukasovlar, Vanşteyn və s. Rusiyada sabiq neft sahibkarları konfransın ən fəal iştirakçılarından idilər[2].

Konfransın sədri vəzifəsinə yekdilliklə "Royal datç-şell" trestinin prezidenti Deterdinq seçildi[3].

Deterdinqin konfransa sədr seçilməsi sərf taktiki məqsəddən irəli gəlirdi. O, neft dəllallarının beynəlxalq təşkilatında rəhbər mövqe tutmaqla, həmin təşkilatdan gələcəkdə öz planları üçün istifadə etmək. Sovet dövlətini qorxutmaq və onu yeni danışıqlara sövq etmək və s. bu kimi məqsəd güddüyü halda, ABŞ, Fransa, Belçika və digər dövlətlərə mənsub olan neft şirkətlərinin nümayəndələri isə bu yol ilə sovet neftinə təklikdə sahib olmağa daha çox meyl edən Detrdinqin əl-qolunu bağlamağa,

---

[1] SSRİ XTMDA, f. 2309, siyahı 1, iş 31, vər. 43
[2] "Бакинский рабочий", № 114, 25 may 1923-cü il
[3] SSRİ XTMDA, f. 2309, siyahı 1, iş 31, vər. 43



onu tək başına danışıqlar aparmaqdan çəkindirməyə çalışırdılar.

Konfrans "Rusiya neft sənayesinə kapital qoymuş sənaye sahiblərinin hüquqlarının müdafiəsi komitəsi" deyilən təşkilatın yaradıldığını elan etdi[1]. "Müdafiə komitəsi" Rusiya neft sənasiyasində marağı olan neft cəmiyyətləri və ayrı-ayrı kapitalistlərin "qanuni mülkiyyətlərinə" sahib olmaları üçün zəruri tədbirlər işləyib hazırlamalı, onların mənafelərinin real müdafiəsi üçün bütün imkan və vasitələrdən istifadə etməli idi. "Müdafiə komitəsi" öz fəaliyyəti haqqında konfransa vaxtaşırı hesabat verməli idi.

Konfransın qərarı ilə "Müdafiə komitəsi" ilkin tərkibinə Deterdinq, Bedford, Nobel, Lianozov, Lombo, Larin daxil edildilər[2]. Konfrans lazım bildiyi vaxt "Müdafiə komitəsinin" tərkibində müvafiq dəyişikliklər edə bilərdi.

Konfrans iştirakçıları həm özlərinin və həm də nəzarətləri altında olan müəssisələrin adından təntənəli surətdə bəyannamə qəbul etdilər. Bu sənəd əvvəlcədən bilavasitə "Royal datç-şell" trestinin nümayəndələri tərəfindən işlənib hazırlanmışdı[3]. Neft dəllallarının "təntənəli andı" kimi təqdim edilən bu sənəddə deyilirdi: "Sabiq Rusiya imperiyasının neft sənayesi və ticarəti müəssisələrinin çox böyük əksəriyyətini təmsil edən konfrans, neft sənayesi sahiblərinin hüquq və mənafeyini müdafiə etmək məqsədilə vahid cəbhə yarandığını elan edir.

---

[1] SSRİ XTMDA, f. 2309, siyahı 1, iş 31, vər. 43
[2] Yenə orada, vər. 44
[3] Yenə orada, vər. 43

Konfrans iştirakçıları aşağıda göstərilən maddələr üzrə yekdil qərara gəlir:

1. Sovet qanunvericiliyi tərəfindən mülkiyyətdən məhrum edilmiş Rusiya neftində marağı olanlardan birinin, digərinin mənafeyinə bilavasitə və ya dolayı yolla ziyan vurmasına yol verilmir;

2. Neft yataqlarının istismarına o zaman yol verilə bilər ki, bütün maraqlı tərəflərin mülkiyyət hüquqları bərabər əsas üzrə bərpa edilmiş olsun, yaxud vurulmuş ziyan ödənmiş olsun;

3. Əvvəllər dövlətə mənsub olan neft sahələri konfrans iştirakçılarının ümumi razılığı olmadan, fərdi danışıqlar yolu ilə heç kim tərəfindən konsessiyaya götürülməməlidir"[1].

Konfransın qəbul etdiyi bu "proqram sənəddən" göründüyü kimi proletar dövlətindən ağır zərbə almış kapitalist neft inhisarları sovet neftini ələ keçirmək uğrunda qəti mübarizəyə qalxmışdılar.

Bəyannamə ilk dəfə yekdilliklə bəyənilməsinə baxmayaraq, konfrans onun ikinci maddəsinin müzakirəsinə yenidən qayıtmalı oldu. Konfransın bəzi iştirakçıları ikinci maddənin sonunda olan "...yaxud vurulmuş ziyan ödənmiş olsun" sözlərinin bəyannamədən çıxarılmasına israr edirdilər. Konfransın iclas protokollarında və digər arxiv sənədlərində bu təklifin konfransın məhz hansı iştirakçısı tərəfindən irəli sürüldüyü göstərilmir. Lakin çox ehtimal ki, bu məsələ ya "Standart oyl" tresti nümayəndəsinin diqtə və yardımı ilə, ya da "Fransa-Belçika neft sindikatı" və konfransdakı digər xırda neft cəmiyyətlərinin nümayəndələri tərəfindən qaldırılmışdı. Çünki bəyannamənin ABŞ trestinin yeganə güclü rəqibi olan "Royal datç-şell" tərəfindən hazırlanması "Standart oyl"da müəyyən şübhə və qısqanclıq doğurmaya bilməzdi. O, hələ Genuya və Haaqa konfransları zamanı sovet neftini təklikdə ələ keçirməyə cəhd edən "Royal datç-şell"in artıq bu yoldan geri çəkildiyinə tam əmin deyildi. "Standart oyl" ehtiyat edirdi ki, ingilis neft tresti öz köhnə arzusuna çatmaq üçün burada gizli bir çıxış yolu qoymuş olsun.

[1] SSRİ XTNMA, f. 1, siyahı 1327, iş 109, vər. 82



"Fransa-Belçika neft sindikatı" və digər xırda neft cəmiyyətlərinə gəldikdə isə, onlar vurulmuş ziyanın bu və ya digər yolla ödənilməsini deyil, ancaq köhnə mülkiyyətlərinin qaytarılmasını tələb edirdilər. Onlar qorxurdular ki, Sovet dövləti vurulmuş ziyanı ödəməklə, bunları öz mülkiyyətlərindən birdəfəlik məhrum etsin. Bu isə nə "Fransa-Belçika neft sindikatını", nə də digər xırda neft cəmiyyətlərini əsla təmin edirdi. Rusiya neft sənayesinə qoyulmuş xarici kapitaldan onların təklikdə payına, artıq yuxarıda qeyd edildiyi kimi, "Royal datç-şell" trestinə nisbətən cüzi bir məbləğ düşürdü.

Bütün bunlardan başqa, bəyannamənin ikinci maddəsinə etiraz edilməsində "Standart oyl"un əlinin olmasını bir də bu mülahizəyə əsasən ehtimal etmək olur ki, onun havadarlığı və rəyi olmadan, xırda neft cəmiyyətləri "Royal datç-şell" kimi dünya nəhənginin müqavimətini qıraraq, həmin maddənin yenidən baxılmasına nail ola bilməzdilər.

Konfransın 1922-ci il 29 sentyabrda keçirilmiş sonuncu iclası ikinci maddəni yenidən gözdən keçirdi və

"yaxud əvəzi ödənilsin" ifadəsini bəyannamədən çıxarmağı lazım bildi[1].

Konfransın gedişində tərəflərin maraqlarından irəli gələn bu toqquşma zahirən kiçik və az əhəmiyyətli görünsə də, o, sovet neftinə qarşı yaradılmış bu vahid cəbhənin bünövrəsinin nə qədər möhkəm olub-olmamasını anlamağa imkan verirdi.

Lakin bütün bunlara baxmayaraq, dünya neft hərislərinin sovet neftinə qarşı vahid cəbhədə rəsmi surətdə birləşmələri təkzibedilməz real bir fakt idi. Bəyannamənin yekdilliklə qəbul edilmiş maddələri, onların sovet neftinə qarşı birgə və dilbir hərəkət edəcəklərinə təminat verirdi.

Sovet dövləti "Müdafiə komitəsinin" üzvü olan neft cəmiyyətlərindən birinə güzəştli şərtlərlə konsessiyaya razılıq verərdisə, həmin cəmiyyət "Müdafiə komitəsinin" digər iştirakçılarının da hüquqlarının bərabər surətdə bərpa edilməsinə nail olunmadığı halda bu təklifi rədd etməli idi. Yaxud da Sovet dövləti neft sənayesinə kapital qoymuş bu və ya digər neft cəmiyyətinin mülkiyyətini özünə qaytarardısa, cəmiyyət bundan "Müdafiə komitəsinin" digər iştirakçıları naminə əl çəkməli və onların da mülkiyyətlərinin qaytarılmasına nail olmalı idi. Bəyannamənin 3-cü maddəsi isə bu yuxarıda göstərilənlərin həyata keçirilə bilməsinə xidmət edirdi. Həmin maddəyə görə heç bir neft cəmiyyəti təklikdə nəinki "öz köhnə sahələrini", hətta keçmişdə dövlət fonduna məxsus olan neft sahələrini də konsessiyaya götürə bilməzdi. Çünki bu, Sovet dövlətinə həmin sahələri konsessiyaya vermək vasitəsilə əldə edilən

[1] SSRİ XTMDA, f. 2309, siyahı 1, iş 31, vər. 44



gəlir hesabına keçmiş neft sahibkarlarına məxsus olan sahələri də bərpa etmək imkanı verərdi.

Sovet neftinə qarşı vahid cəbhə yaratmış imperialist neft cəmiyyətlərinin sarsılmaz görünən ittifaqı uzun sürmədi. Onun iştirakçıları arasında olan gizli ixtilaflar "müdafiə komitəsi" təşkil edilməsinin lap ertəsi günü özünü açıq şəkildə göstərməyə başladı.

"Müdafiə komitəsi" üzvləri arasında mövcud olan ixtilaflar müxtəlif səbəblərdən irəli gəlirdi. ABŞ neft cəmiyyəti nümayəndələri "Müdafiə komitəsi"ndə bir qədər etinasız mövqe tuturdular. Qəbul edilmiş bəyannamə "Royal datç-şell"in əl-qol açmasına, onun təklikdə sovet neftini ələ keçirməsinə imkan verməmək və s. nöqteyi-nəzərdən onların mənafeyinə uyğun gəldiyi halda, Deterdinqin "Müdafiə komitəsi"ndə hakim mövqe tutmasından "Standart oyl" o qədər də razı deyildi. Bu, gələcəkdə onun sovet neftinə hər hansı yolla yaxınlaşması üçün ciddi maneə ola bilərdi.

Sovet dövlətinə hədə-qorxu gəlmək, "Müdafiə komitəsi"ndə iştirak etməsilə özünün sovet neftinə olan birtərəfli gizli meyilini ört-basdır etmək cəhətdən bu yeni təşkilat "Royal datç-şell" trestini tam təmin edirdi. Lakin "Royal datç-şell"i narazı salan əsas cəhət bu idi ki, istər konfransın və istərsə də "Müdafiə komitəsi"nin sənədlərində nisbətən cüzi miqdar kapital itirmiş xırda neft cəmiyyətləri ilə onun arasında heç bir fərq qoyulmurdu. Bəyannamə bütün neft cəmiyyətlərinə eyni prinsiplə yanaşmaqla, "Royal datç-şell"in hüquqi üstünlüklərini nəzərə almamış, onu öz mənafeyini xırda cəmiyyətlərin mənafeyinə qurban verməyə məcbur etmişdi.

"Standart oyl" və "Royal datç-şell" trestlərinin vahid təşkilatda birləşməsi heç də onların arasındakı ixtilafları aradan qaldırmadı. Sovet neftinə təklikdə yiyələnmək zəminindən doğan şübhə və inamsızlıq onların arasında mövcud olan ziddiyyətləri gizli şəkildə daha da artırmışdı.

"Fransa-Belçika neft sindikatı" və digər əcnəbi neft cəmiyyətləri "Müdafiə komitəsi"nə Rusiyadakı öz mülkiyyətlərinin geri qaytarılmasının başlıca rəhni kimi baxırdılar. "Standart oyl" və "Royal datç-şell"ə nisbətən onlar bu təşkilatdan daha çox qazana bilərdilər. Lakin onları narahat edən əsas məsələ "Müdafiə komitəsi"nə əcnəbi neft cəmiyyətləri ilə birlikdə Rusiyanın mühacirətdə olan neft sahibkarlarının da daxil olması idi. Onlar qorxurdular ki, bu, "Müdafiə komitəsi"nin qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə çətinlik törətsin. Onlar bunu belə əsaslandırırlar ki, Rusiya neft sahibkarları ilə Sovet dövləti arasında yaranan mülkiyyət ixtilafları məsələsi onların sırf daxili işi olduğu üçün, əcnəbi dövlətlər öz vətəndaşları ilə birlikdə açıq şəkildə onları müdafiə edə bilməzlər. Əgər belə bir təşəbbüs göstərilərdisə, Sovet dövləti bundan istifadə edər, təkcə rus kapitalistlərinin deyil, həm də əcnəbi kapitalistlərin mülkiyyət tələblərini yerinə yetirməkdən boyun qaçırardı.

"Fransa-Belçika neft sindikatı" və digər xırda əcnəbi neft cəmiyətlərinin bu mövqeyi onlarla sabiq rus kapitalistləri arasında narazılığa səbəb olmaya bilməzdi.

"Fransa-Belçika neft sindikatı"ndan fərqli olaraq "Standart oyl" və "Royal datç-şell" trestləri isə bu məsələdə rus neft kapitalistlərini müdafiə edirdilər. Onlar rus kapitalistlərinin sovet neftinə qarşı yönəldilmiş ümumi



mübarizədən kənarda qalmasına əsla razı ola bilməzdilər. Rus kapitalistlərindən ucuz qiymətə, küllü miqdarda aldıqları səhmlərin gələcək taleyi "Standart oyl" və "Royal datç-şell" trestlərini onların müdafiəsinə qalxmağa məcbur edirdi.

"Müdafiə komitəsi" öz üzvləri arasında yaranmış və getdikcə kəskinləşməkdə olan bu ziddiyyətləri nəinki aradan qaldıra bilmədi, əksinə o özü tezliklə həmin ziddiyyətlərin qurbanı oldu. Paris "Müdafiə komitəsi" imperialist neft dəllallarının ona bəslədiyi böyük ümidləri doğrultmadı. O, qarşısına qoyduğu vəzifələrin birini də yerinə yetirmədən süqut etdi.

"Müdafiə komitəsi"nin süqutu təkcə onun daxili ziddiyyətlərinin nəticəsi deyildi. İlk mənbələrdən əldə edilmiş küllü miqdarda faktlar parlaq surətdə sübut edir ki, həmin təşkilatın dağılıb aradan qalxmasında Sovet dövlətinin ardıcıl olaraq yeritdiyi möhkəm və müstəqil xarici ticarət siyasəti də həlledici rol oynamışdı.

***

Kapitalist aləminin gənc Sovet hakimiyyətinə bəslədiyi düşmən münasibətə, onların sovet neftini ələ keçirmək üçün dəridən-qabıqdan çıxdıqları və hər cür vasitələrə əl atdıqları bir şəraitdə, sovet neftinin bütün müqavimətləri aradan qaldıraraq, beynəlxalq bazara çıxması hər şeydən əvvəl Sovet dövlətinin yeritdiyi müstəqil xarici ticarət siyasətinin nəticəsi idi.

Gənc Sovet dövləti öz fəaliyyətinin ilk günündən iqtisadi və siyasi həyatın bütün sahələri kimi. xarici ticarə-

ti də sosializm quruculuğu mənafeyinə uyğun olaraq yenidən qurmağa başladı. RSFSR XKS 1918-ci il aprelin 22-də xarici ticarətin milliləşdirilməsi və onun üzərində dövlət inhisarının qoyulması haqqında dekret verdi[1].

Milliləşdirilmiş xarici ticarəti tənzim etmək səlahiyyəti həmin dekretə əsasən RSFSR-nin Ticarət və sənaye üzrə xalq komissarlığına verildi.

Gənc Sovet hökumətinin xarici ticarət sahəsində gördüyü bu tədbir böyük siyasi və iqtisadi əhəmiyyətə malik idi. Xarici ticarətin inhisara alınması ölkənin xalq təsərrüfatını kapitalistlərin iqtisadi müdaxiləsindən müdafiə etməyə, ondan sosializm mənafeyi naminə müvəffəqiyyətlə istifadə edilməsinə imkan verdi.

Başqa sözlə desək, sosialist təsərrüfatını kapitalist ölkələrinin hücumundan müdafiə etmək və sosializm quruculuğu işinə daha yaxından kömək etmək kimi mühüm məqsədə xidmət etməli olan xarici ticarətin dövlət inhisarı Sovet ölkəsinin kapitalist dünyası ilə iqtisadi əlaqəsinin xüsusi, sosialist forması idi.

Sovet xarici ticarət siyasətinin kapitalist dövlətləri tərəfindən süngü ilə qarşılanması uzun sürmədi. Kapitalist dünyasının sovet iqtisadiyyatına olan misilsiz marağı xarici bazarın qıfıllanmış qapılarını tədricən Sovet mallarının üzünə açdı. Artıq 1921-ci ilin sonunda Sovet dövləti Estoniya, Latviya, Litva, Polşa, Çexoslovakiya, İngiltərə, İtaliya, Avstriya, Almaniya, İran, Norveç, Çin və s. dövlətlərlə iqtisadi ticarət əlaqəsinə malik idi[1]. Həmin il xaricdə Sovet dövlətinin 15 ticarət nümayəndəliyi fəaliyyət göstərirdi[2]. Sovet dövləti 1921-1922-ci təsərrüfat ilində 277,9 milyon rubl dəyərində mal ixrac etmişdi[3]. Bu, o demək idi ki, 1921-ci ilin sonu 1922-ci ilin əvvəllərində Sovet dövlətinin dünya bazarına çıxması problemi müvəffəqiyyətlə həll edilirdi.

[1] "Известия Всероссийского Центрального Исполнительного Комитета Советов", 23 апреля 1918 г.



Hazırda cüzi görünən bu rəqəmlər, həmin dövr üçün Sovet xarici ticarətinin ən böyük müvəffəqiyyəti kimi qiymətləndirilməlidir. Bu rəqəmlər uzun müddət xarici aləmdən təcrid edilmiş Sovet Rusiyasının beynəlxalq bazarla yaratdığı yeni əlaqənin möhkəm təməli idi.

Lakin bununla yanaşı olaraq həmin dövrdə Sovet dövlətinin ixracının azlığı xarici və daxili şəraitdən doğan bir sıra obyektiv səbəblərlə izah edilməlidir.

Dünya müharibəsi və xarici hərbi müdaxilə nəticəsində xarici aləmlə əlaqəsi kəsilmiş Rusiya, beynəlxalq bazarda öz müştərilərindən tamamilə məhrum olmuşdu. Beynəlxalq bazarlarda vaxtilə Rusiya malının istehlakçıları olan dövlətlər və ayrı-ayrı ticarət təşkilatları indi, beynəlxalq bazara yeni çıxmış sovet mallarına ehtiyatla, onun keyfiyyətinə şübhə ilə yanaşırdılar. Sovet ölkəsindəki təsərrüfat çətinlikləri və onun xaricdə qat-qat şişirdilməsi nəticəsində yaranmış əhval-ruhiyyə də sovet mallarına müştəri tapılmasına mane olurdu. Bəzi dövlətlər, ticarət təşkilatları və ayrı-ayrı kapitalistlər xaricdəki sovet

[1] SSRİ Oktyabr İnqilabı adına Mərkəzi Dövlət Arxivi (OİMDA) f. 413, s. 4, iş 72, vər. 6
[2] "Внешняя торговля" № 9-10, 1937, с. 23
[3] Yenə orada, s. 42

mallarının keyfiyyətinə və üstünlüyünə şübhə etmədikləri halda, həmin mal ilə sovet dövlətinin onu müntəzəm təchiz edəcəyinə inanmır və ona görə də digər kapitalist ölkəsindən uzaqlaşıb Sovet dövləti ilə ticarət münasibətinə girməyə cəsarət etmirdi. Bundan başqa Sovet dövlətinin bir sıra ölkələrə rəsmi diplomatik və ticarət münasibətlərinə malik olmasına baxmayaraq, orada hələ Sovet hakimiyyətinə qarşı hökm sürən düşmən münasibət aradan qalxmamış və Sovet ticarət nümayəndəliyinin hərtərəfli fəaliyyəti üçün imkan yaranmamışdı. Xaricdə olan Sovet ticarət nümayəndələri müxtəlif bəhanələrlə təhqir edilir, həbsə alınır və onların yerləşdiyi binalar tez-tez axtarış obyektinə çevrilirdi.

Xarici dövlətlərdə Sovet hakimiyyətinə qarşı hələ hökm sürməkdə olan bu kimi düşmən münasibətlər burada Sovet ticarət nümayəndəliyinin normal fəaliyyətinə ciddi əngəl törətməyə bilməzdi.

Sovet xarici ticarətinin ilk vaxtlar genişlənməsinə xarici amillərlə yanaşı, bir sıra daxili amillər də ciddi mane olurdu. İmperialist müharibəsi, xarici hərbi müdaxilə və vətəndaş müharibəsi nəticəsində ölkənin xalq təsərrüfatı dağılmış, fəlakət dərəcəsinə çatdırılmışdı. Ölkənin iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət nəinki xaricə küllü miqdarda mal çıxarmağa, hətta daxili tələbləri cüzi olsa da, ödəməyə imkan vermirdi. Vaxtilə beynəlxalq bazarda taxıl, neft və digər məhsullar üzrə hökmranlıq edən Rusiyanın indi özünün həmin mallara ciddi ehtiyacı vardı.

Sovet hakimiyyətinin ilk illərində mal ixracının azlığı yuxarıdakı səbəblərlə yanaşı, bir də onunla izah edilirdi ki, həmin dövrdə sovet xarici ticarət siyasətinin diqqət mərkəzində duran başlıca vəzifə ölkənin tələb etdiyi mal idxalını genişləndirməkdən ibarət idi. Ölkənin xarici ticarət üzrə ixrac fəaliyyəti onun idxal fəaliyyətinə tam tabe edilmişdi. Sovet dövləti həmin dövrdə bu və ya digər məhsulu xaricə heç də bolluq üzündən deyil, idxal edilmiş malların qiymətini ödəmək məqsədilə ixrac edirdi.



Bütün bu faktlar bir daha əyani surətdə göstərir ki, Sovet hakimiyyətinin ilk illərində onun ixrac etdiyi malların miqdarının 1921-22-ci təsərrüfat ilində 277,9 milyon rubla çatması Sovet dövlətinin təkcə xarici ticarət sahəsində deyil, həm də siyasi və iqtisadi sahədə əldə etdiyi müvəffəqiyyətlər idi.

***

Sovet dövlətinin xarici ticarət siyasətində neft və neft məhsulları ixracı özünə xüsusi yer tuturdu. Bunu göstərmək kifayətdir ki, o, 1921-22-ci təsərrüfat ilində yalnız sənaye məhsulları ixracından əldə etdiyi 139,4 milyon rublun 44,3 milyon rublunu təkcə neft məhsulları ixracından əldə etmişdi[1]. Neft, Sovet dövlətinin əlində həm iqtisadi və həm də siyasi cəhətdən ən qüdrətli bir silah idi.

Neftin son zamandan dünya iqtisadiyyatında və siyasətində oynadığı görkəmli rol gənc Sovet dövlətinin diqqət mərkəzindən kənarda qalmamışdı. Lakin Sovet dövləti özünün malik olduğu neftə, kapitalist dövlətlərindən köklü surətdə fərqli olaraq, başqa nöqteyi-nəzərdən yanaşır, ona həmin dövrdə özünün siyasi və iqtisadi

---

[1] "Внешняя торговля", № 9-10, 1937, c. 42

müstəqilliyinin ən zəruri silahı kimi baxırdı.

RSFSR Xalq Xarici İşlər Komissarı Q.V.Çiçerin Sovet hakimiyyətinin ilk illərində Sovet neftinin rolundan bəhs edərkən haqlı olaraq göstərmişdi: "Bizim neftimiz birinci dərəcəli siyasi silahdır. O, dünya münasibətlərinin açarı, iqtisadi yenidənqurmanın düyün nöqtəsidir"[1]. Q.V.Çiçerin başqa bir çıxışında isə qeyd etmişdi: "Sovet nefti bizim düşmənlərimizin arzusu olmaqla yanaşı, həm də bizim gücümüz, bizim istehsalımızın, bizim siyasətimizin gücüdür"[2].

Azərbaycan sovet neft sənayesinin bərpa və inkişaf etdirilməsində fövqəladə rol oynamış A.P.Serebrovski Oktyabr sosialist inqilabının ildönümü münasibətilə yazdığı "Oktyabr və neft" məqaləsində böyük iftixarla qeyd edirdi: "Tam əsasla demək olar ki, Oktyabr inqilabının əldə etdiyi nailiyyətlərin möhkəmləndirilməsində neft sənayesinin xidmətləri az olmamışdır"[3]. A.P.Serebrovski başqa bir yerdə göstərirdi: "Neft son illərdə beynəlxalq qüvvəyə çevrilmişdir...

...Neft SSRİ-nin əlində kapitalist əhatəsinə qarşı mübarizədə ən etibarlı iqtisadi və siyasi silahdır"...

A.P.Serebrovski, Kerzonun vaxtilə dediyi: "müttəfiqlər qələbəyə doğru neft dalğası üzərində üzürdülər" sözlərini xatırlayaraq yazırdı ki: "Sovet neft dalğası bizi də tez-gec qələbəyə – kapitalist əhatəsi üzərindəki qələbəyə gətirib çıxaracaqdır".

---

[1] Г.В.Чичерин. "Статы и речи", с. 290
[2] "Бакинский рабочий", № 48, 2 mart, 1925-ci il
[3] Yenə orada, № 225, 7 noyabr, 1925-ci il



Sovet dövləti, malik olduğu bu qüdrətli silahdan ancaq müstəqil neft siyasəti yeritmək vasitəsilə hərtərəfli istifadə edə bilərdi. Lakin Sovet dövləti özünün tam yeni əsaslar üzərində qurulmuş xarici neft siyasətini çətin və mürəkkəb bir şəraitdə həyata keçirməli idi. Bu sahədə gənc Sovet dövlətinin qarşısına çıxan çətinliklər əsasən, siyasi, iqtisadi və texniki xarakterli problemlərdən ibarət idi.

Dünya imperialist sisteminə ilk böyük zərbə vurmuş Oktyabr inqilabının qələbəsi nəticəsində yaranan Sovet hakimiyyəti bütün kapitalist aləmini Rusiyaya qarşı qaldırmışdı. Xarici dövlətlərlə köhnə Rusiyanın malik olduğu köhnə iqtisadi və siyasi əlaqələr qırılmış, yeniləri isə hələ yaranmamışdı. Gənc Sovet respublikasının siyasi varlığı ciddi təhlükə altında olduğu bir şəraitdə bu əlaqələrin bərpasından söhbət belə ola bilməzdi. Bunun üçün nə iqtisadi, nə də siyasi zəmin vardı. Sovet neftinin dünya bazarına çıxmasını təmin etmək və onun öz köhnə mövqeyini bərpa etmək üçün hər şeydən əvvəl Sovet hakimiyyəti kapitalist dövlətlərinə öz siyasi varlığını sübut etməli idi. Q.V.Çiçerin iqtisadi amillə siyasi amilin vəhdətindən bəhs edərək göstərirdi ki, "iqtisadi zəmin olmadığı zaman siyasi vəzifələr həyata keçirilə bilmədiyi kimi, heç bir iqtisadi müvəffəqiyyət də siyasi bazis olmadan möhkəm əsasa malik deyildir"[1].

Lakin Sovet dövləti, öz qarşısına çıxan bir sıra siyasi çətinliklərə baxmayaraq dünya bazarında Sovet neftinin köhnə mövqeyini sadəcə bərpa etməklə kifayətlənə

---

[1] Г.В.Чичерин. "Статьи и речи", с. 219

bilməzdi. XX əsrin əvvəllərindən başlayaraq dünya bazarında rus neftinin mövqeyi getdikcə zəifləməyə başlamışdı. Rusiya neftinin ixracında rekord ili hesab edilən 1904-cü ildə[1] buradan dünya bazarına 112 milyon pud neft məhsulları göndərildiyi halda[2], 1913-cü ildə ixrac edilmiş neft məhsullarının miqdarı 57,8 milyon puda enmişdi[3]. 1913-cü ildə ixrac edilmiş neft məhsullarının miqdarı həmin il hasil edilmiş neftin vur-tut 8,4 faizini təşkil etmişdi[4].

Rus neft ixracının 1904-cü ildən başlayaraq kəskin surətdə azalması ölkənin neft sənayesində baş verən vaxtaşırı böhranlarla əlaqədar olaraq hasilatın xeyli aşağı düşməsi, daxili bazarda neft məhsullarına olan ehtiyacın qismən artması ilə və s. bu kimi səbəblərlə yanaşı, bu bir də Rusiyanın dünya bazarından digər dövlətlər tərəfindən ciddi surətdə sıxışdırılması ilə izah edilməlidir.

1913-cü ildə ixrac edilmiş Rusiya nefti ümumdünya neft məhsulları ixracının vur-tut 6 faizini təşkil edirdi[5]. Həmin il ABŞ-ın payına düşən miqdar 70,8 faizdən və Rumıniyanın payına düşən miqdar isə 10,5 faizdən çox idi[6]. Rusiya nefti İngiltərə, Almaniya (Əldə olan mənbələrə görə, 1913-cü ildə Avropanın idxal etdiyi neft məhsullarının 33 faizi İngiltərənin, 23,5 faizi Almaniyanın payı-

[1] Г.С.Крейнин и Я.Е.Рубинштейн. "Экономика нефти", М.-Л., 1930, с. 134-135
[2] М.Б.Бондаревский. "Советская нефть", с. 140
[3] SSRİ XTNMA, f. 1, siyahı 11053, iş 111, vər. 1
[4] SSRİ XTNMA, f. 2309, siyahı 12, iş 111, vər. 36
[5] SSRİ XTNMA, f. 1, siyahı 11053, iş 111, vər. 1
[6] Э.А.Годзишевский. "Русская нефть на мировом рынке", М., 1924, с. 11



na düşürdü. Fransa idxal üzrə 3-cü yeri tuturdu[1]), Fransa, İtaliya kimi sənayecə inkişaf etmiş və neft məhsullarına böyük ehtiyacı olan bazarlardan Amerika nefti tərəfindən sıxışdırılıb əsasən çıxarılmışdı. Bunu 1913-cü ilin göstəriciləri əsasında tərtib edilmiş aşağıdakı müqayisəli cədvəldən daha aydın görmək olar[2]:

| Neft məhsulları ixrac edən ölkələr | İdxal edən ölkələr üzrə ixracın təşkil etdiyi faiz | | | |
|---|---|---|---|---|
| | İngiltərə | Almaniya | Fransa | İtaliya |
| ABŞ | 63,9 | 56,3 | 52,3 | 50,9 |
| Rusiya | 7 | 12,1 | 12,9 | 1,7 |

(Yerdə qalan miqdar isə Rumıniya, Hollandiya Hindistanı və digər dövlətlərin payına düşürdü).[3]

Birinci dünya müharibəsilə əlaqədar olaraq Rusiya neftinin dünya bazarındakı onsuz da zəif olan mövqeyi daha da pisləşdi. Bir sıra Avropa bazarlarının (Almaniya, Avstriya və s.) əldən çıxması və Türkiyənin müharibəyə qoşulması ilə Bosfor və Dardanel boğazlarının Rusiyanın üzünə bağlanması onun neft ixracını kəskin surətdə aşağı saldı. Müharibə dövründə Rusiya yalnız İsveç, Norveç, Finlandiya, İran, Əfqanıstan və Çin kimi qonşu dövlətlərə neft məhsulları ixrac etmək imkanına malik idi. Lakin həmin ölkələr sənaye və texnika cəhətdən zəif olduqlarına görə, əsasən, məişət ehtiyacları üçün ağ neft istehlak edir-

[1] Bax: Э.А.Годзишевски "Русская нефть на мировом рынке", с. 33-34
[2] В.И.Фролов. "Экономика нефтяного хозяйства", М.-Л., 1928, с. 251-252
[3] Yenə orada, s. 251-252

dilər. Bütün bunlar Rusiyanın dünya neft bazarındakı mövqeyinin pisləşməsinə səbəb olmaya bilməzdi. 1914-cü ildə Rusiyanın ixrac etdiyi neft məhsullarının miqdarı 1913-cü ildəki ixrac səviyyəsinin 55,8 faizini təşkil edirdi[1]. Bu göstərici müharibənin sonrakı illərində daha da azalmış, 1913-cü ildəki 57814 min puddan 1916-cı ildə 2534 min puda, 1917-ci ildə isə 2105 min puda enmişdi[2]. 1917-ci ildə ixrac edilmiş 2105 min pud neft məhsulundan 1703 min pudu təkcə Finlandiyanın payına düşürdü[3].

Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə isə Rusiyanın neft ixracı tamamilə kəsildi. RSFSR Xalq Ticarət Komissarlığının məlumatına görə 1918-ci ildə cəmisi 86274 pud sürtkü yağı (Almaniya, İsveç, Finlandiya və Ukraynaya – Ə.Ə.) ixrac edilmişdi[4]. 1918-ci ildən sonra isə Rusiyanın az miqdarda olsa da neft məhsulları ixrac etməsi haqqında heç bir rəsmi məlumata rast gəlinmir.

Faktlardan göründüyü kimi, Birinci dünya müharibəsi və Vətəndaş müharibəsi nəticəsində Rusiya nefti ümumdünya bazarından ayrı düşmüşdü. Bu dövrdə Rusiya neftinin əsas rəqibləri olan "Standart oyl", "Royal datç-şell" və digər neft şirkətləri dünya bazarlarında özlərini o qədər möhkəmləndirmişdilər ki, xarici bazarlarla əvvəlki münasibətləri yenidən, heç bir maneəyə rast gəlmədən qaydaya salmaqdan söhbət belə ola bilməzdi.

Sovet neftinin dünya bazarına yol tapması işində

---

[1] Э.А.Годзишевский. "Русская нефть на мировом рынке", с. 54
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada



qarşıya çıxan çətinliklər təkcə yuxarıda göstərilənlərdən ibarət deyildi. Ölkənin neft sənayesi dünya müharibəsi və xarici hərbi müdaxilə dövründə acınacaqlı vəziyyətə düşmüşdü. 1920-ci ildə 1913-cü il səviyyəsinin vur-tut 42 faizi qədər neft istehsal edilirdi[1]. Bununla heç daxili bazarın yanacağa olan tələbini ödəmək mümkün deyildi. Hələ 1913-cü ildə qənaət yolu ilə daxili bazarda 5914 min ton neft məhsulları işləndiyi halda[2], 1920-1921-ci təsərrüfat ilində neft sənayesi vur-tut 37808 min ton məhsul vermişdi[3]. Bu isə xalq təsərrüfatının və əhalinin məişət ehtiyacını ödəmək üçün kifayət deyildi. Rusiya Sovet hakimiyyətinin ilk illərində ölkədə əhalinin hər nəfərinə düşən ağ neftin miqdarına görə dünyada sonuncu yerlərdən birini tuturdu[4]. Hələ 1921-ci ildə burada əhalinin hər nəfərinin istifadə etdiyi ağ neftin miqdarı 1913-cü il səviyyəsindən 3 dəfə, ABŞ-ın 1921-ci il səviyyəsindən isə 20 dəfədən də çox aşağı idi[5].

Neft sənayesində davam edən geriləmənin qarşısını almadan və ölkənin daxili ehtiyaclarını minimum ödəmədən, dünya bazarına çıxmaq üçün əlverişli şərait belə olmuş olsa da, dərhal neft ixracına başlamaqdan söhbət belə olmazdı. Məhz bütün bunların nəticəsi idi ki, Sovet dövləti 1920-ci ildə bir neçə qonşu dövlətlərlə işgüzar əlaqə yaratdığı halda (Əsasən Baltikyanı ölkələr nəzərdə tutulur – Ə.Ə.), o neft məhsulları ixracına əsasən 1921-ci

---

[1] Э.А.Годзишевский. "Русская нефть на мировом рынке", с. 44
[2] "Мировая нефтяная торговля", М.-Л., 1936, с. 252
[3] Yenə orada, s. 251
[4] Б.М.Бондаревский. "Советская нефть", с. 133
[5] Yenə orada

ilin yazından başlamışdı[1]. Həmin il mart ayının 19-da Batumun XI Qırmızı Ordu qüvvələri tərəfindən tutulması Asiya və Avropa ölkələri ilə ticarət əlaqələrinə girməyə, həmin ölkələrə neft məhsulları göndərməyə imkan verdi.

Azərbaycan neftçiləri 1921-ci ilin mart ayının 23-də Türkiyəyə ilk neft məhsulu – 30 sistern xam neft, 2 sistern benzin və 8 sistern ağ neft yola saldılar[2].

Bu, cüzi azlıq təşkil etsə də, sovet neft sənayesinin ilk qələbəsi olmaq etibarı ilə böyük əhəmiyyətə malik idi. O, beynəlxalq bazarın möhtəşəm bəndlərini qoparacaq, gələcək sovet neft selinin ilki, müjdəçisi idi.

Sovet nefti dünya bazarındakı maneələri aradan qaldırıb, orada özünə yer etməsi üçün mütləq güclü, yaxşı təşkil edilmiş ticarət aparatına da malik olmalı idi.

Həmin dövrdə bütün xarici ticarət əməliyyatları bilavasitə Rusiya Xalq Xarici Ticarət Komissarlığı vasitəsilə aparıldığı üçün, o, qarşıya çıxan bütün zəruri məsələləri operativ surətdə dərhal həll etməyi çatdırmır, bunun nəticəsində də zəruri malların ixracında tez-tez ləngimə halları baş verirdi.

Lakin yaranmış imkanı təşkilati işə qurban verməк olmazdı. Neft trestlərinə, xüsusilə ölkənin ən böyük neft tresti olan Azneftə xarici ölkələrlə ticarət əlaqəsinə girmək üçün müstəqillik vermək lazım idi.

V.İ.Lenin özünün 2 aprel 1921-ci il tarixdə Azneftin rəisi A.P.Serebrovskiyə yazdığı məktubda göstərirdi: "...İndi Batumun bizim əlimizdə olduğu bir dövrdə bütün

[1] Azərb. Resp. MDA, f. 6, siyahı 1, iş 2, vər. 49
[2] Yenə orada



qüvvəni hasil edilən xam nefti və ağ nefti xaricdə avadanlıqla mübadilə etməyə vermək lazımdır. Bunun üçün Bakı rayonuna məlum müstəqillik lazımdır. Əgər Siz buna malik deyilsinizsə, dəqiq surətdə teleqram göndərin, biz bu müstəqilliyi sizə verərik. Təklifinizi dəqiq tərtib edib, teleqraf və poçta ilə əmək və Müdafiə Şurasına göndərin"[1].

Azneft Vİ.Leninin bu təşəbbüsünü alqışlayaraq ondan xahiş etdi ki, İran, Türkiyə və Avropa dövlətləri ilə Azərbaycan neft sənayesinin ticarət əlaqəsinə girmə müstəqilliyi Baş Neft Komitəsinə rəsmən bildirilsin. V.İ.Lenin Azneftin teleqramını alan kimi aprelin 18-də bu haqda Baş Neft Komitəsinə sərəncam verdi[2]. Bu məsələ 1921-ci ilin aprel ayının 19-da Rusiya Xalq Komissarları Sovetində müzakirə edildi. XKS Azneftin xarici bazarlarla müstəqil əlaqə saxamaq səlahiyyəti haqqında qərar hazırlamaq üçün komissiya yaratdı[3].

Artıq 1921-ci ilin ortalarında Azneft belə bir müstəqilliyə malik idi[4]. Azərbaycan nefti ilə yüklənmiş ilk sovet paroxodu "Corcia" (Gürcüstan – Ə.Ə.) 1921-ci ilin avqust ayının əvvəllərində İstanbula gəldi. Sovet neft mübadiləsi ekspedisiyasının rəhbəri Azneftin rəisi A.P.Serebrovskinin özü idi[5].

Azərbaycan nefti təkcə Türkiyə ticarət təşkilatları tərəfindən deyil, həm də oradakı Fransa və İtaliya neft

[1] Ленинский сборник, т. XX, с. 157
[2] А.П.Серебровский. "Руководства В.И.Ленина восстановлением нефтяной промышленности", М., 1958, с. 12
[3] Yenə orada
[4] Yenə orada
[5] Azərbaycan KP Tarixi Arxivi, f. 1, siyahı 74, iş 123, vər. 80

cəmiyyəti nümayəndələri tərəfindən dərhal alındı[1].

Rusiya Kommunist (bolşeviklər) Partiyası və Sovet hökuməti rəhbərliyi xarici ticarətin genişləndirilməsi üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etmək məqsədilə xarici ticarət əməliyyatlarının təşkili məsələsinə yenidən qayıtmalı oldu.

1921-ci ilin dekabrında çağırılmış RK(b)P-nin XI konfransı xarici ticarət əlaqələrini genişləndirmək məqsədilə istehsal sahələrini xarici bazarlara yaxınlaşdırmaq üçün, xarici ticarət üzərində dövlət inhisarını saxlamaq şərtilə bu və ya digər iri istehsal və istehlak birləşmələrinin birbaşa xariclə ticarət münasibətlərinə girməsi zəruriliyini qeyd etdi. Həmin istehsal və istehlak birləşmələri xarici ticarət əməliyyatlarını Xalq Xarici Ticarət Komissarlığı ilə əlaqəli və razılaşdırılmış şəkildə aparmalı idilər.

RSFSR MİK, partiyanın XI konfransının qətnaməsinə uyğun olaraq 1922-ci il 13 martda xarici ticarət haqqında yeni qərar qəbul etdi[2]. Həmin qərara əsasən Xarici Ticarət üzrə Xalq Komissarlığı dövlət orqanları tərəfindən ona verilmiş malları satmalı və əldə edilmiş vəsaiti ümumi dövlət fonduna keçirməli idi. Bundan başqa o, müqavilə üzrə dövlət orqanları, müəssisə və birləşmələri tərəfindən onu verilmiş malları xaricdə komissiyon qaydasında satmalı və əldə edilmiş məbləğ hesabına həmin təşkilat və birləşmənin sifariş etdiyi məhsulu xaricdən alınalı idi.

Xarici Ticarət üzrə Xalq Komissarlığı bu və ya

[1] А.П.Серебровский. "Руководства В.И.Ленина восстановлением нефтяной промышленности", с. 13

[2] "Сборник узоконении..." № 24, 1922, с. 266



digər təşkilat və birləşməyə xarici bazarla müstəqil əlaqəyə girmək hüququ verə bilərdi.

1921-ci ilin sonlarında Avropanın xalq təsərrüfatının qismən bərpa edilməsi ilə əlaqədar olaraq neft məhsullarına olan tələbin artması, sovet neftinin xaricdə getdikcə rəğbətlə qarşılanması, sovet neft sənayesinin bərpa və inkişaf etdirilməsi ilə əlaqədar olaraq qarşıya çıxan iqtisadi və texniki çətinliklərin aradan qaldırılması məqsədilə Azneftə xariclə birbaşa əlaqəyə girmək müstəqilliyi verildi.

Azneftə xarici bazarla müstəqil əlaqəyə girmək hüququnun verilməsinin çox böyük iqtisadi və praktiki əhəmiyyəti vardı. Beləliklə, istehsalın bu sahəsi xarici bazara çıxardığı öz məhsulu hesabına neft istehsalı üçün lazım olan texnika və avadanlıqla, fəhlələri də o dövrdə zəruri olan geyim və ərzaqla təmin etmək imkanına malik ola və özü üçün lazımi qədər vəsait ehtiyatı da toplaya bilərdi. Lakin "Azneft"in belə geniş imkana malik olması heç də müəyyən dairələri təmin etmirdi. Onun əldə etdiyi vəsaitdən digər regionlar və istehsal sahələrində istifadə etmək məqsədilə müxtəlif təşkilati bəhanələrlə bu hüquq tədricən Azneftin əlindən alındı.

Neft ixracı sahəsində indiyədək hökm sürən nöqsanları, kortəbiiliyi və qeyri-mütəşəkkilliyi aradan qaldırmaq üçün konkret tədbirlər görmək məqsədilə 1922-ci il mart ayının 25-də Xalq Xarici Ticarət Komissarlığının Baş Yanacaq idarəsilə birgə müşavirəsi keçirildi. Müşavirə neft ixracı sahəsindəki nöqsanları hərtərəfli təhlil edərək belə qərara gəldi ki, bilavasitə bu məsələ ilə məşğul olmaq üçün xüsusi bir orqanın yaradılması vaxtı çatmış-

dır. Müşavirə Xalq Xarici Ticarət Komissarlığı nəzdində "Xariclə neft məhsulları ticarəti üzrə dövlət birliyi" (ixtisarla "Neft ixracı idarəsi") adlı xüsusi təşkilat yaratmağı lazım bildi[1]. "Neft ixracı idarəsinin" əsasnaməsində qeyd edilirdi: "Neft sənayesinin həyati mənafeyinə riayət etməklə Sovet respublikasından ixrac üçün müəyyən edilmiş neft məhsullarını daha əlverişli və planlı surətdə satmaq və habelə Sovet neft sənayesi üçün zəruri olan predmetlərin idxalını təşkil etmək məqsədilə XXTK-nın nəzdində "Neft ixracı idarəsi" yaradılır"[2].

"Neft ixracı idarəsi" inhisar təşkilatı olub XXTK-nın nəzarəti altında qismən müstəqil fəaliyyət göstərməli idi. O, dünya neft bazarını öyrənməli, neft məhsullarının ixracını, satışını təşkil etməli, sovet neft trestlərinin avadanlıqlara olan sifarişlərinin XXTK-nın müvafiq orqanları tərəfindən yerinə yetirilməsinə yardım etməli idi.

"Neft ixracı idarəsi" bu vəzifələri yerinə yetirmək üçün xaricdə öz inzibati şöbələrini açmaq hüququna malik idi. O. neft məhsulları saxlamaq üçün xüsusi çənlər, neft kəməri, neft daşıyan gəmilər ala, yaxud da icarəyə götürə bilərdi[3].

"Neft ixracı idarəsi" öz əsasnaməsinə əsasən 5 nəfərdən ibarət təşkil edilirdi. Onlardan 2 nəfəri XXTK-nı, 1 nəfəri Baş Yanacaq idarəsini, 1 nəfəri Aznefti və 1 nəfəri isə Qroznınefti təmsil etməli idi[4].

1922-ci il 13 apreldə "Neft ixracı idarəsi"nin birinci

[1] RF XTMDA, f. 6882, siyahı 1, vər. 40
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada



təsis iclası oldu[1]. Xalq Xarici Ticarət Komissarlığının nümayəndəsi İ.İ.Radçenko idarənin sədri seçildi. R.Q.Terakopov Baş Yanacaq idarəsinin, B.İ.Plavnik XXTK-nın, N.İ.Solovyov Azneftin, E.P.Qribanov Qroznıneftin nümayəndəsi kimi "Neft ixracı idarəsinin" rəyasət heyətinə seçildilər[2]. İdarə ixrac, idxal, daşıma və sığortalama, bazarı öyrənmə və statistika, maliyyə-mühasiblik, təsərrüfat şöbəsindən ibarət olmaqla 6 şöbəyə malik idi[3].

"Neft ixracı idarəsi" faktiki olaraq 1922-ci ilin may ayının əvvəllində fəaliyyətə başladı[4]. Bununla neft ixracı sahəsində ilk mütəşəkkil ciddi addım atılmış oldu"[5]. "Neft ixracı idarəsi" 1922-ci ilin oktyabr ayına qədər Fransa ticarət firması "Sosifros", Almaniya ticarət şirkəti "Doyçe ordel", Estoniya şirkəti "Estonoloniya", həmçinin "Aziatik Petroleum kompani", "Refeneriya", "Bazelşaft", "Petrelium industri" şirkəti və s. olmaqla 23 xarici ticarət təşkilatı ilə böyük həcmdə neft məhsulları satışı haqqında müqavilə bağlamışdı[6].

Lakin "Neft ixracı idarəsi"nin yaradılması ilə heç də bu sahədəki nöqsanlar dərhal aradan götürülmədi. O, neft ixracı vəzifəsinin öhdəsindən müvəffəqiyyətlə gəldiyi halda, qarşısında duran ikinci vəzifənin – neft sənayesinin texniki avadanlığa olan ehtiyacının ödənilməsində çətinlik çəkirdi. Bu sahədə qarşıya çıxan problemlər Sovet dövlə-

[1] RF XTMDA, f. 6882, siyahı 1, vər. 40
[2] Yenə orada
[3] Yenə orada, vər. 38
[4] "Внешняя торговля", № 14, 1923, c. 24
[5] RF XTMDA. F. 2309, siyahı 12, iş 20, vər. 1
[6] Yenə orada, f. 2309, siyahı 3, iş 3, vər. 4-6

tinə neft ixracı sahəsində təşkilat məsələsinə yenidən qayıtmağa məcbur etdi.

1922-ci il oktyabın 1-də XXTK-nın nəzdində bilavasitə neft ticarətilə məşuğl olmaq üçün "Neft satışı sindikası" yarandı. "Neft satışı sindikası"nın əvvəlki "satış təşkilatı"ndan fərqi və üstünlüyü onda idi ki, "Neft ixracı idarəsi" təkcə xarici bazarla məşğul olduğu halda, bu, həm xarici, həm də daxili bazarda olan satış əməliyyatlarına rəhbərlik edirdi. Bu isə neft məhsullarına daxildə və xaricdə olan tələbləri əlaqələndirməyə və mövcud imkanlardan planlı və səmərəli istifadə etməyə imkan verirdi. Bundan başqa "Neft satışı sindikatı" neft trestlərinin ehtiyacı və imkanlarını daha yaxşı əlaqələndirə bilirdi. Yeni təşkilat qaydasına görə Azneft, Qroznıneft və digər neft trestləri indi xaricə bilavasitə deyil, ancaq "Neft satışı sindikatı" vasitəsilə məhsul göndərə bilərdilər.

Nəhayət, "Neft satışı sindikatı"nın əvvəlki təşkilat formasından üstündüyü bir də onda idi ki, "Neft ixracı idarəsi" xaricdə öz fəaliyyətini oradakı sovet ticarət nümayəndəliyi və müvəkkillikləri vasitəsilə həyata keçirdiyi halda, o, bu işdə məşğul olmaq üçün özünün xüsusi nümayəndəliyinə və kontoruna malik idi. Bu isə ona daha geniş fəaliyyət göstərməyə imkan verirdi. 1922-ci ilin sonu, 1923-cü ilin əvvəllərində "Neft satışı sindikatı"nın Berlində, Londonda, Parisdə, Romada, Stokholmda və s. yerlərdə Baş müvəkkilliyi və kontoru var idi.[1] "Neft sindikatı"nın 1923-cü ilin fevralında Bakıda təşkil edilmiş Şərq

[1] RF XTMDA, f. 2309, siyahı 1, iş 21, vər. 273



kontoru[1] daxili bazarla yanaşı (Azərbaycan, Gürcüstan, Ermənistan, Türkmənistan – Ə.Ə.), İranda, Bolqarıstanda, Türkiyədə, Yunanıstanda, Misirdə, Suriyada, Fələstində, İtaliyada, İspaniyada, Afrikanın bütün Aralıq dənizi boyu bazarlarında fəaliyyət göstərirdi[2]. Hələlik müvəkkillik olmayan yerlərdə bu vəzifə Sovet dövlətinin oradakı ticarət nümayəndəliyi tərəfindən həyata keçirilirdi[3]. Bu barədə XXTK ilə "Neft satışı sindikatı" arasında xüsusi saziş mövcud idi[4].

Neft ixracı təşkilatının daha da təkmilləşdirilməsi və neft ixracı sahəsində görülən bir sıra digər mühüm tədbirlər tezliklə öz müsbət nəticəsini göstərdi. Sovet dövləti 1921-1922-ci təsərrüfat ilində 8521 min pud neft məhsulları ixrac etdiyi halda, 1922-1923-cü təsərrüfat ilində bu rəqəm xeyli artaraq 19845804 puda çatdı[5]. Həmin il təkcə neft ixracından 19149233 rubl (qızıl pul ilə) gəlir əldə edilmişdi[6]. 1921-1922ci təsərrüfat ilində ixrac edilmiş neftin miqdarı 1913-cü il səviyyəsinin 14,7 faizini təşkil etdiyi halda 1922-1923-cü təsərrüfat ilində bu göstərici artaraq 34,3 faizə çatmışdı[7].

1922-1923-cü təsərrüfat ilində neft ixracı sahəsində qazanılan nailiyyətlər onu göstərirdi ki, Rusiya nefti dünya bazarında itirdiyi əvvəlki mövqelərini tədricən bər-

[1] Azərb. Resp. OİMDA, f. 1610, siyahı 5, iş 1, vər. 60
[2] Yenə orada
[3] RF XTMDA, f. 2309, siyahı 1, iş 21, vər. 273
[4] Yenə orada, vər. 271
[5] Yenə orada, siyahı 3, iş 81, vər. 10
[6] Yenə orada
[7] Yenə orada

pa etməkdədir. Həmin təsərrüfat ilində sovet neft ixracı işində əldə edilmiş müvəffəqiyyətlər təkcə kəmiyyət sahəsində qazanılmış uğurlar deyildi. Həmin ilin ən böyük nailiyyəti sovet neftinin daha yeni-yeni bazarlara yol açması idi. 1921-1922-ci təsərrüfat ilində Sovet ölkəsi əsasən 5 ölkəyə neft ixrac etdiyi halda, 1922-1923-cü ildə onların sayı artaraq 13-ə çatmışdı[1].

Qarşıya çıxan müxtəlif xarakterli saysız-hesabsız maneələrə və dünya bazarını öz əlinə almış ingilis və amerikan neft trestlərinin ciddi rəqabətinə baxmayaraq, sovet neftinin beynəlxalq aləmə yol açması və getdikcə yeni-yeni mövqelər əldə etməsi bir sıra səbəblərlə izah edilməlidir. Bunlardan ən mühümü və başlıcası o idi ki, sovet dövlətinin beynəlxalq vəziyyəti qismən möhkəmlənmiş və iqtisadi əlaqələri genişlənmişdi. Bununla yanaşı, ölkənin neft sənayesində nəinki geriləmə aradan qaldırılmış, habelə burada 1923-cü ildən yenidənqurma işinə başlanmışdı. Nəticədə neft hasilatı artmışdı. 1920-1921-ci təsərrüfat ilində cəmi 37808 min pud neft hasil etdiyi halda, 1922-1923-cü təsərrüfat ilində onun miqdarı 52767 min puda qalxmışdı[2].

Sovet neft ixracının artmasına imkan verən digər mühüm səbəblərdən biri də dünya təsərrüfatının neft məhsullarına olan tələbinin getdikcə artması idi. Bəhs edilən dövrdə Birinci dünya müharibəsinin ayrı-ayrı ölkələrin iqtisadiyyatına vurduğu yara qismən sağalmış, neft məhsullarına ehtiyacı olan sahələr artmış və genişlənmişdi.

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 81, vər. 10
[2] "Мировая нефтяная торговля", М.-Л., 1936, с. 251



Bunu bir neçə ölkənin nümunəsindən daha aydın görmək olardı. Məsələn, Birinci dünya müharibəsindən sonra Almaniyanın ərazisinin və əhalisinin nisbətən azalmasına baxmayaraq o, 1922-ci ildə 1913-cü ilə nisbətən daha çox neft məhsulları idxal etmişdi. 1913-cü ildə buraya 248013 ton sürtkü yağı gətirildiyi halda, 1922-ci ildə idxal olunmuş sürtkü yağının miqdarı 289593 tondan çox idi[1] İtaliya 1913-cü ildə 90000 ton ağ neft, 40000 ton benzin və 60000 ton sürtkü yağı işlətdiyi halda, 1922-ci ildə isə 115000 ton ağ neft, 140000 ton benzin işlətmişdi[2]. Texnika cəhətdən Avropa dövlətlərindən çox geridə qalmış Misir 1913-cü ildə cəmisi 100000 ton məhsulu (əsasən, ağ neft) idxal etdiyi halda, 1922-ci ildə buraya 120000 ton ağ neft, 10000 ton benzin və 10000 ton sürtkü yağı gətəirilmişdi[3]. Öz xüsusi neftinə malik olmayan ölkələrdə də vəziyyət təxminən belə idi. Şübhəsiz ki, dünya təsərrüaftı sovet neftinə istər-istəməz ehtiyac hiss etməkdə idi. Məhz bunun nəticəsi idi ki, bir sıra ölkələr heç bir mülahizə ilə hesablaşmayaraq, Sovet İttifaqına tərəf meyl göstərirdilər.

"Нефтяное и слонцевое хозяйство" jurnalı 1923-cü ildə özünün hələ yanvar nömrəsində "Rus neftinin ixrac perspektivləri haqqında" adlı məqalədə yazırdı: "Rus neft məhsulları xaricdə özünə müştəri tapacaqmı?" Bu suala biz mübahisəsiz müsbət cavab verə bilərik.

Daxili yanacaqla işləyən mühərriklərin tətbiqi, bir

[1] RF XTMDA, f. 2309, siyahı 12, iş 20, vər. 30
[2] Yenə orada, vər. 32-33
[3] Yenə orada, vər. 37

çox sahələrdə bərk yanacağın duru yanacaqla əvəz edilməsi, avtomobil nəqliyyatı və aviasiyanın inkişafı, kənd təsərrüfatında traktorun tətbiqi, hərbi və mülki donanmanın duru yanacağa keçirilməsi cəhdləri.. ilə yanaşı, neftin müasir beynəlxalq münasibətlərdə oynadığı rol dünya bazarında rus neft məhsullarının satılmasına kifayət qədər təminat verir"[1]. Sovet neft ixracının artmasında onun mövqeyinin coğrafi cəhətdən daha əlverişli olması da az əhəmiyyət kəsb etmirdi.

Dünya trestləri "Standart oyl" və "Royal datç-şell" Avropaya və Şərq bazarlarına neft məhsullarını Birmadan, Hindistandan, Meksikadan, Cənubi Amerikanın digər ölkələrindən və ABŞ-ın qərb ştatlarından gətirirdilər. Bu isə həm dəniz yolu və həm də dəmir yolu ilə daşıma nöqteyi-nəzərdən xeyli vaxt və vəsait tələb edirdi. Məsələn, əgər Meksika körfəzi ilə İtaliya arasındakı məsafəni yük paroxodu bəhs edilən dövrdə 45 günə qət edirdisə, İtaliya ilə Qara dəniz arasındakı məsafənin gedib-gəlinməsinə orta hesabla cəmi 20 gün vaxt tələb olunurdu[2]. Deməli, Sovet dövləti Avropa və Şərq bazarlarına həm vaxta, həm də xərclərə qənaət etməyə imkan verən real üstünlüyə malik idi. Bu üstünlük dünya bazarında Sovet neft məhsullarının satış qiymətinə müsbət təsir etməyə bilməzdi.

"Arkos"un ("Arkos" həmin dövrdə İngiltərə-Sovet qarşılıqlı ticarət təşkilatı idi – Ə.Ə.) nümayəndəsi 1922-ci ilin dekabrında Londondan xəbər verirdi ki, İngiltərədə

---

[1] "Нефтяное и сланцевое хозяство", № 1, 1923, с. 22-23
[2] RF XTMDA, f. 2309, siyahı 11, iş 76, s. 48



sovet benzininin qiyməti Amerika benzininin qiymətinə bərabərdir. Sovet ağ nefti və sürtkü yağı isə Amerikanın həmin çeşiddən olan məhsullarına nisbətən xeyli ucuzdur[1]. Başqa bir məlumatda göstərilirdi ki, İstanbulda sovet xam neftinin hər tonunun dəyəri 50 şill., maşın yağının bir tonunun dəyəri isə 12,5 funt sterlinq olduğu halda, digər dövlətlərin həmin çeşiddən olan neft məhsullarının dəyəri daha yuxarı idi[2].

Sovet neft məhsullarının digər neft trestlərinin məhsullarına nisbətən keyfiyyətcə üstün olmasına baxmayaraq, ucuz qiymətə satılması təkcə ona çəkilən xərcin aşağı olması ilə bağlı deyildi. Bu, həm də bəhs edilən dövrdə dünya bazarına çıxmaq və möhkəmlənmək üçün Sovet dövləti tərəfindən tətbiq edilən müvəqqəti taktikanın nəticəsi idi.

Sovet neftinin dünya bazarına yol açması artıq göz qabağında idi. Bu, onu göstərirdi ki, Sovet neftini ələ keçirmək üçün neft krallarının böyük ümid bəslədikləri "boykot" taktikası da onların gözlədikləri nəticəni verə bilməmişdi. Kapitalist ölkələrinin iqtisadi və siyasi mənafelərinin özü sovet neftinə geniş yol açdı.

***

Sovet neftinin imperialistlər tərəfindən boykot edilməsi cəhətinin baş tutmaması, sovet neftinin dünya bazarında əldə etdiyi ilk müvəffəqiyyətlər "Royal datç-şell"

---

[1] Azərb. Resp. MDA, f. 1610, siyahı 5, iş 4, vər. 172
[2] Yenə orada, f. 411, siyahı 4, iş 234, vər. 2-3

terstinin başçısı Henri Deterdinqi hərəkətə gətirdi. O, "Müdafiə komitəsi" vasitəsilə sovet neftinə sahib ola bilməyəcəyini özünəməxsus bir uzaqgörənliklə yəqin edərək öz rəqibi "Standart oyl" trestini qabaqlamağı qət etdi.

"Royal datç-şell" Sovet "Neft sindikatı"nın Londondakı nümayəndəsi ilə danışıqlara başladı. Sovet dövləti, sovet neftinə qarşı yaranmış beynəlxalq cəbhəni yarmaq, rəqiblər arasında mövcud olan ixtilafları daha da kəskinləşdirmək və həmin ixtilaflar zəminində sovet neftinə daha geniş yol açmaq kimi iqtisadi və siyasi mülahizələrə görə "Royal datç-şell"lə danışıqlar aparmağa razılıq verdi.

"Standart oyl" trestinin rəhbərliyi tresti də öz növbəsində "Royal datç-şell"i qabaqlamaq fikrində idi. 1923-cü ilin əvvəllərində "Standart oyl"un nümayəndəsi Fon-Rideman ilə sovet "Neft sindikatı"nın Berlin nümayəndəsi arasında danışıqlar başlanmışdı[1]. Sovet "Neft sindikatı"nın SSRİ Dövlət Plan Komissiyasının Rəyasət heyətinə ünvanladığı 20 dekabr 1922-ci il tarixli bir məlumatda göstərilirdi ki, hazırda "Neft sindikatı" müxtəlif əcnəbi neft təşkilat və qrupları ilə, o cümlədən "Andre", "Şliman", "Standart oyl" və s. ilə danışıqlar aparır"[2].

Lakin çox ehtimal ki, "Standart oyl" Sovet "Neft sindikatı"nın "Royal datç-şell"lə də danışıqlar aparmasından xəbərsiz idi. Bunu Fon-Rideman ilə "Neft sindikatı"nın Berlin nümayəndəsi arasında gedən danışıqlar və "Standart oyl"un irəli sürdüyü şərtlər əsasında müəyyən

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 13, vər. 23
[2] Yenə orada, vər. 21



etmək olar. "Royal datç-şell"lə aparılan danışıqlar güzəştli şərtlər üzrə neft məhsulları ticarəti ətrafında getdiyi halda, "Standart oyl" milliləşdirilmiş sahələrin geri qaytarılmasında təkid edirdi[1].

Sovet "Neft sindikatı" "Standart oyl"a yalnız güzəştli şərtlər üzrə neft satmağa razı olduğunu bildirdikdə, Fon-Rideman danışıqları kəsdi və məsləhətləşmələr üçün Parisə getdi[2].

Sovet "Neft sindikatı"nın Berlin nümayəndəsinin Moskvaya bu barədə verdiyi məlumatda göstərilirdi: "Təəssüflər olsun ki, amerikalılarla sövdə baş tutmadı. Onların danışıqlardan boyun qaçırmalarını mən, Parisdən edilən müstəna təzyiqdə görürəm. Məlumdur ki, orada rus neft ixracına bütün vasitələrlə mane olmaq haqqında qərar qəbul edilmişdir. Şəxsən mən, bizə qarşı yaranmış blokadanın ciddiliyinə və daimiliyinə inanmıram. Lakin, hələlik indi bu faktla hesablaşmaq lazım gəlir. ...Fon-Rideman Parisə getdi və biz bir neçə gündən sonra ondan rədd cavabı aldıq. Şübhə yoxdur ki, Parisdə ona təzyiq göstərmişlər"[3].

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, "Standart oyl" "Royal datç-şell"in Sovet dövlətilə danışıqlar aparmasını bilmədən, onu qabaqlamaq məqsədilə belə bir addım atmışdı. O, belə bir danışıqlar getdiyini bilərdisə, çox ehtimal ki, qəbul edilməz şərtlər irəli sürməz, təşəbbüsü öz rəqibinin əlindən qoparmaq məqsədilə danı-

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 22, vər. 69
[2] Yenə orada
[3] Yenə orada

terstinin başçısı Henri Deterdinqi hərəkətə gətirdi. O, "Müdafiə komitəsi" vasitəsilə sovet neftinə sahib ola bilməyəcəyini özünəməxsus bir uzaqgörənliklə yəqin edərək öz rəqibi "Standart oyl" trestini qabaqlamağı qət etdi.

"Royal datç-şell" Sovet "Neft sindikatı"nın Londondakı nümayəndəsi ilə danışıqlara başladı. Sovet dövləti, sovet neftinə qarşı yaranmış beynəlxalq cəbhəni yarmaq, rəqiblər arasında mövcud olan ixtilafları daha da kəskinləşdirmək və həmin ixtilaflar zəminində sovet neftinə daha geniş yol açmaq kimi iqtisadi və siyasi mülahizələrə görə "Royal datç-şell"lə danışıqlar aparmağa razılıq verdi.

"Standart oyl" trestinin rəhbərliyi tresti də öz növbəsində "Royal datç-şell"i qabaqlamaq fikrində idi. 1923-cü ilin əvvəllərində "Standart oyl"un nümayəndəsi Fon-Rideman ilə sovet "Neft sindikatı"nın Berlin nümayəndəsi arasında danışıqlar başlanmışdı[1]. Sovet "Neft sindikatı"nın SSRİ Dövlət Plan Komissiyasının Rəyasət heyətinə ünvanladığı 20 dekabr 1922-ci il tarixli bir məlumatda göstərilirdi ki, hazırda "Neft sindikatı" müxtəlif əcnəbi neft təşkilat və qrupları ilə, o cümlədən "Andre", "Şliman", "Standart oyl" və s. ilə danışıqlar aparır"[2].

Lakin çox ehtimal ki, "Standart oyl" Sovet "Neft sindikatı"nın "Royal datç-şell"lə də danışıqlar aparmasından xəbərsiz idi. Bunu Fon-Rideman ilə "Neft sindikatı"nın Berlin nümayəndəsi arasında gedən danışıqlar və "Standart oyl"un irəli sürdüyü şərtlər əsasında müəyyən

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 13, vər. 23
[2] Yenə orada, vər. 21



etmək olar. "Royal datç-şell"lə aparılan danışıqlar güzəştli şərtlər üzrə neft məhsulları ticarəti ətrafında getdiyi halda, "Standart oyl" milliləşdirilmiş sahələrin geri qaytarılmasında təkid edirdi[1].

Sovet "Neft sindikatı" "Standart oyl"a yalnız güzəştli şərtlər üzrə neft satmağa razı olduğunu bildirdikdə, Fon-Rideman danışıqları kəsdi və məsləhətləşmələr üçün Parisə getdi[2].

Sovet "Neft sindikatı"nın Berlin nümayəndəsinin Moskvaya bu barədə verdiyi məlumatda göstərilirdi: "Təəssüflər olsun ki, amerikalılarla sövdə baş tutmadı. Onların danışıqlardan boyun qaçırmalarını mən, Parisdən edilən müstəna təzyiqdə görürəm. Məlumdur ki, orada rus neft ixracına bütün vasitələrlə mane olmaq haqqında qərar qəbul edilmişdir. Şəxsən mən, bizə qarşı yaranmış blokadanın ciddiliyinə və daimiliyinə inanmıram. Lakin, hələlik indi bu faktla hesablaşmaq lazım gəlir. ...Fon-Rideman Parisə getdi və biz bir neçə gündən sonra ondan rədd cavabı aldıq. Şübhə yoxdur ki, Parisdə ona təzyiq göstərmişlər"[3].

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki. "Standart oyl" "Royal datç-şell"in Sovet dövlətilə danışıqlar aparmasını bilmədən, onu qabaqlamaq məqsədilə belə bir addım atmışdı. O, belə bir danışıqlar getdiyini bilərdisə, çox ehtimal ki, qəbul edilməz şərtlər irəli sürməz, təşəbbüsü öz rəqibinin əlindən qoparmaq məqsədilə danı-

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 22, vər. 69
[2] Yenə orada
[3] Yenə orada

şıqların neft ticarətilə məhdud edilməsinə razılıq verərdi.

Sovet dövlətinin tutduğu mövqe – hər iki dünya tresti ilə eyni zamanda danışıqlar aparması, həmin dövrdə onun yeritdiyi müstəqil neft siyasətindən doğurdu. Bu, neft imperialistlərinin vahid cəbhəsini yarmaq məqsədilə, dünya neft nəhənglərinin şərtlərini götür-qoy etməyə, onlardan daha münasibi ilə razılığa gəlməyə imkan verirdi. Bundan başqa Sovet dövlətinin hər iki neft tresti ilə eyni zamanda danışıqlar aparması bir də ona görə düzgün taktika idi ki, əgər digər neft trestləri bundan xəbər tutardılarsa, onlar danışıqlara daha ciddi səy göstərər, onun müvəffəqiyyətlə nəticələnməsini xeyli sürətləndirərdilər.

Doğrudan da, çox tezliklə Sovet dövləti ilə "Royal datç-şell" tresti arasında gedən danışıqlar müvəffəqiyyətlə nəticələndi. 1923-cü il martın 29-da sovet "Neft sindikatı" ilə "Royal datç-şell"ə daxil olan "Aziatik petroleum" şirkəti arasında saziş imzalandı[1]. Həmin sazişə əsasən sovet "Neft sindikatı" "Aziatik petroleum"a 1923-cü ildə hər tonu 65 şill. dəyərində olmaqla 2 milyon ton ağ neft satmağa razılıq verdi[2].

Sovet neft ticarəti təşkilatı ilə "Royal datç-şell" tresti arasında bağlanan bu saziş böyük iqtisadi və siyasi əhəmiyyətə malik idi. Onun əhəmiyyətini hətta mürtəce burjua mətbuat nümayəndələri də etiraf etməyə məcbur olmuşdular. İngiltərədə çıxan "Finansist" qəzeti həmin günlərdə yazırdı: "Royal datç-şell" trestinin son addımı və yeritdiyi siyasət Sovet dövləti tərəfindən beynəlxalq neft sa-

[1] RF XTMDA, f. 2309, siyahı 12, iş 20, vər. 5
[2] Yenə orada



hibkarlarının tələbinin ödənilməsini qeyri-müəyyən vaxta təxirə salmağa imkan verdi"[1].

SSRİ Xalq Xarici Ticarət Komissarı L.B.Krasin "Royal datç-şell" tersti ilə bağlanmış sazişi xarakterizə edərək göstərirdi: "Neft blokadası", sovetlərlə hər hansı ticarət münasibətinə girməyə qadağan edən "Paris neft andının" əksinə olaraq, bizdən küllü miqdarda neft məhsulları almış "Royal datç-şell" trestinin birtərəfli hərəkətilə yarıldı"[2].

"Royal datç-şell"in "Müdafiə komitəsinə" etdiyi bu xəyanət onun üzvlərini dəhşətə gətirdi. Parisdən verilmiş bir məlumatda deyilirdi ki, "Royal datç-şell"in bu mövqeyi Rusiya neftində marağı olan bütün cəmiyyətlərdə ona qarşı düşmən hissləri yaratmışdır[3]. Onlar "Royal datç-şell"in bu xain hərəkətində, "boykot" şüarını öz bayrağında iri hərflərlə yazmış "Müdafiə komitəsi"nin sonunu görürdülər.

Paris "Müdafiə komitəsi"nin üzvü olub-olmamasından asılı olmayaraq, Rusiya neftində marağı olan bütün neft cəmiyyətləri "Royal datç-şell"ə yazılı şəkildə etiraz etdilər[4]. Onlar göstərirdilər ki, "Royal datç-şell"in bu hərəkəti Sovet dövlətinə müəyyən miqdar kapital əldə etməyə imkan verəcək və beləliklə də Rusiya neft sənayesində mülkiyyətdən məhrum edilmiş "qanuni" sahibkarların öz mülkiyyətlərinə yenidən sahib olmaq imkanını azal-

[1] "Финансист" qəzeti, 24 aprel 1923-cü il
[2] "Энциклопедия русского экспорта", т. 1, Берлин, 1925, с. 8
[3] RF XTNMA, f. 1, siyahı 1327, iş 109, vər. 74
[4] Yenə orada, s. 83

dacaqdır[1]. "Fransa-Belçika neft sindikatı" öz etirazında yuxarıda göstərilənlərlə birlikdə bir də bunu əlavə etmişdi ki, "Royal datç-şell"in sovet nefti alması, həmin tresta Avropa bazarlarını ucuz qiymətli neft məhsulları ilə doldurmağa imkan verəcəkdir ki, bu da "Fransa-Belçika sindikatı"nın yenə də mənafeyinə toxunmaq deməkdir[2].

"Royal datç-şell" yaranmış vəziyyəti gərginləşdirməmək və dünya neft ictimaiyyəti içərisində öz əvvəlki mövqe və nüfuzunu saxlamaq məqsədilə Sovet dövləti ilə bağlanmış müqavilədə onun həmkarlarının da iştirak etmələrinə razı olduğunu bildirdi[3]. "Royal datç-şell"in bu təklifi "Müdafiə komitəsi"nin üzvləri tərəfindən böyük qəzəblə qarşılandı. Onlar Sovet dövlətilə bağlanmış müqavilənin dərhal ləğv edilməsini tələb etdilər[4].

"Ehtiyatsızlığı" ilə böyük beynəlxalq mərəkəyə səbəb olmuş "Royal datç-şell" öz hərəkətinə haqq qazandırmaq məqsədilə mətbuatda çıxış etməyə məcbur oldu. İngiltərə tresti burada göstərirdi ki, Paris konfransının bəyannaməsi qəbul edilərkən, "Royal datç-şell" Rusiyadakı mülkiyyətlərini öz köhnə sahiblərinə qaytarmağa ümumi səy göstərmək işində iştirak etməyə razı olduğunu açıq bildirmişdir. Lakin o, rus mənbələrindən əldə edilmiş nefti almayacağı haqqında üzərinə heç bir öhdəçilik götürməmişdir. Bütün bunlara bərabər, "Royal datç-şell" boykotu yenə də davam etdirmək fikrində idi. Ancaq ona məlum olandan sonrakı "Standart oyl", "İngilist-İran neft

[1] RF XTNMA, f. 1, siyahı 1327, iş 109, vər. 93
[2] Yenə orada, vər. 74
[3] Yenə orada, vər. 83
[4] Yenə orada



kompaniyası" və "Müdafiə komitəsinin" digər üzvləri də küllü miqdarda rus nefti almağa çalışır, belə halda o sovet neft sindikatilə sövdəyə girməyə məcbur oldu[1].

"Royal datç-şell"in bu bəyanatı da "Müdafiə komitəsinin" üzvlərini razı salmadı. Məsələ "Müdafiə komitəsinin" müzakirəsinə verildi[2]. Sovet İttifaqından neft məhsulları alıb-almamaq məsələsini qəti həll etmək məqsədilə 1923-cü il aprel ayının 19-da "Müdafiə komitəsinin" Parisdə müşavirəsi çağırıldı[3]. Müşavirə iştirakçıları müzakirə edilən məsələ üzrə iki hissəyə bölündülər: Fransa, Belçika nümayəndələri, keçmiş rus neft sahibkarları Sovet İttifaqından neft məhsulları alınmasının qəti əleyhinə çıxdılar. Onlar nəinki öz köhnə mülkiyyətlərinin qaytarılmamasından qorxur, habelə "Standart oyl" və "Royal datç-şell" trestləri tərəfindən Avropa bazarlarının ucuz Sovet nefti ilə doldurulacağından və nəticədə burada sıxışdırılacaqlarından da ciddi ehtiyat edirdilər. "Fransa-Belçika sindikatı" müşavirəyə "Royal datç-şell"ə və digər neft cəmiyyətlərinə Sovet İttifaqından gələcəkdə neft almağı qadağan edən qərar layihəsi təqdim etdi[4]. Rus neft kapitalistləri də bu layihəyə tərəfdar çıxdılar[5].

"Royal datç-şell", "Standart oyl" və bir neçə digər neft cəmiyyətlərinin nümayəndələri isə müşavirədə Sovet İttifaqından neft məhsulları almaq tərəfdarı kimi çıxış etdilər. Bu işdə "Royal datç-şell"in mövqeyi xüsusilə aydın

[1] RF XTNMA, f. 1, siyahı 1327, iş 109, vər. 83
[2] Yenə orada
[3] "Бакинский рабочий", № 114, 25 may 1923-cü il
[4] RF XTNMA, f. 1, siyahı 1327, iş 109, vər. 95
[5] Yenə orada

idi. O, Sovet dövlətindən neft məhsulları almaq haqqında müqavilə bağlamış və bu *müqaviləni* pozmaq fikrində deyildi. "Standart oyl"a gəldikdə isə, o, Sovet nefti almağın *tərəfdarı kimi çıxış* etməkdə heç də öz qorxulu *rəqibi* "Royal datç-şell"i müdafiə etmək məqsədini güdmürdü. "Standart oyl" tresti də birtərfli olaraq sovet neft məhsullarını almağa cəhd edirdi. Buna görə də gələcəkdə "Royal datç-şell"in vəziyyətinə düşməmək üçün o, özünü indidən sığortalamağa çalışırdı.

Sovet neftinin alınması tərəfdarları müşavirədə öz mövqelərini onunla əsaslandırdılar ki, Sovet dövlətindən ucuz qiymətə neft məhsulları almaq, oradakı keçmiş mədənləri konsessiya yolu ilə geri qaytarmaqdan daha əlverişlidir. Çünki həmin mədənlərin bərpa edilib qaydaya salınması küllü miqdarda əlavə vəsait tələb edir.

Müşavirə iştirakçılarının fikir ayrılığı öz təsirini onun gedişində göstərməyə bilməzdi. Məhz bunun nəticəsi idi ki, o, müzakirə edilən məsələ barəsində heç bir konkret qərar qəbul etməyərək, "Rusiyadan neft məhsulları almaq işini öyrənən komitə" yaratmaqla öz işini qurtarmış oldu. Əslində isə, bu sovet neft məhsullarının alınıb-alınmaması məsələsinin qəti həllini qeyri-müəyyən müddətə təxirə salmaq demək idi.

Paris müşavirəsinin nəticəsindən razı qalmayan "Fransa-Belçika neft sindikatı" nümayəndələri 1923-cü ilin iyununda Fransanın baş naziri Puankareyə müraciət etdilər.[1] Müraciətdə göstərilirdi ki, "Royal datç-şell"in Sovet dövlətilə neft münasibətinə girməsi "Fransa-Belçika

[1] "Бакинский рабочий", № 2604, 18 noyabr 1923-cü il



neft sindikatı"nın hüquqlarının kobudcasına pozulması deməkdir. Fransa hökumətindən dərhal aşağıdakı tədbirlər görülməsi xahiş edilirdi:

1. Hər hansı təşkilat və cəmiyyət tərəfindən Rusiyadan Fransaya neft məhsulları gətirilməsi qəti qabağan edilsin;

2. Neft sahibkarlarının marağına zidd olaraq, Fransadan Rusiyaya kapital ixrac edilməsinə imkan verilməsin;

3. Fransada Rusiya ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinə yol verilməsin[1].

Lakin Puankare Fransa neft kapitalistlərinin hüquqlarının nə qədər ehtiraslı müdafiəçisi olmuş olsa da[2], bu təklif Fransa hökuməti tərəfindən qəbul edilə bilməzdi. Çünki Fransa hökuməti blokadanın yarılmasından xəbərsiz deyildi. Sovet İttifaqı 1923-cü ildə bir çox ölkələrə böyük miqdarda neft məhsulları ixrac etmişdi. Boykot siyasətini təkcə Fransa davam etdirərdisə, bundan Sovet İttifaqı deyil, onun özü uduzmuş olardı.

Məlum olduğu kimi, Fransa neft məhsullarına olan öz ehtiyacının çox mühüm hissəsini idxal vasitəsilə ödəyirdi. 1922-ci ildə burada işlədilən 2200000 ton neft məhsullarının vur-tut 70000 tonunu Fransa özü istehsal etmiş, qalan miqdarı isə satın almışdı[3]. Bundan istifadə edən dünya neft trestləri Fransa bazarlarında özbaşınalıq edirdilər.

[1] Е.Г.Девенпорт и Сидней Р.Кук. "Нефтяные тресты и англо-американские отношения", М., 1925, с. 131
[2] Azərb. Resp. MDA, f. 28, siyahı 2, iş 37, vər. 26
[3] RF XTMDA, f. 2309, siyahı 12, iş 20, vər. 26

"Pravda" qəzeti hələ 1923-cü ilin əvvəllərində Fransa hökumətinin sovet nefti məsələsində tuta biləcəyi mövqedən bəhs edərək yazırdı: "...Standart oyl"un məngənəsi arasında sıxılan Fransa özünün müstəqil neft siyasətini yeritməyə həddindən artıq maraqlıdır. Rus nefti olmadan, təkcə Mosul neftinə ümid bəsləməklə, Fransa bu siyasəti heç bir zaman yeridə bilməyəcəkdir. Məhz buna görə də ehtimal çox azdır ki, Fransa hökuməti rus neftini boykot etməkdə maraqlı olsun"[1].

Sovet dövlətinin Fransanın mövqeyi haqqındakı bu mülahizəsi tezliklə həyatda təsdiq edildi. 1922-1923-cü təsərrüfat ilinin sonlarında Fransada sovet neftinə doğru meylin qüvvətlənməsinə aid əldə edilmiş məlumatların birində göstərilirdi: "Rus neft məhsullarının Fransaya yol açması üçün indiyə qədər burada mövcud olan şərait o qədər də əlverişli deyildi. Hazırda isə vəziyyət kəskin surətdə dəyişmişdir. "Müdafiə komitəsi" adlanan təşkilatın göstərdiyi hər cür müqavimətə baxmayaraq, Rusiya ilə neft münasibətinə girmək arzusu həddən artıq güclənmişdir. Öz vəziyyətindən sui-istifadə edən Amerika, Fransa bazarında neft məhsulları üçün yüksək qiymətlər müəyyən etmişdir. Qiymətlərin ağırlığını Fransa o qədər artıq hiss etmişdir ki, hökumət rus neftini boykot etmək haqqında tutduğu əvvəlki mövqeyindən geri çəkilməyə hazırdır. Bu yaxınlarda Fransa ilə böyük neft sövdələşməsinə girəcəyimizə ümid etmək üçün artıq hər cür əsasımız vardır. Hətta bu sahədə bəzi əhəmiyyətli addımlar atılmışdır"[2].

[1] "Правда", № 28, 8 fevral 1923-cü il
[2] RF XTMDA, f. 2309, siyahı 12, iş 20, vər. 31



Fransanın iqtisadi marağı, burada sovet neftinə doğru qüvvətlənən meyl "Fransa-Belçika sindikatı"nın xahişinin Fransa hökuməti tərəfindən yerinə yetirilməsinə imkan vermədi. "Müdafiə komitəsi" özünün son günlərini keçirirdi. Onun üzvlərindən çoxu sovet neftinin boykot edilməsi siyasətindən açıq əl çəkib, Sovet "Neft sindikatı" ilə danışıqlar aparmaq yolunu seçmişdi. Bəziləri isə bir illik təcrübə əsasında ondan heç bir fayda görmədiklərinə görə, özlərinə yeni yollar axtarırdılar. "Müdafiə komitəsi"nin dağılması artıq göz qabağında idi. O, 1923-cü ilin sentyabrın sonunda – yararsız bir təşkilat kimi öz-özünə süqut etdi. "Müdafiə komitəsi" özünün bir illik varlığı müddətində onun təşkilatçılarının qarşıya qoyduğu vəzifələrin birini də olsun həll edə bilmədi.

"Müdafiə komitəsi"nin süqutu hələ heç də imperialistlərin sovet neftini ələ keçirmək cəhdindən imtina etmələri demək deyildi. Bədnam "Müdafiə komitəsi"nin bəyannaməsinə hələ sadiq qalan tör-töküntülər öz mülkiyyət hüquqlarının bərpasının yeganə rəhnini yenə də sovet neftinin boykot edilməsində görürdülər[1]. Onlar 1923-cü ilin oktyabrında özlərinin yeni təşkilatlarını – "Rusiyadakı neft cəmiyyətlərinin müttəfiqlərarası komitəsi"ni yaratdılar[2]. Buraya əsasən İngiltərə, Fransa və rus neft firmalarının nümayəndələri daxil oldular.

Lakin sovet nefti əleyhinə yaradılmış bu beynəlxalq təşkilat öz gücünə və sanballılığına görə "Müdafiə komitəsi"ndən çox-çox zəif idi. Buna görə də həmin təşki-

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 48, vər. 37
[2] "Нефтяное хозяство", № 11-12, 1926, s. 738

lat da dünya bazarına geniş yol açmaqda olan sovet neftinin qarşısını ala bilmədi. Sovet nefti ixracı ildən-ilə genişlənməyə başladı.

1923-cü ilin sonunda "Sovet neft ixracı cəmiyyəti" ilə İtaliya sənayeçiləri şirkəti "Utentinaft", İngiltərənin "Aziatik" firması və Almaniyanın "Stinnes" şirkətləri arasında böyük həcmdə neft məhsulu satışı haqqında müqavilə bağlandı[1]. Əvvəllər sovet neftini boykot taktikasının ciddi tərəfdarları olan neçə Fransa neft cəmiyyəti arasında ("Bosfor", "Belçika-Hollandiya firması" və s.) sovet nefti uğrunda ciddi rəqabət başlandı[2].

1923-cü ilin sonlarında "Bakinskiy raboçi" qəzeti sovet neft məhsullarının ixracının artmasından bəhs edərək yazırdı: "Xaricdə ağ neft, yağ və benzin satışı güclənmişdir. Xarici firmaların nümayəndələri Bakı yağına qəbz almaq üçün növbədə durmuşlar. Fransa və İngiltərə Sovet neft təşkilatı ilə müqavilə bağlamaq haqqında təcili danışıqlar aparırlar"[3].

1924-cü il yanvarın 7-də çağırılmış xarici ticarət üzrə Ümumittifaq müşavirəsində SSRİ Xalq Xarici Ticarət Komissarı L.B.Krasin iftixarla göstərirdi ki, 1923-cü ildə başqa məhsullarla yanaşı, neft məhsulları ixracı sahəsində də əhəmiyyətli müvəffəqiyyətlər qazanılmışdır[4].

Həqiqətən də neft ixracı sahəsində qısa müddətdə əldə edilmiş nailiyyətlər böyük idi. Sovet dövləti 1922-1923-cü təsərrüfat ilində 19846 min pud neft məhsulları

[1] "Бакинский рабочий", № 292, 25 dekabr 1923-cü il
[2] Yenə orada
[3] Yenə orada, № 291, 24 dekabr 1923-cü il
[4] "Международная летопись", № 1, 1924, с. 141



ixrac etdiyi halda, bu, 1923-24-cü ildə 45847,5 min puda qalxmışdı[1]. Həmin ildə ixrac edilmiş neft məhsullarının miqdarı 1913-cü il ixrac səviyyəsinin 79,3 faizinə çatmışdı[2].

1923-1924-cü ildə Sovet Neft sindikatı 20 ölkənin[3] 28 ticarət şirkətilə neft məhsulları satışı haqqında müqaviləyə malik idi[4]. Həmin il "Standart oyl"a 4327 min pud, "Royal datç-şell"ə və "İngilis-İran neft şirkəti"nə 15785 min pud, digər müstəqil ticarət firmalarına isə 24043 min pud neft məhsulları satılmışdı[5].

1923-1924-cü ildə İngiltərənin idxal etdiyi neft məhsullarının 3,8 faizini, Fransanın idxal etdiyi neft məhsullarının 4,3 faizini, Almaniyanın idxal etdiyi neft məhsullarının 10 faizini, İtaliyanın idxal etdiyi neft məhsullarının 6,5 faizini, Misirin idxal etdiyi neft məhsullarının 41,1 faizini, Belçikanın idxal etdiyi neft məhsullarının 10,3 faizini, Bolqarıstanın idxal etdiyi neft məhsullarının 14 faizini, Türkiyənin idxal etdiyi neft məhsullarının 24,3 faizini və s. sovet nefti təşkil edirdi[6].

Sovet dövlətinin 1923-1924-cü ildə ixrac etdiyi neft məhsullarının miqdarı çar Rusiyasının 1913-cü ildə bəzi ölkələrə etdiyi ixrac səviyyəsini ötmüş, bəzi ölkələrinə münasibətdə isə bu səviyyəyə yaxınlaşmışdı.

Gətirilmiş rəqəmlərdən göründüyü kimi, sovet nefti

[1] RF XTMDA, f. 2309, siyahı 22, iş 17, vər. 64
[2] Yenə orada
[3] Yenə orada, vər. 7
[4] Yenə orada, siyahı 3, iş 3, vər. 8-15
[5] Yenə orada, siyahı 11, iş 17, vər. 7
[6] Yenə orada, siyahı 22, iş 17, vər. 13

Şərq ölkələrində asanlıqla möhkəmləndiyi və 1913-cü ilin ixrac səviyyəsini xeyli ötdüyü halda Avropa ölkələrinə çətinliklə yol tapırdı (1913-cü ildə çar Rusiyasının ixrac etdiyi neft məhsullarından Türkiyənin payına 15,8 faiz, Misirin payına 12,9 faiz, Belçikanın payına 8,9 faiz, İtaliyanın payına 17 faiz, Almaniyanın payına 18,7 faiz, Fransanın payına 11,9 faiz, İngiltərənin payına isə 18,8 faiz düşmüşdü).[1]. Bu hər şeydən əvvəl onunla izah edilir ki, Birinci dünya müharibəsi illərində Avropa bazarları nəhəng dünya trestlərinin tam əlinə keçmiş və onlar həmin bazarlarda artıq qəti möhkəmlənmişdilər. Bunu İngiltərənin nümunəsindən daha aydın görmək olar. 1923-cü ildə buraya gətirilən benzinin 40 faizi, ağ neftin isə 57 faizi "Standart oyl" trestinə məxsus idi. Demək olar ki, buraya sürtkü yağının 100 faizi yenə də onun tərəfindən gətirilirdi[2]. "Royal datç-şell" tərəfindən gətirilən benzin İngiltərənin ümumi idxalının 47 faizini, ağ neft idxalının 29 faizini, qazolin idxalının 43 faizini, digər duru yanacaq növləri idxalının isə 81 faizini təşkil edirdi[3].

İngiltərə bazarında üçüncü yeri "İngilis-İran neft şirkəti" tuturdu. Benzinin 10 faizi, ağ neftin 14 faizi, qazolinin 11,5 faizi, duru yanacağın 4,5 faizi və xam neftin 99 faizi bu şirkətin payına düşürdü[4].

Bütün bu faktlar açıq-aydın göstərirdi ki, neft nəhənglərinin hökmranlıq etdiyi İngiltərə bazarına daxil olmaq olduqca çətinləşmişdir. Avropanın Fransa, Almaniya kimi sənayecə inkişaf etmiş və neft məhsullarına böyük ehtiyacı olan ölkələrdə də dünya neft trestlərinin təsiri az deyildi. Məhz bütün bunlara görə də həmin dövrdə sovet neftinin bu ölkələrdə əldə etdiyi mövqe qənaətbəxş hesab edilməlidir.

[1] Bax: В.И.Фролов. "Экономика нефтяного хозяства", с. 248
[2] RF XTMDA, f. 2309, siyahı 12, iş 20, vər. 26
[3] Yenə orada, siyahı 22, iş 17, vər. 26
[4] Yenə orada



***

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, sovet neftinin boykot edilməsi bəhs edilən dövrdə imperialistlərin müstəqil və başlıca taktikası olmayıb, yardımçı xarakterə malik idi. O, Sovet dövlətinin diqqətini əsil məsələdən yayındırmalı, xarici və daxili əksinqilabi qüvvələrin Sovet hakimiyyətinə qarşı yenidən baş qaldırması üçün görülən hazırlıq işini bir növ pərdələməli idi. Hər ehtimala qarşı sovet quruluşunu aradan qaldırmaq mümkün olmadığı halda, sovet neftinin boykot edilməsi, müstəqil bir taktika kimi tətbiq edilə bilərdi.

Deməli, neft sahibkarları öz köhnə mülkiyyətlərinə sahib olmağın yeganə real yolunu Sovet dövlətinə ediləcək hərbi müdaxilədə görürdülər. Məhz buna görə də onlar Sovet hakimiyyətinin xarici və daxili düşmənləri ilə həvəslə sövdələşməyə girir, müdaxilə hazırlığına maliyyə cəhətdən yaxından kömək edirdilər. Onların Fransada rus mühacirlərinin təşkil etdikləri "Ticarət sənaye komitəsi" ilə, Gürcüstanın mühacirətdə olan hökumətilə, "Qafqazın azad edilməsi komitəsi" ilə, alman generalı, Sovet hakimiyyətinin qəddar düşməni Qofmanla, İngiltərənin məşhur casus təşkilatının başçısı Reypinlə və s. bu kimi təşkilatlar və şəxslərlə yaratdıqları yaxın əlaqə ancaq sovet

neftini ələ keçirmək məqsədindən irəli gəlmirdi.

Kapitalist dövlətlərinin Sovet İttifaqına edəcəkləri hərbi müdaxiləyə İngiltərənin neft tresti "Royal datç-şell" xüsusi ümid bəsləyirdi. Bu, hər şeydən qabaq Oktyabr inqilabının qələbəsi nəticəsində həmin trestin Rusiyada küllü miqdar kapital itirməsi ilə izah edilir. İngiltərənin 1917-ci ildə Rusiya neft sənayesinə qoyduğu 172,8 milyon rubl kapitalın[1] çox böyük hissəsi "Royal datç-şell"in payına düşürdü. Təxmini hesablamalar göstərir ki, bu trest hələ 1915-ci ildə Rusiyanın təkcə 8 neft sənaye müəssisəsinə 60885,1 min rubl kapital qoymuşdu[2]. Bunlardan başqa, "Royal datç-şell"in prezidenti Deterdinq Sovet hakimiyyətinin qələbəsindən sonra da bir sıra neft şirkətlərinin səhmlərini ələ keçirmişdi. O, 1920-ci ilin iyulunda Mantaşev və Lionozovun "neft səhmlərinin" də xeyli hissəsini satın almışdı[3]. Bütün bunlar əyani surətdə sübut edir ki, Sovet hakimiyyətinə qarşı imperialist dövlətlərinin hazırladıqları qəsdlərdə digər xırda neft cəmiyyətlərinə nisbətən "Royal datç-şell" daha yaxından iştirak etməyə və səy göstərməyə məcbur idi.

"Royal datç-şell" rəhbərliyinin 1923-cü ilin martında Sovet dövləti ilə neft ticarəti haqqında müqavilə bağlaması[4], heç də onun Sovet hakimiyyətinə qarşı gizli mübarizədən imtina etməsi demək deyildi. Henri Deterdinq həmin dövrdə Rusiya neftində marağı olan cəmiyyətlərin və imperialist dövlətlərin işgüzar dairələrinin ciddi narazılığına səbəb olmuş bu müqavilədən sonralar bəhs edərək göstərmişdi ki, onun rəhbərlik etdiyi trest "vaxtilə rus neftini baş nazir Lloyl Corcun göstərişi ilə almışdır. Bu göstəriş isə siyasi mülahizələrdən irəli gəlmişdir[1]. Deterdinqin fikrinə görə, "Royal datç-şell"in Sovet İttifaqına yaxınlaşması Sovet hakimiyyətinə qarşı hazırlanan gizli qəsdi və burada İngiltərənin iştirakını pərdələmək işinə xidmət etməli idi. Bundan başqa "Royal datç-şell" həmin neft cəmiyyətlərindən daha yaxın olduğu üçün o, Sovet hakimiyyəti yıxılan kimi rus neftinə öz kapitalist möhürünü vurmaq və ona tam sahib olmaq imkanı verirdi. Göründüyü kimi, burjuaziyaya gözəl xidmət edən, mükəmməl burjua işbazı və siyasi fırıldaqçı Lloyd Corcun[2] mülahizələri "Royal datç-şell" trestini hərtərəfli təmin edirdi.

Sovet İttifaqına ediləcək hərbi müdaxilənin planı Deterdinqin yaxın adamı Reypin tərəfindən işlənib hazırlanmışdı. Repinin planına görə, Rusiya daxilində əksinqilabi qüvvələr Sovet hakimiyyətinə qarşı açıq silahlı mübarizəyə qalxmalı, ölkə daxilində yaranmış vəziyyətdən istifadə edən xarici müdaxiləçilər SSRİ-yə qarşı hərbi əməliyyata başlamalı idilər. London və Paris dərhal Boris Savinkovu Rusiya diktatoru kimi tanımalı, Yuqoslaviya və Rumıniyada olan rus ağqvardiyasıları sovet ərazisinə daxil olmalı, Polşa Kiyevi ələ keçirməli, Finlandiya isə Leninqradı mühasirəyə almalı idi[3].

Reypinin hərbi əməliyyat planında Gürcüstan qi-

---

[1] В.И.Фролов. "Экономика нефтяного хозяйства", с. 123
[2] Б.Ю.Ахундов. "Монополистический капитал дореволюционной Бакинской нефтяной промышленности", М., 1959, с. 47
[3] Луи Фишер. "Империализм нефти", М.-Л., 1927, с. 34
[4] RF XTMDA. f. 2309, siyahı 12, iş 20, vər. 5



---

[1] "Бакинский рабочий", № 177, 1 avqust 1927-ci il
[2] V.İ.Lenin. Əsərləri, 23-cü cild, s. 120-121
[3] М.Сеиерс и А.Кан. "Тайная война против Советской России", М., 1947, с. 147

yamı xüsusi yer tuturdu. Burada menşevik Noy Jordaniyanın başçılığı altında qalxan əksinqilabi qiyam Rusiyaya hərbi müdaxilənin başlanması üçün bir siqnal olmalı idi. Daxili və xarici əksinqilabi qüvvələrin birgə əməliyyatı nəticəsində Qafqaz Rusiyadan ayrılmalı, İngiltərə və Fransanın protektoratlığı altında müstəqil Cənubi Qafqaz Federasiyası yaradılmalı, buradakı neft zənginlikləri isə əvvəlki sahiblərinə qaytarılmalı idi.

Hərbi müdaxiləçilərin əməliyyat planında Cənubi Qafqaza belə geniş və mühüm yer verilməsi, şübhəsiz hər şeydən əvvəl Bakı neftinə bu və ya digər yolla sahib olmaq məqsədilə əlaqədar idi. Reypinin irəli sürdüyü "Müstəqil Cənubi Qafqaz Federasiyasının yaradılması" ideyası isə həmin məqsədin müvəffəqiyyətlə həyata keçirilməsində bir vasitəçi rolu oynamalı idi. İmperialist dövlətləri, xüsusilə İngiltərə hələ 1918-1920-ci illərdə də buna bənzər bir ideya irəli sürmüşdülər. Həmin dövrdə Şimali Qafqaz və Cənubi Qafqaz regionlarının da daxil olduğu "Cənubi-Şərq İttifaqı" yaratmaq və Azərbaycanı da bu ittifaqa cəlb etmək təşəbbüsü göstərilmişdi[1]. Boris Savinkov məhkəmə prosesi zamanı etiraf etmişdi ki, müdaxilə zamanı hərbi ləvazimat almaq məqsədilə Londona gedərkən İngiltərənin hərbi naziri U.Çörçillə söhbət əsnasında ona bildirmişdi ki, yaxşı olardı ki, Şimali Qafqaz və Cənubi Qafqazdan ibarət "Cənubi-Şərq İttifaqı" yaradılsın. Çörçillə görə bu, ilk başlanğıc olmalı, sonradansa bu "ittifaqa" Azərbaycan və Gürcüstan da qoşulmalı idi[2]. B.Savinkov göstərirdi ki, "Mən bu məsələdə neft iyi duyurdum"[1].

---

[1] Борис Савинков перед военной коллегией Верховного суда СССР. Полный отчет по стенограмме суда. М., 1924, с. 88

[2] Yenə orada



Reypinin planında əksinqilabi qiyamın Cənubi Qafqazın bu və ya digər bölgəsində deyil, məhz Gürcüstanda başlanması da yenə nəticə etibarı ilə Bakı nefti ilə əlaqədar idi. Mühacirətdə olan Cənubi Qafqaz siyasi qrupları içərisində gürcü menşevikləri nisbətən daha mütəşəkkil qüvvə olub geniş siyasi əlaqələrə malik idilər. Onlar Azərbaycandan və Dağıstandan mühacirətdə olan digər qüvvələri də öz tərəfinə çəkmiş və onlar içərisində hakim mövqe tuta bilmişdilər. Gürcü menşevik mühacirlərin başçılarından biri olan N.Ramişvili göstərirdi ki, "biz millətləri vahid məqsəd ətrafında birləşdirmək üçün (Qafqazı Rusiyadan ayırmaq üçün - Ə.Ə.) Qafqazın Müstəqilliyi Komitəsini yaratmışıq. Bu komitəyə bizim və yanaşı Azərbaycan və Dağlı respublikalarının nümayəndələri də daxildir"[2].

Mühacirətdəki gürcü menşevikləri həmin dövrdə Gürcüstanda gizli fəaliyyət göstərən Menşevik partiyası Mərkəzi Komitəsi ilə də əlaqə saxlayırdılar[3].

Deməli, hərbi müdaxiləçilər Cənubi Qafqazda öz planlarını həyata keçirmək üçün bu mütəşəkkil qüvvədən istifadə etməyə bilməzdilər. Bundan başqa Bakı neftinə sahib olmaq üçün Gürcüstanın strateji mövqeyi də hərbi müdaxiləçiləri Gürcüstan menşevikləri ilə birgə hərəkət etməyə məcbur edirdi. Bakı-Batum neft kəmərinin Gürcüstandan keçib getməsi də imperialistlərin diqqətindən qaçmamışdı.

---

[1] Борис Савинков перед военной коллегией Верховного суда СССР. Полный отчет по стенограмме суда. М., 1924, с. 88

[2] М.Кахиани. "Еще о Грузинской эмиграции", Тифлис, 1927, с. 84

[3] Yenə orada

Gürcüstan Qafqazın açarı hesab olunurdu. O, Avropadan Bakıya gedən yol üzərində çox mühüm yer tuturdu.

Deməli, hərbi müdaxiləçilərlə Gürcüstan menşeviklərini məqsəd birliyi bir-birinə yaxınlaşdırmışdı. Müdaxiləçilər bütün Qafqazın olmasa da, Gürcüstanın Rusiyadan ayrılması və onun "azad edilməsində" gürcü menşeviklərinə yardım etməli, onlar isə bunun əvəzində Bakı neftini hərbi müdaxiləçilərə təslim etməli idilər.

Birinci dünya müharibəsindən sonra Amerika və İngiltərə arasında davam edən ziddiyyətlərin tədqiqatçısı olan Amerika iqtisadçısı L.Denni İngiltərənin gürcü menşeviklərinə və Gürcüstan hadisəsinə olan marağından bəhs edərək göstərirdi: "İngiltərənin gürcü menşeviklərinə yardım etməsi, burada yaradılacaq oyuncaq hökumət vasitəsilə Bakı neftinə sahib olmaq məqsədindən irəli gəlirdi"[1].

Noy Jordaniya özünün "Biz və onlar" adlı kitabçasında bu məsələdən üstüörtülü bəhs edərək göstərirdi ki, "Kim bizimlə birlikdə sovet rejiminə qarşı çıxırsa, biz ona yardım etməliyik. Bolşeviklərə qarşı çıxanlar hamısı inqilabçıdırlar"[2].

Artıq 1924-cü ilin əvvəllərindən başlayaraq mühacirətdə olan gürcü menşevikləri ilə Sovet hakimiyyətinə qarşı hərbi müdaxilə hazırlayan bütün "inqilabçılar" arasında, o cümlədən sovet neftinin hərisləri arasında möhkəm ittifaq yaranmışdı. Gürcüstan menşeviklərinin rəsmi sənədlərinin birində deyilirdi: "Əgər gürcü kommunistlərinin Rusiyası varsa, bizim də Avropamız vardır"[3]. Başqa

---

[1] Л.Денни. "Америка завоевывает Британию". М., 1931, с. 292

[2] "Коммунистический интернационал". № 8. 1924, с. 188

[3] Г.К.Орджоникидзе. "Статьи и речи". т. 1. М., 1927, с. 112.



bir fakt: Acarıstan qiyamının təşkilatçısı Gizo Ancaporidze öz ifadəsində göstərmişdi: "Bizim ən böyük səhvimiz ondan ibarət olmuşdur ki, biz öz taktikamızı Avropa dövlətlərinin kombinasiyası üzərində qurmuş, daxili şəraiti də bu taktikaya tabe etdirmişdik".[1]

Lakin gürcü menşevikləri də yaxşı bilirdilər ki, imperialistləri Cənubi Qafqazda Gürcüstanın "azadlığından" daha çox Bakı nefti maraqlandırır. Ona görə də, silahlı üsyan planı elə tərtib edilməli idi ki, burada Bakı nefti Avropa dövlətlərində gürcü menşeviklərinə sona qədər real yardım etmək işində stimul yarada bilsin. Gürcü menşeviklərinin silahlı üsyan üçün tərtib etdikləri ilkin planın əsasını məhz bu ideya təşkil edirdi.

Noy Jordaniya Gürcüstan Menşeviklər partiyası Mərkəzi Komitəsinə göndərdiyi, özünün 2 iyun 1924-cü il tarixli məktubunda (Həmin məktub Gürcüstan Fövqəladə Komissiyasının əlinə keçmiş və öz ünvanına çatmamışdı – Ə.Ə.) üsyan planını şərh edərək yazırdı: "Üsyan təkcə Gürcüstanın qüvvəsi ilə müvəffəqiyyət qazana bilməz. Bu bir daşnak fitnəkarlığı olar və bizim məhvimizlə qurtarar". Bu bəhanə ilə də o bütün Cənubi Qafqaz miqyasında birgə silahlı çıxış təşkil etmək planını irəli sürürdü. N.Jordaniya göstərirdi: "Ancaq ümumi Qafqaz miqyasında birgə çıxış (Dağıstanla birlikdə) bizi qələbəyə çatdıra bilər... Ancaq bu halda Avropa bizə ciddi diqqət yetirər və kömək edər"[2].

Noy Jordaniya üstü örtülü olsa da, acı etiraf edirdi

---

[1] "Коммунистический интернационал". № 8. 1924, с. 190.

[2] Yenə orada, s. 191

ki, Avropa Qafqazda Gürcüstan subtropik bitkilərinin deyil, Bakı neftinin hərisidir. Buna görə də, Azərbaycanda çıxışlar təşkil etmək silahlı üsyan planının tərkib hissəsi kimi verilirdi[1].

Lakin Bakı proletariatının inqilabi ruhuna və ənənəsinə yaxşı bələd olan gürcü menşevikləri Azərbaycanın belə bir fitnəkarlığa uymayağacından ciddi ehtiyat edirdilər. Üsyan planının şərhində deyilirdi: "Aldanmamaq üçün biz öz müttəfiqlərimiz haqqında aydın təsəvvürə malik olmalıyıq. Azərbaycan siyasi cəhətdən etibarlı deyildir... Rusları birinci o dəvət etdi. Qafqazda vahid cəbhəni 2 dəfə o pozdu... Əvvəl Gürcüstanın, sonra isə Azərbaycanın başlaması qətiyyən qəbul edilə bilməz. Ona inanmaq çətindir".[2]

Bütün bu mülahizələr nəzərə alınaraq planda irəli sürülürdü ki, "ilk çıxışı dağlılar və azərbaycanlılar etməlidir. Onlar Rusiyaya gedən yolları tutduqdan və Cənubi Qafqazın Dağıstan yolunu kəsdikdən sonra... Gürcüstan işə qarışmalı və onlara kömək göndərməlidir"[3].

Lakin Azərbaycan və Dağıstan əhalisini öz məqsədlərinə cəlb edə bilməyən gürcü menşevikləri üsyan planında dəyişiklik etdilər. O, əvvəl Gürcüstanda başlamalı, sonra isə Azərbaycana və Dağıstana yayılmalı idi.

Lakin gürcü menşeviklərinin bu planı da baş tutmadı. Daxili və xarici əksinqilabi qüvvələrin 1924-cü il 28 avqustda[4] başladıqları qiyam müvəffəqiyyətsizliklə nəticələndi. Təkcə Şarapan qəzasında, Novosenaki, Zuqdidi və Quriya üsyançılar fəallıq göstərə bildilər. Tiflis, Batum, Kutais, Poti, Acarıstan, Cənubi Osetiya, Abxaziya və s. demək olar ki, Gürcüstanın çox hissəsi üsyana qoşulmadı[1].

[1] "Коммунистический интернационал", № 8, 1924, с. 192
[2] Yenə orada
[3] "Neşan" (Amerika qəzeti) 17 dekabr 1924-cü il
[4] М.Сейерс и А.Кан. "Тайная война против Советской России", с. 150



İmperialistlərin, xüsusilə Bakı neftinin ələ keçirilməsində Detertinqin böyük ümid bəslədiyi Noy Jordaniya[2] və qiyamın digər görkəmli təşkilatçıları Sovet çekistləri tərəfindən ələ keçirildi.

Gürcüstanda əksinqilabi menşevik qiyamının müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq, bu hadisə şişirdilərək xaricdə hay-küyə səbəb oldu. Fransa radiosu həmin günlər xəbər verirdi ki, üsyan bütün Qafqaza yayılmışdır. İngiltərə radiosu isə Tiflisin taleyinin artıq həll edildiyini, şəhərin "inqilabi qüvvələr" tərəfindən ələ keçirildiyini bildirirdi[3]. "Çikaqo tribun" qəzetinin Trabzon müxbiri xəbər verirdi ki, üsyan Azərbaycan da daxil olmaqla bütün Qafqazı bürümüş, hətta gəlib Rostov və Həştərxana çatmışdır. "İkdam" qəzeti yazırdı ki, Azərbaycanda üsyançılar Bakıya yaxınlaşmaqdadırlar[4].

Menşevik qiyamı darmadağın edilməsinə baxmayaraq, bu hadisənin xaricdə başqa cür qələmə verilməsi təsadüfi olmayıb, xüsusi məqsəddən irəli gəlirdi. Burjua mətbuatının yaratdığı bu ictimai rəy imperialist dövlətlərinin SSRİ-yə qarşı öz müdaxilə planlarının ikinci variantını həyata keçirməyə zəmin hazırlamalı idi.

[1] "Коммунистический интернационал", № 8, 1924, с. 194
[2] М.Сейерс и А.Кан. "Тайная война против Советской России", с. 150
[3] "Коммунистический интернационал", № 8, 1924, с. 181
[4] Yenə orada

Lakin qiyamın tezliklə yatırılması imperialist dövlətlərinin Sovet İttifaqına qarşı hərbi müdaxiləyə başlamaq bəhanəsini aradan qaldırdı. İndi Gürcüstan hadisəsindən yalnız Millətlər Cəmiyyətinin əli ilə, SSRİ-nin daxili işinə qarışmaq üçün istifadə etmək olardı.

İmperialist dövlətlər öz planlarının məhz bu, ikinci variantının icrasına başladılar. Sosialist Bonkur və Makdonaldın təşəbbüsü ilə "Gürcüstan məsələsi" Millətlər Cəmiyyətinin siyasi komitəsinin müzakirəsinə verildi[1]. Müzakirə zamanı İngiltərə nümayəndəsi Jilbert Marley, Fransa nümayəndəsi Oberon, Belçika nümayəndəsi Bruker sübut etməyə çalışırdılar ki, Gürcüstan hökuməti (menşevik hökuməti nəzərdə tutulur Ə.Ə.) 1920-ci ildə xarici dövlətlər tərəfindən tanındığına görə, buradakı "üsyan" heç də vətəndaş müharibəsi kimi deyil, iki dövlət arasında – Gürcüstan ilə Rusiya arasında gedən müharibə kimi qiymətləndirilməlidir[2]. Onların fikrincə, məhz buna görə də, Millətlər Cəmiyyəti öz vəzifəsini yerinə yetirmək məqsədi ilə ona "maraq" göstərməli, başqa sözlə o, bu hadisədən Sovet İttifaqına qarşı müdaxiləyə başlamaq üçün istifadə etməli idi.

Lakin imperialist dövlətlərinin bu cəhdi də baş tutmadı. Sovet dövlətinin xarici siyasət sahəsində əldə etdiyi son müvəffəqiyyətlər kapitalist dövlətlərinin SSRİ-yə qarşı açıq və fəal müdaxilə etməsi imkanlarını aradan qaldırmışdı.

1924-cü il avqust ayının 8-də SSRİ ilə İngiltərə arasında ümumi və ticarət müqaviləsi bağlanmış və nəticə

---

[1] "Коммунистический интернационал", № 8, 1924, с. 182
[2] Yenə orada



etibarı ilə SSRİ İngiltərə tərəfindən de-yure olaraq tanınmışdı[1]. Həmin müqavilə, ölkələrin bir-birinin daxili işinə qarışmamağı tərəflər arasındakı qarşılıqlı etibar və dostluq münasibətlərinin zəruri şərti kimi qəbul edirdi.

Fransaya gəldikdə isə o da artıq həmin dövrdə SSRİ-ni tanımaq ərəfəsində idi (1924-cü ilin oktyabrında SSRİ ilə Fransa arasında diplomatik əlaqə yaranmışdı – Ə.Ə.). Puankarenin əvəzinə hakimiyyət başına gəlmiş E.Errio SSRİ-nin tanınmasının tərəfdarı mövqeyini tuturdu[2].

Lakin imperialist dövlətləri Sovet dövlətinə qarşı tutduqları öz köhnə düşmənçilik mövqelərindən də birdən-birə əl çəkmir və Gürcüstan hadisəsindən öz məqsədləri üçün istifadə etməyə yenə də səy göstərirdilər. Bunu Millətlər Cəmiyyətinin siyasi komitəsində İngiltərə baş naziri R.Makdonaldın çıxışından açıq-aydın görmək olar.

Makdonald göstərirdi ki, İngiltərə Sovet İttifaqı ərazisində olan bütün dövlətləri tanıyır. Əgər həmin dövlətlər də Rusiyanı tanıyırsa, o zaman onlar arasında olan hər hansı münasibət bir ölkənin daxilində olan münasibət kimi, onların öz daxili işi kimi qiymətləndirilməməlidir[3].

Makdonaldın ikiüzlü çıxışının əsas məzmunu bundan ibarət idi: əgər sübut edilsə ki, Rusiyaya qarşı həmin üsyan həqiqətdə gürcü xalqının özü tərəfindən edilmişdir, bununla da o, Rusiyanı tanımadığını göstərmiş olur. Bu zaman İngiltərə Gürcüstana Rusiya ilə müharibə aparan

---

[1] "История международных отношений и внешней политики СССР" (1870-1957 гг.) М., 1957 г. с. 172
[2] Yenə orada, s. 173
[3] "Коммунистический интернационал", № 8, 1924, с. 183

müstəqil dövlət kimi baxar, Rusiyaya öz dostluq münasibətini "saxlamaqla" o, hər iki dövlət arasında vəziyyəti tənzim etmək işinə başlayar.

Millətlər Cəmiyyətinin siyasi komitəsi "Gürcüstan məsələsi" barədə heç bir rəsmi qərar qəbul etmədi. O, ancaq qeyri-rəsmi mülahizə söyləməklə kifayətləndi. Siyasi Komitənin mülahizəsinə görə Rusiya və Gürcüstanı tanıyan dövlətlər bu məsələyə ancaq Rusiya-Gürcüstan ixtilaflarını nizama salmaq məqsədilə qarışa bilərdilər[1].

Siyasi komitənin mülahizəsi mülahizə olaraq da qaldı. O, bu məsələyə bir daha qayıtmadı. Bu, ondan irəli gəlirdi ki, imperialist dövlətlərini bu işdə Gürcüstan məsələsi deyil, əsasən Bakı nefti maraqlandırırdı. Bu işdə mühüm rol oynamalı olan Gürcüstan fitnəkarlığı isə öz qınında ikən aradan qaldırılmış, gəlib Bakı neftinə çata bilməmişdi. Ona görə də, kapitalist dövlətləri təkcə Gürcüstan məsələsilə əlaqədar olaraq, Sovet İttifaqı ilə münasibətləri açıq-aşkar şəkildə pisləşdirmək, özlərini dünya ictimaiyyəti qarşısında biabır etmək istəmirdilər.

İmperialist dövlətlərinin Sovet İttifaqına hərbi müdaxilə planında və bu planın həyata keçirilməsində başlıca rol oynamalı olan Gürcüstan hadisəsinin bilavasitə Bakı neftilə əlaqədar olması Sovet dövləti üçün gizli deyildi.

1925-ci ildə çağırılmış III Ümumittifaq Sovetlər qurultayı Gürcüstan hadisəsindən bəhs edərək öz qərarında göstərirdi: "...heç də gizli deyil ki, bu üsyan əsasən, neft krallarının pulu vasitəsilə hazırlanmışdı. Onlar hələ də

[1] "Коммунистический интернационал", № 8, 1924, с. 182



bizim Qafqaz neftimizi ələ keçirmək arzusundan əl çəkməmişlər"[1]. Başqa bir rəsmi sənəddə deyilirdi: "Bütün imperialist yırtıcıların "əzilən Gürcüstanın" taleyilə maraqlanmaları onların proletar diktaturasına olan maraqlarından irəli gəlir. Lakin bu işdə onların digər hissləri də, Sovet neftinə olan istəkləri də az rol oynamır. Çox ehtimal ki, bu ikinci hesab edilən səbəb, başlıca səbəbdir"[2].

İmperialist dövlətləri, "Gürcüstan məsələsinin" Bakı neftilə heç bir əlaqəsinin olmamasını iddia etmələrinə, Gürcüstan əksinqilabçılarına edilən maddi və mənəvi yardımı "beynəlxalq hüquq normaları" və "humanizm" pərdəsilə ört-basdır etməyə çalışmalarına baxmayaraq, onlar buna da müvəffəq ola bilmədilər. Sovet nefti məsələsində kapitalist dövlətləri və onların neft cəmiyyətləri arasında olan ziddiyyətlər və mənafe müxtəlifliyi buna imkan vermədi. Kapitalist ölkələrinin hətta mürtəce ruhlu qəzet və jurnalları belə dilə gələrək, bu fitnəkarlığın Bakı nefti xatirinə kənardan hazırlandığını etiraf etməyə məcbur olmuşdular.

Hələ "Gürcüstan məsələsi" imperialist dövlətlər tərəfindən şişirdilərək Millətlər Cəmiyyətinə çıxarılarkən, Fransa qəzetlərindən biri əsil istəklərini dilə gətirərək yazmışdı: "Yaxşı olar ki, dünyanın təhlükəsizliyi naminə bütün Qafqaz nefti Millətlər Cəmiyyətinin ixtiyarına verilsin"[3].

Fransa qəzetinin fikrindən belə nəticə çıxır ki, Qaf-

[1] "СССР. Третий съезд Советов". Бюллетень № 4, 1925, с. 17
[2] "Коммунистический интернационал", № 8, 1924, с. 184
[3] Yenə orada

qazda beynəlxalq aləm üçün yaranan təhlükəyə (Gürcüstan əksinqilabi qiyamı – Ə.Ə.) ancaq Bakı nefti səbəb olmuşdur. Burjua qəzetləri "Gürcüstan hadisəsinin" neftlə əlaqədar olmasını, ona kənardan – neft imperialistləri tərəfindən yardım edilməsini müxtəlif rəsmi mənbələrə əsaslanaraq açıq-aşkar göstərirdilər.

Paris qəzeti "Neftyanoy Kuryer" yazırdı: "hər halda bizim soruşmağa haqqımız vardır ki, doğrudanmı onlar (gürcü menşevikləri – Ə.Ə.) öz xüsusi güclərinə arxalanırdılar? Qiyamın baş verdiyi şərait, onun gedişi... güman etməyə əsas verir ki, bu hərəkat kənardan əhəmiyyətli dərəcədə yardım alırdı. Bunu söyləməyə hər cür əsas var ki, bu yardım oradakı neftə ciddi marağı olan qruplar tərəfindən edilirdi. Bu, inqilab tərəfindən əmlakları zəbt edilmiş iri mülkiyyət sahiblərinin cəhdi idi"[1].

"Nyu-York Tayms" qəzeti özünün Paris müxbirinin verdiyi məlumata əsaslanaraq göstərirdi ki: "Etibarlı şəxslərin dediklərinə görə inqilab (menşevik qiyamı Ə.Ə.) Paris tərəfindən maliyyə cəhətdən təmin və rəhbərlik edilirdi. Bu işdə Bakı neft mədənlərinin sabiq sahibkarları xüsusi rol oynayırdılar"[2].

Neft dəllallarının yaxından iştirakı ilə təşkil edilmiş bu beynəlxalq fitnəkarlıqda ingilis neft tresti "Royal datç-şell" və onun prezidenti Deterdinqin xüsusilə maraqlı olması haqqında da kifayət qədər faktlar vardır. B.Platonov rəsmi sovet mənbələrinə əsaslanaraq vaxtilə yazmışdı: "1924-cü ildə Gürcüstanda qalxmış əksinqilabi menşevik

[1] "Нефтяной курер", 12 sentyabr 1924-cü il
[2] "Nyu-York Tayms", 13 sentyabr, 1924-cü il



qiyamı Deterdinqin pulu ilə təşkil edilmişdir"[1].

Almaniyanın məşhur qafqazşünası Nanneburx isə təkcə Gürcüstan qiyamının təşkilində deyil, "Gürcüstan məsələsi"nin Millətlər Cəmiyyətinə gətirilib çıxarılmasını da neft maqnatlarının, xüsusilə Deterdinqin göstərdiyi təsirdə görürdü. Nanneburx yazırdı: "Rusiyanın cənubunda menşevik qiyamı o zaman qalxdı ki, nə vaxt Britaniya neft siyasətçiləri anladılar ki, İngiltərə-Sovet ticarət müqaviləsinin (1924-cü il avqustun 8-də bağlanmış müqavilə nəzərdə tutulur. Müqavilə ətrafında gedən danışıqlar zamanı Sovet dövləti köhnə sahibkarların mülkiyyətlərini qaytarmaq haqqında İngiltərənin təklifini qəti olaraq rədd etmişdi Ə.Ə.) onlar üçün heç bir xeyri yoxdur. Gürcüstan federal hökumətinin prezidenti Jordaniyanın təklif etdiyi beynəlxalq vasitəçilik (Gürcüstan məsələsinə Millətlər Cəmiyyətinin qarışması – Ə.Ə.) əslində, neft kompaniyalarının oyunlarını gizlədən diplomatik pərdədən ibarət idi"[2].

Faktlardan göründüyü kimi, Bakı neftinin beynəlxalq hərislərinin sovet neftini boykot etmək taktikası kimi, onların sovet neftini ələ keçirmək üçün cəhd etdikləri növbəti fitnəkarlıq da baş tutmadı. Neft maqnatlarının iştirakı və maliyyə yardımı ilə tərtib edilmiş Sovet dövlətinə qarşı hərbi müdaxilə planı – Sovet dövlətinin beynəlxalq münaqişəyə cəlb etmək yolu ilə Qafqaz neftinə sahib olmaq planı boşa çıxdı.

İmperialist dövlətlərinin və onların neft maqnatla-

[1] Б.Платонов. "Баку в планах интервентов". Баку, 1932, с. 12
[2] "Doyçe Seytunq", 17 sentyabr, 1924-cü il

rının sovet neftini ələ keçirmək məqsədilə tərtib etdikləri açıq və gizli planlar öz gözləri qabağında, heç bir müvəffəqiyyət qazana bilməyərək, bir-birinin ardınca alt-üst olurdu.

Sovet hakimiyyətinin tezliklə yıxılacağını və buranın təbii zənginliklərini yenidən ələ keçirəcəklərini xəyal edən Amerika, İngiltərə, Fransa və digər ölkələrin imperialistləri siyasətdə nə qədər səhv etdiklərinin şahidi olurdular. Sovet hakimiyyəti aydan-aya möhkəmlənir və onun siyasi varlığı getdikcə daha çox dövlətlər tərəfindən təsdiq edilirdi. İmperialist dövlətlərin hakim dairələri getdikcə daha yaxşı anlamağa başlayırdılar ki, Sovet İttifaqı ilə siyasi və iqtisadi əlaqələrinin qeyri-normal şəkildə qalmasından təkcə SSRİ deyil, onlar özləri də ziyan çəkirlər. Bu məsələ imperialist dövlətlərinin iqtisadi və siyasi həyatında 1923-cü ilin sonlarından başlayaraq, özünü daha qabarıq şəkildə göstərirdi.

Beynəlxalq vəziyyətin qeyri-sabitliyi, genişlənməkdə olan iqtisadi böhran, Avropa və dünya bazarının daralması, gündən-günə artmaqda olan işsizlik iri kapitalist dövlətlərini Sovet İttifaqını tanımağa, onunla normal əlaqələr qurmağa vadar edirdi.

Məhz buna görə heç də təsadüfi deyil ki, bəzi qeyd-şərtlərlə də olsa, 1923-cü ilin payızında, hətta mürtəce burjua qəzetləri də Sovet İttifaqı ilə normal əlaqə yaratmağın zəruriliyini irəli sürürdülər[1].

SSRİ-nin tanınması məsələsi İngiltərə hökuməti qarşısında daha ciddi qoyulmuşdu. İngiltərənin Mühafi-

---

[1] История дипломатии, т. III, М., 1945, с. 293



zəkar partiyasının və onun nümayəndələrindən təşkil edilmiş hökumətin yeritdiyi antisovet siyasətdən törəyən dərin və ümumi narazılıq öz əksini 1923-cü ilin dekabrında Nümayəndələr Palatasına keçirilən növbəti seçkilərdə tapdı. Birmingem istisna olmaqla, bütün sənaye mərkəzləri Mühafizəkarlar partiyası əleyhinə səs verdilər. Mühafizəkarlar hökuməti süqut etdi[1]. Hakimiyyət başına yeni gəlmiş Leyboristlər hökumətinin başçısı R.Makdonald 1924-cü il 8 yanvarda Albert-Hollda keçirilən mitinqdə İngiltərənin Rusiya məsələsi barədə yeritdiyi siyasətin əsaslı surətdə dəyişiləcəyini vəd etdi[2]. Leyborist hökumətinin başçısının bu mövqeyi heç də onun SSRİ-yə bəslədiyi "hüsn-rəğbətin" nəticəsi deyildi. Bu məsələdə Makdonald öz sələflərinin aqibətindən nəticə çıxarmaya bilməzdi.

Ölkədə mürtəce qüvvələrin göstərdiyi ciddi müqavimətə baxmayaraq İngiltərə hökuməti yuxarıda göstərilən tələblər üzündən SSRİ-ni tanımağa məcbur oldu. Böyük Britaniyanın Moskvadakı rəsmi nümayəndəsi Uocson 1924-cü il fevralın 2-də SSRİ XXİK-na verdiyi notada bildirdi ki, onun hökuməti SSRİ-ni de-yure tanımağı qərara almışdır[3].

Sovet İttifaqı 1924-cü ildə İngiltərənin ardınca, İtaliya, Norveç, Avstriya, Yunanıstan, İsveç, Danimarka, Meksika və s. ölkələrlə də diplomatik əlaqə yaratmağa müvəffəq oldu.

Sovet İttifaqının İngiltərə və digər dövlətlərlə siyasi

---

[1] История дипломатии, т. III, М., 1945, с. 293
[2] Yenə orada
[3] Yenə orada

əlaqəsinin yaxşılaşması SSRİ-ni təcrid etmək siyasəti yenidən Fransa hökumətində yaranmış tərəddüdləri daha da qüvvətləndirdi. Puankare 1923-cü ilin dekabrında Sovet hökumətinə müraciət edərək diplomatik əlaqələri bərpa etməyə hazır olduğunu bildirdi[1]. Lakin Puankarenin irəli sürdüyü təklif danışıqlar üçün əsas ola bilməzdi. O, yenə də Sovet hökumətindən çar hökumətinin və Müvəqqəti hökumətin aldığı borcları verməyi, milliləşdirilmiş müəssisələri öz köhnə sahiblərinə qaytarmağı tələb edirdi.

Bundan istifadə edən Fransadakı yerli və rus kapitalistləri hər iki ölkə arasında nəinki siyasi münasibətlərin, hətta iqtisadi və ticarət əlaqələrinin də normal hala salınmasına ciddi müqavimət göstərirdilər.

Puankare hökumətinin mövqeyi ölkənin mütərəqqi qüvvələrinin və işgüzar dairələrinin böyük narazılığına səbəb oldu. Onun siyasəti əleyhinə güclü müxalifət yarandı.

1924-cü ildə hakimiyyət başına gəlmiş Eduard Errionun hökuməti ölkənin daxili və xarici vəziyyətindən doğan yeni tələblərlə hesablaşmağa məcbur oldu. O, 1924-cü ilin oktyabrında Sovet İttifaqını de-yure tanıdığını bildirdi[2].

1924-cü ildə beynəlxalq münasibətlər sahəsində Sovet İttifaqının əldə etdiyi nailiyyətlər – iri kapitalist dövlətləri tərəfindən SSRİ-nin kütləvi surətdə tanınması siyasi quruluşları müxtəlif olan dövlətlərin dinc yanaşı yaşamasının mümkünlüyü haqqında Lenin ideyasının böyük təntənəsi idi.

[1] История дипломатии, т. III, М., 1945, с. 305
[2] Yenə orada



İki müxtəlif sistemin dinc yaşamasının mümkün olmasının kapitalist dövlətləri tərəfindən istər-istəməz işdə qəbul edilməsi – SSRİ-nin kütləvi surətdə tanınmağa başlaması siyasi cəhətlə yanaşı, həm də böyük iqtisadi əhəmiyyətə malik idi. Bu iki müxtəlif sistem arasında müəyyən bir müvazinət əmələ gəldiyini göstərməklə yanaşı, eyni zamanda Sovet dövlətinə kapitalist dünyası ilə "əməkdaşlığa" başlamaq və onu genişləndirmək imkanı verirdi. ÜİK(b)P XIV qurultayı bu məsələdən bəhs edərək öz qətnaməsində göstərirdi: "Beynəlxalq münasibətlər sahəsində "tənəffüsün" möhkəmlənib genişlənməsi göz qabağındadır. O, SSRİ-nin kapitalist dövlətlərilə dinc yanaşı yaşaması deyilən tam bir dövrə çevrilmişdir. Bu... birinci növbədə xariclə iqtisadi əlaqələr sahəsində müəyyən fayda olmasını təmin edir"[1].

SSRİ Xalq xarici ticarət komissarı L.B.Krasin hələ 1924-cü ilin əvvəllərində göstərirdi ki, "SSRİ-nin tanınması... və dövlətlərlə diplomatik münasibətlərin normal hala salınması, şübhəsiz, bizim... iqtisadi əlaqələrimizin inkişafında, xüsusilə xarici ticarətin inkişafında irəli atılan ən böyük addımdır"[2].

Sovet İttifaqının diplomatiya sahəsində qazandığı müvəffəqiyyətlərin, kapitalist ölkələrlə ticarət əlaqələrinin genişlənməsində oynadığı görkəmli rolu əyani surətdə göstərmək üçün, təkcə İngiltərə ilə Sovet İttifaqı arasında Ticarət dövriyyəsinin həmin illərdəki vəziyyətinə nəzər sal-

[1] Sov. İKP qurultayları, konfranslar və MK plenumlarının qətnamə və qərarları. II hissə, Bakı, 1954, s. 217
[2] "Внешняя торговля", № 8, 1924, с. 4

maq kifayətdir. 1923-cü ildə Sovet-İngiltərə ticarət dövriyyəsi 15117 milyon funt sterlinq olduğu halda, bu göstərici təkcə bir il ərzində – 1924-cü ildə İngiltərənin Sovet İttifaqının tanınması ilə əlaqədar olaraq, artıb 34245 milyon funt sterlinqə çatmışdı[1]. 1925-ci ildə isə həmin ölkələr arasında ticarət dövriyyəsi daha da genişlənərək 58079 milyon funt sterlinq təşkil edirdi ki, bu da 1920, 1921, 1922, 1923-cü illərin ticarət dövriyyəsi miqdarından 15638 milyon funt sterlinq çox idi. Başqa bir fakt: 1923-cü ildə SSRİ-nin ümumiyyətlə, xarici ticarət əməliyyatında İngiltərənin payına 24 faiz düşdüyü halda, bu, 1924-cü ildə 36 faizə, 1925-ci ildə isə 40 faizə qalxmışdı. Həmin illərdə İngiltərənin xarici ticarətində SSRİ-nin yeri müvafiq olaraq 0,7 faiz, 1,5 faiz və 2,5 faizi təşkil edirdi[2].

SSRİ-nin tanınması ilə əlaqədar olaraq, İngiltərə-Sovet ticarət əlaqələrinin xeyli genişlənməsinə aid gətirilən bu faktları Sovet İttifaqını tanımış digər ölkələrə də münasibətdə də qeyd etmək olar.

Sovet İttifaqının kapitalist dövlətlərilə iqtisadi və ticarət əlaqələrinin genişlənməsi, ölkənin xarici ticarət əməliyyatlarında mühüm yer tutan neft məhsulları ixracının artmasına güclü təkan verməyə bilməzdi. SSRİ-nin bu və ya digər kapitalist dövləti tərəfindən tanınmasında həmin dövlətin Sovet neftinə olan ehtiyacı müəyyən dərəcədə rol oynadığı kimi, Sovet dövlətinin tanınması da, öz növbəsində, neft məhsulları ixracına geniş meydan açmışdı. Bunu neft yanacağına ciddi ehtiyacı olan Avropa dövlətlərindən İtaliya və Fransanın nümunəsindən daha aydın görmək olar.

[1] "Мировое хозяйство и Мировая политика", № 9, 1927, с. 4
[2] Yenə orada, s. 5



İtaliya ilə Sovet İttifaqı arasında diplomatik əlaqə yaranmamışdan qabaq – 1923-cü ildə buraya cəmi 31,69 min ton sovet neft məhsulları ixrac edildiyi halda bu göstərici 1924-cü ildə – SSRİ-nin tanınmasının ilk ilində 97,50 min tona, 1925-ci ildə isə 192,8 min tona çatmışdı[1]. İtaliyanın 1924-cü ildə idxal etdiyi neft məhsulları miqdarından SSRİ-nin payına cəmi 11,8 faiz düşdüyü halda, bu təkcə bir il ərzində – 1925-ci ildə 37,4 faizə qalxmışdı[2]. İtaliya həmin il ağ neftə olan ehtiyacının 35,2 faizini, benzinin 11,2 faizini, yağın 4,7 faizini, mazutun 56 faizini, xam neftin 67 faizini və s. sovet neft məhsulları hesabına ödəyirdi[3]. Fransaya gəldikdə isə burada da sovet neftinin mövqeyi xeyli yaxşılaşmış, Fransanın idxalında onun tutduğu yer 1924-cü ildəki 1,4 faizdən 1925-ci ildə 10,7 faizə qalxmışdı[4].

SSRİ-nin kapitalist dövlətləri ilə diplomatik əlaqələrinin genişlənməsi, əlbəttə həmin illərdə sovet neft məhsulları ixracının əhəmiyyətli dərəcədə artmasının yeganə səbəbi deyildi. Bu işdə daha bir sıra xarici və daxili amillər də xeyli rol oynamışdı.

Öz xüsusi neftinə malik olmayan kapitalist ölkələrində neft məhsullarına olan tələbin getdikcə artması, "Standart oyl", "Royal datç-şell" və digər şirkətlərin dün-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 91
[2] А.П.Серебровский. "Европейская нефтяная торговля и нефтсиндикат СССР", М., 1927, с. 34
[3] Yenə orada
[4] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92

ya bazarındakı özbaşınalıqlarından təngə gəlmiş ölkələrin tədricən onlardan üz döndərməsi, sovet neft sənayesində son illərdə əldə edilmiş irəliləyiş, neft məhsulları ixracı sahəsində görülmüş mühüm təşkilatı tədbirlər və s. məhz belə amillərdən idi.

Sovet dövləti ölkəmizdə sosializm quruculuğu vəzifələrinin müvəffəqiyyətlə həll edilməsi işində xarici ticarətə, xüsusilə neft məhsulları ixracı məsələsinə böyük əhəmiyyət verirdi. Bu, təkzibedilməz bir fakt idi ki, bu iş yaxşı təşkil edilərdisə, ölkənin xarici ticarət balansında yaranmış passiv vəziyyəti onun yaxından yardımı ilə aktiv şəklə çevirmək olardı. Dünya iqtisadiyyatının neft məhsullarına olan ehtiyacının durmadan artması, Sovet dövlətinin kapitalist ölkələri ilə işgüzar əlaqələrinin genişlənməsi, ölkənin neft sənayesinin möhkəm inkişaf yoluna düşməsi belə bir qənaətə gəlməyə qəti əsas verirdi. Sovet neft məhsullarının ixracına yaxın zamanlarda geniş meydan açılacağına heç bir şübhə yox idi. Yaranacaq imkandan vaxtında və səmərəli istifadə etmək üçün, neft ixracının təşkili işində indidən bir sıra təşkilat tədbirləri görmək lazım idi. Sovet neft məhsullarının ixracı ilə məşğul olan sovet "Neft sindikatı"nın mövcud quruluşu, hüquq və vəzifələri bu günün tələbi ilə birtəhər ayaqlaşdığı halda, sabahın tələbinə cavab verə bilməzdi.

Bütün bunlarla yanaşı olaraq, bəhs edilən dövrdə kapitalist inhisar birliklərinin dünya bazarında sovet neftinə olan münasibətindəki dəyişiklik də ixrac təşkilatının daha da təkmilləşdirilməsi məsələsini zəruri vəzifə kimi qarşıya qoyurdu.

Sovet neft məhsulları ixracına ilk dəfə başlanarkən,



bu müxtəlif mülahizələrə görə, kapitalist neft inhisar birliklərini o qədər də narahat etmədi. Onların bəziləri belə düşünürdülər ki, Sovet dövlətinin neft ixracı təsadüfi bir işdir. Neft ixracını mütəşəkkil qaydaya salmaq üçün onun nə maddi, nə də mənəvi imkanı vardır. Fəlakətli dərəcəyə çatmış neft sənayesini bərpa və inkişaf etdirmək üçün, sovet dövlətinə küllü miqdarda kapital və uzun müddət lazımdır. Bu vaxta qədər isə Sovet dövləti özü sıradan çıxacaqdır. Bir qrup kapitalist neft şirkətləri isə başqa mülahizə yürüdürdülər. Onların fikrinə görə, boykot taktikası müvəffəqiyyətlə nəticələnəcək, Sovet dövləti öz neft zənginliklərini konsessiyaya verməyə məxbur olacaqdır. Bununla da, o, nəinki dünya bazarına neft məhsulları çıxarmaq imkanından məhrum edilmiş olacaq, hətta özü idxalçı dövlət şəklinə düşəcəkdir. Bütün bu mülahizələrə görə də kapitalist neft şirkətləri sovet neftinin xaricə çıxmasından o qədər də narahat olmur və buna laqeyd münasibət bəsləyirdilər. İlk dövrdə sovet nefti xarici bazarlarda, əsasən, Rusiyanın keçmiş neft sahibkarlarının açıq müqavimətini aradan qaldırmalı olurdu[1]. Onlar sovet neft məhsullarının keyfiyyətini istehlakçıların gözündən salmaq və bununla ixrac işinə mane olmaq üçün əllərindən gələni edirdilər.

1924-cü ilin payızına qədər dünya bazarında sovet neftinə bəslənən münasibət əsasən belə idi. 1924-cü ilin payızından vəziyyət kəskin surətdə dəyişdi[2]. Neft maqnatlarına qəti olaraq aydın oldu ki, Sovet hakimiyyəti heç də

[1] RF XTMDA, f. 2309, siyahı 3, iş 7, vər. 99-100
[2] Yenə orada, siyahı 11, iş 181, vər. 46

onların xəyal etdiyi kimi son günlərini keçirmir, əksinə, gündən-günə möhkəmlənir və özünün beynəlxalq nüfuzunu artırır. Sovet xalqı öz dövlətinin iqtisadi və siyasi müstəqilliyinin möhkəm keşiyində durmuşdur. Sovet dövlətinə iqtisadi və siyasi təsir etmək, müharibəyə cəlb etmək, daxildə iğtişaş və qiyamlar təşkil etmək yolu ilə onun zənginliklərinə sahib olmaq qeyri-mümkündür. Sovet İttifaqının neft sənayesinə gəldikdə isə, o qısa müddətdə bərpa edilib, möhkəm inkişaf yoluna düşmüşdür. İndi o daxili bazarı təmin etməklə yanaşı, böyük həcmdə neft məhsulları ixrac etmək iqtidarına malikdir.

Sovet İttifaqının son illərdə əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər kapitalist inhisar birliklərinin sovet neftinin ixracına öz münasibətlərini dəyişməyə məcbur etdi. Dünya bazarında sovet neft məhsullarına göstərilən laqeydlik ciddi müqavimətlə əvəz edildi. "Standart oyl", "Royal datç-şell", "İngilis-İran neft şirkəti" özbaşınalıq etdikləri dünya bazarında hakim mövqelərini saxlamaq üçün sovet neftinə qarşı açıq mübarizəyə başladılar[1]. Onlar öz aralarında gedən inadlı mübarizə aparmaqla yanaşı, təklikdə sovet neftinə də qorxulu bir rəqib kimi baxırdılar. Şübhəsiz belə bir şəraitdə özündən qat-qat güclü rəqiblərin müqavimətini qırıb, dünya bazarında möhkəmlənmək və yeni-yeni mövqelər əldə etmək olduqca çətin idi. Bunun üçün bir sıra şərtlərlə yanaşı, elə bir ixrac aparatı yaratmaq lazım idi ki, o, bu və ya digər bazarda yaranmış şəraiti vaxtında düzgün qiymətləndirsin və dərhal operativ tədbirlər görə bilsin.

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 46



Bütün bu mülahizələri nəzərə alaraq Sovet hökuməti neft məhsulları ixracı təşkilatını yeni tələblərə uyğun təşkil etməyi lazım bildi. SSRİ Ali Xalq Təsərrüfatı Şurası (AXTŞ) sovet "Neft sindikatı"nın yeni prinsiplər üzərində nizamnaməsini hazırlamaq üçün 1924-cü il sentyabrın 12-də xüsusi komissiya yaratdı[1].

Təşkilat komissiyası nizamnamə layihəsini bir ay müddətinə hazırlayaraq, AXTŞ-nın müzakirəsinə təqdim etdi. O, AXTŞ rəyasət heyətinin 11 oktyabr tarixli iclasında geniş müzakirə və təsdiq edildi[2].

Sovet "Neft sindikatı"n yeni nizamnaməsində deyilirdi: "Neft məhsulları ilə ticarət etmək və bununla əlaqədar olan əməliyyatlar aparmaq üçün bilavasitə SSRİ AXTŞ yanında müstəqil "Neft sindikatı" təşkil edilir"[3].

Yeni nizamnaməyə görə, "Neft sindikatı" müstəqil ticarət təşkilatı olmaqla, kommersiya hesabı ilə fəaliyyət göstərirdi. O, hüquqi şəxs idi. Öz adından hər cür ticarət hərəkəti edə bilərdi. Onun xarici bazar üzrə vəzifələri dünya bazarını öyrənmək, neft məhsullarının satışını təşkil etmək, onların qiymətlərini müəyyənləşdirmək, standartlarını müəyyən etmək və s. ibarət idi.[4] Neft sindikatı bu vəzifələri həyata keçirərkən xarici ölkələrdə ayrı-ayrı şəxslərlə, firmalarla, təşkilatlarla müqavilə bağlamaq, xarici ölkələrdə öz nümayəndəliyini təşkil etmək, lazım bildiyi əmlakı və texniki avadanlığı almaq, neft saxlama anbarları tikmək, onları icarəyə götürmək və s. bu kimi

---

[1] Azərb. Resp. MDA, f. 1610, siyahı 5, iş 25, vər. 1
[2] Yenə orada, vər. 15
[3] RF XTMDA, f. 5674, sıyahı 4, iş 732, vər. 62
[4] Yenə orada

hüquqlardan istifadə edə bilərdi[1].

Göründüyü kimi, yeni təşkil edilmiş "Neft sindikatı" əvvəlkinə nisbətən daha geniş hüquq və səlahiyyətlərə malik idi. Əvvəllər o, hər hansı bir məsələni SSRİ XXTK ilə razılaşmalı olduğu halda, (bu isə uzun süründürməçiliyə səbəb olurdu. Çünki XXTK neft ixracı ilə yanaşı, digər əmtəələrin idxal və ixracı ilə də məşğul idi – Ə.Ə.), indi özü müstəqil bir təşkilat kimi fəaliyyət göstərmək imkanına malik idi. "Neft sindikatı" qarşıya çıxan mühüm məsələlərin həlli üçün bilavasitə SSRİ AXTŞ-na müraciət edirdi.

Yeni təşkil edilmiş "Sovet neft sindikatı" 1924-cü ilin noyabr ayından fəaliyyətə başladı[2]. "Sovet neft sindikatı" rəhbərliyi yaxın başa düşürdü ki, ixrac sahəsində qarşıya qoyulmuş vəzifələri müvəffəqiyyətlə həll etmək üçün, ilk növbədə Avropa bazarında möhkəmlənmək lazımdır. Sovet nefti üçün bura daha münasib və daha əlverişli idi. Sovet dövləti öz mövqeyini Avropa bazarında möhkəmləndirə bilərdisə, dünyanın digər bazarlarına nisbətən buradan daha çox fayda götürə bilərdi. Bu, hər şeydən qabaq onunla izah edilirdi ki, ABŞ istisna olmaqla, texniki cəhətdən dünyanın bütün qabaqcıl dövlətləri bu bazara daxil idi. İngiltərə, Fransa, Almaniya, İtaliya, İspaniya və digər Avropa dövlətlərinin neft məhsullarına olan tələbinin ildən-ilə artması bu bazarın həmin dövrdəki əhəmiyyətini və sonrakı perspektivliyini göstərən ən yaxşı sübut idi.

---

[1] RF XTMDA, f. 5674, siyahı 4, iş 732, vər. 62
[2] Azərb. Resp. MDA. f. 1610, siyahı 5, iş 25, vər. 15



Faktlara müraciət edək.

1922-ci ildə İngiltərə cəmi 1212736 min ingilis qallonu miqdarında neft məhsulları idxal etmişdisə, bu artaraq 1923-cü ildə 1275555 min, 1924-cü ildə isə 1564500 min qallona çatmışdı[1]. 1924-cü ildə burada 1923-cü ilə nisbətən 20 faiz çox benzin və mazut işlədilmişdi[2]. Təkcə avtomobil nəqliyyatının ehtiyacını ödəmək üçün, hər il orta hesabla 450 milyon qallon benzin idxal etmək lazım idi[3].

Fransa bazarı öz tələbinə görə İngiltərədən sonra Avropada ikinci yer tuturdu[4]. Burada 1924-cü ildə 1923-cü ilə nisbətən 16 faiz, 1925-ci ildə isə əvvəlki ilə nisbətən 26 faiz artıq neft məhsulları işlənmişdi[5].

Neft məhsulları istehlakına görə Almaniya da Avropa dövlətləri içərisində mühüm yer tuturdu. Burada 1922-ci ildə işlədilmiş neftin miqdarı 1,2 milyon ton olduğu halda, 1924-cü ildə bu göstərici 1,7 milyon tona gəlib çatmışdı[6]. 1923-cü ildə Almaniya əhalisinin hər bir nəfəri orta hesabla 8,04 kiloqram neft məhsulları istehlak etdiyi halda, 1924-cü ildə hər nəfərin istehlak etdiyi neft məhsulunun miqdarı 10,08 kiloqramdan çox idi[7].

İtaliya neft məhsullarının ümumi istehlakı səviyyəsinə görə, yuxarıda göstərilən Avropa dövlətlərindən xeyli

---

[1] RF XTMDA, f. 2309, siyahı 12, iş 19, vər. 23
[2] Yenə orada, siyahı 11, iş 72, vər. 92
[3] Yenə orada
[4] Yenə orada, vər. 91
[5] Yenə orada, siyahı 1, iş 191, vər. 76
[6] Yenə orada, siyahı 11, iş 72, vər. 89
[7] Yenə orada

geridə qalırdı. Lakin bu bazarın xarakterik xüsusiyyəti orasında idi ki, burada neft məhsullarına olan tələbin artma sürəti digər ölkələrdən daha yüksək idi. İtaliyaya 1913-1915-ci illərdə ixrac olunmuş neft məhsullarının miqdarı vur-tut 114 min ton olduğu halda, 1923-cü ildə bu 538 min tona, 1924-cü ildə isə artıq 630 min tona qalxmışdı[1].

Avropa bazarının əhəmiyyəti təkcə onun əhatə etdiyi dövlətlərin küllü miqdarda neft məhsulları işlətməsi və bu məhsula olan ehtiyacın ildən-ilə artmasından ibarət deyildi. Bu bazarın üstünlüyünün biri də bu idi ki, onun əhatə etdiyi dövlətlər öz xüsusi neft məhsullarına malik deyildilər, yaxud da yox dərəcəsində malik idilər.

İngiltərədə küllü miqdarda neft məhsullarına tələb olduğu halda, onun öz nefti yox idi. O, bu tələbatını ancaq, idxal yolu ilə ödəməyə məcbur idi. Fransanın 1925-ci ildə orta hesabla 1968 min ton neft məhsullarına ehtiyacı olduğu halda, burada həmin il vur-tut 80 min ton neft hasil edilmişdi[2]. Almaniyanın özü istehsal etdiyi neft isə ona olan tələbin onda bir qədərini belə ödəmirdi[3]. Burada 1923-cü ildə cəmi 50,7 min ton, 1924-cü ildə isə 59,3 min ton neft əldə edilmişdi[4].

Avropa bazarının, ABŞ istisna olmaqla, digər bazarlardan üstünlüyü özünü bir də onda göstərirdi ki, texniki və mədəni cəhətdən geridə olan ölkələrin əhatə olunduğu bazarlarda əsasən ağ neftə tələb olduğu halda, bu-

---

[1] RF XTMDA, f. 2309, siyahı 12, iş 72, vər. 91
[2] Yenə orada, siyahı 11, iş 72, vər. 91
[3] Yenə orada, vər. 89
[4] Yenə orada



rada bütün neft məhsulları üçün istehlakçı tapmaq daha asan və mümkün idi.

Bu göstərilənlərlə yanaşı, Avropa sovet nefti üçün, başqa nöqteyi-nəzərdən olduqca əlverişli idi. SSRİ ərazi cəhətdən Avropaya yaxın olduğu halda, Rumıniya nəzərə alınmazsa, digər ixracedici dövlətlər öz məhsullarını dünyanın müxtəlif və uzaq hissələrindən buraya gətirməyə məcbur olurdular.

Dünyanın neft nəhəngləri olan "Standart oyl" və "Royal datç-şell"in neft hasilatı rayonları Avropadan çox-çox uzaqlarda yerləşirdi. Sovet neftinin Avropaya yaxın olması Sovet "Neft sindikatı"na xeyli vaxta və vəsaitə qənaət etməyə imkan verirdi. Bundan başqa, dünyanın digər neft bazarları Avropaya nisbətən həmin neft trestləri üçün daha yaxın və münasib olduğu üçün, bu sovet neftinin həmin bazarlara yol tapması və möhkəmlənməsi işində çətinlik yaratmaya bilməzdi. Məsələn, Hollandiya Hindistanında hasil edilən neftin 98 faizini[1] öz əlinə almış "Royal datç-şell" trestiYaponiya, Çin, Mancuriya və bu rayonda olan digər ölkələrə neft ixrac etmək işində "Sovet neft sindikatı"na nisbətən xeyli əlverişli mövqeyə malik idi. Yaxud da Meksika neftini öz əlinə almış "Standart oyl" tresti Cənubi Amerika ölkələrinə neft ixracı işində istər "Royal datç-şell"dən və istərsə də "Sovet neft sindikatı"ndan xeyli üstün olmaya bilməzdi və s.

Yuxarıda göstərilən konkret faktlardan göründüyü kimi, sovet neft ixracı sahəsində qarşıda duran vəzifələri müvəffəqiyyətlə yerinə yetirmək üçün "Sovet neft sindika-

---

[1] "Мировая хозяйство и мировая политика", № 10-11, 1926, с. 100

tı" tərəfindən başlıca diqqətin Avropa bazarlarına yönədilməsi düzgün və əsaslı idi.

Lakin Avropa bazarında möhkəmlənmək və yeni-yeni mövqelər əldə etmək olduqca çətin və mürəkkəb bir vəzifə idi. Bunu uğurla yerinə yetirmək üçün hökmən "Standart oyl", "Royal datç-şell", "İngilis-İran neft şirkəti" kimi güclü rəqiblərlə qarşılaşmaq və onların müqavimətini qırmaq lazım gəlirdi.

Avropa bazarında dünya trestlərinin hökmran mövqeyini göstərmək üçün, bir neçə fakt gətirmək kifayətdir. Bəhs edilən dövrdə İngiltərəyə ixrac edilən xam neftin 67 faizi "İngilis-İran neft şirkətinə", 22 faizi "Royal datç-şell"ə və 11 faizi isə "Standart oyl"a məxsus idi[1]. "Sovet neft sindikatı"nın 1924-1925-ci təsərrüfat ilinin hesabatında İngiltərə bazarı belə xarakterizə edilirdi: "Dünya trestləri İngiltərə bazarında əlbir hərəkət edirlər. Bazar onların arasında bölünmüşdür. Neft məhsullarının qiyməti onların birgə razılığı ilə müəyyən edilir. İngiltərənin hökuməti, parlamenti və mətbuatı onların nəzarətindədir"[2].

Bundan başqa, İngiltərə bazarında bir neçə kiçik firma da fəaliyyət göstərirdilər. Lakin dünya trestləri tərəfindən istehza ilə "qaçaq" adlandırılan bu firmaların İngiltərə bazarında xüsusi çəkisi o qədər də böyük deyildi.

Dünya trestləri İngiltərədə olduğu kimi, Fransa bazarında da tam hökmran idilər. Təkcə bunu göstərmək kifayətdir ki, 1925-ci ildə ixrac edilmiş 1968 min ton[3] neft

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 93
[2] Yenə orada
[3] Yenə orada, vər. 91



məhsullarından 350 min tonu "Standart oyl"un, 250 min tonu "İngilis-İran neft şirkətinin", 230 min tonu isə "Royal datç-şell"in payına düşürdü[1]. Bundan əlavə, Fransanın özünə məxsus olan "Petrofina Fransez qrupu" ("Petrofina Fransez qrupu" özündə 10 Fransa idxalçısını birləşdirirdi – Ə.Ə.) tərəfindən buraya gətirilmiş neft məhsullarının da 500 min tonu həmin trestlərdən alınmışdı. "Petrofina Fransez qrupu" faktiki olaraq dünya trestlərinin filialı kimi çıxış edirdi[2]. Deməli, Fransanın 1925-ci ildə idxal etdiyi 1968 min ton neft məhsullarından 1330 min tonu dünya trestlərinin məhsulları idi. Fransa bazarı əhəmiyyətli dərəcədə təmərküzləşdiyi üçün, "Petrofina Fransez qrupu" nəzərə alınmazsa, demək olar ki, burada digər heç bir müstəqil firma fəaliyyət göstərmirdi[3].

Sovet neft ixracı təşkilatının hesabatında deyildiyi kimi, dünya trestlərinin hökumətə, mətbuata yaxınlığı cəhətdən Fransa bazarı İngiltərəyə çox oxşayırdı. Bu bazarda təkcə neft məhsullarının qiyməti deyil, hətta ixrac ediləcək məhsulların miqdarı da qabaqcadan dünya trestləri arasında razılaşdırılırdı[4].

Avropada mühüm yer tutan Almaniya bazarı da dünya trestlərinin nəzərindən qaçmamışdı. Onlar 1923-1925-ci illərdə müstəqil fəaliyyət göstərən alman neft firmalarını ələ keçirərək, burada öz mövqelərini daha da möhkəmləndirmişdilər. Ən böyük alman neft konserni "Depaq" "İngilis-İran neft şirkəti" tərəfindən, "Anilin"

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada

konserni, Alberxt, Zonenbern kimi mühüm neft yağı zavodları "Standart oyl" və "Royal datç-şell" tərəfindən ələ keçirilmişdi.[1] Dünya trestləri Fransada olduğu kimi, burada da öz ənənəvi siyasətlərini yeridirdilər. Son illərdə xam neft ixracı əhəmiyyətli dərəcədə azaldılmış, digər hazır neft məhsullarının ixracı isə xeyli artırılmışdı. Bunun nəticəsində də Almaniyanın özünə məxsus olan neft emalı zavodlarının çoxu öz fəaliyyətini dayandırmağa məcbur olmuşdular. Beləliklə də, Almaniya istər-istəməz dünya trestlərindən tam asılı vəziyyətə düşmüşdü.

İtaliya, İspaniya və digər Avropa ölkələrindəki neft bazarları da dünya trestlərinin nəzarəti altında idi[2].

Faktlardan göründüyü kimi, Avropa bazarları sovet nefti üçün nə qədər əlverişli idisə, buraya daxil olmaq və möhkəmlənmək ondan da çətin idi.

Dünya trestlərinin müqavimətini qıraraq, Avropa bazarında möhkəmlənmək və tədricən yeni-yeni mövqelər əldə etmək üçün, hər şeydən əvvəl "Sovet neft sindikatının" xaricdə fəaliyyət dairəsini genişləndirmək, onun kapitalist ölkələrində olan şərikli təşkilatlarını daha da qüvvətləndirmək və müstəqil əcnəbi firmalarla yeni-yeni əlaqələr yaratmaq lazım idi. Bu, bəhs edilən dövrdə günün tələblərindən doğan və mövcud şəraitə uyğun düzgün yol idi.

Məlum olduğu kimi, bəhs edilən dövrdə Sovet dövləti xaricə neft məhsullarını şərikli, yaxud müstəqil firmalar vasitəsilə topdansatış qaydasında ixrac edirdi. O, kapitalist ölkələrində neft məhsullarının pərakəndə satışı üçün, bir dənə də olsun özünün xüsusi təşkilatına malik deyildi. Bundan ötrü hələ nə əlverişli şərait, nə də imkan var idi. Burada sovet neftinə xaricdə başlanan düşmən münasibət, neft məhsulları daşıyan nəqliyyat vasitələri, saxlama anbarları, nəqliyyat vasitələri və s. bu kimi amillərin yoxluğu nəzərdə tutulurdu. Dünya trestləri sovet neftinə sahib olmaq və yaxud onun dünya bazarına müstəqil çıxmasına imkan verməmək məqsədilə çox ağır, qəbuledilməz şərtlər irəli sürdükləri halda, müstəqil firmalar onun ixracında həvəslə iştirak edirdilər. Bu, onların həyati mənafelərindən irəli gəlirdi. Dünya nəhənglərinin rəqabətinə davam gətirməkdə ucuz sovet nefti onlara yaxından kömək edirdi.

"Sovet neft sindikatı" öz fəaliyyətini bu yol ilə davam etdirməyə başladı. 1924-cü ildə İngiltərədə və onun müstəmləkələrində sovet neft məhsulları satışı ilə məşğul olan yeni cəmiyyət – ROP ("Russen oyl produkt"–"rus məhsulları cəmiyyəti") təşkil edildi[1]. Bu cəmiyyət indiyədək İngiltərədə fəaliyyət göstərən "Arkos" ilə "Sovet neft sindikatı" təşkilatının birləşməsindən yaranmışdı. Onun malik olduğu 100 min funt sterlinq kapitalın üçdə bir hissəsi "Arkos"un, üçdə iki hissəsi isə neft sindikatının payına düşürdü[2]. ROP səhmdarların ümumi yığıncağı tərəfindən bir il müddətinə seçilmiş 6 nəfərin iştirak etdiyi heyət

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 90
[2] Yenə orada, vər. 91



[1] "Торговое отношения СССР о капиталистическими странами", с. 86
[2] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 94

tərəfindən idarə olunurdu[1]. İdarənin başında direktor dururdu. Yeni təşkilat özünün 102 nəfər əməkdaşına malik idi ki, onlardan da cəmi 8 nəfəri rus, qalanları isə milliyyətcə ingilis idilər[2].

ROP özünün xüsusi laboratoriyasına, 100 vaqon-sisternə, 20-dən çox avto-sisternə, 14 yük maşınına, 200 benzin nasosuna və s. əmlaka malik idi[3].

ROP sovet neft məhsulları üzərində inhisar hüququna malik idi. Neft sindikatı öz məhsullarını İngiltərəyə ancaq bu cəmiyyət vasitəsilə sata bilərdi. ROP həm topdansatış, həm də pərakəndə satış yolu ilə ticarət edirdi. ROP-un fəaliyyət dairəsinə Bitstol, Kardif şəhərləri öz ucqarları ilə, Cənubi-Qərbi İngiltərə, London və Şotlandiya daxil idi.[4] O, Bristol və Kardifdə pərakəndə satış aparatına malik idi. Şotlandiya da isə öz fəaliyyətini "Lintson kompaniyası" vasitəsi ilə həyata keçirirdi. ROP sonradan öz fəaliyyətini genişləndirərək, Birmingem, Plimus, Şeffild, Qreytyarmus, Dublin və Liverpulda da neft satışını həyata keçirə bilmişdi. Bu rayonlarda onun xüsusi filialları var idi[5].

"Sovet neft sindikatı"ın təşəbbüsü ilə yaranmış bu yeni təşkilatın həyatiliyi çox tezliklə özünü göstərdi. Dünya trestlərinin göstərdiyi ciddi müqavimətə baxmayaraq, İngiltərəyə və onun müstəmləkələrinə sovet neft məhsulla-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 93
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada
[5] В.И.Легат и П.М.Шох. "Нефтяной экспорт и его значение в Советском хозяйстве". М.-Л., 1930, с. 36



rı ixracı xeyli artdı. 1924-1925-ci təsərrüfat ilində burada 25536430 pud neft məhsulu satılmışdı[1] ki, bu da 1923-1924-cü ildəki miqdardan əhəmiyyətli dərəcədə artıq idi (Həmin il İngiltərənin müstəqil firmalarına satılmış 45000 ton ağ neft və 3500 ton benzin buraya daxil deyildir – Ə.Ə.). 1925-1926-cı ildə İngiltərəyə gətirilmiş Sovet neft məhsullarının miqdarı isə 1924-1925-ci il səviyyəsindən 12,39 faiz çox idi[2].

Təkcə bu fakt onu sübut edir ki, dünya trestlərinin açıq və inadlı mübarizəsinə baxmayaraq, Sovet nefti Avropanın ən böyük bazarlarından biri olan İngiltərədə öz mövqeyini qoruyub saxlamaqla yanaşı, həm də xeyli möhkəmlənə bilmişdi.

"Sovet neft sindikatı"nın 1924-1925-ci ilə dair hesabatında göstərilirdi: "ROP" daima dünya konsernlərinin atəşi altındadır. Neft sindikatının digər elə bir təşkilatı yoxdur ki, onun haqqında kapitalist mətbuatı və parlament ROP qədər hay-küy qaldırmış olsun. Lakin ROP dünya konsernlərinin bu hərəkətinə nəinki dözdü, hətta əhəmiyyətli dərəcədə müvəffəqiyyətlərə nail ola bildi"[3].

Sovet nefti 1924-1925-ci təsərrüfat ilində Fransada da öz mövqeyini xeyli möhkəmləndirdi. "Sovet neft sindikatı" Fransada özünün ixrac əməliyyatını "Rus neft məhsulları səhmdar cəmiyyəti" adlanan təşkilat vasitəsilə həyata keçirirdi[4]. Bu təşkilat 1924-cü ildə yaradılmışdı, 100 min

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 1
[2] А.П.Серебровский. "Европейская нефтяная торговля и нефтесиндикат СССР". с. 22
[3] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92
[4] Yenə orada

frank kapitala malik idi.[1] Onun başında cari işləri təkbaşına aparan inzibatçı dururdu. Cəmiyət özünün 11 nəfər əməkdaşına malik idi ki, bunların da əksəriyyəti Sovet vətəndaşlarından ibarət idi.

"Rus neft məhsulları səhmdar cəmiyyəti"nin əsas vəzifəsi Fransa milli firmaları və digər təşkilatlarla əlaqəyə girmək, onların vasitəsilə Fransa və onun müstəmləkələrinə, eləcə də İspaniya və Portuqaliyaya neft məhsulları ixracını gücləndirməkdən ibarət idi. Bu cəmiyyət özünün pərakəndə satış aparatına malik deyildi. O, öz ticarət əməliyyatlarını topdansatış qaydasında həyata keçirirdi. Cəmiyyət bu və ya digər firmalarla əlaqə yaradır, bağlanmış müqavilələrin həmin firmalar tərəfindən necə həyata keçirilməsinə nəzarət edir, yerli bazarda baş verən dəyişikliklər haqqında "Sovet neft sindikatı"na məlumat verirdi və s.

Sovet nefti İngiltərədə olduğu kimi, Fransada da öz mövqeyini şiddətli mübarizə şəraitində möhkəmləndirməli olurdu. Dünya trestləri ilə yanaşı, burada Sovet neftinə boykot şüarından hələ əl çəkməmiş "Fransa-Belçika" sindikatı da ciddi müqavimət göstərirdi. Lakin ölkə iqtisadiyyatının neft məhsullarına olan böyük ehtiyacı, burada Sovet neftinə göstərilən müqavimətdən qat-qat güclü idi. Məhz buna görə də Sovet nefti Fransada ona göstərilən müqaviməti nisbətən asanlıqla aradan qaldırıb, öz mövqeyini getdikcə möhkəmləndirə bildi. 1924-1925-ci təsərrüfat ilində "Sovet neft sindikatı" "Petrofina Fransez" şirkəti, "Petrol blok", "Anre" və digər firmalarla küllü miq-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92



darda neft məhsulları satmaq haqqında müqaviləyə malik idi[1]. Maraqlı burasıdır ki, həmin dövrdə təkcə milli firmalar deyil, hətta Fransa hökumətinin özü də Sovet neftinin alıcısına çevrilmişdi. 1925-ci ilin martında Moskvada "Sovet neft sindikatı" ilə Fransa səfiri J.Erbert arasında gedən danışıqlar martın 24-də saziş imzalanması ilə nəticələndi. Sazişə görə "Sovet neft sindikatı" Fransa dəniz donanmasının ehtiyacı üçün 1925-ci ilin sonuna qədər 75 min ton neft məhsulu verməli idi.

Fransa-Sovet İttifaqı arasında yaranan bu rəsmi neft sövdələşməsi "Fransa-Belçika" sindikatının ciddi etirazına səbəb oldu. O, 1925-ci il aprel ayının 9-da Fransa hökumətinə etiraz məktubu göndərdi. Məktubda deyilirdi: "Sovet hökumətindən neft məhsullarının alınması Genuya və Haaqa konfranslarının qətnamələrini pozmaq deməkdir. Fransa hökuməti özünün atdığı bu addımla Rusiyada mülkiyyəti olan neft kompaniyalarının qanunu hüquqlarına ziyan vurmuşdur. Sovet dövlətinin Fransaya satdığı neft məhsulları həmin kompaniyaların mədənlərindən əldə edilmişdir".[2]

Fransaya Sovet neft məhsulları ixracının 1924-cü ildən sonra xeyli artdığını sübut etmək üçün bir neçə konkret fakt gətirmək kifayətdir. 1925-ci ildə Fransanın idxal etdiyi 1968 min ton neft məhsullarından 197,6 min tonu Sovet İttifaqından gətirilmişdi[3]. Bu, Fransaya əvvəlki illərdə ixrac edilmiş Sovet neft məhsulları miqdarından

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92
[2] Bax: Л.Фишер. "Империализм нефти". М.-Л., 1927, с. 84
[3] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92

qat-qat çox idi. Əgər 1923-cü ildə Sovet nefti Fransa idxalında 1,3 faiz, 1924-cü ildə 1,4 faiz təşkil edirdisə, 1925-ci ildə onun xüsusi çəkisi artıq 10,1 faizə qalxmışdı[1].

Bu, Fransa bazarında Sovet neftinin çox böyük müvəffəqiyyəti demək idi. Əldə edilmiş bu müvəffəqiyyət heç də təsadüfi deyildi. Dünya trestlərinin göstərdiyi quduz müqavimətə baxmayaraq, son zamanlarda burada Sovet neftinə olan maraq getdikcə qüvvətlənirdi. Təkcə bu fakt onu göstərirdi ki, Sovet nefti Fransa bazarında əhəmiyyətli perspektivə malikdir. Fransa 1925-ci ildə 1924-cü ilə nisbətən 8,7 faiz artıq Sovet neft məhsulu idxal etdiyi halda, həmin illərdə ABŞ-dan idxalı 10 faiz azaltmışdı. ABŞ-ın Fransa idxalında xüsusi çəkisi 79,4 faizdən 69,4 faizə enmişdi[2].

Bəhs edilən illərdə Sovet neftinin mövqeyi Almaniya bazarında da xeyli möhkəmlənmişdi. Məlum olduğu kimi, 1922-1924-cü illər arasında Almaniyada Sovet neft məhsullarının satışı "Sovet neft sindikatı"nın buradakı nümayəndəliyi vasitəsilə həyata keçirilirdi. Berlin nümayəndəliyi təkcə Almaniya ərazisində deyil, həm də Mərkəzi Avropada fəaliyyət göstərirdi. Onun Praqa və Vyanada kontorları var idi[3]. Berlin nümayəndəliyinin vəzifəsi burada əsasən firmalarla bağlanmış inhisar müqavilələrinin həyata keçirilməsinə nəzarət etməkdən ibarət idi.

"Neft sindikatı"nın təşəbbüsü ilə 1924-cü ilin oktyabr ayında burada sovet neft məhsullarını satmaq üçün

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 92
[2] Yenə orada
[3] В.И.Легат, П.М.Шох. "Нефтяной экспорт и его значение..." c. 41



ayrıca "Derop" ("Doyçe-russişen produkt") deyilən cəmiyyət yaradıldı[1].

"Derop" firması "Neft sindikatı"ndan sovet neft məhsullarını alır və göstərilən bazarlarda satırdı. "Sovet neft sindikatı" öz kapitalı ilə bu cəmiyyətə şərik idi. "Derop" həm topdansatış, həm də pərakəndə ticarətlə məşğul idi. O, "Şliman", "Şindler" və dünya trestlərindən hələ öz müstəqilliyini qoruyub saxlaya bilmiş digər firmalarla sovet neft məhsulları satmaq haqqında müqaviləyə malik idi[2].

"Sovet neft sindikatı"nın Almaniya bazarında gördüyü tədbirlər, buraya sovet neft məhsulları ixracının genişlənməsilə nəticələndi. Onun miqdarı 1924-cü ildəki 93879 min puddan, 1925-ci ildə 198838 min puda çatdı[3]. Almaniya 1924-cü ildə idxal etdiyi benzinin 8,7 faizini, sürtkü yağının 10,6 faizini, xam neftin 6,9 faizini Sovet İttifaqından gətirdiyi halda, 1925-ci ildə benzinin 16,8 faizini, sürtgü yağının 10,7 faizini, xam neftin 15 faizini, dizel yanacağının isə hamısını SSRİ-dən gətirmişdi[4]. Sovet neftinin Almaniyanın ixracındakı xüsusi çəkisi 1924-cü ildəki 13 faizdən 1925-ci ildə 25 faizə qalxmışdı[5].

"Sovet neft sindikatı"nın Milanda yerləşən İtaliya nümayəndəliyi də öz fəaliyyətini 1924-1925-ci illərdə xeyli canlandırmışdı. O, burada öz ixrac əməliyyatını hökumət tərəfindən təşkil edilmiş "Acip" ("Atsionda Cenoralo İta-

[1] Azərb. SSR OİMDA, f. 16105, iş 25, vər. 15
[2] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 90
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada

liyana Petroli") adlı cəmiyyət vasitəsilə həyata keçirirdi[1]. "Sovet neft sindikatı" "Acip" ilə benzin, mazut, sürtkü yağı və digər neft məhsulları haqqında satış müqaviləsinə malik idi[2].

"Sovet neft sindikatı"nın İtaliyada dövlət inhisar təşkilatı olan "Acip" ilə yaxın əlaqəyə malik olması, buraya Sovet neft məhsulları ixracının ildən-ilə artmasına səbəb olmaya bilməzdi. Sovet İttifaqı 1923-cü ildə İtaliyaya cəmi 31,69 min ton neft məhsulları ixrac etdiyi halda, 1924-cü ildə bu göstərici 97,50 min tona, 1925-ci ildə isə 292,8 min tona çatdırılmışdı[3]. İtaliya 1925-ci ildə istehlak etdiyi 920 min ton neft məzsulunun üçdə bir hissəsinə qədərini Sovet İttifaqından almışdı[4].

Yaxşı perspektivə malik olan İtaliya bazarında Sovet neftinin müvəffəqiyyəti, buranın rəsmi və işgüzar dairələrinin Sovet neftinə gündən-günə artan marağı, dünya trestlərini, xüsusən də "Standart oyl"u ciddi narahat etməyə başladı.

"Sovet neft sindikatı"nın sədri Lomov İtaliyadakı Sovet nümayəndəsi Landauya göndərdiyi 29 oktyabr 1925-ci il tarixli məktubda yazırdı: "Mən yoldaş Kerjensevdən (Kerjensev həmin dövrdə SSRİ-nin İtaliyadakı səlahiyyətli nümayəndəsi idi – Ə.Ə.) belə bir məlumat almışam ki, bizim neftə qarşı Mussolinidə ciddi maraq oyanmışdır. Bu bizi, bir daha maksimum fəaliyyət göstərməyə vadar edir ki, İtaliya neft satışı təşkilatını qəti olaraq bu

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 91
[2] Yenə orada, vər. 89
[3] Yenə orada, vər. 91
[4] Yenə orada, iş 76, vər. 42



yola sala bilək. Bilirəm ki, mübarizəsiz nail olmaq olduqca çətindir. Lakin Siz buna nail olmağa çalışmalısınız. İtaliyanı sakitcə müşahidə etmək vaxtı artıq keçmişdir. İşin dərinilyinə nüfuz etmək lazımdır. Bu, bir də ona görə zəruridir ki, amerikanların İtaliyada bizim bazarı pozmaq cəhdləri güclənir"[1].

Lakin əldə edilmiş bir sıra rəsmi sənədlərdən görünür ki, dünya trestlərinin sovet neft ixracını pozmaq üçün göstərdiyi ciddi-cəhdlər gözlənilən nəticəni verməmişdi. Sovet nefti İtaliya bazarında özünü yenə möhkəm hiss edirdi. SSRİ Xalq Xarici İşlər Komissarlığının 1926-cı il fevral ayına aid olan bir rəsmi sənədində sovet neftinin İtaliyada mövqeyindən bəhs edilərək göstərilirdi: "Ümumiyyətlə, son illər burada bizim neft işimiz pis getmir"[2].

Sovet neftinin işi Avropanın digər bazarlarında da pis getmirdi.

Faktlardan göründüyü kimi, Avropa ölkələri sovet neft məhsullarının əsas alıcısına çevrilmişdilər. Sovet dövlətinin 1924-25-ci təsərrüfat ilində ixrac etdiyi 1444202 ton[3] neft məhsulunun 90,7 faizi Avropa bazarının, yerdə qalanları isə dünyanın digər bazarlarının payına düşürdü[4].

Bəhs edilən dövrdə Sovet dövləti 22 ölkəyə neft məhsulları ixrac edirdi[5]. ABŞ-dan başqa dünyanın bütün

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 1
[2] Yenə orada, vər. 42
[3] RF Neft Sənayesi Nazirliyinin Mərkəzi Arxivi, 1928-ci il fondu, siyahı 1, iş 2, vər. 127
[4] А.П.Серебровский. "Европейская нефтяная торговля и нефтесиндикат СССР", с. 81
[5] "Внешняя торговля СССР за 20 лет", с. 49

böyük dövlətləri SSRİ ilə neft ticarəti əlaqəsinə malik idi. ABŞ isə SSRİ-nin tanımaq sahəsində olduğu kimi, bu sahədə də kənarda qalmışdı[1].

Doğrudur, ABŞ prezidenti K.Kuliç 1923-cü il 6 dekabrda konqresə göndərdiyi məktubunda ABŞ vətəndaşlarının ruslar ilə ticarət münasibətlərinə girməsinə etiraz etməsə də[2], bu mövqe öz əksini hələ nə rəsmi, nə də qeyri-rəsmi münasibətlərdə tapmışdı.

ABŞ-ın Sovet hökuməti ilə neft ticarətinə girməməsi həm iqtisadi, həm də siyasi məqsədlərdən irəli gəlirdi ABŞ həmin dövrdə, dünya dövlətləri içərisində ən çox neft hasil edən ölkə idi. O, öz neftilə nəinki özünü gen-bol təchiz edirdi, hətta "Standart oyl" və digər neft kompaniyaları vasitəsilə dünya bazarına da küllü miqdarda məhsul ixrac edirdi. ABŞ tərəfindən 1922-ci ildə 62065 min barrel, 1924-cü ildə isə 97280 min barrel neft məhsulu ixrac edilmişdi[3]. Təkcə bu fakt onu göstərir ki, ABŞ həmin dövrdə Sovet İttifaqı ilə neft danışıqlarına başlamaqda o qədər də maraqlı deyildi. Bu, işin iqtisadi tərəfi idi.

Bundan başqa, ABŞ sovet neftindən bir də siyasi mülahizələrə görə imtina edirdi. ABŞ hakim dairələrinin fikrincə, sovet neft ixracının artması Rusiyada bolşevik hakimiyyətini xeyli möhkəmləndirə bilərdi. ABŞ-ın bu məsələdə tutduğu siyasi mövqe "Kuryer-de Petrol" adlı mürtəce qəzetin nömrələrinin birində nəşr edilmiş "Beynəlxalq siyasət və neft" adlı məqalədə çox aydın ifadə

[1] "Красный нефтяник", № 35, 7 aprel 1925-ci il, "Бакинский рабочий" qəzetinə əlavə
[2] Документы внешней политики СССР, т. VI, М., 1962, с. 628-629
[3] "Мировое хозяйство и мировая политика", № 10-11, 1926, с. 98



edilmişdi. Orada qeyd edilirdi: "Bolşeviklər... iflasın son həddinə çatmışlar. Onların yeganə ümidləri neftdir. Əgər satılmış neftdən əldə edilmiş gəlir dövlətin qanuni ehtiyaclarına sərf edilərsə, şübhəsiz belə sevdaya heç kim etiraz etməz. Ancaq Amerika neft maqnatları yaxşı başa düşməlidirlər ki, neft əvəzinə onlardan alınan pul xarici təbliğat üçün sərf ediləcəkdir. Amerika kapitalistlərinin bolşeviklərə verdiyi pul kapitalizmin əsaslarını sarsıtmaq üçün, yenə də Amerikaya qayıda bilər. Ona görə də, biz hörmətli və nüfuzlu şirkət rəhbərlərinə tövsiyə edirik ki, onlar da uzağa baxsınlar"[1].

Lakin ABŞ-ın sovet neftinə qarşı bu mövqeyi uzun sürmədi. Əvvəlki illərdən tam fərqli olaraq 1924-cü ildən başlayaraq,bir sıra iqtisadi və siyasi səbəblər ABŞ-ı Sovet İttifaqı ilə neft ticarətinə girməyə məcbur etdi.

ABŞ-ın sovet neftinə göstərdiyi etinasızlıq ölkə daxilində ciddi təşviş doğurmaya bilməzdi. Çünki ABŞ neft məhsulları ehtiyatına görə dünyada sonuncu dövlətlər sırasında olmasına baxmayaraq, (1924-cü il hesablamalarına görə dünya neft ehtiyatının yalnız 12 faizi[2] burada idi – Ə.Ə.) həmin dövrdə digər dövlətlərdən qat-qat artıq neft məhsulları istehlak edirdi. Təkcə bir il ərzində ölkənin dəmir yolunun işlətdiyi neft məhsulunun miqdarı 63,2 milyon barrelə, ticarət donanmasınınkı 73 milyon barrelə, sənayenin ehtiyacına sərf edilən neft məhsulları 230 milyon barrelə, hərbi donanmanın işlətdiyi neft məhsulu 6,3 milyon barrelə, məişət üçün işlədilən neft məhsulları 140

[1] "Красный нефтяник", № 35, 7 aprel 1925-ci il
[2] "Правда", 20 iyul 1932-ci il

milyon barrelə bərabər idi və s. [1].

1924-cü ildə bütün dünya üzrə 27 milyon ton benzin istehlak edilmişdi ki, bunun da 22 milyon tonu təkcə ABŞ-ın payına düşürdü[2].

Ölkənin malik olduğu neft ehtiyatı ilə onun neft məhsullarına olan tələbatı arasında yaranan uyğunsuzluq ABŞ-ın müvafiq dairələrini düşündürməyə bilməzdi. Ölkədə neft sərvətinin tükənməsi təhlükəsi onlardan öz mövqelərini və Sovet İttifaqına olan münasibətlərini dəyişməyi ciddi tələb edirdi.

"Royal datç-şell" trestinin Sovet İttifaqı ilə neft ticarətini davam etdirməsi və onun daha da güclənməsi ehtimalı da ABŞ-ın müvafiq dairələrinin, xüsusilə "Standart oyl" trestinin sovet neftinə olan meylini getdikcə gücləndirirdi. O, "Royal datç-şell"in Aralıq dənizi və Süveyş kanalı rayonundakı ağalığına coğrafi cəhətdən oraya daha yaxın olan sovet neft vasitəsilə son qoymaq istəyirdi[3]. Bütün bu yuxarıda göstərilən iqtisadi və siyasi amillər ABŞ-ı da sovet neftinin ayağına gətirdi.

1924-cü ilin mayında Londonda "Standart oyl"un Avropa filialı ilə "Arkos" arasında danışıqlar (Bundan əvvəl "Standart oyl" sovet neft məhsullarının bilavasitə "neft sindikatdan" deyil, üçüncü əldən – Sovet neftilə ticarət edən müstəqil firmalardan alırdı) başladı.[4] Danışıqların başlanğıcında "Standart oyl" təklif etdi ki, "Sovet neft sindikatı" İtaliya, İngiltərə, Belçika, Hollandiya və Tür-

---

[1] "Мировое хозяйство и мировая политика", №10-11, 1926, с. 96

[2] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 107

[3] Денни. "Борьба за нефтяную монополию", с. 129

[4] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 75



kiyədə özünün bütün hüquqlarını, həmin ölkələrdən neft məhsulları ilə birlikdə ona versin. "Standart oyl" danışıqların sonrakı mərhələsində İngiltərədə fəaliyyət göstərən ROP-u öz məhsullarını digər şirkətlərə nisbətən ucuz satmaqda təqsirləndirdi. Şirkətin fikrincə, ROP "Standart oyl"la ticarət əlaqəsi yaratmaq məqsədi ilə özünün satılmamış məhsullarını ona versə hər iki tərəf üçün daha yaxşı olar[1]. Şübhəsiz, "Sovet neft sindikatı" "Standart oyl"un nə birinci, nə də ikinci təklifini qəbul edə bilməzdi. Bu, bir sıra bazarlardan könüllü surətdə əl çəkmək demək olardı.

"Standart oyl" 1924-cü ilin sentyabrında "Sovet neft sindikatı"na yeni təkliflə müraciət etdi. Bu təklifə görə o, üç il müddətində hər il 50 min ton benzin almağı öhdəsinə götürürdü, bu şərtlə ki, ROP İngiltərədə "Standart oyl"dan başqa heç bir təşkilata benzin məhsulu satmasın. Bundan başqa, "Standart oyl"un irəli sürdüyü şərtə görə, ROP-un benzin üzərində pərakəndə satış qiyməti İngiltərədə fəaliyyət göstərən dünya trestlərinin satış qiymətlərindən aşağı olmamalı idi[2].

"Standart oyl"un bu yeni təklifi Moskvada "neft sindikatının" mərkəzi idarəsində geniş müzakirə edildi. "Neft sindikatı" rəhbərliyi "Standart oyl"un bu yeni təklifini də rədd etdi[3]. Onu qəbul etmək dünya trestlərinə nisbətən gənc və zəif olan ROP-un fəaliyyətini dayandırmaq demək olardı. Çünki ROP burada dünya trestlərinin rəqabətinə davam gətirmək işində qiymət siyasətindən istifadə edirdi. Bu təkliflə razılaşmaq ROP-un tərksilah

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 75

[2] Yenə orada

[3] Yenə orada

edilməsilə razılaşmaq demək idi.

"Standart oyl" 1924-cü ilin dekabrında yeni təkliflə çıxış etdi[1]. Yeni təklifə görə, "Standart oyl" üç il müddətində, hər il "Sovet neft sindikatından" 500 min ton mazut, 300 min ton ağ neft, 150 min ton benzin və 50 min ton qazolin almağı öhdəsinə götürürdü[2]. Bu, təxminən Sovet dövlətinin ixrac etdiyi bütün mazutun miqdarına bərabər idi. Qalan məhsullar isə, sürtkü yağı istisna olmaqla, ixrac olunan digər neft məhsullarının üçdə ikisini təşkil edirdi. Qiymət məsələsinə gəldikdə isə, bu məsələdə də "Standart oyl" xeyli güzəştə gedirdi. Lakin bununla yanaşı, o, elə əlavə şərtlər irəli sürürdü ki, həmin şərtləri qəbul etmək Sovet dövlətinin ixrac etdiyi neft məhsulları üzərində inhisar hüququnu bütövlükdə ona vermək demək olardı. "Standart oyl"un təklifinə görə, Sovet dövləti özünün müqavilədən artıq qalan məhsulunu digər ticarət firmalarına daha yüksək qiymətlə verməli idi. Deməli, bununla da "Standart oyl" sovet neft məhsullarının yeganə alıcısı kimi qala bilərdi. Bu isə ona sovet nefti vasitəsilə dünya bazarında hakim olmağa, digər trestlərə qarşı asanlıqla mübarizə aparmağa imkan verərdi.

"Standart oyl"un bu təklifi sovet neft ixracının gələcək taleyinin həll edilməsində xüsusi əhəmiyyətə malik idi. Məhz buna görə də, təsadüfi deyildi ki, bu təklifin müzakirə və həllində L.B.Krasin bilavasitə özü iştirak edirdi[3].

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 74
[2] Yenə orada
[3] Yenə orada



"Standart oyl"un bu təklifi də uzun müzakirələrdən sonra "Sovet neft sindikatı" tərəfindən rədd edildi.

Yaxın Şərq və Hindistan bazarlarında sovet neftinə ciddi ehtiyac hiss edən (Bu bazarlarda ağ neft satışı üstündə onunla "Royal datç-şell" arasında ciddi rəqabət gedirdi – Ə.Ə.) "Standart oyl" 1925-ci ilin əvvəllərində yenə də "Sovet neft sindikatına" müraciət etdi. "Standart oyl" bu dəfə heç bir qeyd-şərt irəli sürmədən müəyyən miqdar müxtəlif neft məhsulları almaq fikrində idi. Sovet dövləti "Standart oyl" ilə razılığa gəlməyi lazım bildi. Çünki bu dövrdə "Royal datç-şell"in sovet neftinə münasibəti dəyişmişdi. "Standart oyl"un rədd edilməsi, bu iki dünya trestinin sovet neftinə qarşı mübarizə aparmaqda əlbir hərəkət etməsinə imkan verərdi. "Sovet neft sindikatı" isə həmin dövrdə onların birgə mübarizəsi şəraitində öz vəzifəsini yerinə yetirməkdə böyük çətinlik çəkərdi.

"Standart oyl" ilə "Sovet neft sindikatı" arasında gedən danışıqlar 1925-ci ilin martında saziş bağlaması ilə nəticələndi.[1] Sazişdə ABŞ-ın neft təşkilatına 150 min ton ağ neft, 200 min ton da digər neft məhsulları satılması nəzərdə tutulurdu[2].

"Standart oyl" ilə bağlanan bu saziş böyük əhəmiyyətə malik idi. "***Krasnıy neftyanik***" onun əhəmiyyətindən bəhs edərək həmin günlər yazırdı: "Bu fakt, keçən bir çox illər ərzində Sovet dövlətini blokadaya almış zəncirin ən sonuncu və ən iri halqasının qırılması deməkdir"[3].

---

[1] "Красный нефтяник" № 35, 7 aprel 1925-ci il
[2] Yenə orada
[3] Yenə orada

Doğrudan da, bu, təkzibedilməz bir həqiqət idi. İmperialist dövlətləri və onların neft kompaniyalarının göstərdikləri quduz müqavimətə baxmayaraq sovet nefti qısa müddətdə nəinki dünya bazarına yol aça bilmişdi, hətta öz mövqeyini 1913-cü ilə nisbətən daha artıq möhkəmləndirmişdi. Artıq 1924-25-ci təsərrüfat ilində Sovet dövləti 1444201,961 ton neft məhsulu ixrac etmişdi ki,[1] bu da 1913-cü il miqdarının 144,2 faizini təşkil edirdi[2].

Neft ixracı sahəsində 1923-24-cü ilə nisbətən 1924-25-ci ildə əldə edilmiş görkəmli müvəffəqiyyətlər təkcə kəmiyyət göstəricilərindən ibarət deyildi. Müqayisə edilən dövrdə neft ixracının strukturunda da ciddi dəyişikliklər baş vermişdi. Əgər 1913-cü ildə ixrac edilmiş neft məhsullarının 46,2 faizini ağ neft, 16 faizini benzin, 6,7 faizini xam neft və 31,1 faizini digər neft məhsulları təşkil edirdisə[3], 1925-ci ildə ağ neftin xüsusi çəkisi xeyli aşağı düşmüş, benzin, sürtkü yağı və xam neftin xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdı. 1923-24-cü ildə ixrac edilmiş benzin ümumi neft ixpacı miqdarının 18,75 faizini təşkil etdiyi halda, bu göstərici 1924-25-ci ildə 21,01 faiz, 1925-26-cı ildə isə 28,39 faiz olmuşdu[4]. Müqayisə edilən illərdə ağ neftin xüsusi çəkisi isə 48,41 faizdən 21,99 faizə enmişdi[5].

Qısa müddət ərzində neft ixracı sahəsində əldə edilmiş müvəffəqiyyətləri başqa bir faktdan da daha aydın görmək olar.

---

[1] RF XTMDA, f. 2309, siyahı 1, iş 98, vər. 38
[2] Yenə orada, siyahı 11, iş 36, vər. 44
[3] Ежегодник "ВСНХ-1939", с. 22
[4] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 89
[5] Yenə orada



1913-cü ildə Rusiyanın ixrac etdiyi neft məhsulları öz miqdarına görə ölkənin ümumi ixracında yeddinci yeri tuturdu. Onun xüsusi çəkisi ixrac əməliyyatının vur-tut 3,8 faizini təşkil edirdi[1]. 1924-25-ci ildə isə Sovet İttifaqı tərəfindən ixrac edilmiş neft məhsulları öz xüsusi çəkisinə görə ümumi ixracatda ikinci yer tuturdu[2].

Bu fakt, ixracat sahəsində qazanılmış yüksək nəticələrlə yanaşı, bir də onu göstərirdi ki, sovet nefti dövlətin sərmayə yığımında da ən əsas mənbələrdən birinə çevrilmişdir. Təkcə 1924-25-ci ildə ixrac edilmiş neft məhsullarından 65,5 milyon rubl xalis gəlir əldə edilmişdi[3].

Bəhs edilən dövrdə kapitalist dövlətlərinin Sovet İttifaqına borc verməkdən imtina etmələri, onun maliyyə ehtiyaclarının ödənilməsinin yeganə mənbəyinin daxili imkanlardan ibarət olması, o zaman sovet neft məhsullarının ixracından əldə edilmiş gəlirin böyük əhəmiyyətini düzgün qiymətləndirməyə imkan verir.

Blokadanın müvəffəqiyyətlə aradan qaldırılması və sovet neftinin dünya bazarında əldə etdiyi uğurlu nəticələr bu sahədə mövcud olan çətinliklərin hələ heç də tamamilə aradan qaldırılması demək deyildi.

1921-1925-ci illərdə gənc Sovet hakimiyyətinin üzüzə gəldiyi iqtisadi-siyasi, texniki çətinliklər xarici ticarətin bu mühüm sahəsində özünü kəskin surətdə göstərir və onun normal gedişinə ciddi mane olurdu. Məhz bunun nəticəsi idi ki, sovet neft məhsulları ixracında böyük mü-

---

[1] К.П.Павлов. "Роль государственной монополии внешней торговли в построение социализма в СССР", М., 1960, с. 128
[2] Yenə orada
[3] RF XTMDA, f. 2309, siyahı 1, iş 98, vər. 38

vəffəqiyyətlər ili kimi qeyd edilən 1925-ci ildə belə, ixrac planı cəmi 95,3 faiz yerinə yetirilmişdi.[1] Bir sıra neft məhsulları üzrə isə vəziyyət daha pis idi. Həmin il ixrac edilmiş mazut planın 77,7 faizini, dizel yanacağı 83,5 faizini, maşın yağı 91,8 faizini təşkil edirdi[2] və s.

Sovet neft məhsulları ixracının normal gedişinə əngəl törədən çətinliklər öz məzmunlarına görə siyasi və maliyyə-texniki xarakterli çətinliklər idi. Bu iki qrup çətinliklər məzmun etibarı ilə müxtəlif olmalarına baxmayaraq həmin dövrdə elə çulğalaşmışdılar ki, həmişə, hər yerdə biri digəri üçün şərt olurdu.

Siyasi çətinliklər dedikdə, burada əsasən beynəlxalq imperializmin gənc Sovet hakimiyyətinə bəslədiyi düşmən münasibətlərdən doğan çətinliklər nəzərdə tutulur. Məlum olduğu kimi, uzun müddət dünya bazarından ayrı düşmüş sovet nefti burada özünə fövqəladə dərəcədə çətin siyasi bir şəraitdə yol açmalı olurdu. İmperialist dövlətləri və onların himayə etdikləri neft şirkətləri Sovet hakimiyyətinə qarşı, onun neftinə qarşı ölüm-dirim mübarizəsinə qalxmışdılar. Sovet nefti "başqasından oğurlanmış" bir məhsul kimi "qanundan kənar" elan edilmişdi. Şübhəsiz sovet neftinə qarşı yaranmış belə bir kəskin siyasi şəraitdə sovet neftinin dünya bazarına çıxmasından və onun müvəffəqiyyətindən danışıq da ola bilməzdi.

Lakin bu vəziyyət uzun sürmədi. Sovet dövlətinin, Kommunist partiyasının bu sahədə vaxtında gördüyü həyati tədbirlər bir yana dursun, imperializmə xas olan və

[1] Г.И.Ломов. "В погоне за нефтью", М.-Л., 1925, с. 25
[2] Yenə orada



onun labüd yolçusu olan ziddiyyətlər sovet neftinə yol açdı. İmperialist dövlətləri və onların şirkətləri tədricən də olsa öz mövqelərini dəyişməyə məcbur oldular.

Sovet neftinin dünya bazarına çıxmaq imkanı əldə etməsi və bu sahədə qazanılan ilkin müvəffəqiyyətlər heç də onun qarşısında duran siyasi çətinliklərin aradan qalxması demək deyildi.

Doğrudur, ilk baxışda bu çətinliklər heç də əvvəlki qədər də ciddi təhlükə təşkil etmirdilər. Lakin onları yox etmədən dünya bazarında sovet neftinin bugünkü və sabahkı müvəffəqiyyətini təmin etmək mümkün deyildi.

Belə çətinliklərdən ən başlıcası sovet nefti ilə onun istehlakçıları arasında yaranmış süni sədd idi.

Bəhs edilən dövrdə sovet nefti ona göstərilən ciddi müqavimətləri qıraraq, dünya bazarına çıxmış, lakin hələ gəlib bilavasitə öz istehlakçılarına çatmamışdı. Sovet dövləti həmin dövrdə dünya bazarında neft məhsullarının satıcısı kimi deyil, ixracatçısı kimi çıxış edirdi. O, bu və ya digər bazarda öz məhsullarını dünya trestləri və müxtəlif müstəqil ticarət şirkətləri vasitəsilə satırdı. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1925-ci ildə ixrac edilmiş neft məhsullarından 39198304 pudu müstəqil firmalar, 16098974 pudu "Standart oyl" və 4815416 pudu "Royal datç-şell" tərəfindən satılmışdı.[1]

Əgər ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən şərikli ticarət təşkilatları nəzərə alınmazsa, həmin il Sovet "neft sindikatı" öz təşkilatı vasitəsilə bir kiloqram da olsun neft məhsulu satmamışdı. Şərikli ticarət təşkilatlarında isə So-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 1

vet dövləti vur-tut bir payçı kimi iştirak edirdi.

Deməli, bu faktlardan aydın olur ki, sovet neft sindikatı həmin dövrdə öz istehlakçıları ilə bilavasitə əlaqəyə malik deyildi. Onunla istehlakçılar arasında müxtəlif ölkələrin neft kompaniyaları sifətində bir sədd yaranmışdı. Bu isə sovet nefti üçün olduqca əlverişsiz idi. Belə halda kapitalist şirkətləri tərəfindən sovet məhsullarının ucuz qiymətə alınması bir tərəfə dursun, həm də onun miqdarı məhdud çərçivəyə salınmış olurdu. Sovet dövləti bu və ya digər ölkəyə neft məhsulları ixrac edərkən o, öz imkanlarından çox, xarici kompaniyanın tələbilə hesablaşmağa məcbur idi. Bundan başqa, sovet neft məhsullarının "öz adı ilə" deyil, bu və ya digər şirkətin markası altında satılması onun keyfiyyətinin istehlakçılardan gizli qalmasına səbəb olurdu. Bu isə sovet neftinin gələcəkdə digər trestlərlə istehlakçı uğrunda aparacağı rəqabətin nəticəsi üçün mühüm əhəmiyyətə malik idi. Sovet neft məhsullarının istehlakçıları istifadə etdikləri neft məhsullarının kimə məxsus olduğunu bilərdilərsə, "Sovet neft sindikatı" bilavasitə pərakəndə satış imkanı əldə edən zaman, onlar digər şirkətlərin məhsullarından üz döndərər və "Sovet neft sindikatı"nın alıcısına çevrilərdilər.

Sovet neftinin dünya bazarında qəti möhkəmlənməsinə və inkişafına mane olan bu sonuncu səddi aradan qaldırmaq üçün, təkcə sovet nefti ilə mübarizə aparan dövlət və şirkətlərin müqavimətinin tam qırılması kifayət deyildi. Bunun üçün həmin dövrdə mövcud olan maliyyə-texniki çətinlikləri də aradan qaldırmaq lazım idi.

Sovet neftinin dünya bazarında möhkəmlənməsi və daha yeni-yeni mövqelər əldə etməsi üçün, onun böyük



həcmdə müntəzəm axınını təmin etmək başlıca şərtlərdən biri idi. Bunun üçün isə hər şeydən əvvəl, tələb olunan zəruri texniki imkan və vasitələrə malik olmaq lazım idi.

Sosialist inqilabının qələbəsindən sonrakı ilk illərdə neft ixracına xidmət edən yardımçı təsərrüfat olduqca acınacaqlı bir vəziyyətdə idi. Dəmir yolu sisternləri xarab olmuş, istehsal rayonları ilə dəniz limanlarını birləşdirən neft kəmərləri sıradan çıxmışdı. Neft daşıyan gəmilərdən, neft saxlama anbarlarından və çənlərdən söhbət belə ola bilməzdi. Onlar xaricdə yerləşdikləri üçün, Sovet hakimiyyətinin qələbəsindən sonra öz köhnə sahiblərində qalmışdı.

Sovet dövləti neft ixracı üçün lazım olan yardımçı təsərrüfatın bütün sahələrini yenidən özü təşkil etməli idi. Bu isə küllü miqdarda vəsait və uzun vaxt tələb edirdi. Sovet dövləti dəmir yolu sisternlərini, neft daşıma kəmərlərini və ölkə daxilinə aid olan digər təsərrüfat sahələrini az-çox qaydaya sala bildiyi halda, neft daşıyan gəmilər, saxlama anbarları, neft çənləri və s. bu kimi sahələrdə ciddi çətinliklər çəkirdi.

Sovet dövləti hətta 1924-cü ildə özünün bir dənə də olsun neft daşıyan gəmisinə malik deyildi.[1] Neft daşıma işi xarici ölkələrdən icarəyə götürülmüş gəmilər vasitəsilə həyata keçirilirdi. Bu isə xeyli vəsait və vaxt tələb etməklə, həm də sovet neftinə qarşı şübhə yaradırdı. Sovet dövlətinin bu sahədə çətinlik çəkdiyini görən xarici firmalar "Sovet neft sindikatı" ilə bağlanacaq müqavilənin müntəzəm yerinə yetiriləcəyinə şübhə edir və buna görə də digər trest-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 17, vər. 58

lərlə münasibətlərinin pisləşməsinə cəsarət etmirdilər. Nəticədə sovet nefti yeni bir alıcıdan məhrum olurdu. Dünya trestləri də sovet nefti ilə mübarizədə bundan bacarıqla istifadə edirdilər. Onlar nəinki öz gəmilərini əlverişli şərtlərlə Sovet dövlətinə istifadəyə verməkdən boyun qaçırır, həm də digər müstəqil firmalara ciddi təzyiqlər göstərirdilər.

Neft daşıma nəqliyyatı sahəsində mövcud çətinlikləri dərhal aradan qaldırmaq mümkün deyildi. Ölkənin maliyyə imkanı buna yol vermirdi. Nəticədə sovet nefti bu və ya digər bazarda yaranmış əlverişli şəraitdən istifadə edə bilmir, hətta bəzən köhnə mövqeyindən də məhrum olurdu.

Çin bazarının (Çinə sovet neft məhsulları ixracı əsasən 1924-cü ildən başlamışdı. Burada həmin məsələ ilə 1924-cü ilin avqustunda sovet ticarət nümayəndəliyinin nəzdində yaranmış neft kantoru məşğul idi - Ə.Ə.) əldən çıxması[1] bu cəhətdən olduqca xarakterik idi. Çində sovet neftinin mövqeyinin zəif olmasından istifadə edən dünya trestləri burada özbaşınalıq edirdilər. Buna dözməyən Kanton hökuməti 1924-cü ilin martında buraya gətirilən neft məhulları üzərinə qoyulmuş vergini 40 faiz artırdı[2]. Həmin dövrdə öz inqilabi mövqeyinə görə Kanton hökumətinə düşmən münasibətdə olan dünya trestləri onun bu yeni tədbirlərini ciddi etirazla qarşıladılar. Onlar qəti olaraq bildirirdilər ki, hökumət öz qərarını ləğv etməyincə ticarət əməliyyatına başlamayacaqlar.

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 77, vər. 13
[2] Yenə orada, vər. 12



Kanton hökuməti Sovet dövlətinə müraciət etdi. 1925-ci ilin sonunda Kanton hökumətilə Çindəki sovet ticarət nümayəndəliyi arasında neft məhsulları satışının inhisara alınması haqqında razılıq əldə edildi[1].

Lakin mövcud olan nəqliyyat çətinliyi buraya vaxtlı-vaxtında kifayət qədər neft məhsulları gətirilməsinə imkan vermədi. Ciddi yanacaq böhranı başladı. Neft məhsullarının qiyməti birdən birə xeyli qalxdı. Buna etiraz olaraq ölkədə nümayişlər başladı. Bu isə dünya neft trestlərinin sovet neftinə qarşı təbliğatını gücləndirirdi və mübarizə aparmaq imkanını xeyli artırdı.

Çində sovet ticarət nümayəndəliyinin göndərdiyi məktubda nəqliyyat çətinliyi üzündən Çin bazarında sovet neftinin mövqeyinin xeyli zəifləməsindən bəhs edilərək göstərilirdi: "...hamı bizi ittiham etməyə başladı. Biz onların gözündə əhalini dünya trestlərindən müdafiə edənlərdən dönüb, onları istismar edənə çevrildik. ...Çində nüfuz qazanmaq əvəzinə özümüzü biabır etdik. Bununla da burada neft sindikatın gələcək işi xeyli çətinləşdi"[2].

Çində sovet neft məhsulları ticarətinin qarşısında duran çətinlikləri qəti müəyyən etmək və neft inhisarının davam etdirilməsinin təmin edilməsi məqsədilə 1926-cı ilin əvvəllərində buradakı sovet ticarət nümayəndəliyinin məsul işçilərinin təcili müşavirəsi oldu[3].

Müşavirə yaranmış vəziyyəti doğuran səbəbləri geniş və hərtərəfli araşdıraraq, qəti və yekdil qərara gəldi ki,

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 77, vər. 20
[2] Yenə orada
[3] Yenə orada, vər. 8

Çində sovet neftinin mövqeyinin zəifləməsinin əsas və başlıca səbəbini nəqliyyat çətinliyi təşkil edir. Məhz buna görə də müşavirənin qəbul etdiyi qətnamədə bu çətinliyin dərhal aradan qaldırılması zəruriyyəti qəti şəkildə irəli sürüldü. Orada göstərilirdi: "...Kantonda neft məhsulları ticarətinin hazırkı vəziyyəti qeyri-qənaətbəxş hesab edilsin. Çində Vladivostok vasitəsilə iş aparmağın yararsızlığını nəzərə alaraq, sovet neft sindikatı qısa müddətdə Çinin Batumi vasitəsilə təchiz edilməsinə nail olsun. Əks halda burada neft ticarəti ləğv edilsin"[1].

Sovet neft məhsulları ticarətinin normal inkişafına ciddi əngəl törədən texniki vasitələrdən biri də "Sovet neft sindikatın" xaricdə saxlama anbarlarının və çənlərinin olmaması idi. Xarici limanlarda saxlama anbarlarının olmaması üzündən Sovet Neft sindikatı" küllü miqdarda maddi ziyan çəkirdi. Onsuz da çarəsizlikdən baha qiymətə icarəyə götürülmüş bu və ya digər şirkətin yük gəmisi vaxtında boşaldılmadığına görə ona əlavə verilən pul bir tərəfə dursun, həmin gəmi sahibi ikinci dəfə neft sindikatına xidmət göstərməkdən boyun qaçırırdı. Deməli, saxlama anbarlarının olmaması dolayısı ilə nəqliyyat işini də xeyli çətinləşdirmiş olurdu. Bundan başqa, Neft sindikatı icarəyə götürülmüş yük gəmisini tez boşaldıb, azad etmək məqsədilə bəzən özü üçün o qədər də əlverişli olmayan sövdələşməyə razılıq verirdi. Xaricdə saxlama anbarlarının və digər zəruri vasitələrin olmamasından istifadə edən neft dəllalları sovet neftinin hesabına kifayət qədər artıq qazanc əldə edirdilər.

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 77, vər. 8



"Sovet neft sindikatı"nın xaricdə saxlama anbarlarının olmaması nəinki küllü miqdarda əlavə xərcə səbəb olurdu, həm də burada sovet neftinin dünya neft trestlərilə rəqabət aparmaq işini də xeyli çətinləşdirirdi.

SSRİ AXTŞ rəyasət heyətinin ƏMŞ-ə göndərdiyi 8 avqust 1924-cü il tarixli məktubunda göstərilirdi: "Neft məhsulları ixracının güclü inkişafında ən əsas amil xüsusi saxlama anbarlarına malik olmaqdan ibarətdir. Biz hazırda bu cəhətdən böyük miqdarda saxlama anbarları olan əcnəbi firmalarla rəqabət aparmaq imkanına malik deyilik.

Neft sindikatının saxlama anbarları icarəyə götürmək üçün göstərdiyi bütün cəhdlər əcnəbi firmaların ciddi müqavimətinə rast gəlirdi. Onlar hətta boş və istifadəsiz anbarları olduğu halda, "Sovet neft sindikatı ilə sövdələşməyə girməkdən boyun qaçırırdılar".[1]

Əcnəbi neft şirkətlərinin bu hərəkətləri hər şeydən əvvəl sovet neftini bu və ya digər bazarda sıxışdırmaq məqsədilərindən irəli gəlirdi. Onlar Sovet dövlətinin bu sahədəki çətinliyindən bacarıqla istifadə edir, hətta bəzi halda onun yardımı ilə sovet neftinin həmin bazarda möhkəmlənməsinin qarşısını alır, öz mövqelərini isə xeyli möhkəmləndirə bilirdilər. Məsələn "Sovet neft sindikatı" ilə Türkiyə hökuməti arasında 1925-ci ilin ortalarında Türkiyə bazarının inhisara alınması haqqında razılıq əldə edilməsinə baxmayaraq, həmin dövrdə burada sovet neft anbarlarının olmaması üzündən, sovet nefti üçün ciddi əhəmiyyəti olan bu iş pozuldu. Türkiyədə özünün hər cür

[1] RF XTMDA, f. 5674, siyahı 4, iş 886, vər. 1

texniki imkanına malik olan "Standart oyl" bundan istifadə edərək Türkiyə hökumətilə daha güzəştli danışığa girib burada öz təsirini saxlamağa nail oldu[1].

Xaricdə neft saxlama anbarlarının olmamasının sovet neft ixracına göstərdiyi mənfi təsiri Sovet dövləti yaxşı bildiyi halda, bunun qarşısını almaqda çətinlik çəkirdi. Sovet neftinin bununla güclənməsindən qorxuya düşən dünya trestlərinin göstərdiyi inadlı müqavimət bir tərəfə dursun, həmin dövrdə Sovet dövlətinin maliyyə imkanlarının məhdudluğu da buna yol vermirdi. Təkcə bunu göstərmək kifayətdir ki, sovet neftinin ixracında o qədər də mühüm yer tutmayan Türkiyədə yalnız neft anbarları və digər yardımçı müəssisələrin yaradılması üçün 1,1 milyon rubl vəsait lazım idi[2]. "Sovet neft sindikatının" neft məhsulları ixrac etdiyi bütün ölkələrdə öz texniki ehtiyaclarını ödəmək üçün, ancaq bu məbləğ əsas götürülərsə, o zaman Sovet dövlətinin nə qədər əlavə vəsaitə ehtiyacı olduğunu asanlıqla müəyyən etmək olar.

Sovet neft məhsulları ixracının artırılmasına mane olan təkcə siyasi, maliyyə-texniki çətinliklər deyildi. Ticarət-ixrac əməliyyatı işinə yaxşı bələd, onun təşkilinə qadir olan kifayət qədər ixtisaslı kadrlarının olmaması da buna güclü mənfi təsir göstərirdi.

Sovet hakimiyyətinin ilk illərində xalq təsərrüfatının bütün sahələrində olduğu kimi, xarici ticarət sahəsində, o cümlədən onun mühüm hissəsi olan neft ixracı sahəsində də, mütəxəssis kadrlarına ciddi ehtiyac hiss edilirdi. Sovet dövlətinə kapitalist dövlətləri ilə əlverişli şərtlərlə

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 78, vər. 45
[2] Yenə orada, vər. 22



ticarət münasibətlərini yaratmağı, burada sovet nefti üçün yaranmış kiçik imkandan belə bacarıqla istifadə etməyi, dünya bazarını diqqətlə müşahidə edib, ondan sovet neftinin gələcək vəziyyəti üçün düzgün nəticə çıxarmağı bacaran – bir sözlə, xaricdə Sovet dövlətini təmsil edərək, onun mənafeyini göz bəbəyi kimi qorumağa qadir olan öz etibarlı kadrları lazım idi.

Lakin həmin dövrdə bu kimi yüksək təşkilatı və siyasi keyfiyyətə malik olan kadrlar kifayət etmirdi. Sovet neftinin satışının dünya bazarında genişlənməsi, bu sahə üçün aparılan kadr hazırlığı işindən sürətlə gedirdi. Hazırlanmış kadrlar da bu və ya digər dövlətin dilini, xüsusiyyətlərini yaxşı bilmədikləri üçün və sair səbəblərə görə ilk vaxtlar çətinliklər çəkirdilər. Belə halda Sovet dövləti öz fəhlə kadrları ilə yanaşı, Sovet hakimiyyətinə hüsn-rəğbət bəsləyən köhnə mütəxəssislərdən də istifadə etməyə məcbur idi.

Sovet neft ixracı işinin təşkilinə cəlb edilmiş köhnə mütəxəssislərin əksəriyyəti öz vəzifələrini vicdanla yerinə yetirdikləri halda, bəziləri xaricdə olmalarından sui-istifadə edərək, Sovet hakimiyyətinə qarşı düşmənçilik hərəkətlərini davam etdirirdilər. Onlar Sovet hakimiyyətinin xaricdəki düşmənlərilə həvəslə əlaqəyə girir, sovet neftinin ixracı işini pozmaqda onlara yaxından xidmət edirdilər. Neft sindikatının İtaliyadakı müvəkkili Çasovnikov, Mancuriyadakı müvəkkili Pines, Riqa şöbəsinin mühəndisi Rappoport məhz belə satqın mövqedə duran köhnə mütəxəssislərdən idilər[1]. SSRİ XKS və FKM-nın 2 sentyabr 1925-ci il tarixli birgə imzaladıqları bir sənəddə

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 144, vər. 16

göstərilir ki, neft sindikatın İtaliya üzrə müvəkkili Çasovnikov İtaliyadakı düşmən ünsürlər və ağ qvardiyaçılarla yaxından əlaqədə olmuşdu. Çasovnikov tədqiqat üçün Sovet dövləti tərəfindən geri çağırılarkən o bundan boyun qaçırmışdı[1]

Yuxarıda göstərilən konkret faktlar göstərir ki, sovet neftinin dünya bazarına çıxması və möhkəmlənməsi üçün təkcə kapitalist dövlətləri və onların neft şirkətlərinin müqavimətini qırmaq, blokadanı aradan qaldırmaq kifayət deyildi. Bunun üçün hələ mövcud olan bir sıra müxtəlif xarakterli çətinlikləri də aradan qaldırmaq lazım gəlirdi. Əgər göstərilən dövrdə bu çətinliklər olmazdısa, yaxud da vaxtında aradan qaldırılardısa, o zaman neft ixracı sahəsində daha böyük müvəffəqiyyətlər əldə etmək olardı.

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 76, vər. 2



# III FƏSİL

## İMPERİALİSTLƏRİN YENİ HÜCUMLARININ MÜVƏFFƏQİYYƏTSİZLİYİ

XX əsrin 20-ci illərinin ortalarında ölkənin təsərrüfat və siyasi həyatında əldə edilən görkəmli nailiyyətlər açıq-aydın göstərirdi ki, yeni iqtisadi siyasətin əvvəllərində V.İ.Lenin tərəfindən irəli sürülmüş "kim kimi" məsələsi artıq sosializmin xeyrinə həll edilməkdədir.

Lakin sosializmə doğru irəliləmə sürətini daha da artırmaq tələb olunurdu. Sosializm quruculuğu işini sürətləndirmək və onun qələbəsinə nail olmaq üçün hər şeydən əvvəl ölkəni sosialistcəsinə sənayeləşdirmək lazım idi. Bu vəzifəni yerinə yetirmədən, sosializmin maddi-texniki bazasını yaratmaq, ölkədə sosialist istehsal münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək mümkün deyildi.

Lakin bu zəruri və tarixi problemin həlli milyardlarla rubl vəsait tələb edirdi. Lazım olan vəsaitin əldə edilməsində Sovet xarici ticarətində özünə məxsus rol oynayan neft ixracı öz sözünü deməli idi. Azərbaycan nefti həmin dövrdə Sovet dövlətinin əlində ən əsas və tükənməz gəlir mənbəyi idi.

1920-1925-ci illərdə neft ixracından əldə edilmiş vəsaitin miqdarı da – 576,645 milyon rubl (hesablama "Внешняя торговля СССР за 20 лет" əsərinin 49-cu səhifəsindəki rəqəmlərə əsasən aparılmışdır – Ə.Ə.) məbləğ bunu təkzibedilməz surətdə sübut edirdi.

Sovet dövləti keçən illərin təcrübəsindən yaxşı bilirdi ki, neft məhsullarının ixracı işi yaxşı təşkil edilsə və genişləndirilsə, ondan gələn gəlir hesabına sənayeləşdirmə sahəsində xeyli iş görmək olar. Vəzifə bu işin müvəffəqiyyətini təmin etməkdən ibarət iid. Bu sahədə, qarşıda duran birinci addım neft sənayesinin özünün yüksək inkişafına nail olmaq idi.

Lakin buradan belə bir nəticə çıxarılmamalıdır ki, sovet neft məhsulları ixracını artırmaq məsələsi qarşıda durmazdısa, o zaman neft sənayesini inkişaf etdirməyə də ehtiyac olmazdı. Sovet neftinin dünya bazarındakı mövqeyi ölkənin neft sənayesinin ümumi inkişaf səviyyəsindən asılı olduğu halda, onun inkişafını zəruri edən başlıca amil daxili bazar idi.

Nə qədər ki, xalq təsərrüfatı, xüsusilə neft yanacağına ehtiyacı olan sahələr hələ bərpa edilməmişdi, daxili bazar neft məhsullarına o qədər də ciddi tələblər irəli sürmürdü. Sovet dövləti bu zaman gündəlik hasil edilən və daxili və xarici bazarın məhdudiyyətliyi üzündən yığılıb qalmış məhsullar hesabına xaricə mal ixrac etmək imkanına malik idi. Məsələn, 1913-cü ildə ölkə daxilində 5914 min ton neft məhsulu işləndiyi halda[1], hələ 1923-24-cü ildə – bərpa dövrünün ortalarında burada işlədilən neft məhsullarının miqdarı 3471 min ton idi[2]. Həmin il satılmış neft məhsullarının 82,9 faizi daxili bazarın, 17,1 faizi isə xarici bazarın payına düşürdü[3].

[1] SSRİ XTNMA, f. "Sovet neft eksport". siyahı 5, iş 85, vər. 3
[2] "Мировая нефтяная торговля", М.-Л., 1936, с. 252
[3] В.И.Фролов. "Экономика нефтяного хозяйства", М.-Л., 1936, с. 252



Lakin vəziyyət uzun zaman belə qala bilməzdi. Xalq təsərrüfatının bərpa edilməsilə əlaqədar olaraq daxili bazarın neft məhsullarına olan tələbi tədricən artmağa başlayırdı. 1923-24-cü ildə ölkə daxilində 3471 min ton neft məhsulları işləndiyi halda, bu rəqəm 1924-25-ci ildə 4630 min tona, 1925-26-cı ildə isə 5566 min tona çatmışdı[1].

Daxili bazarda neft məhsullarına olan tələbin belə artması sənaye müəssisələrinin sürətlə bərpa edilib işə salınması ilə yanaşı, bir də onunla izah edilirdi ki, ölkənin yanacaq balansında neft özünə getdikcə daha çox yer edirdi. 1913-cü ildə Rusiyanın yanacaq balansının 57,4 faizini odun, 33 faizini daşkömür və vur-tut 7,8 faizini neft təşkil etdiyi halda, bu balansda 1922-23-cü ildə neft məhsullarının payı 22,3 faizə qalxmışdı[2]. 1922-23-cü ilə nisbətən, 1925-26-cı ildə dəmir yolu nəqliyyatında 41,7 faiz, su nəqliyyatında 11,2 faiz, sənaye sahələri üzrə isə 89,1 faiz çox neft məhsulu işlənmişdi[3].

Məlum olduğu kimi, Sovet neftinin dünya bazarında da vəziyyəti xeyli yaxşılaşmış və onun ixracı üçün geniş imkanlar yaranmışdı. 1924-25-ci ildə ümumiyyətlə satılmış neft məhsulları miqdarının 22,3 faizi təkcə xarici bazarın payına düşürdü[4].

Daxili və xarici bazarın belə sürətlə genişlənməsi nəticəsində neft sənayesinin inkişaf səviyyəsi ilə neft məhsullarına artan tələb arasında uyğunsuzluq yaranmağa başladı.

[1] "Мировая нефтяная торговля", с. 252
[2] В.И.Фролов. "Экономика нефтяного хозяйства", с. 260-261
[3] Yenə orada
[4] Yenə orada

Azərbaycan SSR-in neft sənayesində yaranmış bu vəziyyət daxili və xarici bazar üçün ciddi təhlükə təşkil edirdi. Ya daxili bazarın ehtiyacını minimum belə ödəmə xatirinə xaricə neft məhsulları ixracını dayandırmalı, dünya bazarında böyük çətinliklə əldə edilmiş mövqelərdən məhrum olmalı, yaxud da həmin mövqelər xatirinə daxili bazarı ehtiyac içərisində qoymaq lazım gəlirdi.

Lakin sovet dövləti üçün hər iki yol təhlükəli və qəbul edilməz idi. Daxili bazarın tələbinə laqeyd yanaşmaqdan söhbət belə ola bilməzdi. Xarici bazara gəldikdə isə məsələnin siyasi cəhəti bir yana dursun, bu maliyyə cəhətdən ciddi ehtiyac içərisində olan ölkəni ən mühüm bir vəsait mənbəyindən məhrum etmək demək olardı.

Qarşıda duran vəzifələrin müvəffəqiyyətini təmin etmək üçün, hər şeydən əvvəl neft sənayesinin özünün inkişaf etdirilməsi tələb olunurdu.

"Sovet neft sindikatı" idarə heyətinin sədri Lomovun SSRİ XKS, ÜİK(b)P MK, AXTŞ, SSRİ Xalq Maliyyə Komissarlığı və SSRİ Xalq Xarici Ticarət Komissarlığına yazdığı 19 dekabr 1925-ci il tarixli rəsmi məktubunda deyilirdi: "...İxrac məsələsi ölkə üçün getdikcə daha mühüm əhəmiyyət kəsb edir. İxrac üçün işləyən sənaye sahələri içərisində neft sənayesi özünə xüsusi yer tutur. Sovet neft məhsullarının bu son üç ildə Avropa və Asiya bazarlarında tutduğu mövqeni ciddi müvəffəqiyyət kimi qiymətləndirmək lazımdır.

...Lakin, son zamanda neft məhsulları ixracının artması ilə neft sənayesinin məhsul istehsalı arasında böyük uyğunsuzluq yaranmışdır. Əgər bu halın qarşısı tezliklə alınmazsa, biz gündən-günə tələbi artmaqda olan



daxili bazarı təmin etdikdən sonra, yerdə qalan məhsulları ixrac edəsi olsaq, o zaman xaricdə bağlanmış uzun müddətli müqavilələri pozmuş olarıq. Çünki bu miqdar onlar üçün kifayət deyildir. Beləliklə, biz gələcəkdə nəinki yeni-yeni bazarlar əldə edə bilmərik, əksinə, öz mövcud mövqelərimizi belə rəqib neft trestlərinə vermək məcburiyyətində qalarıq.

Bizim ixracımız dünya bazarlarında öz mövqeyini o zaman möhkəm hiss edər ki, biz dünya trestlərinin gözü qabağında ixrac etdiyimiz məhsulların miqdarını gündən-günə artıra bilək. Bunun üçün bizim coğrafi şəraitimiz olduqca əlverişlidir. Məsələ yalnız neft hasilatını artırmaqdan, daxili bazarın tələbini ödədikdən sonra, kifayət qədər ixraca malik olmaqdan ibarətdir.

Əgər hökumət neftdən bir iqtisadi və siyasi vasitə kimi istifadə etmək istəyirsə, o neft sənayesinin vəziyyətinə dərhal yenidən baxmalıdır".[1]

A.P.Serebrovskinin (A.P.Serebrovski uzun müddət Azneftin rəisi olmuş, 1926-cı ilin sentyabrında "Sovet neft sindikatı" idarə heyətinin sədri təyin edilmişdi. Lomov isə kömür sənayesi sahəsinə keçirilmişdi. Bir qədərdən sonra Serebrovski SSRİ AXTŞ sədrinin müavini təyin edilmiş[2], "Neft sindikatına" rəhbərlik N.İ.Solovyova tapşırılmışdı – Ə.Ə.). ÜİK(b)P MK-nə yazdığı 21 noyabr 1926-cı il tarixli rəsmi məktubda da bu məsələ xüsusi vurğulanmışdı:

"1924-1925-ci ilin ortalarından özünü göstərməyə başlamış neft sənayesində istehsal artımının daxili və xa-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 36, vər. 3
[2] Yenə orada, iş 114, vər. 81

rici bazarın tələbindən geri qalması xroniki bir hal almaqdadır. Vəziyyət bir də onunla çətinləşmişdir ki, neft bazarının məhdudiyyəti üzündən yığılıb qalmış neft məhsulları da artıq tamamilə istifadə olunub qurtarmışdır.

1926-1927-ci ildə daxili bazarda satılacaq neft məhsulları planı, həqiqətən də ona olan tələbə nisbətən xeyli azaldılmışdır. Məsələn, ağ neft üçün ölkə daxilində 7-8 milyon puda ehtiyac olduğu halda, onun satış miqdarı 4-5 milyon pud müəyyən edilmişdir. Bu isə ölkənin ağ neftlə təmin edilməsi işini olduqca çətinləşdirir. Yazda traktor kompaniyasının başlanması ilə bu çətinlik özünü daha açıq hiss etdirəcəkdir.

Ağ neft çatışmamazlığı kəndin mədəni səviyyəsinin yüksəlməsinə və ölkənin kənd təsərrüfatının traktorlaşmasının inkişafına mənfi təsir etməyə bilməz. Əgər bizdə kəndi işıqla təmin edəcək qədər ağ neft yoxdursa, o zaman traktorlaşma haqqında söhbət ola bilməz.

Son zamanlara qədər bol hesab edilən maşın yağı sahəsində də çətinlik yaranmışdır. Bu sahədə daxilin ehtiyacını ödəmək üçün "neft sindikatı" hətta keyfiyyəti aşağı olan məhsulları da qəbul etməyə məcburdur.

Ən sərfəli və əlverişli məhsul olan benzin məsələsi üzrə də vəziyyət o qədər yaxşı deyildir. Hazırda təxminən 3 milyon pud benzin çatışmadığı aydın olmuşdur.

Xam neftə gəldikdə isə, o da tələb olunan miqdarda deyildir. Görünür, yaxın gələcəkdə neft məhsulları ilə işləyən bir sıra dəmir yolları yenidən kömür yanacağına keçməli olacaqdır. Sənayenin bəzi sahələrində də bu kimi məcburi tədbirin həyata keçirilməsi lazım gələcəkdir. Bu isə iqtisadi cəhətdən cüzi əlverişli olmaqla, həm də sənaye



məhsulunun keyfiyyətinə də mənfi təsir etməyə bilməz...

Xam neft işlənməsini daha da azaltmaq məqsədilə mazut üzərinə vergi qoymaq kimi tədbirə əl atmaq lazım gəlmişdir. Bu, Rusiya neft sənayenin tarixində indiyədək görünməmiş bir haldır.

Neft məhsulları ilə təmin olunmaq cəhətdən xarici bazarın vəziyyəti heç də daxili bazardan yaxşı deyildir. 1926-1927-ci ildə ixrac üçün faktiki olaraq 90-91 milyon pud neft məhsulu tələb olunduğu halda, plan üzrə cəmi 86 milyon pud nəzərdə tuturlmuşdur.

Əgər daxili bazarın tələbini, xalq təsərrüfatının ümumi inkişafına mənfi təsir etməsinə baxmayaraq, sıxışdırmaq mümkün olduğu halda, xarici bazarda bu əsla mümkün deyildir. Doğrudan da, biz Avropa bazarında öz mövqelərimizi saxlamaq istərdiksə, neft məhsulları ixracı nəinki azalmalı, əksinə, ildən-ilə artırılmalıdır.

Yaranmış vəziyyətdən yeganə çıxış yolu qazmanın, hasilatın və neft emalının artırılması üçün təcili tədbirlər görməkdən ibarətdir. Yeni və az kəşf edilmiş rayonlarda kəşfiyyat işi intensivləşdirilməlidir. Hazırda hasil edilən bütün nefti emal etmək iqtidarına malik olmayan neft emalı zavodlarının gücü bir neçə qat artırılmalıdır.

Əgər qazma işinə lazımi diqqət verilməzsə, köhnə sahələrdə hasilatın aşağı düşməsilə əlaqədar olaraq, biz daha yeni, qarşısıalınmaz çətinliklər qarşısında qala bilərik. Bu çətinliklər, həm də neft ixracının daha da inkişaf etdirilməsi qarşısında duran çətinliklər kimi qiymətləndirilməlidir"[1].

---

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 7-8

Hər iki məktubda neft sənayesinin inkişaf etdirilməsi zəruriyyəti təxirəsalınmaz bir tədbir kimi irəli sürülməklə yanaşı, neft ixracının gələcək perspektivi bu məsələ ilə sıx surətdə əlaqələndirilirdi.

Sovet dövləti qarşıda duran təsərrüfat vəzifələrinin həllində neft sənayesinin roluna böyük əhəmiyyət verərək, onun inkişaf etdirilməsinə diqqəti daha da artırdılar. Neft sənaye sahələrinin yenidən qurulması işi 1926-cı ildən başlayaraq geniş vüsət aldı. Neft hasilatı ildən-ilə əhəmiyyətli dərəcədə artmağa başladı. 1925-26-cı təsərrüfat ilində SSRİ-nin bütün neft rayonlarında cəmi 8318 min ton neft hasil edildiyi halda, bu rəqəm 1926-27-ci ildə 10526 min tona, 1927-28-ci ildə isə 11634 min tona çatdı[1]. 1925-26-cı ildə hasil edilmiş neftin miqdarı 1913-cü il səviyyəsinin 90,1 faizini təşkil etdiyi halda[2], 1926-27-ci ildə SSRİ hasilat üzrə həmin səviyyəni geridə qoydu. 1927-28-ci ildə ölkədə hasil edilən neftin miqdarı 1913-cü ildəki miqdardan 26 faiz çox idi. Neft sənayesinin inkişafına aid göstəricilər belə bir nəticəyə gəlməyə imkan verirdi ki, indi Sovet dövləti daxili və xarici bazarı gen-bol təmin etməklə yanaşı, xeyli miqdar ehtiyat yanacaq məhsulları toplamaq iqtidarına da malikdir.

***

ABŞ neft tresti "Standart oyl"un "Sovet neft sindikatı" ilə ticarət münasibətinə girməsi – "blokada zəncirinin ən sonuncu və iri halqasının qırılması", heç də imperialistlərin sovet neftini ələ keçirmək cəhdindən əl çəkmələri demək deyildi. İmperialistlər sovet nefti uğrunda və sovet neftinə qarşı mübarizəni yenə var qüvvə ilə davam etdirirdilər. Onların sovet neftinə qarşı mübarizəsi kəsilməmiş, yalnız onun forması və əsas iştirakçıları öz rollarını dəyişmişdi.

Sovet neftinə qarşı mübarizənin mərkəzi Fransa və ABŞ-dan İngiltərəyə keçmişdi. Onun başında bu dəfə "Standart oyl" deyil, "Royal datç-şell" tresti dururdu.

"Royal datç-şell"in sovet neftinə qarşı bu yeni çıxışı, imperialistlərin sovet neftini ələ keçirmək cəhdləri silsiləsinə daxil olub, 1926-1929-cü illəri əhatə edirdi. "Royal datç-şell" sovet neftinə doğru yeni yol ilə can atmağa başlamışdı. Bu sovet neft məhsulları satışı inhisarını ələ keçirməkdən ibarət idi.

Deterdinq 1925-ci ilin sonlarında İngiltərə hökumətinə bir neçə dəfə müraciət edərək, ölkədə sovet neft məhsulları ticarətinin məhdud edilməsi haqqında parlamentin tədbir görməsini tələb etmişdi.

Deterdinqə görə, parlament tərəfindən İngiltərədə sovet neft məhsulları ticarətinin məhdud edilməsi Sovet dövlətini öz neft ixracı siyasətinə yenidən baxmağa məcbur edər və onun satış inhisarlarının ələ keçirilməsini asanlaşdıra bilərdi.

"Royal datç-şell"in bu tələbi İngiltərədə sovet neftinə marağı olan xırda mülkiyyətçiləri də hərəkətə gətirdi. Staford, Talbort, R.Tvid, P.Klark, Q.Tru, F.Kou və s. kapitalistlər də cəsarətlənərək İngiltərəyə sovet neft məhsulları gətirilməsi əleyhinə çıxdılar. Hətta Nümayəndələr

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 47, vər. 25
[2] Yenə orada

palatasının üzvü və Deterdinqin əlaltısı olan ser Qratton onlardan daha irəli gedərək buraya, ümumiyyətlə, sovet neft məhsullarının gətirilməsini qadağan etmək tələbini irəli sürdü[1].

Lakin İngiltərə hökuməti bu dəfə "Royal datç-şell"in tələbini qəbul etmədi. Əlbəttə, hökumətin bu mövqeyi onun Sovet İttifaqına olan hüsn-rəğbətindən irəli gəlmirdi. Bu dövrdə "Royal datç-şell" ilə İngiltərə hökuməti arasında Mosul nefti və "İngilis-İran neft şirkəti" üstə ixtilaf yaranmışdı. Hökumətə aydın olmuşdu ki, "Royal datç-şell" Türkiyədə, İranda və digər Şərq ölkələrində özünün məqsədləri üçün hökumətin şərik olduğu "İngilis-İran neft şirkətinin" işini pozmağa çalışır.[2] 1925-ci il oktyabrın 25-də qəti olaraq bildirildi ki, hökumət bu məsələnin parlamentə çıxarılması üçün heç bir əsas görmür. Hökumət "Royal datç-şell"ə məsləhət gördü ki, lazım bilərsə, bu barədə ancaq məhkəməyə müraciət edə bilər[3].

Hökumətdən açıq və real kömək almayan "Royal datç-şell" İngiltərə bazarında sovet neftinə qarşı özü təkbaşına mübarizəyə başladı. O, özünün İngiltərəyə gətirdiyi neft məhsullarının qiymətini xeyli aşağı saldı. Almaniya, İtaliya və Baltikyanı ölkələrində də "Sovet neft sindikatı" ilə belə "qiymət müharibəsinə" başladı[4].

Sovet neftinə qarşı bir ilə qədər davam edən "qiymət müharibəsi" nəticəsində əlverişli zəmin yarandığını güman edən "Royal datç-şell" 1926-cı ilin noyabrında

[1] Л.Фишер. "Империализм нефти", с. 87
[2] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 45
[3] Yenə orada
[4] Yenə orada, vər. 44



"Sovet neft sindikatı" ilə danışığa başladı[1]. Danışıqlar zamanı aydın oldu ki, "Royal datç-şell" təkcə sovet neft məhsullarını deyil, ümumiyyətlə, sovet neft sənayesini bütünlüklə ələ keçirmək fikrindədir. Onun fikrincə Sovet dövləti neft məhsulları ixracı üzrə özünün bütün fəaliyyətini ancaq bu trest vasitəsilə həyat keçirməli idi. Sovet neft məhsulları satışından əldə ediləcək gəlirin 50 faizi ona verilməli, "Neft sindikatı" öz payı hesabına köhnə neft sahiblərinə vurulmuş "ziyanın" qismən ödənilməsini üzərinə götürməli idi[2].

Şübhəsiz Sovet dövləti bu həyasız təklifləri qəbul edə bilməzdi. Bununla razılaşmaq, dolayı yolla neft sənayesinin milliləşdirilməsini ləğv etmək, onu köhnə sahiblərinə qaytarmaq təklifinə razı olmaq demək idi. "Sovet neft sindikatı" 1927-ci ilin yanvarında "Royal datç-şell"in bu təklifini qəti olaraq rədd etdi[3].

Sovet neftini ələ keçirmək cəhdinin yeni müvəffəqiyyətsizliyi "Royal datç-şell"i son döyüşə qaldırdı. O, Sovet hakimiyyətinə qarşı müharibə elan etdi. Sovet neftinin boykot edilməsi günün şüarı oldu.

Deterdinq "Royal datç-şell"in sovet neftinə qarşı başladığı mübarizəyə daha çox tərəfdar tapmaq məqsədi ilə ona sırf siyasi xarakter verməyə çalışırdı. Özünü elə göstərməyə çalışırdı ki, guya onun bu mübarizədə əsas məqsədi sovet neftini ələ keçirmək deyil, ümumiyyətlə, cəmiyyəti "bolşevizm bəlası"ndan xilas etməkdir. Bu cəhət-

[1] "Бакинский рабочий". № 183, 8 avqust 1927-ci il
[2] Yenə orada
[3] Yenə orada, № 176, 31 iyul 1927-ci il

dən onun 1927-ci ilin yanvarındakı çıxışlarından biri olduqca xarakterikdir: "Sizin sonunuz çatmışdır. Bir neçə ay keçməz ki, Rusiya çar hökumətindən də yaxşı bir hökumətin rəhbərliyi altında yüksək bir həyata qayıdar... Mən əminəm ki, bu ilin axırınadək Rusiyada bolşeviklərin sonu çatacaqdır. Bu hadisə baş verən kimi Rusiya dünyadan borc və yardım alacaq, öz sərhədlərini bütün işləmək istəyənlərin üzünə açacaqdır. Oraya pul, borc və daha mühüm olan əmək axışacaqdır"[1].

"Royal datç-şell" tresti Sovet hakimiyyətinə və onun neftinə qarşı mübarizə apararkən, hər şeydən əvvəl öz hökumətinə arxalanırdı. Onun yeritdiyi taktikanın digər ölkələrdə müvəffəqiyyət qazanıb-qazanmaması İngiltərə hökumətinin yeritdiyi siyasətdən çox asılı idi. Bəhs edilən dövrdə getdikcə pisləşməkdə olan İngiltərə-Sovet münasibətləri də "Royal datç-şell"in xeyrinə cərəyan edirdi.

1926-1927-ci ildə Çində baş vermiş inqilabi hadisələr, İngiltərə fəhlələrinin fasiləsiz davam edən ümumi tətilləri nəticəsində burada siyasi vəziyyət kəskin şəkil almışdı. İngiltərə hökumətinin yeritdiyi daxili və xarici siyasətin məntiqi nəticəsi olan bu hadisələrdən ictimaiyyətin diqqətini yayındırmaq və onun əsil səbəbini ört-basdır etmək məqsədilə hökumət orqanları və mürtəce mətbuat hər cür uydurma və iftiralara əl atmaqdan çəkinmir, bu işdə "Moskvanın əli" olmasını sübut etmək üçün dəridən-qabıqdan çıxırdılar.

[1] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 6



İngiltərə hökumətinin Sovet hökumətinə ünvaladığı 12 iyun 1926-cı il tarixli notasında göstərilirdi ki, əlahəzrət hökuməti, İngiltərə fəhlələrinə ümumi tətili davam etdirmək üçün Sovet hökumətinin göstərdiyi maddi və maliyyə yardımı qarşısında susa bilməz[1].

İngiltərənin mühafizəkar hökuməti SSRİ ilə əlaqələri kəsmək üçün zəmin hazırlamaq məqsədilə 1926-cı ilin iyununda "Göy kitab" adlanan "sənədlər külliyyatını" elan etdi. Guya bu sənədlər 1925-ci ilin oktyabr ayında İngiltərə Kommunist partiyasının binası axtarılarkən ələ keçirilmişdi. Kitabda Sovet hökumətinin fəaliyyətinə ləkə gətirən bir dənə də olsun faktiki material olmadığı halda, hökumət dairələri onu "Sovet dövlətinin İngiltərəyə qarşı tutduğu düşmən mövqeyinin" maddi sübutu kimi göstərməyə cəhd edirdi.

İngiltərə hökumətinin daha bir sıra buna bənzər antisovet fitnəkarlığından sonra "Rus məsələsi" 1927-ci ilin 26 mayında parlamentin müzakirəsinə verildi. Nümayəndələr palatası, tərkibində olan mürtəce qüvvələrin iradəsini ifadə edərək, SSRİ ilə diplomatik və ticarət əlaqəsini kəsmək haqqında hökumətin təklifini qəbul etdi.

İngiltərə hökuməti 1927-ci il may ayının 27-də Sovet hökumətinə nota göndərərək, onunla diplomatik və ticarət əlaqələrini kəsdiyini bildirdi[2].

Sovet-İngilis münasibətlərinin bu cür kəskinləşməsində "Royal datç-şell" trestinin hökumətə göstərdiyi təzyiq də xeyli rol oynamışdı.

[1] "Международная политика новейшего времени", ч. III, вып. I, с. 345
[2] "Бакинский рабочик", № 122, 29 may 1927-ci il

"Bakinskiy raboçiy" qəzeti həmin günlərdə özünün "Neft mərkəzi" adlı baş məqaləsində yazırdı: "Royal datç-şell" dünya trestinin başçısı cənab Deterdinq onun soyğunçu şərtlərini qəbul etmədiyimiz üçün bizdən incimiş və sovet nefti üzərinə, beləliklə də Sovet İttifaqı üzərinə hücuma keçmişdir. İngilis-Sovet münasibətlərinin pozulmasında onun rolu az olmamışdır"[1].

SSRİ XXİK-nın sənədlərinin birində göstərilirdi: "Barışmaz mühafizəkarların arxasında antisovet kompaniyasının əsil təşkilatçıları olan İngiltərənin iri bank və sənaye sahibləri dururdular. SSRİ-də mülkiyyətləri milliləşdirilmiş keçmiş sahibkarlar bu sahədə daha çox fəallıq göstərirlər... Keçmişdə Bakı və Qroznıda böyük neft mədənlərinin sahibi, "Royal datç-şell" trestinin başçısı Deterdinq SSRİ-ni iqtisadi cəhətdən boykot etməyi, onunla diplomatik münasibətləri kəsməyi ciddi tələb edir"[2].

Fransa Kommunist partiyasının görkəmli xadimi Marsel Kaşen 1928-ci il dekabrın 4-də Fransa parlamenti Nümayəndələr palatasındakı çıxışında göstərirdi: "SSRİ-də neft sənayenin sürətli yüksəlişi və neft ixracının artması son zamanlar ona qarşı şiddətli və amansız hücumların mənbəyinə çevrilmişdir. Son illər İngiltərə və beynəlxalq firmaların ən böyüklərindən biri ("Royal datç-şell") elə bir kompaniyaya başlamışdır ki, o, bunun nəticəsində özünün itaətkar hökumətinin köməyi ilə İngiltərədən sovet səfirinin çıxarılmasına nail olmuşdur"[3].

---

[1] "Бакинский рабочий". № 183, 8 avqust 1927-ci il

[2] "История дипломатии", с. 374

[3] М.Кашен. "Замыслы Французских империалистов против СССР", М.-Л., 1928, с. 18



Deterdinq üçün təkcə İngilis-Sovet münasibətlərinin kəsilməsi kifayət deyildi. İngilis hökuməti burada "Royal datç-şell"in planının həyata keçirilməsində – sovet neftinin boykot edilməsində də Deterdinqə yaxından kömək etməli idi.

Bu cəhətdən Deterdinqin hökumətə göstərdiyi təsir də nəticəsiz qalmadı. Londonda fəaliyyət göstərən "ROP" ingilis hökumət orqanları tərəfindən gündən-günə sıxışdırılmağa başladı. Deterdinqin pulu ilə fəaliyyət göstərən qəzetlərin və digər "mənbələr"in "ROP" haqqında yaydığı müxtəlif şayiələr, hökumət orqanlarının onunla qəti hesablaşmasına "əsas verdi".

1927-ci il avqustun sonunda İngiltərə Daxili İşlər Nazirliyi "ROP"un 2 nəfər ən görkəmli nümayəndəsinə İngiltərəni tərk etməsi haqqında sərəncam verdi[1]. Guya həmin şəxslər İngiltərədə sovet neft ticarəti ilə deyil, siyasi məsələlərlə məşğul olurlarmış[2].

İngiltərə hökumətinin Sovet İttifaqına qarşı tutduğu açıq düşmən mövqe və onun Deterdinqlə birgə hərəkəti sovet neftinin buradakı digər hərislərinin əl-qolunu açdı. Onlar sovet neftini boykot etmək haqqında Deterdinqin çağırışına həvəslə səs verdilər.

"Rus neft şirkəti", "Bakı neft şirkəti", "Avropa neft korporasiyası", "Bibi-Heybət neft cəmiyyəti", "Bakı konsolideynted Oylfilde kompaniyası" 1927-ci il iyun ayının sonunda mətbuatda birgə bəyanatla çıxış etdilər. Orada göstərilirdi:

---

[1] "Бакинский рабочий". № 199, 26 avqust 1927-ci il

[2] Yenə orada

"Heç bir əvəzi verilmədən Rusiyada sahmləri zəbt edilmiş beş neft cəmiyyəti adından biz Novorossiysk və Batumdan İngiltərəyə gətirilən neft məhsullarının bütün idxalçılarına və satıcılarına xəbərdarlıq edirik ki, ticarət sazişi ləğv edildiyi gündən başlayaraq həmin neft məhsullarına görə məsuliyyət daşıyırlar"[1].

İngiltərədə çıxan mütəce qəzetlər sovet nefti əleyhinə qızğın kompaniyaya başladılar. Bu cəhətdən "Deyli-meyl" xüsusilə fərqlənirdi. O "qanuni sahiblərindən oğurlanmış nefti" boykot etməklə Deterdinqə kömək etməyə çağırır və bu sahədə quduz təbliğat aparırdı[2].

Deterdinqin bilavasitə yaxından iştirakı ilə İngiltərə mətbuatının sovet neftinə qarşı qaldırdığı hay-küy tezliklə işdə özünə az da olsa tərəfdar tapa bildi. 1927-ci ilin ortalarından başlayaraq İngiltərədə sovet nefti ciddi sıxışdırılmağa başlandı. Burada sovet neft məhsulları satışı ilə məşğul olan "ROP" təkcə onun hüququnu məhdudlaşdıran hökumət orqanlarının rəsmi göstərişlərinə deyil, açıq-aydın ciddi xuliqanlıq hərəkətlərinə məruz qaldı. "Royal datç-şell"in və İngiltərədə sovet neftinə marağı olan digər şəxs və təşkilatların pulu ilə tutulmuş xulaqinlar dəstəsi "ROP"un satış filiallarına soxulur, oradakı reklamları, lövhələri qırır, dağıdır, neft məhsulları daşıyan avtomobil və digər nəqliyyat vasitələrini xarab edirdilər. "ROP"-da çalışan İngiltərə vətəndaşları bu və ya digər yollarla burada işləməkdən imtina etməyə məcbur edilirdilər.

[1] "Бакинский рабочий", № 151, 1 iyul 1927-ci il
[2] Yenə orada, № 183, 8 avqust 1927-ci il



Deterdinqin təşəbbüsü ilə başlanan sovet neftinin boykot edilməsi kompaniyasına İngiltərənin bütün mürtəce ünsürləri qoşulurdu. Rusiyada mülkiyyətləri müsadirə edilmiş şəxslərin mənsub olduqları şirkət və təşkilatlar bələdiyyə idarələrinə rəsmi məktubla müraciət edərək sovet neft məhsulları satışını boykot etməyi qəti tələb edirdilər[1].

Tərkibində Sovet hakimiyyətinə qarşı açıq düşmən münasibət bəsləyən ünsürlərin əksəriyyət təşkil etdiyi bələdiyyə şuraları bu tələbi "haqlı hesab" edir və sovet neftini sıxışdırmaq məqsədilə dərhal tədbirlər görürdülər. Məsələn, Pulboro bələdiyyə şurası əvvəllər anbar tikmək üçün torpaq sahəsi vermək haqqında "ROP"la razılığa gəldiyi halda, sonradan bundan imtina etdi[2]. Liverpul, Barnsten, Puli, Xendon, Abinqan, Doxerski, Barou və s. bələdiyyə şuraları öz ərazilərində sovet neft məhsulları almamaq haqqında qərar qəbul etdilər[3].

İngiltərə hökuməti Deterdinqə sovet neftini sıxışdırmaq işində təkcə İngiltərədə deyil, habelə digər ölkələrdə də bu və ya digər yollarla yaxından kömək edirdi. İngiltərə hökuməti İspaniyaya sovet neftinin daxil olmasına müqavimət göstərmək haqqında öz nümayəndəliyinə rəsmi təlimat vermişdi[4].

İngiltərənin İspaniyadakı səlahiyyətli nümayəndəsi Mur İspaniyanı öz hökuməti adından açıq-aşkar hədələyirdi ki, əgər hökumət ölkəsinə sovet neftinin gətirilməsini

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 216, vər. 110
[2] Yenə orada
[3] Yenə orada
[4] "Бакинский рабочий", № 159, 11 iyul 1927-ci il

qadağan etməzsə, İngiltərə Qvineyadan buraya pambıq ixracını dayandıracaqdır[1].

Deterdinqin iradəsini ifadə edən İngiltərə hökumətinin təzyiqi nəticəsində İspaniyanın Primo de-Rivera hökuməti 1927-ci il iyul ayının əvvəllərində İspaniyada neft məhsulları inhisarı haqqında göstəriş verdi.

Deterdinq Sovet İttifaqı ilə digər ölkələr arasında olan normal münasibətə təsir etmək və buralarda da sovet neftinin sıxışdırılmasını təşkil etmək üçün 1927-ci ilin iyulunda Avropaya səfərə çıxdı.[2] Onun bu səfərində Fransa xüsusi yer tuturdu. Fransa, İngiltərədən sonra ən çox sovet neft məhsulları idxal edən ölkə olmaqla yanaşı, həm də Sovet hakimiyyətinə qatı düşmən olan mühacirlərin yuvası idi. Həmin dövrdə Sovet İttifaqına münasibət məsələsində Fransa hökumət dairələrinin özündə də ciddi fikir ayrılığı yaranmışdı. Bütün bunlar Deterdinqə öz səfərində müvəffəqiyyət qazanacağına ümid verirdi. Bunlardan başqa Deterdinq, özü də təkcə ayrı-ayrı təşkilatları deyil, lazım gələrsə bu və ya digər hökumət başçısına təsir etmək iqtidarına malik idi. Bu, onun malik olduğu həm iqtisadi və həm də siyasi qüdrətindən irəli gəlirdi.

Fransa Kommunist partiyası Mərkəzi Komitəsinin üzvü M.Kaşen, Deterdinq barədə haqlı olaraq göstərirdi: "Deterdinqin Avropadakı mövqeyi hər hansı burjua ölkələrinin kral və nazirlərindən daha üstündür... Deterdinq 400 milyard frank kapitala malikdir. O, dövlət aparatı məmurlarına öz xidmətçisi kimi baxır. İngilis mühafizə

[1] "Бакинский рабочий", № 159, 11 iyul 1927-ci il
[2] Yenə orada, № 177, 1 avqust 1927-ci il



idarəsinin sabiq rəisi Georq Makdonar, Fransanın keçmiş nazirlərindən Fransua Marsel, Fransanın Rusiyada keçmiş səfiri Nulans və s. başqa siyasi və maliyyə juliklər onun ən sadiq xidmətçiləri və əlaltıları idilər"[1].

Deterdinqin Fransaya gəlməsilə burada SSRİ ilə əlaqəni kəsmək uğrunda başlanan kompaniya daha geniş vüsət aldı. Fransanın mürtəce mətbuatı hökumətdən İngiltərənin yolu ilə getməyi qəti olaraq tələb edirdi[2]. Deterdinqə və digər sənaye-maliyyə dairələrinə yaxın olan hökumət üzvləri təkcə Sovet İttifaqı ilə əlaqəni kəsməklə kifayətlənmir, ona qarşı vahid ittifaq yaratmağı təbliğ edirdilər. Senator de-Monzi göstərirdi ki, SSRİ-ni böyük güzəştlərə məcbur etmək üçün (yəni borcların verilməsi, milliləşdirilmiş əmlakların qaytarılması və s. – Ə.Ə.) Qərbi Avropa kapitalının xüsusi təşkilatını yaratmaq lazımdır[3]. Senator de-Juvenel öz həmməsləkinin fikrini daha da inkişaf etdirərək qeyd edirdi: "Nəhayət ki, haqqında çox danışılan, lakin indiyə kimi heç bir iş görülməmiş Avropa birliyini yaratmaq üçün əlverişli şərait yaranmışdır. İngiltərə-Sovet əlaqələrinin kəsilməsi məhz bu ideyanı həyata keçirmək üçün yaranmış ən gözəl fürsətdir. Biz bu fürsətdən istifadə etməsək, çox güman ki, o bir də ələ düşməyəcəkdir"[4].

De-Juvenel Sovet İttifaqı ilə Fransa arasında olan mübahisəli məsələlərin danışıqlar yolu ilə nizama salınmasının qəti əleyhinə çıxaraq göstərirdi: "Kommunizmlə

[1] "Вышка", № 69, 11 mart 1931-ci il
[2] "История дипломатии", т. III, с. 380
[3] СССР 5-й съезд Советов. Стенографический отчет, М., 1929, с. 9
[4] Yenə orada

həm mübarizə aparmaq və eyni zamanda sovetlərlə indiyə kimi heç bir nəticə verməyən maliyyə və siyasi danışıqlar aparmaq bir araya sığa bilməz. İngiltərə Rusiya ilə razılığa gəlməyə cəhd edən birinci dövlət idi. O da Rusiya ilə birinci olaraq əlaqəni kəsdi"[1]. Senator güc işlətmək siyasətinin tətbiqini irəli sürürdü.

Bu, heç də gizli deyildi ki, həmin dövrdə Fransada Sovet İttifaqına qarşı genişlənən düşmən kompaniyaya Parisin "qonağı" Deterdinq istiqamət verirdi[2].

Deterdinq sovet neftini ələ keçirmək məqsədilə xaricdəki siyasi mühacirlərin təşkilat və qrupları ilə də yaxından əlaqə saxlayırdı. 1924-cü il Gürcüstan hadisəsi Sovet hakimiyyətinin düşmənləri üçün ibrət dərsi olmamışdı. Sovet hakimiyyətinə qarşı mübarizə yollarında onlar bir-birinə qarşı daha da yaxınlaşmışdılar. Deterdinq sovet neftinin ələ keçirilməsi işində "Qafqazın azad edilməsi komitəsi"nə xüsusi ümid bəsləyirdi (Bu komitəyə Gürcüstan, Azərbaycan və Şimali Qafqazın əksinqilabi hökumətlərinin nümayəndələri daxil idi. Onun başında Gürcüstan nasional-demokrat partiyasının üzvü Sipridion Gediya[3] dururdu – Ə.Ə.).

"Komitənin" əsas məqsədi Rusiyada, birinci növbədə Qafqazda Sovet hakimiyyətini yıxmaq üçün xaricdəki əksinqilabi qüvvələri bu məqsəd ətrafında toplamaq, Sovet İttifaqına ediləcək yeni hərbi müdaxiləni sürətləndirmək, bu işdə mühüm rol oynamalı olan Gürcü-

[1] СССР 5-й сьезд Советов. Стенографический отчет, М., 1929, с. 9
[2] "История дипломатии", т. III, с. 380
[3] "Бакинский рабочий", № 281, 2 dekabr, 1927



standakı gizli "azadlıq hərəkatına" istiqamət verməkdən ibarət idi.

"Qafqazın azad edilməsi komitəsinin" qarşısında duran vəzifələrdən göründüyü kimi, o, həm siyasi, həm hərbi və həm də maliyyə cəhətdən imperialistlərə ciddi möhtac idi.

Ona görə də Sovet hakimiyyətinin qəddar düşmənləri olan general Qofman və Henri Deterdinqə "komitənin" fəaliyyət planında xüsusi yer verilməyə bilməzdi.

"Komitənin" fikrincə general Qofman Sovet İttifaqına ediləcək hərbi müdaxilə hazırlığında əsas rol oynamaqla yanaşı, Deterdinqi də bu kompaniyaya cəlb etməli idi. Deterdinqin başçılıq etdiyi "Royal datç-şell" trestinin Berlin kantoru ilə Qofmanın yaxınlığı[1] bu işi daha da asanlaşdırırdı.

Bu məqsədlə "Qafqazın azad edilməsi komitəsinin" başçısı Sipridon Gediya 1925-ci ildə general Qofmanla əlaqə yaratdı[2]. 1926-cı ilin mart ayındı Haaqada[3], həmin ilin yayında isə Londonda Qofman, Deterdinq, Gediya və "Qafqazın azad edilməsi komitəsinin" digər əməkdaşı Karunidze arasında danışıqlar aparıldı[4].

Danışıqlar zamanı "Qafqazın azadlıq komitəsinin" maliyyə cəhətdən təchiz edilməsi və Qafqaz nefti məsələsi geniş müzakirə edildi[5].

Lakin nə birinci, nə də ikinci danışıqlar müvəffə-

[1] "Вышка", № 8, 8 yanvar1930-cu il
[2] "Бакинский рабочий", № 272, 23 noyabr 1927
[3] "Нефтяное хозяйство", № 6, 1930, s. 1027
[4] "Бакинский рабочий", № 273, 23 noyabr 1927-ci il
[5] Yenə orada

qiyyətlə başa çatdı. Sovet hakimiyyətinə qarşı dərhal yekdil qərara gəlmək işinə onların öz aralarında mövcud olan ixtilaflar imkan vermirdi.

General Qofman İngiltərə, Fransa və Almaniya dövlətləri arasında "Rusiyada bolşevik üsul-idarəsinin başçısının əvəz edilməsi haqqında" saziş bağlamaq və onu həyata keçirmək ideyasını müdafiə edirdi[1]. Deterdinqə gəldikdə isə o, bu yol ilə birinci növbədə Qafqaz-Xəzər neft mədənlərində özünün əvvəlki hüquqlarının bərpa edilməsini istəyirdi. O, hətta Qafqaza muxtariyyət verilmək şərtilə Rusiyada mövcud olan üsul-idarənin yaşamasından o qədər də narazı deyildi[2].

"Qafqazın azad edilməsi komitəsinin" rəhbərləri isə Rusiyada sovet quruluşunun əleyhinə olduqları kimi, çar monarxiyasının bərpası tərəfdarları da deyildilər. Onlar Qafqaza müstəqillik verəcək yeni bir quruluşun lehinə idilər[3].

Göründüyü kimi, danışıqlarda iştirak edən tərəflər arasında əsas prinsipial məsələlər üzrə ciddi ixtilaflar mövcud idi. Bundan başqa həmin dövrdə "Qafqazın azad edilməsi komitəsi"nin tərkibində olan cərəyanlar arasında da ciddi mübarizə gedirdi.

Buradakı nasional-demokrat cərəyanı İngiltərə, Almaniya və İtaliyaya, menşevik cərəyanı isə Fransa və Polşaya meyl edirdi[4].

Komitənin tərkibində olan bu iki cərəyanın məq-

---

[1] "Нефтяное хозяйсто", № 6, 1930, s. 1027
[2] Yenə orada
[3] Yenə orada
[4] "Бакинский рабочий", № 273, 23 noyabr, 1927



sədlərinin nəticə etibarı ilə bir olmasına baxmayaraq, onların müxtəlif istiqamət götürmələri də danışıqların ümumi gedişinə mənfi təsir etməyə bilməzdi.

Lakin necə olursa-olsun Sovet hakimiyyətinə qarşı ümumi dil tapmaq zəruriyyəti Gidiya, Qofman və Deterdinqi 1927-ci ilin yazında Londonda yenidən görüşməyə məcbur etdi[1].

Bu danışıqlar, əvvəlkilərə nisbətən müəyyən qədər müsbət nəticələr ilə başa çatdı. "Qafqazın azad edilməsi komitəsi" vəd aldı ki, İngiltərə Millətlər Cəmiyyətində müstəqil Gürcüstanı tanımaq lehinə məsələ qaldırılacaqdır"[2]. Deterdinq Qafqazın azad edilməsi işində "komitəyə" maliyyə cəhətdən yardım etməyi öz üzərinə götürürdü, bu şərtlə ki, onun bu işə çəkdiyi xərc, köhnə neft sənaye sahiblərinin Bakı neft sənayesində itirdikləri məbləğdən çox olmasın[3].

Bu, o demək idi ki, Deterdinq Qafqazda Sovet hakimiyyəti devrildikdən sonra, burada təkcə özünün keçmiş mülkiyyətini deyil, ümumiyyətlə, bütün neft zənginliklərini qabaqcadan satın alırdı. Digər neft sahibkarlarının gələcəkdə edəcəyi tələbi Qafqazda yaradılmalı olan "yeni hökumət" ödəməli idi.

Danışıqlar zaman öz növbəsində "Qafqazın azad edilməsi komitəsi" Deterdinqin göstərdiyi yardım əvəzinə Qafqaz neftinin bütünlüklə ona verməyi vəd edirdi[4].

---

[1] "Бакинский рабочий", № 273, 23 noyabr, 1927
[2] "Нефтяное хозяйство", № 6, 1930, s. 1027
[3] "Kommunist", № 161, 17 iyul 1929
[4] "Бакинский рабочий", № 273, 23 noyabr 1927

Deterdinq və "Qafqazın azad edilməsi komitəsi" arasında daha bir məsələnin – saxta sovet pulu kəsmək məsələsinin müzakirəsi də müvəffəqiyyətlə başa çatdı[1].

Tərəflərin fikrinə görə kəsiləcək saxta sovet pulları maliyyə sistemində pozğunluq yaradacaq, gələcək müdaxilə işini xeyli asanlaşdıracaq və Gürcüstandakı "azadlıq hərəkatının" iştirakçılarının maliyyə ehtiyacını təmin edəcək idi.

Pullar Almaniya, Fransa və Macarıstan ərazisində kəsilməli[2], İstanbul vasitəsilə SSRİ ərazisinə keçirilməli idi[3].

"Qafqazın azad edilməsi komitəsi" və Deterdinq yeni planı həyata keçirmək üçün ciddi fəaliyyətə başladılar. Knyaz Avalovun ağ ordusunda vaxtilə xidmət etmiş, ordu dağıldıqdan sonra Londonda, Madriddə, Parisdə yaşayan Saratieraşvili, fırıldaqçı Rasputinin şəxsi katibi olmuş Simonoviç, "Royal datç-şell" tresti ilə yaxın əlaqəsi olan daha bir neçə nəfər saxta sovet pulu kəsmək işinə cəlb edildilər[4].

1927-ci ilin yazından 1927-ci ilin noyabr ayına qədərki qısa müddətdə Sovet İttifaqına göndərilmək məqsədilə Almaniya, Fransa və Macarıstanda 150 puda qədər saxta sovet çervonu kəsildi[5]. "Qafqazın azad edilməsi komitəsi" və Deterdinq kəsilmiş saxta pullardan müəyyən qədərini yayılmaq üçün sovet ərazisinə keçirtdilər[6].

Lakin Deterdinqin sovet hakimiyyətinə və onun

[1] "Бакинский рабочий", №273, 23 noyabr 1927
[2] Yenə orada
[3] Yenə orada, № 281, 2 dekabr 1927
[4] Yenə orada, №273, 23 noyabr 1927
[5] Yenə orada, №279, 30 noyabr 1927
[6] "Вышка", №20, 20 noyabr 1930-cu il



neftinə qarşı apardığı bu mübarizə də imperialistlərin sovet neftini ələ keçirmək üçün göstərdikləri əvvəlki cəhdlər kimi heç bir müvəffəqiyyət qazanmadı.

İngiltərənin Sovet İttifaqı ilə diplomatik və ticarət münasibətlərinin pozulması Deterdinqin ümidini doğrultmadı. İmperialistlərin SSRİ-yə qarşı yeni silahlı müdaxilə təşkil etmək cəhdi də baş tutmadı.

Bir çox digər səbəblərlə yanaşı, həmin dövrdə burjua dövlətlərinin öz aralarında olan ziddiyyətlər İngiltərənin Sovet İttifaqına qarşı müdaxilə planının boşa çıxmasında az rol oynamadı. Kapitalist dövlətlərinin çoxu İngiltərənin marağını həyata keçirən silah olmaqdansa, Sovet İttifaqı ilə normal iqtisadi əlaqəni saxlamaq tərəfdarı idilər. Onlar SSRİ-yə qarşı çıxmaqda öz ölkələrinin zəhmətkeşlərindən də ehtiyat edirdilər. Lloyd Corc 1927-ci ildə öz çıxışlarının birində İngiltərənin SSRİ-ni təkləmək siyasətinin müvəffəqiyyətsizliyindən bəhs edərək göstərirdi: "İngiltərənin nümunəsində iyirmi üç, yaxud iyirmi dörd Avropa dövləti Rusiya ilə ticarət müqaviləsi bağladı. Lakin onlardan biri də olsun, biz Moskva ilə əlaqəni kəsdikdə, İngiltərənin arxasınca getmədi"[1].

İngiltərə ilə münasibətlərin pisləşməsi Sovet İttifaqının beynəlxalq qüdrətinə olduğu kimi, onun digər kapitalist ölkələri ilə iqtisadi əlaqələrinə də mənfi təsir etmədi.

Sovet İttifaqının xarici ticarət dövriyyəsi, əmtəə ixracı üzrə 1926-cı ildə 2525 milyon rubl təşkil etdiyi halda, bu, 1927-ci ildə 2600 milyon rubla, 1928-ci ildə 2800

[1] История дипломатии, т. III, с. 377

milyon rubla, 1929-cu ildə isə 3219 milyon rubla çatdı[1]. Həmin illərdə əmtəə idxalı isə 669 milyon rubl həcmində artmışdı[2].

1929-cu ilin mayında toplanmış V Ümumittifaq Sovetlər qurultayında Sovet hökumətinin hesabatında deyilirdi: "İngiltərə tərəfindən bizə qarşı aparılan iqtisadi, maliyyə mübarizəsinə baxmayaraq, kapitalist aləmilə bizim ticarət və iqtisadi əlaqələrimiz indiyə qədər yenə də inkişaf etməkdə davam edir. Bu, onu göstərir ki, iki il bundan qabaq beynəlxalq aləmdə əsas hadisə sayılan bizə qarşı vahid cəbhə yaratmaq cəhdi hazırda müvəffəqiyyətsizliklə nəticələnmişdir"[3].

Maraqlı burasıdır ki, İngiltərə-Sovet münasibətlərinin pisləşməsi nəinki Sovet İttifaqı ilə digər kapitalist dövlətləri arasındakı ticarət münasibətlərinə, hətta İngiltərə-Sovet ticarət münasibətlərinə belə mənfi təsir edə bilməmişdi. Hələ 1927-ci ilin noyabrında İngiltərə parlamentində Ticarət naziri bildirmişdi ki, 1926-cı ilin avqust, sentyabr və oktyabr aylarında SSRİ-dən İngiltərəyə 6,4 milyon funt sterlinq dəyərində mal gətirilmişdisə, 1927-ci ilin həmin aylarında bu, artaraq 7,6 milyon funt sterlinqə çatmışdır[4].

İngiltərə mühafizəkarlarının SSRİ-yə qarşı yeritdikləri düşmən siyasət və Deterdinqin bundan istifadə edərək, sovet neftinə qarşı apardığı geniş kompaniya buraya sovet neft məhsulları ixracının da qarşısını ala bilmədi. Ölkənin neft məhsullarına olan tələbi Deterdinqin sovet neft məhsulları idxalının qarşısını almaq üçün göstərdiyi bütün cəhdləri aradan qaldırdı.

[1] "История международных отношений и внешней политики СССР", с. 188

[2] Yenə orada

[3] "СССР 5-й сьезд Советов". Стенографический отчет, с. 7

[4] "Бакинский рабочий", 263, 12 noyabr 1927



Məlum olduğu kimi, İngiltərə, ABŞ-dan sonra dünyada ən çox neft məhsulları istehlak edən ölkə idi[1]. Burada 1925-ci ildə 6185 min ton, 1926-cı ildə 7320 min ton, 1927-ci ildə 7850 min ton, 1928-ci ildə 7960 min ton neft məhsulları işlənmişdi[2]. Rəqəmlərdən göründüyü kimi, bu ölkədə istehlak edilən neft məhsulları ildən-ilə artırdı.

Ölkənin böyük həcmdə neft məhsullarına olan ehtiyacını təkcə "İngilis-İran neft şirkəti" və "Royal datç-şell" trestinin məhsulları ilə ödəmək mümkün deyildi. "İngilis-İran neft şirkəti" yarıhökumət kompaniyası olduğuna görə onun məhsulları əsasən, dövlət ehtiyacları üçün istifadə edilirdi. "Royal datç-şell" trestinə gəldikdə isə o, tələb olunan miqdardan da artıq neft məhsullarına malik olduğu halda (Hələ 1925-ci ildə dünya üzrə hasil edilən neftin ümumi miqdarının 9 faizi "Royal datç-şell"in[3] payına düşürdü – Ə.Ə.), İngiltərənin ehtiyacı qədər buraya öz məhsullarının gətirməkdə maraqlı deyildi. "Royal datç-şell"ə məxsus olan istehsal rayonları İngiltərədən çox uzaq olduğu üçün, buraya məhsul gətirmək baha başa gəlirdi və sərfəli deyildi (1925-ci ildə Hollandiya Hindistanında hasil edilən neftin 9 faizi, Misir neftinin 100 faizi, Rumıniya neftinin 17 faizi, Meksika neftinin 9 faizi, Ve-

[1] RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 53

[2] Yenə orada

[3] Bax: "Мировое хозяйство и мировая политика", "№ 10-11, 1926, с. 100

nesuela neftinin 50 faizi, ABŞ-da hasil edilən neftin 5 faizi "Royal datç-şell"in payına düşürdü – Ə.Ə.).

Buradan aydın olur ki, ehtiyacının çox böyük hissəsini idxal hesabına ödəyən bir ölkə, onun üçün hərtərəfli əlverişli olan sovet neftindən imtina edə bilməzdi.

Məhz bütün bu mülahizələrdən doğan maraqlı dairələrin ciddi təzyiqi İngiltərə hökumət orqanlarının "ROP"un fəaliyyətini dayandırmaq cəhdlərini aradan qaldırdı. "Neft sindikatının" Londona ezam edilmiş nümayəndəsi hələ 1927-ci ilin ortalarında xəbər verirdi ki, "ROP" normal işləməyə başlamışdır; onun əleyhinə başlanmış kompaniya zəifləməyə başlayır"[1]. 1927-ci ilin avqust və sentyabr aylarından "ROP"un geniş fəaliyyətə başlaması Deterdinqin İngiltərədə sovet neftinə qarşı apardığı kompaniyaya öldürücü zərbə vurdu.

Bunu Deterdinqin ən yaxın köməkçilərindən birinin 1927-ci ilin oktyabr ayında Londonda etdiyi bəyanatdan daha aydın görmək olar. O qeyd etmişdi ki, "Bu il baş verən hadisələrdən ən mühümü rus nümayəndələrinin İngiltərəyə yenidən qayıtmalarıdır. Ser Henri Deterdinq bu sahədə hökumətə yenə təsir etmək üçün hər cür əlindən gələni edəcəkdir".

İngiltərədə "ROP"un geniş fəaliyyətə başlaması, Deterdinqin burada sovet neftini boykot etmək kompaniyasına zərbə vuran yeganə səbəb deyildi. Sovet dövləti "ROP" vasitəsilə İngiltərədə öz neft məhsullarının az bir hissəsini satırdı. Əsas miqdar isə topdansatış qaydada uzun müddətli müqavilələr üzrə buradakı müstəqil firma-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 60



lara verilirdi. Onlarla "Sovet neft sindikatı" arasında qüvvədə olan müqavilələr İngiltərə-Sovet münasibətlərinin pisləşməsindən və Deterdinqin sovet neftinə yeni hücumundan əvvəl bağlandığı üçün, son hadisələr həmin müqaviələrin yerinə yetirilməsinə təsir edə bilməzdi. Deterdinq və onun tərəfdarı olan şirkətlərin həmin firmaları ciddi sıxışdırmalarına baxmayaraq, onlar dünya trestləri tərəfindən aparılan rəqabətdə öz varlıqlarının qorunub saxlanmasında mühüm roy oynayan sovet neftini yenə də almaqda davam edirdilər. Bütün bunların nəticəsi idi ki, son illərdə İngiltərədə sovet nefti üçün yaranmış gərgin vəziyyət buraya sovet neft məhsulları ixracının qarşısını ala bilməmişdi. Onun miqdarı 1925-26-cı ildəki 361608 tondan, 1927-28-ci ildə 432387 tona çatmışdı[1]. Bəhs edilən illərdə İngiltərəyə ixrac edilən sovet neft məhsullarının miqdarı nəinki azalmamış, əksinə xeyli artmışdı. 1927-28-ci ildə İngiltərənin istehlak etdiyi neft məhsullarının 14,2 faizini sovet nefti təşkil edirdi[2].

"Royal datç-şell"in göstərdiyi quduz müqavimətə və geniş kompaniyaya baxmayaraq, sovet neftinin dünya bazarında daha da möhkəmdənməsi işində "Sovet neft sindikatı" ilə "Standart oyl" tresti arasında yaranmış işgüzar əlaqələr də böyük rol oynadı. Sovet dövləti yaxşı bilirdi ki, gənc "Sovet neft sindikatı" dünya neft trestlərinin birləşmiş qüvvəsinə qarşı durmaq, təklikdə onlara qarşı mübarizə aparmaq iqtidarına malik deyildir. Bunun üçün

[1] "Внешняя торговля СССР за 20 лет", с. 132-135

[2] С.М.Лисичкин. "Очерки развития нефтедобывающей промышленности СССР", М., 1958, с. 214

həmin dövrdə nə "Neft sindikatı"nın iqtisadi-texniki imkanları və nə də beynəlxalq siyasi şərait əlverişli deyildi. ÜİK(b)P MK Siyasi Bürosunun neft komissiyası bütün bu mülahizələri nəzərə alaraq hələ 1925-ci ilin əvvəllərində "Sovet neft sindikatı"na göstəriş vermişdi ki, sovet neft məhsulları ixracı üzrə "Standart oyl" trestilə danışığa girsin[1]. Burada 5 il müddətinə müqavilə bağlamaq və Sovet dövlətinin ixrac etdiyi ümumi neft məhsullarının yarısına qədər miqdarı amerikan neft şirkətinə satmaq nəzərdə tuturdu[2]. Əsas diqqət həmin dövrdə daha çox rentabelli olan ağ neft, benzin, sürtkü yağı və mazut məhsullarına verilməli idi. "Standart oyl" ilə "Neft sindikatı" arasında müəyyən müddət ərzində işgüzar əlaqənin yaranması nəticəsində dünya trestlərinin sovet neftinə qarşı vahid cəbhəsi pozulmalı, onların arasında açıq ziddiyyət yaratmalı və bu zəmin üzərində də sovet neft məhsulları ixracı işi xeyli asanlaşmalı idi.

Sovet dövlətinin, neft danışıqları üçün dünya trestlərindən məhz "Standart oyl"u seçməsi təsadüfi deyildi. "Royal datç-şell"in sovet neftinə qarşı son zamanda mövqeyinin pisləşməsi və Deterdinqin bu və ya digər yolla SSRİ neft sənayesinə sahib olmaq cəhdi Sovet dövlətindən gizli deyildi. Bu, "Royal datç-şell"ə əlverişli şərtlər üzrə razılığa gəlmək imkanını aradan qaldırırdı.

"İngilis-İran neft şirkətinə" gəldikdə isə, o yarıhökumət müəssisəsi olmaq etibarı ilə yalnız öz istehsal rayonunda əldə edilmiş məhsulların dövlət təşkilatlarına satışı ilə məşğul idi. Deməli, bu inhisar birlikləri içərisində əlverişli şərtlərlə razılığa gəlməyə daha çox ümid verən yeganə trest "Standart oyl" idi.

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 43
[2] Yenə orada



Sovet dövlətinin "Standart oyl" haqqında yeritdiyi bu mülahizələrdə həmin trestin sovet neftində olan böyük marağı da mühüm yer tuturdu.

Məlum olduğu kimi, "Standart oyl" digər dünya trestlərindən daha yaşlı olmasına baxmayaraq, indiyədək o öz fəaliyyətində əsas diqqəti neft hasilatına deyil, onun emalına, saxlanmasına, daşınmasına və ticarətinə vermişdi. Doğrudur, o 1925-ci ildə ABŞ neft sənayesində 3700 milyon, Meksikada 130 milyon, Venesuelada 150 milyon, Orta və Cənubi Amerikada 60 milyon, Kolumbiyada 50 milyon, Fələstində 20 milyon, Böyük Britaniyada 50 milyon, Fransada 50 milyon, Rumıniyada 150 milyon, Belçikada 16 milyon, Almaniyada 15 milyon, İtaliyada 20 milyon dollar kapitala malik idi. Lakin bu kapitalın çox böyük əksəriyyəti heç də neft sənayesinin əsas sahəsi olan hasilatı deyil, digər sahələri – emalı, danışması və ticarəti əhatə edirdi[1].

"Standart-oyl"dan fərqli olaraq, "Royal-datç-şell" böyük uzaqgörənlik edərək əsas diqqəti dünyanın neft olan rayonlarını ələ keçirməyə vermişdi. İndi o, dünyanın bütün rayonlarında öz neftinə malik idi[2]. "Royal datç-şell" hətta özünü "Standart oyl"un bilavasitə təsiri altında olan ABŞ, Mərkəzi və Cənubi Amerikaya soxa bilmişdi[3]. La-

[1] "Мировое хозяйство и мировая политика", № 10-11, 1926, с. 99
[2] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 108
[3] Yenə orada, iş 34, vər. 88

kin bu heç də "Standart oyl"un "Royal datç-şell"dən az miqdarda neft hasil etməsi demək deyildi. 1925-ci ildə dünya neft hasilatının 25,7 faizi onun nəzarəti altında idi[1]. Məsələ burasında idi ki, ABŞ-da neft məhsullarına olan tələbin ildən-ilə artması "Standart oyl"u digər dünya bazarına məhsul çıxarmaqdan məhrum etmək və onun sırf Amerika ərazisi ilə məhdud olmuş trestə çevirmək təhlükəsi qarşısına qoya bilərdi. Deməli, "Standart oyl" dünya bazarında öz mövqeyini itirməmək və bu yerlərdə rəqiblərinə qarşı mübarizə aparmaq üçün ya yeni neft rayonlarına, yaxud da heç olmazsa əlavə neft məhsullarına malik olmalı idi.

Yeni neft rayonlarına malik olmaqdan, indi söhbət belə ola bilməzdi. Onlar əsasən "Royal datç-şell" və "İngilis-İran neft şirkəti" tərəfindən ələ keçirilib qurtarmışdı. Hazır neft məhsulları əldə etməyə gəldikdə isə, bu, ancaq "Sovet neft sindikatı" ilə yaxınlıq etmək şəraitində mümkün idi. Avropada, Yaxın, Orta və Uzaq Şərqdə "Standart oyl" öz qorxulu rəqibi "Royal datç-şell"ə qarşı ancaq sovet nefti ilə mübarizə apara və həmin bazarlarda özünü möhkəm hiss edə bilərdi. Bundan başqa sovet neftinin həmin bazarlara yaxın olması da "Standart oyl" üçün olduqca əlverişli idi. O, həmin bazarda Amerika neftini deyil, sovet neftini çıxararkən xeyli vaxta və nəqliyyat xərclərinə də qənaət etmiş olardı.

"Standart oyl" trestinin sovet neftinə göstərdiyi meyl yuxarıdakılarla yanaşı, həm də başqa mülahizələrdən irəli gəlirdi. "Standart oyl" yaxşı bilirdi ki, yuxarıda

[1] "Мировое хозяйство и мировая политика", № 10-11, 1926, с. 99



göstərilən bazarlarda "Royal datç-şell"ə yanaşı, "Sovet neft sindikatı" da yaxın zamanda onun arzuedilməz qüvvəli rəqibi ola bilər. Sovet neft sənayesinin coşqun inkişafı "Standart oyl"un rəhbərlərini bu haqda düşünməyə məcbur edirdi. Deməli, sovet neft məhsulları almaqla, o həm bu təhlükəni qismən aradan qaldırmış olur və həm də həmin yerlərdə "Royal datç-şell"ə mübarizə aparmaq imkanı əldə edirdi.

1925-ci ilin sonunda danışıqlardan ötrü hər iki tərəf üçün əlverişli şərait yetişmişdi. Deterdinq sovet neftinə qarşı açıq-aydın qəti hücuma keçmişdi. O, İngiltərədə sovet neftinin boykot edilməsi haqqında parlamentdə məsələ qaldırılmasını tələb edirdi. Almaniya, Baltikyanı ölkələrdə və digər yerlərdə "qiymət müharibəsinə" başlamışdı. Sovet neftinə qarşı mübarizədə "Royal datç-şell"in "Standart oyl" ilə birləşmək təhlükəsi yaranmışdı. 1925-ci ilin əvvəllərində Neft sindikatı ilə "Standart oyl" arasında əvvəl aparılan danışıqlar zamanı o təklif edirdi ki, keçmiş sahibkarların tələbi ödənilsin. Sovet dövləti ixrac etdiyi bütün neft məhsullarını ona versin. Bakı və Qroznıda müəyyən neft sahələrini konsessiyaya götürsün. "Standart oyl"un bu tələbləri sovet dövləti tərəfindən rədd edilmişdi.[1]. Lakin indi onların vahid cəbhə yaratmalarına imkan verməmək, "Royal datç-şell"in diqqətini və hücumunu yeganə hədəfə – sovet neftinə yönəltməsinin qarşısını almaq, sovet neftinin bu iki qorxulu rəqibləri arasında ziddiyyət salmaq və onları bir-birilərinin üzərinə salışdırmaq, bu zəmin üzərində yaranmış əlverişli şəraitdən bacarıqla

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 91

istifadə edərək, sovet neft məşhsulları ixracının genişlənməsinə nail olmaq lazım idi. Mövcud şərait bunu tələb edirdi.

1925-ci ilin sonu "Standart oyl" üçün də olduqca əlverişli idi. "Royal datç-şell"in sovet neftinə açıq hüxuma keçməsi "Standart oyl" trestinə ümid verirdi ki, bu vəziyyətdən əlverişli danışıqlar üçün istifadə edə bilər. Öz qorxulu rəqibini sovet nefti vasitəsilə vurmaq üçün indiiyədək hələ o, belə əlverişli imkana malik olmamışdı. İngiltərə hökuməti ilə "Royal datç-şell" tresti arasında Mosul nefti və "İngilis-İran neft şirkəti" yaranmış ixtilaflar da "Standart oyl"un vəziyyətini xeyli yüngülləşdirirdi. İngilterəyə sovet neftinin gətirilməsini qadağan etmək haqqında Deterdinqin tələbinin hökumət tərəfindən 1925-ci ilin oktyabr ayında rədd edilməsi, 1925-ci ilin noyabrında "Royal datç-şell" tresti ilə Dəniz donanması nazirliyi arasında qurtarmaqda olan müqavilənin müddətinin uzadılmasının hökumət tərəfindən rədd edilməsi[1], "Royal datç-şell"ə açıq mübarizə üçün şəraitin yetişdiyinə əsas verirdi. 1925-ci ilin sonunda "İngilis-İran neft şirkəti"nin rəhbərlərindən biri olan İnverfors ilə "Sovet neft sindikatı" nümayəndəsi Polyak arasında olan danışıqların uğursuzluğu da (1925-ci ilin sonunda İnversfors Polyakı qəbul edərək bildirmişdi ki, o, qüdrətli bir neft təşkilatı yaratmaq fikrindədir. İnverfors bu təşkilatın tərkibinə "Sovet neft sindikatının" da daxil olması arzusunda olduğunu bildirmişdi. Təşkilata daxil olmalı olan cəmiyyətlər sırasında "Royal datç-şell" trestinin adı çəkilmirdi[1]. Bu məsələ sonradan ingilis-sovet münasibətlərinin pisləşməsilə əlaqədar olaraq inkişaf etdirilmədi – Ə.Ə.) "Standart oyl"un sovet neftinə olan meylini qüvvətləndirməyə bilməzdi. O, təşəbbüsün "İngilis-İran neft şirkətinin" əlinə keçməsindən ehtiyat edirdi.

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 45



"Standart oyl" 1925-ci ilin sonunda "Royal datç-şell"ə rəsmi olaraq bildirdi ki, o, bu iki trest arasında olan münasibətlərə yenidən baxmaq fikrindədir[2]. Amerika tresti burada əsasən, sovet neftinə olan münasibəti nəzərdə tuturdu. Bir çox rəsmi sənədlərdən aydın olur ki, o, sovet neftinə yeni hücumda iştirak etmək haqqında "Royal datç-şell"ə qeyri-rəsmi razılıq vermişdi. "Standart oyl" eyni vaxtda sovet neft sindikatına müraciət edərək, neft danışıqlarına hazır olduğunu bildirdi.

Sovet hökuməti 1926-cı ilin fevralında "Standart oyl"un təklifini müzakirə edərək "Neft sindikatına" "Standart oyl" ilə danışıqdar aparmaq üçün səlahiyyət verdi.

"Standart oyl" ilə bağlanacaq müqavilənin müddəti 5 ildən yuxarı olmamalı idi. "Neft sindikatı" özünün xaricdə olan təşkilat və qarışıq cəmiyyətlərini toxunulmaz saxlamalı, onların fəaliyyət göstərdikləri ölkələrdə satılacaq neft məhsullarının qiyməti və miqdarı haqqında "Standart oyl" ilə razılıq əldə etməli idi. Bundan başqa, müqavilə üzrə satılacaq məhsulların dəyərindən əlavə "Standart oyl"dan borc almağa nail olmaq lazım idi. Həmin borcun neft sənayesinə qoyulması nəticəsində əldə

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 44
[2] Yenə orada, vər. 45

ediləcək neft məhsullarının əksər hissəsi "Standart oyl"a satılmalı idi[1].

Sovet neft komissiyasının göstərişində deyilirdi ki, əgər "Standart oyl" həmin şərtlər üzrə müqavilə bağlamaqdan imtina edərsə, o zaman onun ayrı-ayrı qrupları ilə bu və ya digər neft məhsullarının ticarəti haqqında əlaqəyə girmək olar[2].

Neft komissiyası "Standart oyl" ilə danışıqların şərtlərini müəyyən edərkən, hər ehtimala qarşı konsessiya barədə ediləcək təkliflərin şərtlərini də konkret müəyyən etmişdi. Həmin şərtlərdə deyilirdi ki, əgər danışıqlar zamanı konsessiya məsələsi ortaya çıxarsa, o zaman SSRİ Baş Konsessiya komitəsi tərəfindən konsessiyaya vermək üçün ayrılmış neft rayonları (Burada Fərqanə, Tiflis-Gəncə sahəsindəki neft yataqları, Berekey, Xəzər dənizinin şərq sahillərindəki neft rayonları, Çələkən, Kerc-Taman, Neftdağ və s. yerlər nəzərdə tutulurdu – Ə.Ə.) üzrə razılığa gəlməyə yol verilir[3]. Bunun əvəzində isə "Standart oyl" Neft sindikatına verəcəyi borcun miqdarını xeyli artırmalı idi.

"Standart oyl" ilə bağlanacaq müqavilədə ona verilən məhsulların qədəri bütövlükdə SSRİ-nin ixrac etdiyi neft məhsulları miqdarının yarısından çox ola bilməzdi.

ÜİK(b)P MK Siyasi Bürosunun Neft Komissiyası öz göstərişlərini belə bir siyasi mülahizə ilə qəti yekunlaşdırırdı: "Hazırkı siyasi şəraitdə "Standart oyl" ilə danışıq

[1] RF XTMDA, f. 2309. siyahı 11. iş 34, vər. 41-42
[2] Yenə orada
[3] Yenə orada, vər. 41



aparmaq şübhəsiz arzu edilən haldır"[1].

Sovet dövlətinin "Standart oyl" tresti ilə danışıq aparmağa razılıq verməsi və bu sahədə bir çox zəruri güzəştlərə getmələri (Burada konsessiya məsələsi, ixrac üçün müəyyən edilmiş neft məhsullarının yarısına qədərinin "Standart oyl" trestinə verilməsi nəzərdə tutulur – Ə.Ə.) yuxarıda qeyd edilən səbəblərlə yanaşı, bir də onunla izah edilirdi ki, əgər göstərilən şərtlər üzrə danışıqlar baş tutmasaydı belə, o, müəyyən əhəmiyyətə malik idi. Danışıqların gedişi ingilis kapitalının və sabiq neft sahibkarları təşkilatının sovet nefti üzərinə hücumunun zəifləməsinə az-çox təsir göstərə bilərdi. Danışıqlar zamanı "Standart oyl"un ayrı-ayrı qrupları ilə bu və ya digər neft məhsulu üzrə əlverişli şərtlərlə sazişə gəlmək mümkün idi. Bunlardan başqa danışığa girmək qiymətlər məsələsi, fəaliyyət dairəsi və digər ayrı-ayrı məsələlər üzrə razılığa gəlməyə imkan yaradardı.

"Standart oyl" ilə "Neft sindikatı" arasında danışıqlar 1926-cı ilin yazında başladı[2]. "Standart oyl" "Neft sindikatı" qarşısında aşağıdakı şərtləri irəli sürdü:

1) On il müddətinə müqavilə bağlamaq;

2) Hazırda ixrac üçün müəyyən edilmiş miqdarda neft məhsulları vermək, əgər hasilatın genişlənməsilə əlaqədar olaraq ixrac edilən məhsullar artırılarsa, bunu da "Standart oyl" trestinə verilən məhsulun üzərinə gəlmək;

3) "Standart oyl" "Neft sindikatı"nın xarici firmalarla bağladığı müqavilələri yerinə yetirməyə hazırdır;

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 43
[2] Yenə orada. iş 72, vər. 64

4) "Neft sindikatı" ancaq birinci dərəcəli firmalarla sövdəyə girə bilər; bu, qabaqcadan "Standart oyl" ilə bağlanan müqavilədə göstərilməlidir;

5) Əgər "Neft sindikatı" Almaniyada özünün pərakəndə satış təşkilatını bağlayarsa və Fransada belə bir qurum yaratmazsa, "Standart oyl" ondan küllü miqdarda sürtkü yağı almağa hazırdır;

6) Neft məhsulları ixracından əldə edilmiş gəlirin 5 faizi sabiq neft sahibkarlığının tələblərinin ödənilməsinə sərf edilməlidir;

7) "Standart oyl" Embaneftin inkişaf etdirilməsi üçün 25 milyon dollar borc verməyə hazırdır. Bu şərtlə ki, buradan əldə edilmiş neft ölkənin daxili ehtiyacına sərf edilsin. Bakı və Qroznı nefti isə ixrac üçün ayrılsın (Bakı və Qroznı nefti Emba neftinə nisbətən daha yüksək keyfiyyətə malik idi).

8) "Standart oyl" alicənablıq xatirinə ümumi saziş bağlanana qədər müəyyən miqdar benzin və hətta ola bilsin ki, ağ neft almağa hazırdır"[1].

"Standart oyl"un danışıq şərtlərini Kelloq və Tiql tərtib etmişdi[2]. Sovet hakimiyyətinin qəddar düşmənləri olan Yuz və Kelloqun tutduqları mövqe (Yuz və Kelloq müxtəlif vaxtlarda ABŞ-ın dövlət katibi olmuşdular. Onlar "Standart oyl" ilə bağlı idilər. Tiql isə bu trestin ən görkəmli rəhbərlərindən idi – Ə.Ə.) öz əksini "Standart oyl"un şərtlərində tapmaya bilməzdi.

"Neft sindikatı" "Standart oyl"un şərtlərilə razılaşmayaraq onu rədd etdi. "Neft sindikatı"nın bu barədə rəhbər təşkilatlara verdiyi məlumatda deyilirdi: "Belə müqavilə, ancaq müstəmləkə və yarımmüstəmləkə ölkənin müəssisəsi ilə metropoliya ölkənin tresti arasında bağlana bilər"[1].

"Standart oyl"un təkliflərinin belə sərt və qəbuledilməz olması, yalnız onun müəlliflərinin Yuz, Kelloq və Tiqldən ibarət qrupun fəaliyyətinin nəticəsi deyildi. "Standart oyl"un qrupları arasında sovet neftinə qarşı olan mövqe müxtəlifliyi burada öz təsirini göstərə bilmişdi 1925-1926-cı illərdə "Standart oyl"un tərkibinə 30-a qədər qrup "Standart of Nyu-York", "Standart of Nyu-Cersi", "Vakuum oyl", "Standart of İndiana", "Anqlo-Amerikan" və s. daxil idi. Onlar hər biri müxtəlif rayonda fəaliyyət göstərirdi. "Vakuus oyl" Misir, Fələstin Suriyanı, "Standart of Nyu-York" Türkiyəni, Yaxın və Uzaq Şərqi, "Anqlo Amerika" Böyük Britaniyanı, "Standart of Nyu-Cersi" ABŞ, İtaliya, Fransa bazarlarını əhatə edirdi. "Standart oyl"un o qruplarının ki, fəaliyyət dairəsi Sovet İttifaqına yaxın idi, onlar "Neft sindikatıyla" danışığa girmək tərəfdarı idilər. SSRİ-dən uzaq olan dünya bazarında fəaliyyət göstərən qrup isə, sovet neftində maraqlı deyildi. Onlar həmin bazarlarda "Royal datç-şell" ilə öz münasibətlərini gərginləşdirmək məqsədinə xidmət edən "Neft sindikatıyla" danışıq aparılmasına razı deyildilər.

"Standart oyl" trestinin qrupları arasındakı bu mövqe müxtəlifliyi təkcə müqavilənin şərtlərində deyil, "Neft sindikatıyla" aparılan danışıqların gedişində də özünü göstərirdi. "Standart oyl" ilə "Neft sindikatı" ara-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 72, vər. 62-63
[2] Yenə orada, vər. 64

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 56

sında ümumi razılığa gəlmədən, "Vakuum oyl" 1926-cı ilin martında Misir, Fələstin və Suriya bazarları üçün "Neft sindikatı"ndan 70 min ton ağ neft almaq haqqında saziş bağladı[1]. Həmin ilin mayında müqavilə daha 2 il müddətinə uzadıldı. Burada ildə 125 min ton əlavə ağ neft alınması nəzərdə tutulurdu[2]. Bunun ardınca "Standart of Nyu-York" "Neft sindikatı"yla sazişə girdi[3]. Beləliklə, "Standart oyl" qrupları arasında vahid cəbhə yarılmış oldu. Digər qruplarda da sovet neftinə meyl yarandı.

Bütün bunları nəzərə alan "Standart oyl" trestinin rəhbərləri "Sovet neft sindikatı" ilə danışıqların bərpa edilməsi məsələsini müzakirə etmək üçün, 1926-cı ilin aprel ayında Parisdə, Avropada fəaliyyət göstərən öz qruplarının direktorlarının konfransını çağırmağı lazım bildilər[4].

Konfransa "Standart oyl" trestinin başçısı Tiql özü rəhbərlik edirdi. "Vakuum oyl"un direktoru Mozert, "Anqlo-Ameriken" qrupunun direktoru Pauel, Hamilton, Almaniyadakı nümayəndəsi Fridman, Fransadakı nümayəndəsi Hörl və başqa nüfuzlu şəxslər iştirak edirdi. Müzakirə zamanı konfrans iştirakçılarının əksəriyyəti "Neft sindikatı" ilə danışıqları bərpa etməyə tərəfdar olduqlarını bildirdilər[5]. Lakin konfrans danışıqları başlamaq haqqında dərhal qərar qəbul etmədi. Tiqlin fikrincə, həmin məsələ Vaşnqtonda baş səhmdarların iştirakı ilə bir daha yenidən müzakirə edilməli idi. Görünür ki, "Sovet neft sindikatı" ilə danışıqlara başlamaq üçün Tiql öz hökumətinin rəyini bilmək istəyirdi. Həm də o, belə güman edirdi ki, danışıqlara başlamağı uzatdıqca, "Royal datç-şell"in ciddi hücumuna məruz qalmış "Neft sindikatı"nı daha çox güzəştə getməyə məcbur etmək olar.

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34
[2] Yenə orada
[3] Yenə orada, iş 72, vər. 109
[4] Yenə orada, iş 34, vər. 70
[5] Yenə orada, iş 36, vər. 55



1926-cı il iyunun əvvəllərində "Standart oyl" hansı şərtlərlə danışıq aparmağa hazır olması haqqında "Neft sindikatı"nın Avropadakı Baş Müvəkkilliyinə memorandum verdi. Memorandumda deyilirdi: "1) Keçmiş sahibkarların əmlakının əvəzini ödəmək hər hansı müqavilənin əsas şərtidir. Bu şərtin həyata keçirilməsini təmin edən yeganə əməli metod-müqavilədir. Bütün ixrac əməliyyatından faizlə müəyyən edilmiş miqdar müntəzəm olaraq London bankına köçürülməlidir. Bu, keçmiş sahibkarları razı salmaq üçün ən yaxşı təminat olar.

2) Ruslar hər məhsulun dəqiq miqdarını göstərməklə bütün ixrac etdikləri neft məhsullarını 10 il müddətinə öz alıcılarına ("Standart oyl"un qrupları nəzərdə tutulur – Ə.Ə.) satmalıdır.

3) Alıcılar neft sənayesini bərpa və inkişaf etdirmək məqsədilə müqavilə bağlanandan bir il sonra, razılaşmış miqdarda borc verməlidirlər. Borcun qədəri məhsulların miqdarını proporsional olaraq müəyyən edilməlidir.

4) Ruslar təminat verməlidirlər ki, ixrac edilmiş məhsullardan aldıqları pulu Rusiya sənayesinin, xüsusilə neft sənayesinin inkişaf etdirilməsi işinə sərf edəcəklər"[1].

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 98

1926-cı il iyunun 15-də Parisdə "Neft sindikatı"nın Avropadakı Baş müvəkkili Kalnin ilə "Standart oyl"un Avropadakı Baş müvəkkili Herle arasında yeni danışıqlar başladı[1]. Herle "Standart oyl"un "Neft sindikatı"na verdiyi memorandumun şərtlərini yenidən təkrar edərək, onu da əlavə etdi ki, "Neft sindikatı"nın "Standart oyl"dan alacağı 25 milyon dollar borcun Sovet dövləti tərəfindən haraya sərf ediləcəyi məsələsində olduqca maraqlıdır. "Standart oyl" çox ehtiyat edirdi ki, bu məbləğ neft sənayesinin inkişafına deyil, Kominternin möhkəmlənməsi və fəaliyyətinin genişlənməsinə sərf edilsin. Bundan başqa "Standart oyl" SSRİ neft sənayesinə qoyacağı bu miqdar kapitalın sovet dövləti tərəfindən yenə də milliləşdirilməyəcəyinə o qədər də əmin deyildi[2].

"Neft sindikatı"nın nümayəndəsi Herlenin suallarına cavab olaraq bildirdi ki, ixrac edilən bütün neft məhsullarının "Standart oyl"a verilməsi, sovet neftinin dünya bazarlarından çıxması demək olduğu üçün, "Neft sindikatı" bu şərti qəbul edə bilməz.

"Neft sindikatı" xaricdəki öz satış təşkilatlarının başqasına tabe edilməsilə də razılaşa bilməz. Vahid qiymət siyasəti yeritmək arzu olunan haldır. Əgər "Standart oyl" münasib qiymətlər üzrə böyük miqdarda neft məhsulları almaq istəyirsə, "Neft sindikatı" onun bu arzusunu yerinə yetirməyə hazırdır. "Standart oyl"un irəli sürdüyü müqavilə müddətinə gəldikdə isə, 10 il uzun müddətdir. Bununla belə, "Neft sindikatı" çox ehtimal ki, bunu qəbul etsin[3].

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 101
[2] Yenə orada, vər. 77
[3] Yenə orada



"Neft sindikatı"nın nümayəndəsi köhnə sahibkarların tələbinin ödənilməsi məsələsindən bəhs edərək göstərdi ki, bu haqda o, öz hökumətilə məsləhətləşəcəkdir. Lakin öz şəxsi fikri olaraq deyə bilər ki, sovet dövləti heç zaman bu şərti qəbul etməyəcəkdir[1].

"Standart oyl" ilə "Neft sindikatı"nın nümayəndəsi arasında 1926-cı il iyunun 22-də və 24-də daha iki görüş oldu[2]. Burada Herllə birlikdə Paul Hamilton və Morfingel də iştirak edirdi. Bu görüşlər də heç bir müsbət nəticə vermədi. Tərəflər müzakirə olunan məsələlər üzrə yenə də öz köhnə mövqelərində qaldılar.

Bu görüşlərdən sonra hər iki tərəf qarşıya çıxan məsələlər üzrə öz rəhbər təşkilatları ilə məsləhətləşmək haqqında razılığa gəldilər.

"Sovet neft sindikatı" idarəsi müzakirə edilən məsələlər üzrə qəti mövqeyini dərhal Avropadakı öz baş müvəkkilliyinə bildirdi. Orada göstərilirdi ki, "Standart oyl"un şərtləri Mərkəzi Partiya və Sovet təşkilatlarının "Standart oyl" ilə danışıqlar barədə verdikləri göstərişlərə zidd olduğu üçün, onlar heç bir halda qəbul edilə bilməz. Sovet dövləti yalnız 5 il müddətinə, ixrac ediləcək neft məhsullarının 50 faizini sata bilər. Köhnə sahibkarların tələblərinin ödənilməsi məsələsi müqavilədə hətta xatırlanmamalıdır. Həmin tələblər "Standart oyl"un özü tərəfindən ödənilərsə, onun Sovet dövlətinə dəxli yoxdur. Bu, həmin trestin öz daxili işidir[3]. "Neft sindikatı"nın öz mü-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 34, vər. 77
[2] Yenə orada, vər. 101
[3] Yenə orada, iş 73, vər. 13

vəkkilinə ünvanladığı göstərişində qeyd edilirdi ki, əgər danışıqlar zamanı köhnə sahibkarların tələbləri irəli sürülərsə, "Standart oyl"a başa salmaq lazımdır ki, "indi Genuya dövrü deyildir. Bu məsələyə dialektik nöqteyi-nəzərdən baxmaq lazımdır. Genuyada Sovet dövləti bu tələbi rədd edə bildiyi halda, indi o həmin dövrdən çox irəli getmişdir. Ölkəmizə həmiyyətli dərəcədə möhkəmlənmişdir"[1].

"Sovet neft sindikatı"ndan fərqli olaraq "Standart oyl" müzakirə olunan məsələlər üzrə qəti fikrini bildirməkdən imtina etdi. Bu danışıqların pozulması demək idi.

"Standart oyl"un ləng tərpənməsi və danışıqları süründürməsində əsas məqsəd "Neft sindikatı"na "Royal datç-şell"lə apardığı mübarizəsində tək qaldığını "başa salmaq" və öz şərtlərini ona qəbul etdirməyə nail olmaq idi. "Standart oyl"un fikrincə, "Royal datç-şell"in mübarizəsinə davam gətirməyən "Neft sindikatı" gec-tez onun şərtləri üzrə danışıqların başlanmasına özü təşəbbüs göstərməli idi.

Lakin "Standart oyl" trestinin "gözləmə" taktikası özünü doğrultmadı.

"Royal datç-şell"in Sovet neftinə qarşı müharibə etməsindən və "Standart oyl" tərəfindən danışıqların pozulmasından istifadə edən bir sıra ölkələrin hökumətləri və milli firmaları: Fransa hökuməti, İngiltərə firması "Midveii və K°", ingilis firması "Oyl Supyayl Korpereyşin", Fransa təşkilatı "Boyer Marşal", Belçika firması "Pyurfina", İngiltərənin Viyams, Sinkler və digər maliyyə

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 36, vər. 32



qrupları və s. əlverişli şərtlər üzrə müqavilə bağlamaq haqqında "Neft sindikatı"na müraciət etdilər. Onlar dünya trestlərinin özbaşınalığından yaxa qurtarmaq və yaxud onların amansız rəqabəti şəraitində öz varlıqlarını sovet nefti vasitəsilə qoruyub saxlaya biləcəklərini qəti yəqin etdikləri üçün, "Standart oyl"dan fərqli olaraq, daha real təkliflər irəli sürürdülər.

Məsələn, ingilis firması "Midvein və K°" 5 il müddətində 800 min ton miqdarında ağ neft və 335 min ton benzin almağa hazır olduğunu bildirirdi[1]. Digər ingilis firması "Oyl supyayl korporeyşin" 5 il müddətində 525 min ton benzin alacağını göstərirdi[2]. Belçika firması "Pyurfina" benzin, ağ neft, sürtkü yağı, qazoyl və mazut məhsulları alqı-satqısı haqqında 3 il müddətinə müqavilə bağlamağı xahiş edirdi[3].

Dünya üzrə dördüncü neft konserni olmaq iddiasına düşmüş Fransanın ən böyük firması olan "Boyer-marşal" soevt neft məhsulları vasitəsilə "Royal datç-şell" və "Standart oyl" trestlərini Avropadan sıxışdırmaq üçün, sovet neftinə yaxınlaşmaq yolları axtarırdı. O, "Neft sindikatı" ilə birlikdə qarışıq satış təşkilatı yaratmaq təklifini irəli sürürdü[4].

Bir sıra müstəqil əcnəbi firmalar, təkcə neft məhsulları ticarəti üzrə deyil, neft sənayenin inkişaf etdirilməsi, ixrac əməliyyatının genişləndirilməsi ilə əlaqədar olan məsələlər üzrə də "Neft sindikatı" ilə razılığa gəlməyə cəhd

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 21
[2] Yenə orada, vər. 19
[3] Yenə orada, vər. 18
[4] Yenə orada, vər. 19

göstərirdilər.

Amerikan şirkəti "Nasional Supyayl K°" Bakı-Batumi və ya Qroznı-Tuapse neft kəmərini çəkməyə hazır olduğunu bildirirdi[1]. Vilyams, Sinkler və İngiltərəni digər maliyyə qrupları "ROP"a onun fəaliyyəti göstərdiyi rayonlarda lazım olan texniki-inşaat məsələsində yardım göstərməyi öz üzərinə götürürdülər.

Yuxarıda göstərilən konkret faktlardan göründüyü kimi, ayrı-ayrı müstəqil firmaların bu və ya digər mülahizədən irəli gələn təklifləri "Neft sindikatı" üçün "Standart oyl"un irəli sürdüyü şərtlərdən həm iqtisadi və həm də siyasi cəhətdən olduqca əlverişli idi. Onlarla qarşılıqlı razılıq əsasında sazişə girmək, "Standart oyl" ilə yaxınlıq etmədən belə sovet məhsulları ixracı işini xeyli asanlaşdıra bilərdi. Bütün bunlar nəinki "Royal datç-şell"in sovet neftinə qarşı mübarizəsinə, habelə "Standart oyl" trestinin "gözləmə" taktikasının müvəffəqiyyət qazanmasına mane olmaya bilməzdi.

Məsələ burasındadır ki, "Standart oyl" trestinin rəhbərlərini bu işdə narahat edən təkcə bunlar deyildi. "Standart oyl" ilə "Neft sindikatı" arasında danışıqlar pozulduqdan sonra, trestin ayrı-ayrı qrupları tərəfindən sovet neftinə olan meyl xeyli qüvvətlənmişdi. "Standart oyl"un filialı "Anqlo-Amerikan", "Standart of Nyu Cersi", "Standart of Nyu-York", "Vakuum oyl" və başqaları "sovet neft sindikatı" ilə separat müqavilə bağlamağa cəhd göstərirdilər. Hətta onlar "Standart oyl" trestinin ümumi rəhbərliyinin fikrilə hesablaşmayaq, müqavilə

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 21



haqqında öz konkret şərtlərini də irəli sürmüşdülər[1].

"Standart oyl" trestinin daxilində yaranan bu vəziyyət onun rəhbərlərini ciddi düşündürməyə bilməzdi. Onlar ehtiyat edirdilər ki, trestin Avropa qruplarının təklikdə "Neft sindikatı" ilə danışmağa başlamaları, trest daxilində yekdilliyin pozulması, onları "Neft sindikatı" ilə o qədər də əlverişli olmayan sazişə gətirib çıxara bilərdi. Bundan başqa, 1926-cı ilin sonlarından "Royal datç-şell" tresti ilə "Neft sindikatı" arasında yenidən başlanan danışıqlar da "Standart oyl" rəhbərlərini bərk təşvişə salmışdı. Əgər bütün bunların üzərinə sovet neftinin Avropa bazarında möhkəmlənməsi və yeni-yeni mövqelər əldə etməsi də əlavə edilərsə, o zaman aydın olar ki, "Standart oyl" öz köhnə mövqeyində uzun müddət qala bilməzdi.

"Neft sindikatı"nın Avropadakı baş müvəkkilliyinin 1926-cı ilin sonlarında "Neft sindikatı"na verdiyi məlumatda deyilirdi: *"Standart oyl" öz mövqeyini bir qədər dəyişdirərək güzəştə gedir... Biz heç şübhə etmirik ki, o, nəticə etibarı ilə bizimlə razılaşmağa məcbur olacaqdır"*[2].

Belə də oldu. "Standart oyl" 1927-ci ilin ortalarında danışıqlara yenidən başlamaq haqqında "Neft sindikatı"na müraciət etdi. "Neft sindikatı"nın göstərişi ilə N.E.Kalnin 1927-ci ilin iyununda danışıqlar aparmaq üçün ABŞ-a yola düşdü[3].

"Standart oyl" ilə "Neft sindikatı" arasında gedən danışıqlar bu dəfə əsasən müvəffəqiyyətlə nəticələndi. Böyük həcmdə sovet neft məhsulları almaq haqqında tərəflər

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər. 18-21
[2] Yenə orada, iş 73, vər. 43
[3] Yenə orada, iş 181, vər. 59

razılığa gəldilər[1]. Həmin müqavilədə göstərilən neft məhsullarının ümumi miqdarı Sovet dövlətinin ixrac etdiyi neft məhsullarının dövrdə bir hissəsini təşkil edirdi.

İngiltərə-Sovet münasibətlərinin pisləşdiyi, "Royal datç-şell" trestinin Sovet hökumətinə və sovet neftinə qarşı ümumdünya mübarizəsinə başladığı bir şəraitdə "Neft sindikatı" ilə "Standart oyl" arasında bağlanan bu müqavilə böyük iqtisadi və siyasi əhəmiyyətə malik idi.

"Sovet neft sindikatı" ilə "Standart oyl" tresti arasındakı ticarət münasibətlərinin yaranması və genişlənməsinə "Pravda" qəzeti böyük qiymət verərək həmin günlərdə yazırdı: "Hazırda boykot cəbhəsi başqa yerdən yarılmışdır. Amerika neft kompaniyası öz mövqeyini dəyişmişdir[2].

Amerikada çıxan "Nyu-York Amerikan" jurnalı bu müqavilənin əhəmiyyətindən bəhs edərək göstərirdi:

"Kalninin müzəffər səfəri, "Royal datç-şell"in amerikanları rus nefti almaqdan çəkindirmək və sovet neftini "Royal datç-şell"in inhisarına almaq üçün göstərdiyi cəhdin məğlubiyyətlə nəticələndiyini təsdiq edir"[3].

"Sovet neft sindikatı" ilə "Standart oyl" tresti arasında neft ticarəti münasibətlərinin belə genişlənməsi hər iki təşkilatı tam təmin edirdi. Sovet dövləti bu müqavilə nəticəsində Deterdinqin boykot planını alt-üst edərək, öz neft ixracını artırmağa nail olduğu kimi, "Standart oyl" da sovet nefti vasitəsilə "Royal datç-şell"i Yaxın Şərq bazarından sıxışdırmaq imkanını əldə edirdi. Bu münasibət-

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 181, vər.59
[2] "Правда", 26 iyul 1927-ci il
[3] "Nyu-York Ameriken", 1927-ci il avqust. s. 93



lərin "Standart oyl" trestini necə təmin etməsini bir də o faktdan görmək olardı ki, vaxtı ilə ABŞ-ın dövlət katibi, həmin dövrdə isə "Standart oyl" trestinin hüquq məsləhətçisi olan Yuz özü də Sovet-ABŞ neft münasibətlərinin tərəfdarına çevrilmişdi[1].

"Standart oyl" ilə "Sovet neft sindikatı" arasında ticarət münasibətlərinin qarşılıqlı fayda əsasında genişlənməsi Deterdinqin sovet neftini boykot etmək planına vurulan ən ciddi zərbə idi. Bunu hətta Deterdinq özü də etiraf edərək göstərirdi: "Mən nəinki bilmirdim, hətta güman belə etmirdim ki, "Standart oyl" tresti ruslar İngiltərədən qovulduqdan sonra sovet neftini almaq işini belə həvəslə davam etdirəcəkdir"[2].

Sovet hökumətinin yeritdiyi neft siyasəti – "Sovet neft sindikatı" ilə "Standart oyl" tresti arasında münasibətlərin yaxşılaşması özünün ikinci müsbət nəticəsini də göstərdi. "Royal datç-şell" ilə "Standart oyl" arasında sovet nefti üstə beynəlxalq mərəkə başlandı. Deterdinq sovet nefti ilə yanaşı, "Standart oyl"a da açıq müharibə elan etdi.

1927-ci il iyulun sonlarında Deterdinq öz müsahibələrinin birində deyirdi: ""Standart oyl" oğurluq neft məhsullarını Britaniya Hindistanında satmaq üçün öz ticarət aparatını Sovet dövlətinin sərəncamına vermişdir. Görünür o, sovetlərə uzun müddət kömək etmək fikrindədir. Əks halda o özünü hörmətdən salan belə sazişə yol verməzdi...

[1] "Бакинский рабочий", № 176, 31 iyul 1927-ci il
[2] "Nyu-York Tayms", 5 avqust 1927-ci il

Ola bilsin, bəziləri gözləyirlər ki, biz yaranmış vəziyyətlə hesablaşacağıq. Lakin biz heç kimə razılıq verməri ki, o bizimlə oynasın. Mənafeyimizə toxunulduğuna görə biz zərbəyə zərbə ilə cavab verəcəyik"[1].

"Royal datç-şell" trestinin Nyu-Yorkdakı nümayəndəsi Rifard Biri 1928-ci ilin yanvar ayının əvvəllərində mətbuat nümayəndələrinə bildirmişdi: "Royal datç-şell" tresti "Standart oyl"un sovet neftini satdığı bütün ölkələrdə ona qarşı mübarizə aparacaqdır. Nə qədər ki, "Standart oyl" sovet neftini satmaqdan imtina etməyəcək və yaxud Sovet İttifaqı keçmiş sahibkarlarının haqqını verməyəcək və neft müharibəsi davam edəcəkdir"[2].

Dünyanın iki nəhəng neft tresti arasında gedən bu müharibə sovet neftinin beynəlxalq mövqeyi üçün daha da əlverişli şərait yaratdı. Berlində çıxan "Berliner Taqeblatt" qəzeti bu münasibətlə haqlı olaraq yazırdı: ""Royal datç-şell" və Rokfellerin "Standart oyl" trestləri arasında mahiyyətcə dünya neft müharibəsi gedir. Bu müharibədə SSRİ-nin payına elə bir rol düşmüşdür ki, bunun sayəsində tərəflərin hər biri onu öz tərəfinə çəkməyə səy edir"[3].

"Royal datç-şell" ilə "Standart oyl" arasında sovet nefti üstündə gedən bu müharibə, Deterdinqin iki cəbhəyə qarşı vuruşması, onun sovet neftini boykot etmək cəhdini xeyli zəiflətdi, sovet neftinin mövqeyinin dünya bazarlarında möhkəmlənməsi işinə kömək etdi.

SSRİ Xalq Xarici İşlər Komissarı Q.V.Çiçerin həmin dövrdəki çıxışlarının birində bundan bəhs edərək göstərirdi ki, farslarda belə bir rəvayət var: "bir İran xanı ölən zaman öz vəliəhdini – oğlunu yanına çağırıb ona ləl-cəvahirdən düzəldilmiş bir toxmaq bağışlayır və deyir: "Oğul, nə vaxt düşmən sənin üstünə yeriyərsə, sən bu toxmağı uzaqdan həmin düşmənə göstər. Onlar bunu görən kimi dərhal səndən əl çəkib, özləri bir-birinin üzərinə düşüb didişəcəklər. Sən və Vətən isə xilas olacaqsınız".

İndi biz də belə bir möcüzəli ləl-cəvahirli toxmağa malikik. Biz onu düşmənlərimizə göstərən kimi, onlar bir-birlərini didişdirməyə başlayırlar. Bizim belə möcüzəli ləl-cəvahirli toxmağımız neftimizdir"[1].

Deterdinq "Standart oyl" tresti ilə başladığı müharibədə dünya bazarlarında neft məhsulları qiymətlərini aşağı salmaq taktikasından da istifadə etməyə başladı. O, 1927-ci ilin sentyabr ayının 23-də Hindistan bazarında neft məhsulları içərisində daha rəvan satılan ağ neftin qiymətini 30 faiz aşağı saldı[2].

"Royal datç-şell" tresti qiymətləri aşağı salarkən, ilk növbədə, bu məqsəd üçün Hindistan bazarını seçməsi təsadüfi deyildi. "Standart oyl" trestinin əsas neft mənbələri "Royal datç-şell"ə nisbətən bu bazardan daha uzaq olduğu üçün, "Standart oyl"un buraya gətirdiyi neft ona baha başa gəlirdi. Bu, bir də ondan irəli gəlirdi ki, "Standart oyl" Hindistan bazarına əsasən Sovet İttifaqından aldığı neft məhsullarını gətirirdi. Deməli, Deterdinqin

[1] "Мировое хозяйство и мировая политика", № 4, 1928, s. 6
[2] "Бакинский рабочий", № 18, 22 yanvar 1928-ci il
[3] Yenə orada, № 176, 31 iyul 1927-ci il

[1] "Нефтяное хозяйство", № 10, 1927, с. 529
[2] А.А.Манукян и К.Н.Козарез. "Капиталистический рынок нефти", с. 110

qiymət taktikası bu bazarda müvəffəqiyyət qazanardısa, o, həm "Standart oyl"un Hindistan bazarını tərk etməsinə, həm də onun bu bazar üçün nəzərdə tutduğu sovet neft məhsullarından imtina etməsinə də nail olmuş olardı.

Bəhs edən dövrdə Sovet dövlətilə iqtisadi və siyasi əlaqəni kəsmiş İngiltərə hökumətilə "Royal datç-şell" trestinin yaxınlaşması, burada da özünü açıq surətdə göstərdi. İngiltərə hökuməti Hindistan bazarında öz trestinin müdafiəsinə qalxdı. O, Hindistanın yerli hakimiyyət orqanlarından tələb etdi ki, onlar qiymət müharibəsini tədqiq edib, günahkar tərəfi aydınlaşdırsınlar və buraya gətirilən neft məhsulları üzərində gömrük rüsumunu artırsınlar[1].

Hindistan hökuməti İngiltərənin göstərişilə gömrük idarəsinin sədri Civalanın başçılığı ilə komissiya yaratdı. komissiya ölkənin sənayesinə bilavasitə mənfi təsir edən Hindistan bazarında neftlə bağlı yaranmış vəziyyəti öyrənməli və "lazımi tədbirlər" görməli idi[2].

İngiltərə hökumətinin Hindistan neft bazarında yaranmış vəziyyətə açıq-aşkar və fəal müdaxilə etməsi, "Royal datç-şell"in marağını müdafiə etməklə yanaşı, bir də ondan irəli gəlirdi ki, bura İngiltərə imperializminin möhkəmləndiyi və heç kimi şərik etmədiyi bazarlardan biri idi. İngiltərə buranın neft bazarında hakim mövqe tutmaqla, həm də ölkənin bütün iqtisadiyyatını əlində saxlayır və oradan küllü miqdarda qazanc götürüdü. Məhz ona görə də "Standart oyl" trestinin simasında Amerika kapitalının

[1] RF XTMDA, f. 2309, siyahı 11, iş 216, vər. 113
[2] "Мировое хозяйство и мировая политика", № 12, 1928, с. 55



buraya daxil olması İngiltərə imperializmini ciddi təşvişə salmışdı.

İngiltərə hökumətinin Hindistanda "Royal datç-şell" şirkəti ilə birlikdə "Standart oyl"a qarşı çıxması özünü o qədər çılpaq və qabarıq surətdə göstərirdi ki, bəzi dairələr, hətta bunun müharibə ilə nəticələnə bilməsindən ehtiyat edirdilər.

ABŞ iri burjuaziyası hakim dairələrinin baxışlarını ifadə edən "Uorld"s Uork" jurnalı yazırdı: "Anqlo-saks xalqları arasında sülh və qarşılıqlı anlaşma çox gerçək bir qorxu altındadır. ...Amerikanın işgüzar adamlarına nazirlik tərəfindən yardım göstərilməsinə olan ehtiyac artdıqca, bu yardım labüd surətdə qüvvətlənəcəkdir. Britaniya hökuməti özünü Britaniya neft sənayesi ilə eyniləşdirəcək olursa, gec-tez Amerika hökuməti də özünü Amerika neft sənayesi ilə eyniləşdirəcəkdir. Mübarizənin hökumətlər arasına keçməsi müharibə təhlükəsini son dərəcə artırmaya bilməz"[1].

"Standart oyl" ilə "Royal datç-şell" arasında gedən mübarizəyə Hindistan müstəmləkə hökuməti simasında İngiltərənin açıq müdaxilə etməsi, Amerika Birləşmiş Ştatları hökumətini hərəkətə gətirdi.

ABŞ dövlət katibi Kelloq bildirdi ki, onun hökuməti bu iki trest arasında gedən mübarizəyə qarışmaq fikrində deyildir. Amerikan hökuməti bu işə ancaq o zaman qarışacaqdır ki, digər ölkələrin hökuməti "Standart oyl"a qarşı hər hansı tədbir görmüş olsun"[2].

[1] "Uorld" s-Uork", oktyabr 1947, s. 74
[2] "Мировое хозяйство и мировая политика", № 12, 1928, с. 571

ABŞ hökuməti təkcə işarə etməklə kifayətlənmir, həm də İngiltərə hökumətini bu iki trest arasındakı mübarizəyə qarışmamağa dəvət edirdi. ABŞ Dövlət Departamenti İngiltərə hökumətini bu trestlər arasındakı mübarizəyə qarışmaqda və "Royal datç-şell" trestini müdafiə etməkdə açıq-aşkar ittiham edirdi.

ABŞ Dövlət Departamentinin bu məsələ ilə əlaqədar olan sənədlərinin birində deyilirdi: "Dövlət Departamenti Deterdinqin rus neftinin oğurluq olması haqqındakı təbliğatını inandırıcı hesab etmir. Böyük Britaniya sovet neftinin ilk və böyük idxalçısı olmuşdur. Lakin o vaxt heç kim bu neftin oğurluq olması haqqında çığır-bağır salmırdı"[1].

ABŞ hökumətinin öz trestinin müdafiəsinə qalxması, həm də dolayı yolla olsa da sovet neftini, sovet neft siyasətini müdafiə etməsi demək idi.

Lakin ABŞ hökumətinin bu bəyanatı və İngiltərə hökumətinin, nə də "Royal datç-şell" trestinin mövqeyini dəyişdirə bildi. Deterdinq açıq-açığına göstərirdi ki, "Standart oyl" sovet neftini almaqdan imtina edənə qədər və Sovet hökuməti köhnə neft sahiblərinin borcunu verməyə razı olana qədər o, "Standart oyl"a qarşı mübarizəni dayandırmayacaqdır. "Standart oyl" hazırda Çində Amerika nefti satır. Əgər o, Çində də sovet nefti satmağa başlarsa, "Royal datç-şell" orada da ona qarşı mübarizə aparacaqdır. Ümumiyyətlə, biz "Standart oyl"un sovet nefti satdığı bütün bazarlarda ona qarşı mübarizəni dönmədən davam etdirəcəyik"[2].

[1] RF MDA, f. 413, siyahı 1, iş 216, vər. 109
[2] "Nyu-York Tayms", 18 yanvar 1928-ci il



Beləliklə, "Standart oyl" ilə "Royal datç-şell" tresti arasına sovet nefti üstündə gedən inadlı mübarizə 1927-ci ilin sentyabrından 1928-ci ilin may ayına qədər bütün kəskinliyilə davam etdi[1]. Bu, getdikcə digər bazarlara da yayıldı. Lakin bu mübarizədə dünya trestlərinin heç biri əsaslı üstünlük qazana bilmədi. Əksinə, onların hər ikisi bu müharibədə küllü miqdarda maddi itki verdilər. Bəhs edilən müddətdə təkcə Hindistan bazarında qiymətlərin aşağı salınması nəticəsində "Standart oyl" tresti 4 milyon dollar, "Royal datç-şell" isə 12 milyon dollar ziyan çəkmişdi[2].

Buna görə də 1928-ci ilin əvvəllərindən başlayaraq "Standart oyl" və "Royal datç-şell" trestinin rəhbərləri mübarizəni davam etdirməkdən çox, bir-birlərinə yaxınlaşmağa, ixtilaflı məsələləri danışıqlar yolu ilə nizama salmağa meyl göstərməyə başladılar.

"Standart oyl" 1928-ci ilin yanvar ayının 16-da bildirdi ki, onun sovet neftini alması heç də siyasi məqsəddən deyil, sırf ticarət məqsədindən, bu və ya digər bazarda öz mövqeyini əldən verməmək məqsədindən irəli gəlir[3].

"Standart oyl" trestinin bu bəyanatı Deterdinqi daha da oyatdı. O, sovet neftini boykot etmək təşəbbüsünə "Standart oyl" tresti qoşulmadan bu taktikanın heç bir müsbət nəticə verməyəcəyini bilib "zərərin yarısından qayıtmaq" fikrinə düşdü.

"Royal datç-şell" tresti "Standart oyl" trestinə mü-

[1] "Мировое хозяйство и мировая политика", № 12, 1928, с. 87
[2] Yenə orada, № 5, 1928, s. 87
[3] "Нефтяное хозяйство", № 9, 1928, с. 408

raciət edərək bildirdi ki, "Standart oyl" "Sovet neft sindikatı" ilə etdiyi alver nəticəsində əldə etdiyi gəlirin müəyyən faizini "Royal datç-şell"ə və köhnə neft sahiblərinə verməyə razı olarsa, o, "Standart oyl" ilə neft mənbələri və bazarlar üstə olan mübahisəli məsələlərin tənzim edilməsinə çalışar[1].

Görünür, "Royal datç-şell"in bu təklifi "Standart oyl" trestində yaxşı rəy doğurdu. "Royal datç-şell"in nümayəndəsi Deyenxem 1928-ci ilin yazında "Standart oyl" ilə danışıqlar aparmaq üçün ABŞ-a getdi[2].

"Standart oyl" trestinin rəhbərliyində "Royal datç-şell" ilə danışıqlar məsələsi üzrə fikir ayrılığı mövcud idi. Onların bəziləri mübarizəni davam etdirməyi lazım bildikləri halda, bir çoxları onun dayandırılması və "Royal datç-şell" ilə ümumi dil tapması tərəfdarı idilər. O yerdə ki, "Standart oyl"a "Royal datç-şell" ilə rəqabət aparmaqda sovet nefti yardım edirdi, bu bazarlarda fəaliyyət göstərən qruplar danışıqlara başlamağa razı deyildi. "Standart oyl"un sovet nefti ilə deyil, öz nefti ilə ticarət edən qrupları isə mübarizənin dayandırılmasına çalışırdılar. Çünki onlar sovet neft məhsulları satmadıqları və bundan heç bir gəlir götürmədikləri halda, bu mübarizə nəticəsində xeyli zərər çəkirdilər.

"Standart oyl" trestinin daxilində baş vermiş bu ixtilaflar, onun rəhbərliyində ciddi dəyişikliklərə səbəb oldu. 1928-ci ilin ortalarında trestin müşahidə şurasının sədri Henri Folker istefaya çıxdı. Onun yerini Herbert

[1] "Бакинский рабочий", № 107, 5 may 1928-ci il
[2] "Нефтяновое хозяйство", № 9, 1928, с. 408



Pratt tutdu. Çarlz Meyer isə trestin prezidenti vəzifəsinə keçdi[1].

"Standart oyl" trestinin rəhbərliyində edilən bu dəyişiklik çox ehtimal ki, bilavasitə "Royal datç-şell" ilə aparılan danışıqlarla əlaqədar idi. Heç təsadüfi deyil ki, Henri Folkerin istefaya çıxmasından sonra çox keçməmiş, hər iki trest arasında gedən danışıqlar razılığa gəlməklə nəticələndi. "Standart oyl" sovet neftindən əldə etdiyi gəlirin müəyyən hissəsinin "Royal datç-şell"ə və köhnə neft sahiblərinə verilməsini öz üzərinə götürdü. "Royal datç-şell" isə Hindistan bazarına "Standart oyl" trestini şərik etməyə və onun digər tələblərini yerinə yetirməyə razılıq verdi.

"Standart oyl" bu danışıqlarla nəinki heç nə itirmədi, əksinə daha da qazandı. Onsuz da o, "Royal datç-şell" və digər neft kompaniyaları ilə dünya bazarında, xüsusilə də Hindistanda apardığı rəqabətdə (qiymətləri qəsdən aşağı salmaq nəticəsində – Ə.Ə.) sovet neftindən gələn gəlirin "Royal datç-şell"ə və köhnə neft sahiblərinə verdiyi hissəsindən daha çox itirirdi.

"Standart oyl" bu sahədə nəticə etibarı ilə heç bir şey itirmədiyi halda, danışıqlar nəticəsində başqa sahədə daha çox qazandı. "Royal datç-şell" Hindistan bazarını "Standart oyl" və "İngilis-İran neft kompaniyası" arasında bölməyə məcbur oldu[2].

"Royal datç-şell" ilə "Standart oyl" arasında bəzi

[1] "Мировое хозяйство и мировая политика", № 12, s. 58
[2] А.А.Манукян и К.Н.Козарез. "Капиталистический рынок нефти", с. 110

məsələlər üzrə razılıq əldə edilməsinə baxmayaraq, Deterdinq bu şirkətə qarşı qaldırdığı silahı dərhal yerə qoymadı. O, "Standart oyl" və sovet neftinə qarşı mübarizədə birgə hərəkət etmək üçün digər ingilis neft tresti olan "İngilis-İran neft kompaniyası" ilə yaxınlaşdı. 1928-ci ilin ortalarında hər iki neft tresti beynəlxalq bazarda birgə hərəkət etmək haqqında ittifaqa girdi.

Lakin "Standart oyl" trestinin başçıları da yatmamışdılar. Onlar Deterdinqin bu yeni tədbirinə əks-tədbirlə cavab verdilər.

1928-ci ilin ortalarında "Standart oyl" trestinin təşəbbüsü ilə Nyu-York şəhərində Amerikanın ən böyük neft cəmiyyətlərinin konfransı oldu. Konfrans "Vahid Amerika neft ixracı cəmiyyəti"nin yaradılmasını irəli sürdü. Cəmiyyətə daxil olan neft trestləri öz aralarındakı rəqabətə son qoyub, dünya bazarında vahid cəbhədə çıxış etməli idilər.

ABŞ-ın neft cəmiyyətlərinin "Standart Oyl"un təşəbbüsü ilə vahid cəbhədə birləşməsilə Deterdinqə qəti aydın oldu ki, o, "Standart oyl" ilə açıq mübarizə aparmaqla heç bir müsbət nəticə əldə edə bilməyəcəkdir. Ona görə də Deterdinq Sovet neft sindikatını təkləmək və bu işdə "Standart Oyl"u öz tərəfinə çəkmək üçün daha yeni bir cəhd göstərdi. Bu beynəlxalq neft kartelinin yaranmasından ibarət idi.

Beynəlxalq neft kartelinin yaradılması ideyası təkcə sovet neftini təkləmək məqsədindən deyil, həm də dünya neft sənayesində yaranmış vəziyyətdən irəli gəlirdi. 1928-ci ildə dünya üzrə neft lazım olan miqdardan artıq istehsal edildiyi üçün, bu dünya bazarlarına mexaniki surətdə mənfi təsir etməyə başlamışdı. Əgər bazarlar və qiymətlər məsələsi ilə yanaşı olaraq, dünya neft hasilatı məsələsi də vaxtında tənzim edilməzdisə, o, dünya neft trestlərini tezliklə ağır vəziyyətə sala bilərdi.



Yaxınlaşmaqda olan böhran təhlükəsini digər neft trestləri də hiss edirdilər. Buna görə də onlar Deterdinqin "beynəlxalq neft karteli" ideyasını müsbət qarşıladılar.

1928-ci ilin avqust ayında Şotlandiyada "Royal datç-şell", "Standart oyl" və "İngilis-İran neft" tresti nümayəndələrinin konfransı işə başladı[1]. Konfransda "Standart oyl"u Tigel, "Royal datç-şell"i Deterdinq, "İngilis-İran neft kompaniyası"nı isə Kadman təmsil edirdi.

Konfrans dünya neft hasilatının tənzim edilməsi, bazarların bölüşdürülməsi, sovet neftinə münasibət və s. məsələləri müzakirə etdi[2]. Konfrans 1928-ci ilin 17 sentyabrında "Standart oyl", "Royal datç-şell" və "İngilis-İran neft kompaniyası" arasında Deterdinqin Aknakari qəsrində "Aknakari sazişi" bağlanması ilə nəticələndi[3].

"Aknakari sazişi"nə ("Aknakari sazişi" sonradan daha bir neçə sənədlərlə: 1930-cu ilin yanvar ayının 20-də "Avropa bazarlarına dair "memorandum, 1932-ci ilin 15 dekabrında "Bölgü haqqında sazişin əsaslarına dair" əlavə sazişlə daha da təkmilləşdirildi – Ə.Ə.) əsasən, "Beynəlxalq neft kartelinin" yaranması bir çox ölkələrin burjua iqtisadçıları tərəfindən böyük rəğbətlə qarşılandı. Onlar bunu dünya neft trestlərinin arasında "dinclik yaratma-

---

[1] "Нефтяное хозяйство", № 4, 1929, s. 594
[2] "Мировое хозяйство и мировая политика", № 1, 1929, c. 91
[3] А.А.Манукян и К.Н.Козарез. "Капиталистический рынок нефти", c. 111

ğın" və dünya üzrə neft məsələsini tənzim etməyin ən başlıca vasitəsi kimi qiymətləndirirdilər.

Əslində isə 3 neft trestinin təşkil etdiyi "Beynəlxalq neft karteli" dünya üzrə neft məsələsini onun yaradıcılarının nəzərdə tutduğu kimi qəti tənzim edə, neft trestləri arasında "əbədi dinclik" yarada bilməzdi.

Bu, hər şeydən qabaq onunla izah edilir ki, "Beynəlxalq neft karteli" heç də bütün dünya dövlətlərinin deyil, yalnız ABŞ və İngiltərə dövlətlərinin və onların neft cəmiyyətlərinin mənafeyini nəzərdə tuturdu.

Məlum olduğu kimi, neft təkcə əmtəə olmayıb, həm də zəruri hərbi material idi. Ona görə də, hər bir dövlət özünü neftlə ehtimal edilən düşmən dövlətdən daha çox təmin etməyə cəhd göstərəcək idi. Məhz buna görə də yeni neft yataqlarından istifadə etməyi dayandırmaq haqqında 3 neft trestinin irəli sürdüyü təklif İraq neftinin müəyyən hissəsində payı olan Fransa tərəfindən, kömürdən benzin almaq yolu ilə öz neft müstəqilliyini təmin etməyə cəhd edən Almaniya tərəfindən, Saxalində konsessiya vasitəsilə neft götürən Yaponiya tərəfindən, dövlət inhisarı yolu ilə neft işini qaydaya salmaq istəyən İtaliya tərəfindən və s. qəbul edilə bilməzdi. Həmin dövlətlərin imperialist mənafeləri ilə iri neft trestlərinin qazanc məqsədindən irəli gələn mənafeləri bir-birləri ilə ziddiyyət təşkil edirdi.

Bundan başqa, "kartel" iştirakçılarının məqsədlərinin həyata keçirilməsinə onların sovet neftindən yan keçməsi də ciddi mane olurdu. Təkzib edilməz bu faktı hətta həmin dövrdə kapitalist ölkələrinin mətbuatı da etiraf edirdi. Amerika jurnallarından biri həmin vaxtlar bu münasibətlə yazırdı: "...Əgər son zamanlara qədər dünya



bazarında 3 əsas trestin – "Standart oyl", "Royal datç-şell" və "İngilis-İran neft kompaniysı"nın hökmran olduğu güman edilirdisə, hazırda həmin dövr arxada qalmışdır. İndi dünya trestləri heç də bütün bazarların onların əlində olması ilə öyünə bilməzdilər"[1]. "...Sovet neft siyasətinin müstəqilliyi, onun dünya bazarında müstəqil fəaliyyəti digər qruplar arasında dünya bazarında birgə çıxış etmək haqqında hər hansı razılığı heçə endirir"[2].

"Royal datç-şell" ilə "Standart oyl"un yaxınlaşması bu iki trest arasındakı bir çox mübahisəli məsələlərin müəyyən müddət üçün dinc yol ilə nizama salınmasına səbəb olsa da, o, əsil gözlənilən nəticəni vermədi. Deterdinqin bu yaxınlaşmada əsas məqsədi "Standart oyl"u sovet neftinə qarşı çevirmək, dünya bazarında onu təkləmək yolu ilə öz məqsədinə nail olmaqdan ibarət idi.

Deterdinqin bu planı "Standart oyl" trestinin başçıları üçün də gizli deyildi. Onlar yaxşı başa düşürdülər ki, bu gün "Standart oyl" vasitəsilə sovet neftini sıxışdırmağa can atan Deterdinq öz məqsədinə nail olarsa, sabah sovet neftinin yardımı ilə onun özünü dünya bazarından çıxarmağa çalışacaqdır.

Bütün bunlara görə Deterdinqin "Standart oyl"u sovet neftindən uzaqlaşdırmaq cəhdi də baş tutmadı. "Standart oyl" trestinin başçıları sovet neftinə qarşı birgə hərəkət etmək haqqında Deterdinqin səsinə nəinki səs vermədilər, əksinə, 1928-ci ilin noyabr ayında Yaxın Şərq bazarlarına sovet nefti gətirmək haqqındakı müqavilənin

---

[1] "Мировое хозяйство и мировая политика", № 5, 1929, с. 85
[2] Yenə orada

vaxtını daha bir neçə ay uzatmağı lazım bildilər[1].

"Royal datç-şell" trestinin sovet neftinə qarşı apardığı mübarizənin müvəffəqiyyətsizliyi təkcə bundan ibarət deyildi. Onun 1926-1929-cu ildə sovet neftini ələ keçirmək üçün göstərdiyi bütün çoxcəhətli fəaliyyət də heç bir gözlənilən nəticəni verməmişdi.

Deterdinqin böyük ümid bəslədiyi imperialist dövlətlərin Sovet İttifaqı üzərinə hərbi müdaxilə planı həyata keçirilməmiş qaldı. Sovet dövləti yeritdiyi ardıcıl sülh siyasəti nəticəsində 1926-1929-cu illərdə öz beynəlxalq vəziyyətini daha da möhkəmləndirdi. İmperialistlər beynəlxalq aləmdə sovet dövlətilə tədricən daha çox hesablaşmağa başladılar.

Sovet hökuməti həmin illərdə bir sıra mübahisəli məsələləri də dinc yol ilə nizama salmağa nail oldu. 1927-ci ilin aprel ayında İsveçrə ilə, 1929-cu ilin sonunda Çin ilə olan ixtilaflar aradan qaldırıldı. SSRİ əleyhinə yeni müdaxilənin təşkilində müvəffəqiyyətsizliyə düçar olan və SSRİ ilə normal ticarət şəraitinin pozulmasından zərər çəkən İngiltərə 1929-cu ildə Sovet İttifaqı ilə diplomatik münasibətləri bərpa etməyə məcbur oldu[2].

Sovet maliyyə sistemini pozmaq, ölkə daxilindəki əks-inqilabi ünsürlərə maliyyə yardımı etmək və beləliklə də, gələcək müdaxilə işini asanlaşdırmaq məqsədilə bilavasitə Deterdinqin təşəbbüsü ilə təşkil edilmiş saxta sovet pullarının kəsilməsi işi də nəticəsiz qaldı.

1927-ci ilin noyabr ayının ortalarında Almaniya

[1] "Бакинский рабочий", № 295, 5 dekabr 1928-ci il
[2] Sovet İttifaqı Kommunist Partiyasının tarixi, s. 405



hökuməti orqanları Frankfurt-Maynda saxta sovet pulları kəsən mətbəəni aşkar etdi[1]. Saxta pul ilə sovet ərazisinə keçmiş düşmən ünsürlər isə sovet dövlət təhlükəsizlik orqanları tərəfindən ifşa edildilər. Keçmiş ağqvardiyaçı zabitlərdən Şiller, Qayyer, Kartaşev və Fedotov 1930-cu ilin yanvarında Leninqradda saxta sovet çervonu dəyişdirərkən həbs edildilər[2]. Məhkəmə zamanı Şiller və onun əlaltıları etiraf etdilər ki, "onlar gürcü ağqvardiyaçıları və neft sənayeçisi Deterinqlə yaxından əlaqədə idilər"[3]. Deterdinqin sovet ərazisinə soxulmuş əlaltıları məhkəmə tərəfindən güllələnmə cəzasına məhkum edildilər[4].

Deterdinqin siyasi sahədə olduğu kimi, iqtisadi sahədə göstərdiyi fəaliyyət də müvəffəqiyyətsizliyə uğradı. Onun təşəbbüsü ilə başlanan boykot kampaniyası nəticəsində sovet nefti nəinki dünya bazarlarından məhrum edilmədi, əksinə, onun mövqeyi əvvəlki illərə nisbətən burada daha da möhkəmləndi.

Deterdinqin sovet nefti əleyhinə başladığı kompaniyanın göstərdiyi təsiri müəyyən etmək məqsədilə sovet "Neft sindikatı" idarəsi 1927-ci ilin yayında Berlin şəhərində özünün xarici ölkələrdə olan idarə başçılarının müşavirəsini keçirdi. Burada "Sovet neft sindikatı"nın İtaliya, Fransa, Almaniya, Çexoslovakiya və s. ölkələrdə olan nümayəndələri iştirak edirdilər[5].

Müşavirə iştirakçıları bildirirdilər ki, son zamanlarda yaranmış beynəlxalq vəziyyət və sovet neftinin qəd-

[1] "Бакинский рабочий", № 273, 23 noyabr 1927-ci il
[2] "Вышка", №20, 20 yanvar 1930-cu il
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada

dar düşməni olan Deterdinqin quduz fəaliyyəti xarici bazarlarda sovet neftinin mövqeyinə əsla mənfi təsir edə bilməmişdir[1].

Berlin müşavirəsi sovet neft ixracı planında heç bir dəyişiklik etməməyi qərara aldı[2]. Bu qərar həmin ilin avqust ayında Moskvada ölkənin neft trestləri rəisləri ilə "Neft sindikatı" rəhbərlərinin birgə çağırılmış müşavirəsində də bir daha təsdiq edildi[3].

Hər iki müşavirənin qəbul etdiyi qərar Sovet dövlətinin yeritdiyi müstəqil neft siyasətinin güc üstünlüyünə arxalanırdı. Sovet neft siyasəti, ABŞ və İngiltərənin yeritdiyi siyasətdən fərqli olaraq sovet neftinin istehlakçıları olan dövlətlərin həm iqtisadi və həm də siyasi mənafelərinə tam uyğun gəlirdi.

Sovet neftinin Avropa istehlakçıları çox yaxşı bilirdilər ki, Deterdinqin bu "oğurluq neftə" qarşı "müqəddəs, mənəvi və vətənpərvər hücumu" arxasında onun sırf iqtisadi məqsədi durur. Onlar üçün sirr deyildi ki, çox yüksək keyfiyyətli və ucuz sovet neftindən imtina etmək, Deterdinqin və ya digər trestin həddən artıq baha qiymətli neftinə möhtac olmaq deməkdir.

Dünya bazarında sovet neftinin mövqeyinin möhkəmlənməsinə yardım edən amillərdən biri də bu idi ki, sovet nefti ixrac edilən ölkələrdəki digər trestlərin nümayəndələri də istər-istəməz öz neft məhsullarını ucuz qiymətə satmağa məcbur olurdular. Bundan isə həmin ölkə-

---

[1] "Бакинский рабочий", № 183, 8 avqust 1927-ci il
[2] Yenə orada
[3] Yenə orada



nin iqtisadiyyatı xeyli qazanırdı[1].

Fransa jurnalı "Kurye-de-Petrol" özünün 1928-ci nömrələrinin birində sovet neftinin dünya bazarında rol və əhəmiyyətindən bəhs edərək yazırdı: "Cəsarətlə demək olar ki, Avropa bazarlarındakı sovet nefti, neft istehlakçıları olan ölkələrin dünya neft trestləri tərəfindən edilən həyasız istismarına qarşı ən yaxşı təminatdır.

...Dünya neft trestlərinin sovet neftini sıxışdırıb dünya bazarından çıxartmaq cəhdi özünün nefti olmayan ölkələrin milli mənafeləri üçün ən böyük təhlükədir"[2].

Fransa parlamentinin deputatı Şarle Varon parlamentin 1928-ci il 7 mart tarixli iclasında demişdi: "Ola bilsin ki, İngiltərə və Amerikanın iqtisadi məngənəsindən bizi məhz sovet nefti xilas edəcəkdir"[3].

Sovet neftinin əcnəbi ölkələrinin iqtisadi və siyasi həyatında mütərəqqi rolu, onun dünya bazarına müsbət təsiri Deterdinqə sovet neftini boykot etməyə nəinki imkan verdi, əksinə, o, özünə daha yeni-yeni tərəfdarlar tapdı. Sovet nefti ixracı ildən-ilə artmağa başladı. Bunun aşağıdakı faktlardan daha aydın görmək olar:

Sovet dövləti 1925-ci ildə 1502 min ton neft məhsulları ixrac etdiyi halda, bu göstərici 1926-cı ildə 1685 min tona, 1927-ci ildə 2180 min tona, 1928-ci ildə 3008 min tona, 1929-cu ildə isə 3816 min tona yüksəlmişdi[4]. Əgər 1913-cü ildə Rusiyanın ixrac etdiyi neft məhsulları miqdarı 100 faiz hesabı ilə götürülərsə, Sovet dövlətinin

---

[1] "Бакинский рабочий", № 183, 8 avqust 1927-ci il
[2] Yenə orada, № 221, 22 sentyabr 1927-ci il
[3] Yenə orada, № 229, 4 dekabr 1928-ci il
[4] "Мировая нефтяная торговля", с. 258

1925-1926-cı təsərrüfat ilində ixrac etdiyi məhsul həmin səviyyədən 158 faiz, 1926-27-ci ildə 215,2 faiz, 1927-28-ci ildə isə 288,3 faiz çox idi. 1929-cu ildə SSRİ-də hasil edilən 14162 ton neftin 3816 min tonu dünya bazarına ixrac edilmişdi[1]. Avropa artıq 1927-28-ci təsərrüfat ilində neft məhsullarına olan ehtiyacının 12 faizə qədərini Sovet İttifaqının hesabına ödəyirdi[2].

Bəhs edilən dövrdə sovet nefti təkcə Avropaya deyil, Yaxın və Orta Şərq bazarlarına da geniş yol tapmışdı. Sovet neft məhsulları ixracı ilə ciddi maraqlanan və onu diqqətlə izləyən Amerika iqtisadçısı və jurnalisti Lui Fişer hələ 1926-cı ildə sovet neftinin Şərqdə qazandığı hörmətə qibtə edərək yazırdı: "İndi heç kim belə bir faktoru inkar edə bilməz ki, rus nefti Aralıq dənizi boyunca olan yerlərdə məğlubedilməz mövqelər qazanmışdır"[3].

Sovet neftinin Avropa bazarlarında mövqeyi də möhkəmlənməkdə davam edirdi. Hələ 1927-28-ci təsərrüfat ilində İngiltərənin istehlak etdiyi ümumi neft məhsullarının 14,2 faizini, İtaliyanın istehlakının 38 faizini, Fransanın 13 faizini, Almaniyanın 12,6 faizini, yerdə qalan digər ölkələrin istehlaklarının isə birlikdə götürülmüş halda 29,7 faizini sovet nefti təşkil edirdi[4].

1925-1929-cu illərdə ayrı-ayrı ölkələrə sovet neft ixracının artımı ilə yanaşı bir də onu müşahidə etmək olur

---

[1] "Мировая нефтяная торговля", c.251
[2] RF XTMDA, f. 1, siyahı 11066, iş 47, vər. 25
[3] В.Бронштейн и В.Рохзенбльм. "Нефтяная эпопея", М., 1935, c. 265
[4] С.М.Лисичкин. "Очерки развития нефтедобывабшей промышленности СССР", М., 1958, c. 214



ki, Deterdinqin sovet neftinə açıq müharibə etdiyi illərdə İngiltərəyə sovet neft məhsulları ixracı nəinki azalmamış, əksinə, xeyli artmışdı.

Maraqlı burasıdır ki, Deterdinqin hiyləsi İspaniyada da özünün əks nəticəsini göstərmişdi. İspaniya hökumətinin, ölkədə neft ticarətini dövlət inhisarına almasını elan etməsindən istifadə edən Deterdinq sovet neftini buradan qovub çıxarmaq və ispan bazarının yeganə sahibi olmaq məqsədilə İspaniya hökumətinə bu bazarı müştərək təchiz etmək təklifini etdi.

Deterdinqin təklifinin gələcək nəticəsini yaxşı anlayan ispan hökuməti onu rədd edərək, 1927-ci ilin noyabr ayının 24-də Madriddə "Sovet neft sindikatı" ilə müqavilə bağladı[1]. Həmin müqaviləyə görə "Sovet neft sindikatı" İspaniya neft inhisarı təşkilatına 1928-ci ildə 520 min ton neft məhsulu satmağı öz üzərinə götürdü[2].

İspaniya ticarət təşkilatının hərəkətindən qəzəblənmiş Deterdinq ispan bazarını "boykot" etdi[3]. Deterdinqin bu "alicənab" hərəkəti İspaniya bazarında sovet nefti üçün daha geniş meydan açdı.

Bundan çox keçməmiş İspaniyada neft gətirilməsi və satışı ilə məşğul olan "Kappasa" adlı milli firma ilə "Neft sindikatı" arasında əlavə müqavilə imzalandı[4]. Bu müqaviləyə əsasən, ispan firması 1931-ci ilin yanvarına qədər hər il Sovet İttifaqından böyük miqdarda benzin, ağ neft, sürtgü yağı, mazut, qazolin və s. məhsullar ala-

---

[1] "Бакинский рабочий", № 314, 25 dekabr 1927-ci il
[2] Yenə orada
[3] Yenə orada
[4] RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 103

cağını öhdəsinə götürdü[1].

İspaniyada sovet neftinin mövqeyinin möhkəmlənməsini sübut temək üçün təkcə bu faktı gətirmək kifayətdir ki, artıq 1927-28-ci ildə ölkənin istehlak etdiyi neft məhsullarının 56 faizi sovet neftinin payına düşürdü[2]. Bu faiz ayrı-ayrı neft məhsulları üzrə daha yüksək idi. Məsələn, İspaniyanın işlətdiyi benzinin 58 faizini, ağ neftin 70 faizini, qazolinin 83 faizini, mazutun 64 faizini və s. Sovet İttifaqı verirdi[3].

1926-1929-cu illərdə dünya bazarına çıxarılan sovet neft məhsullarının strukturunda da ciddi dəyişiklik yaranmışdı. Yeni neft emalı zavodlarının tikilib istifadəyə verilməsi, krekinq və digər üsullarla benzin alınmasının geniş tətbiqi Sovet dövlətinə imkan verirdi ki, o, dünya bazarını özünün malik olduğu xammalı deyil, bazarın tələb etdiyi məhsulları çıxarsın. Əgər 1913-cü ildə ixrac edilmiş neft məhsulları miqdarından təkcə ağ neft və sürtkü yağının payına 77 faiz, qalan məhsulların payına isə 23 faiz düşürdüsə, 1928-29-cu ildə ağ neft və yağın xüsusi çəkisi 29 faizə enmiş, benzin və xam neftin xüsusi çəkisi isə 71 faizə qalxmışdı[4]. Müqayisə edilən illərdə isə ixrac sahəsində mühüm rol oynayan benzinin xüsusi çəkisi 16 faizdən 29 faizə çatmışdı[5].

Bəhs edilən dövrdə sovet neftinin ixracı sahəsində

---

1 RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 103
2 Yenə orada, vər. 104
3 RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 104
4 В.И.Легат и П.М.Шох "Нефтяной экспорт и его значение в советском хозяйстве", с. 26
5 Ежегодник "ВСНХ-1939", с. 26



əldə edilən ciddi müvəffəqiyyətlərdən biri də bu idi ki, əvvəlki illərdən fərqli olaraq sovet nefti indi heç də istehlakçılara üçüncü əl ilə deyil, onun xeyli hissəsi bilavasitə sovet təşkilatları vasitəsilə satılırdı. 1928-ci ildə ixrac edilmiş neft məhsullarının 19,2 faizi dünya neft trestləri vasitəsilə, 32 faizi müstəqil firmalar vasitəsilə, 29,3 faizi xarici ölkələrin dövlət təşkilatları vasitəsilə, 19,5 faiz isə "Sovet neft sindikatının" xarici ölkələrdəki nümayəndələri vasitəsilə satılmışdı[1]. Hələ 1926-cı ilin sonu və 1927-ci ilin əvvəllərində "Sovet neft sindikatı"nın Londonda, Berlində, Parisdə, Vyanada, Milanda, Afinada, Riqada, Reveldə, Helsinqforsda, Şanxayda, Xarbində və s. yerlərdə nümayəndəliyi fəaliyyət göstərirdi[2].

Bunlardan başqa həmin dövrdə "Sovet neft sindikatı" İtaliyada "Petrolea" cəmiyyəti[3], Almaniyada "Derunaft" cəmiyyəti[4], Latviyada "Larunaft" cəmiyyəti[5], Finlandiyada "Finnaft" cəmiyyəti[6], İranda "Persaxneft" cəmiyyəti[7], Fransada "Rus neft məhsulları cəmiyyəti", "Petronaft" cəmiyyəti[8], İngiltərədə "ROP" cəmiyyəti və s. bu kimi qarışıq neft məhsulları satışı təşkilatlarında da şərik sifətilə iştirak edirdi.

Sovet dövlətinin qüdrətinin getdikcə artması, sovet

---

1 В.Бронштейн и В.Розенблюм. "Нефтяная эпопея", с. 265
2 В.Бронштейн и В.Розенблюм. "Проблема нефти...", с. 161
3 RF XTNMA, f. "Союзнефть экспорт", siyahı 1, iş 369, vər. 86
4 Yenə orada, iş 362, vər. 20
5 Yenə orada, vər. 122
6 Yenə orada, vər. 152
7 Yenə orada, vər. 172
8 RF XTNMA, f. Союзнефть экспорт", f. 1, siyahı 11440, iş 339, vər. 20

neftinin dünya bazarında əldə etdiyi yeni-yeni müvəffəqiyyətlər göz qabağında idi.

Dünya neft trestlərinin təşkil etmiş olduqları kartel belə, dünya bazarına sovet neftinin güclü axınının qarşısını ala bilməmişdi. Kombaynın ("Standart oyl", "Royal datç-şell" və "İngilis-İran neft şirkəti" üçlükdə əlbir hərəkət etdikləri yerlərdə onlar "Kombayn" adlandırılırdı) xüsusi diqqət yetirdiyi və əsasən, onun nəzarəti altında olan İngiltərə bazarında sovet neft məhsullarının müvəffəqiyyəti bunu bir daha sübut edirdi. Sovet neft təşkilatları ilə razılığa gəlmədən dünya bazarlarının, xüsusilə bu işdə mühüm yer tutan İngiltərə bazarının tənzim edilməsinin qeyri-mümkünlüyü karteldə birləşmiş trestlərin rəhbərlərinə getdikcə daha çox aydın olurdu. Bütün bunları yaxşı bilən ser Henri Deterdinq öz əvvəlki mövqeyindən tədricən geri çəkilməyə başladı. O, 1928-ci ilin payızında "Kombayn" adından "Sovet neft sindikatı" ilə danışığa başladı.[1] Lakin danışıqlar çox çəkmədi. Deterdinq İngiltərədə satılacaq sovet neftindən gələn gəlirin 5 faizini köhnə neft sahiblərinə verilməsi haqqında irəli sürdüyü şərti "Sovet neft sindikatı" rədd etdiyi üçün danışıqlar dayandırıldı[2].

Lakin sovet neftinin dünya bazarında əsas qüvvəyə çevrildiyini görən dünya trestləri sovet neftinə qarşı uzun müddət etinasız mövqe tuta bilməzdilər. 1928-ci ilin sonlarında bilavasitə "Kombayn" öz təşəbbüsü ilə danışıqlara yenidən başladı[3]. Danışıqlarda sovet neft təşkilatını "ROP"

---

[1] "Kommunist", № 51, 3 mart 1929-cu il
[2] "Вышка", № 51, 3 mart 1929-cu il
[3] RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 61



təmsil edirdi.

Danışıqlar 1929-cu ilin mart ayının əvvəllərində müvəffəqiyyətlə nəticələndi[1]. "Kombayn"la "ROP" arasında əldə edilmiş razılığa əsasən, dünya trestləri "ROP"a İngiltərədə müstəqil olaraq ağ neft və benzin satmağa və burada sovet neftinə qarşı mübarizəni dayandırımağa razılıq verirdilər[2]. Müqavilə 5 ilin müddətinə bağlanmışdı. Həmin müqaviləyə görə "ROP"burada 1928-29-cu ildə 480 min ton, 1929-30-cu ildə 630 min ton, 1930-31-ci ildə 645 min ton, 1931-32-ci ildə 540 min ton, 1932-33-cü ildə isə 425 min ton neft məhsulu satmaq hüququna malik idi. "ROP" bu neft məhsullarının müəyyən hissəsini özü müstəqil, müəyyən hissəsini isə "Kombayn" və digər müstəqil ingilis firmaları vasitəsilə satmalı idi. Həmin təşkilatlara satılacaq neft məhsullarının miqdarı müqavilədə ayrıca müəyyən edilmişdi.

İngiltərə ilə bağlanan bu müaqavilə həmin dövrdə sovet neftinin qazandığı ən böyük iqtisadi və siyasi müvəffəqiyyətlərdən biri idi. Bu müqavilə, Deterdinqin bir neçə ildən bəri sovet neftinə qarşı apardığı açıq və qızğın mübarizəyə son qoyur, sovet neft ticarəti təşkilatı olan "ROP"un İngiltərə bazarında bərabərhüquqlu bir ticarət təşkilatı kimi tanınmasını rəsmi şəklə salırdı.

Fransada nəşr edilən "Kurye de Petrol" jurnalı bu müqaviləni sovet neftinin çox böyük müvəffəqiyyəti və Deterdinqin məğlubiyyəti kimi qiymətləndirərək, həmin günlər yazırdı: "Bir çox illərdən bəri sovet neftinə qarşı amansız müharibə elan etmiş ser Henri Deterdinq, "Sovet

---

[1] "Вышка", № 51, 3 mart 1929-cu il
[2] RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 61

neftini almaq, oğurluq neft almaq deməkdir" sözlərilə çığır-bağır salan ser Henri Deterdinq, hələ bu son zamanlarda "Standart oyl"un sovet nefti almasından dəhşətə gələn ser Henri Deterdinq nəhayət sözsüz təslim oldu"[1].

"Neft sindikatı" ilə "Kombayn" arasında bağlanan müqavilənin əhəmiyyəti bir də orasında idi ki, Deterdinqə özlərinin son ümidi kimi baxan sabiq neft sahibkarları bu müqavilənin bağlanması ilə sovet neftinə yenidən sahib olacaqları ümidlərini tamamilə itirmiş oldular[2]. Onların Deterdinqlə birlikdə yaratdıqları "vahid cəbhə" bu dəfə də onun təşəbbüsçüsünün özü tərəfindən yarıldı.

Xarici bazarlarda öz mövqeyini möhkəmləndirən sovet nefti həmin dövrdə maliyyə vəsaitinə çox ciddi ehtiyac hiss edən sovet dövlətinin əsas gəlir mənbələrindən birinə çevrildi. Artıq 1928-1929-cu təsərrüfat ilində neft məhsullarının xüsusi çəkisi ölkənin ixrac etdiyi sənaye məhsulları miqdarının 33,4 faizini, ümumi ixracın isə 17 faizini təşkil edirdi.[3]

[1] "Kurye de Petrol", 16 mart 1929-cu il
[2] RF XTMDA, f. 2309, siyahı 1, iş 216, vər. 146
[3] В.И.Легат и П.М.Шох. "Нефтяной экспорт и его значение в советском хозяйстве", с. 4



# IV FƏSİL

## DÜNYA İQTİSADİ BÖHRANI İLLƏRİNDƏ AZƏRBAYCAN NEFTİNİN BEYNƏLXALQ BAZARDA UĞURLARI

Sovet neftinin mövqeyinin dünya bazarında getdikcə möhkəmlənməsi istər imperialist dövlətlərini, istərsə də onların inhisarçı neft trestlərini nə iqtisadi cəhətdən, nə də siyasi cəhətdən təmin edirdi. Sovet neftinin dünya neft trestləri ilə apardığı inadlı mübarizə şəraitində, beynəlxalq bazarda əldə etdiyi hər yeni uğur, onların burada məhrum olduqları mövqe demək idi. Ona görə də, imperialist dövlətləri və onların neft trestlərinin Sovet hakimiyyətinə qarşı bəslədikləri düşmən münasibət nəinki zəifləmir, əksinə, getdikcə özünü daha qabarıq şəkildə göstərirdi. Sovet hakimiyyətinin varlığı ilə heç cür hesablaşmaq istəməyən imperialistlər onun neftini ələ keçirmək uğrunda mübarizəni davam etdirməkdən də əl çəkmirdilər. Məhz ona görə də dünya trestlərinin bu və ya digər iqtisadi və ticarət mülahizələrinə görə Sovet dövlətilə neft münasibətinə girmələrinə, o cümlədən "Kombayn" ilə 1929-cu ilin martında bağlanan müqaviləyə heç də onların sovet neftinə qarşı apardıqları mübarizənin sona çatması kimi baxmaq olmazdı. Əvvəllərdə olduğu kimi, yenə də imperialistlərin sovet neftinə qarşı beynəlxalq mübarizəsi aradan qalxmamış, sadəcə olaraq onun forma və metodları dəyişmişdi.

1929-cu ilin əvvəllərində yaranmış əlverişli şərait, cəbhədə iki amansız döyüş arasında "ani dinclik" təsiri bağışlayırdı.

1929-cu ilin payızında kapitalist ölkələrində baş-

layan dünya iqtisadi böhranı bu "ani dincliyə" son qoydu.

Dünya iqtisadi böhranı nəticəsində kapitalist istehsalının, xüsusilə neft yanacağı ilə bilavasitə əlaqəsi olan sahələrin daralması, onların istehsal etdikləri məhsulların miqdarının xeyli aşağı düşməsi nəticə etibarilə öz mənfi əksini neft sənayesində tapmaya bilməzdi.

Böhran nəticəsində duru yanacaqda işləyən sənaye sahələrinin öz məhsullarını nəzərə çarpacaq dərəcədə ixtisar etməsi, neftə olan ehtiyacı aşağı salmış və beləliklə dünya bazarında onun satış qiymətinə də əhəmiyyətli dərəcədə təsir göstərmişdi. Böhranın dünya neft trestlərinə vurduğu maddi ziyan milyonlarla hesablanırdı.

Dünya neft dəllalları səs-səsə verərək sübut etməyə çalışırdılar ki, beynəlxalq bazarda yaranmış bu fəlakətli vəziyyət sovet dövlətinin tətbiq etdiyi "dempinq" siyasətinin nəticəsidir. Sovet dövləti guya dünya bazarında neft məhsullarını maya dəyərindən də aşağı qiymətə satmaqla belə böhranlı vəziyyət yaratmışdır.

İmperialist neft dairələrinə yaxın olan burjua qəzetləri neft ticarəti sahəsində "Sovet dempinqini" sübut etmək üçün səfərbərliyə alınmışdı. Onlar ağız dolusu bağırır, onsuz da sovet neftinə qarşı qızğın olan ehtirasları daha da qızışdırırdılar. Almaniyada çıxan qəzetlərin biri yazırdı: "Sovet neft sənayesi ona bəslənən ümidləri doğrultmamasına baxmayaraq, SSRİ yeni-yeni bazarlar fəth etməyə cəhd edir. Belə bir məlumat vardır ki, 6000 ton benzinlə dolu yük paraxodu Baltik dənizinə daxil olmuşdur. Belə güman etmək lazımdır ki, SSRİ ABŞ bazarında möhkəmlənmək üçün oraya özünün ən yaxşı növ benzinini göndərir. Göstərilən miqdarda ucuz sovet benzininin



Amerika bazarına soxulması Amerikanın müvafiq dairələrində nahatlıq doğurmaya bilməz..."[1].

Yapon jurnalı "Sekiyu dziko" ("Neft") jurnalında isə dünya neft maqnatlarının əlaltısı olan Tomis Uemura neft bazarında "Sovet dempinqindən" bəhs edərək yazırdı: "Dünya neft bazarı, həddindən artıq neft məhsullarının istehsalı və qiymətlərin kəskin surətdə aşağı düşməsi nəticəsində böhran vəziyyəti keçirir.

Son zamanlar köhnə bədbəxtliyə daha yeni bir çətinlik də əlavə edilmişdir. Bu da ondan ibarətdir ki, sovet nefti, dünya bazarında geniş cəbhə boyu hücuma keçmişdir...

Cənab Deterdinq... hesab edir ki, dünya neft aləmindəki böhranlı vəziyyətin ən böyük səbəbkarı, dünya bazarını partlatmaq həddinə gətirən sovet neft məhsullarıdır... Onun fikrincə, bu vəziyyətdən xilas olmağın yeganə əks-tədbiri hücum edən sovet neft məhsullarının qarşısını almaqdan ibarət ola bilər"[2].

Dünya iqtisadi böhranı illərində imperialist neft dairələri içərisində Sovet dövlətinə və neftinə qarşı mübarizədə ön sırada yeri yenə də ser Henri Deterdinq gedirdi.

Deterdinq yaranmış əlverişli vəziyyətdən istifadə edərək, Sovet dövlətinin beynəlxalq və iqtisadi nüfuzunu aşağı salmaq məqsədilə sübut etməyə çalışırdı ki, Sovet dövlətinin xarici bazarda neft məhsullarını, hətta maya dəyərindən aşağı satmaqla, sabit qiymət yaratmağa imkan vermir. Onun fikrincə, Avropa, Amerika neft sənaye-

[1] "Berliner saytunq", № 79, 1 oktyabr 1930-cu il
[2] RF XTMDA, f. 2309, siyahı 11066, iş 114, vər. 1

sinə küllü miqdarda ziyan dəyməsinin, Rumıniyada neft sənayesinin isə fəlakət dərəcəsinə gəlib çatmasının əsil səbəbkarı Sovet İttifaqı və onun yeritdiyi neft siyasətidir.

Deterdinq "Bu günün bəzi problemləri" adlı məqaləsində özünün fikirlərinə haqq qazandırmaq üçün göstərirdi: "Rusiya hazırda başqa əmtəələrlə birlikdə taxıl, dəri və neft məhsulları da ixrac edir. Halbuki, onun öz əhalisi acından ölür və pis geyindiyi üçün soyuqdan donur. On minlərlə adamlar belə vəziyyətlə öldükləri halda, onların istehsal etdikləri məhsullar xarici ölkələrdə təbliğat aparmaq işinə sərf edilir"[1].

Deterdinq dünya neft sənayesindəki böhranda SSRİ-ni təqsirləndirərək yazırdı: "Ölkə öz əhalisinin kəskin ehtiyac hiss etdiyi taxılı ixrac etməklə onları ac qoyduğu kimi, neft məhsullarını ixrac etməklə də onları işıqsız və yanacaqsız qoyur...

Hazırda təkcə Rusiya istisna olmaqla, bütün dünya tələbdən artıq neft hasil etməməyə çalışır.

Tələbdən artıq hər hansı əmtəə olur-olsun, onu istehsal etmək pis şeydir. Tələbdən artıq neft hasil etmək isə daha pisdir...

Rusiya yeganə ölkədir ki, öz neft hasilatının artması və bununla da bütün dünyaya böyük ziyan vurması ilə öyünür.

İnsanların yaşayış səviyyəsini yaxşılaşdırmağı qarşısına məqsəd qoymuş dünya, öz bədənindəki çirkli yaraya nə qədər dözəcəkdir"[2].

---

[1] RF XTMDA, f. 7735, siyahı 1, iş 292, vər. 38
[2] Yenə orada, vər. 32-33



Sovet neftini ələ keçirmək, yaxud da heç olmazsa onu sıxışdırıb Avropa bazarlarından çıxarmaq məqsədilə Deterdinq "səfərə" çıxdı. O, 1930-cu ilin martın sonlarında Fransaya gəldi.

Onun Avropa dövlətləri içərisində məhz birinci Fransanı seçməsi təsadüfi deyildi. Fransa həmin dövrdə Sovet hakimiyyətinə qarşı beynəlxalq irticanın yuvası olmaqla, həm də İngiltərədən sonra Avropada ən böyük neft bazarı idi. Fransa dövlətinin neftə olan ehtiyacının öz nefti ilə ödəyə bilməməsi, "Royal datç-şell"ə burada tam hakim olmaq və istədiyi kimi hərəkət etməyə imkan verirdi.

Deterdinq bunun üçün Fransa bazarında özünə xüsusi yer etmiş sovet neftinin qarşısını almalı və nəhayət, onun buradan sıxışdırılıb çıxarılmasına nail olmalı idi.

Lakin "Neft Napaleonu" üçün zahirən "çətin olmayan" bu vəzifəni həyata keçirmək o qədər də asan deyildi. "Royal datç-şell" Fransada sovet nefti kimi ciddi bir rəqiblə yanaşı, həm də Fransa hökumətindəki mütərəqqi fikirli şəxslərin göstərdikləri müqaviməti də aradan qaldırmalı idi.

"Standart oyl" ilə "Royal datç-şell" trestləri arasındakı "barışıq" Fransanın diqqətindən qaçmamışdı. Fransa hakim dairələri çox yaxşı bilirdilər ki, ABŞ və İngiltərə neft trestlərinin "birgə hərəkətləri" əsasən sovet neftinə qarşı çevrilmiş olsa da, o, dolayı yolla, həm də Fransanın neft müstəqilliyini hədələyir. Fransada yaxşı başa düşürdülər ki, ölkəni sovet neftinin üzünə bağlamaq, onu Amerika və İngiltərə neft inhisarlarının təsiri altına salmaq, onlardan asılı etmək deməkdir. Məhz buna görə də Fran-

sa, ABŞ ilə İngiltərənin neft trestlərinin "ümumi dil tapmasını" nəinki alqışlamadı, əksinə o, bundan daha da narahat oldu.

Fransa hökuməti hər ehtimala qarşı bir sıra tədbirlər görməyə başladı. Ölkəni amerikan-ingilis neft asılılığından azad etmək məqsədilə parlamentdə neft komissiiyası yaradıldı. Fransanın müstəqil neft sənayesini yaratmaq haqqında qanun layihəsi hazırlamaq işinə başlandı. Fransa hərbi və hərbi dəniz təşkilatları və nəhayət, neft ticarəti müəssisələri ölkəyə sovet neftinin gətirilməsini daha da gücləndirdilər.

Fransa Xarici İşlər Naziri Brian 1928-ci ilin yanvar ayının 13-dəki çıxışında sovet neftinin Fransaya idxalının artmasından bəhs edərək göstərirdi ki, "...bu, Fransaya, xarici asılılıqdan xilas olmağa yardım edir"[1]. Lakin sovet neftinin Fransada ciddi əleyhdarları da var idi. Parisdə yuva salmış Rusiyanın sabiq neft sahibkarları – Nobel, Montaşev, Lionazov, Qukasov tərəfindən təşkil edilmiş "Ticarət-sənaye komitəsi" ətrafına buradakı Sovet hakimiyyəti düşmənlərini toplamışdır. Onlar hansı yol ilə olursa-olsun Sovet-Fransa münasibətlərini pisləşdirməyə, Sovet İttifaqına qarşı hərbi müdaxilə üçün İngiltərə və digər imperialist dövlətlərlə Fransanın birləşməsinə cəhd edirdilər.

Məhz ona görə də, Deterdinqin Sovet dövlətinə qarşı yenidən əl-qol açmasını Fransadakı bu "intiqam" yuvası böyük rəğbətlə qarşıladı. Rusiyadakı "öz mülkiyyətlərinə" yenidən sahib olmaq fikrindən hələ əl çəkməmiş sabiq sahibkarlar və onların fransız məsləkdaşları Fransa hökumətinin neft siyasətinə qarşı açıq çıxmağa başladılar. Fransa hökumətinin sovet neftindən üz döndərib Deterdinq ideyasına qoşulması üçün onlar hay-küy qaldırdılar ki, Fransa yaxın zamanlarda hələ özünü öz neftilə təmin edə bilməyəcəkdir. Sovet neft sənayesi isə bərbad halda olduğu üçün, onun Fransaya kifayət qədər neft məhsulları verə biləcəyinə də bel bağlamaq olmaz. Fransa dünya trestləri ilə münasibəti pisləşdirməklə özünü neftdən məhrum etmiş olar və s.

Fransanı yanacaq böhranı ilə qorxudaraq, onu sovet neftinə qarşı ayağa qaldırmaq, Deterdinqə açıqdan-açığa kömək etmək və həm də Fransanın müstəqil neft siyasətinə qarşı çıxmaq demək idi.

Fransa parlamenti neft komissiyasının sədri Şarl Veron neft komissiyasının 1928-ci ilin mart ayında keçirilən xüsusi iclasında ölkənin neft siyasətinə qarşı çevrilən bu kimi əsassız dəlilləri rədd edərək göstərirdi: "Sovet İttifaqı böyük müvəffəqiyyətlər əldə etmiş, onun neft sənayesi müharibədən əvvəlki səviyyəni çox geridə qoymuşdur. Orada işlər heç də deyildiyi kimi özbaşına, kortəbii surətdə deyil, elmi və müasir iş üsulları üzrə aparılır. Zavod və müəssisələr yenidən qurulur.

Lakin ingilis və amerikan neft trestləri, xüsusilə "Neft Napoleonu" ser Henri Deterdinq tərəfindən başçılıq edilən "Royal datç-şell" Fransa ilə SSRİ arasındakı bu

[1] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 181

neft əməkdaşlığına heç cür dözə bilmir"[1].

Lakin dünya iqtisadi böhranı ilə əlaqədar olaraq son zamanlarda Fransanın da Sovet İttifaqına olan münasibəti ciddi dəyişmişdi. O, SSRİ-yə qarşı ediləcək hərbi müdaxilənin hazırlıq mərkəzinə çevrilmişdi.

Fransanın bu yeni mövqeyi, buradakı rus mühacirlərini daha da fəallaşdırmışdı. Onlar beynəlxalq irticanın Sovet İttifaqına qarşı açıq hərbi müdaxiləyə başlaması üçün dəridən-qabıqdan çıxırdılar. Fransaya "lap vaxtında" səfərə çıxmış Deterdinqin şirin vədləri isə onları daha da qızışdırırdı.

Deterdinq 1930-cu il iyun ayının 11-də Parisdəki rus orta məktəbinin 10 illik yubileyi münasibətilə keçirilən təntənəli gecədə söylədiyi hərarətli "nitqində" bildirdi: "...Mənə təşəkkür etmək lazım deyildir. Mən ancaq və ancaq öz borcumu yerinə yetirmişəm (Görünür, Deterdinq rus məktəbinə maliyyə cəhətdən yardım etmiş və buna görə də valideynlər ona öz təşəkkürlərini bildirmişlər – Ə.Ə.). Burada iştirak edən bizim hamımızı bizim inamımız birləşdirir"[2].

Anlamaq çətin deyil ki, Deterdinq Parisdə yaşayıb təhsil alan rus uşaqlarının qəyyumu deyildi. Deterdinq tərəfindən yerinə yetirilən borc sinfi borc da deyildi. Bu Sovet hakimiyyətinə qarşı mübarizədə onunla əlbir hərəkət edən ünsürlərdən sovet nefti üçün alınan təminat vasitəsi idi. Deterdinqi rus mühacirləri ilə birləşdirən ümumi

[1] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти в мировом хозяйстве и мировой политике", с. 182

[2] Н.В.Крыленко. "Обвинительные речи по наиболее крупным политическим процессам", с. 483



inam isə SSRİ-yə qarşı başlanacaq müdaxilə və onun müvəffəqiyyətli nəticəsi idi.

Deterdinq həmin çıxışında rus gənclərə müraciət edərək inamla deyirdi: "Siz öz qüvvələrinizə ümid bəsləməlisiniz. Yadda saxlamalısınız ki, Sizin bütün fəaliyyətiniz öz doğma torpağınızda olacaqdır. Hazırda milli bədbəxtliyə düçar olmuş Rusiyanın tezliklə azad olması ümidi gündən-günə möhkəmlənir və qüvvətlənir. Sizin böyük Vətəninizin xilası günü yaxındadır... Rusiyanın azad edilməsi Sizin düşündüyünüzdən də dəfələrlə tez, hətta bir neçə aya ola bilər"[1].

SSRİ-yə qarşı ediləcək hərbi müdaxiləyə və onun müvəffəqiyyətinə Deterdinqin böyük inamını onun başqa bir məktubundan da aydın görmək olar.

Deterdinq, etdiyi maddi yardım münasibətilə ona təşəkkür məktubu göndərmiş rus tələbəsinə yazdığı cavab məktubunda da bu mövqesini aydın göstərirdi. O cavab məktubunda 1930-cu ilin iyun ayında yazmışdı: "Mən böyük məmnuniyyətlə kömək etdiyim rus tələbəsinin təşəkkür məktubunu aldım.

Siz hiqəqitən də mənə təşükkür edirsinizsə, o zaman xahiş edirəm aşağıdakılara əməl edəsiniz:

1. Bir neçə aydan sonra ayağa qalxacaq yeni Rusiyada Vətəninizin layiqli övladı olmağa çalışın;

2. Mən sizə nə etmişəmsə, siz də başqasına edin"[2].

Deterdinq burada xeyli qəlbi açıqlıq edir. O, öz köməyinin əsil məqsədini işarə ilə də olsa başa salmağa

[1] Н.В.Крыленко. "Обвинительные речи по наиболее крупным политическим процессам", с. 483

[2] Yenə orada, s. 484

çalışırdı. Deterdinq tərəfindən kömək edilmiş hər bir şəxs, hər bir təşkilat gələcəkdə Rusiya neftini ələ keçirməkdə ona yardım etməlidir. Bu, onun borcudur.

Deterdinq Rusiyada bolşevik hakimiyyətinin tezliklə süqut edəcəyini deyərkən, o, bunun hərbi müdaxilə yolu ilə olacağını açıq söyləməyi lazım bilmədiyindən, özündən çürük fəlsəfə uydurmağa məcbur olurdu. Deterdinq tərəfindən yazılmış məktubların birində deyilirdi: "...Rusiyanın yenidən dirçələcəyi ümidini heç vaxt itirməyin. Bolşeviklər bir də ona görə qələbə çala bilməzlər ki, onların son məqsədləri insan şəxsiyyətini məhv etməkdir. Bolşeviklər...qüvvətli və ağıllı adamları alçaltmağa çalışır, ən alçaq ehtirasları qızışdırırlar.

Mən Sizdən soruşuram: məgər onlar buna nail ola biləcəklərmi? Bolşeviklərin bu cəhdləri ağılsız və qeyri-təbii, lakin qəddardır.

Bolşeviklər bu və ya digər bir şeyi yaratmaq qabiliyyətinə malik olmayan adamlardır. Onlar özlərini anadangəlmə dağıtmaq üçün yaranmış hesab edirlər.

Heç zaman ümidini itirməyin. Ümidsiz bir şey yoxdur. Ümid etmək – əldə etmək deməkdir"[1].

Deterdinq, özünün sovet neftinə sahib olmaq ümidini itirmədiyi kimi, Sovet hakimiyyətinin düşmənlərinə də onun yıxılacağına olan ümidləri itirməməyi tövsiyə edirdi.

Deterdinq Parisdə yuva salmış əksinqilabçı təşkilatları və rus mühacirlərini sadəcə olaraq dilə tutmurdu,

[1] Процесс "Промпартии". Стенограмма судебного процесса, М., 1931, с. 536



həm də onlara Sovet hakimiyyətinə qarşı müəyyən edilmiş əksinqilabi planların həyata keçirilməsi üçün maliyyə cəhətdən də yaxından yardım edirdi[1].

Dünya iqtisadi böhranı illərində yaranmış əlverişli vəziyyətdən istifadə edib, sovet neftini dünya bazarından sıxışdırmaq məsələsi də Deterdinqin ümumi planının mühüm hissəsini təşkil edirdi. 1930-cu ilin iyun ayında Fransa hökumət dairələrində sovet neftinə qarşı başlanan kompaniya bilavasitə onun Fransa səfərilə əlaqədar idi.

Parisə gəlmiş Deterdinq ilə Fransa Nazirlər Komitəsinin sədri Tardenin görüşü burada sovet neftinə qarşı mübarizənin başlanğıcı oldu.

Hərbi müdaxilə nəticəsində Bakı və Qroznı neftinə sahib olmaqla (Fransanın buraya qoyduğu kapitala müvafiq olaraq – Ə.Ə.) öz neft müstəqilliyini təmin etmək iştahası, Fransanı istər-istəməz açıqdan-açığa Deterdinqin planına tərəf sürükləməyə başladı.

Beynəlxalq aləmdə cərəyan edən siyasi hadisələr və daxili mürtəce ünsürlərin təsiri ilə Fransa hökuməti özünün "neft siyasətinə" yenidən baxmağı lazım bildi.

1930-cu ilin iyun ayında Fransa parlamentində "ölkəni neft məhsulları ilə təmin etmək haqqında" məsələ müzakirə edildi[2].

Parlamentdəki mürtəce deputatlar belə təklif irəli sürdülər ki, Fransa sovet neftindən əl çəkməli, özünün neftə olan ehtiyacını Mosuldan aldığı pay hesabına təmin

[1] Н.В.Крыленко. "Обвинительные речи по наиболее крупным политическим процессам", с. 485

[2] "Вышка", № 189, 12 iyul 1930-cu il

etməlidir.

Lakin məlum olduğu kimi, hələ həmin vaxt Mosul neftinin istismarı işinə başlanılmamışdı. Əgər hökumət parlamentdə Mosul neftinin təcili istismarı haqqında qərar qəbul olunmasına nail olsaydı belə, Mosul yataqları Fransaya özünün ilk məhsulunu xeyli vaxtdan sonra verə bilərdi. Bu, hökumət üzvlərinə və parlament deputatlarına da məlum idi. Hökumətin və parlamentin mürtəce üzvlərinin fikrincə, Fransaya sovet neft məhsullarının gətirilməsi dərhal dayandırılmalı, Mosul neftinin istismarı işinə başlanılmalı, buradan neft əldə edilənə qədər isə ölkə İngiltərə nefti ilə təmin edilməli idi. Göründüyü kimi, Fransa hakim dairələrindəki bu mürtəce ünsürlər istər-istəməz Deterdinqin planının həyata keçirilməsinə cəhd edirdilər. Bu işdə yuxarıda göstərilən təklifin müəllifi, Fransanın Ticarət naziri Vlanden xüsusilə canfəşanlıq göstərirdi. Görünür, Deterdinqlə onun arasında gedən söhbət zamanı, Vladen bu barədə ona qəti söz vermişdi.

Lakin Fransa parlamentində Deterdinqin ən yaxın əlaltısı kimi hərəkət edən Vlanden öz təklifini həyata keçirə bilmədi. Fransanı neft məsələsi üzrə Deterdinqdən asılı etmək məqsədi güdən bu təklif, parlamentdə ciddi mübahisəyə səbəb oldu.

Fransa parlamentinin mütərəqqi fikirli deputatları Vlandenin təklifini qəti olaraq rədd etdilər. M.Kaşen parlamentində bu məsələ üzrə çıxışında göstərdi ki, Fransa yaxın zamanda Mosuldan neft əldə edə bilməyəcəkdir. Bu müddətdə isə ölkənin sovet nefti ilə təhciz edilməsi daha asan və əlverişli olduğu üçün, Fransa sovet neftindən üz



çevirməməlidir[1].

Parlament müzakirə edilən məsələ üzrə yekdil qərara gələ bilmədi. "Neft məsələsinin" həlli qeyri-müəyyən müddətə təxirə salındı.

Lakin Deterdinq tərəfindən qızışdırılmış Fransadakı sovet neftinin əleyhdarları bununla heç cür hesablaşmaq istəmir, qarşıya qoyulmuş məqsədə çatmaq üçün hər cür vasitəyə əl atırdılar.

"Neft məsələsi" 1931-ci ilin martında Fransa parlamentində yenidən müzakirəyə qoyuldu[2]. Əvvəlkindən fərqli olaraq parlamentin Deterdinqlə və digər neft kralları ilə əlaqəsi olan deputatları buraya, Sovet hakimiyyətinə qarşı açıq düşmən münasibət bəsləyən digər deputatlarla vahid cəbhədə gəlmişdilər.

Fransa parlamentindəki Sovet hakimiyyətinin və sovet neftinin düşmənləri bu iclasda öz taktikalarını da dəyişmişdilər. Onlar 1924-cü ildə işlənib hazırlanmış "Neft sazişini" parlament tərəfindən təsdiq edilməsinə cəhd edirdilər. Həmin sazişə görə, ölkənin neft məhsulları ilə təchiz edilməsi səlahiyyəti hökumətdən alınaraq Fransanın neft sahibkarları və neft təşkilatlarına verilirdi.

Sazişin məzmunundan göründüyü kimi, o, yenə də dolayı yol ilə sovet neftinə qarşı çevrilmişdi. Əgər Fransanın neft məhsullarına olan ehtiyacları hökumət tərəfindən deyil, ayrı-ayrı kapitalistlər tərəfindən "tənzim" edilərdisə, bu zaman onlar sovet neftini Fransa bazarından çıxarmaq və onu dünya trestlərinin (xüsusilə, "Royal

[1] "Выпка", № 189, 12 iyul 1930-cu il.
[2] Yenə orada, № 88, 30 mart 1931-ci il.

datç-şell" trestinin) üzünə açmaq imkanı əldə etmiş olardılar.

"Neft sazişinin" parlament tərəfindən təsdiq edilməsi sovet neftini sıxışdırmaqla yanaşı, ölkənin özünün də iqtisadiyyatına ciddi mənfi təsir göstərərdi. Həmin sazişlə Fransa bazarında özünə yer etmiş dünya neft trestlərinin əl-qolu açılar və onlar neft məhsullarının satış qiymətində istədikləri kimi özbaşınalıq edə bilərdilər.

Məhz ona görə də "Neft sazişinin" müzakirəyə təqdim edilməsi, parlament deputatlarının bir hissəsinin ciddi etirazına səbəb oldu. Kommunist deputatlar layihənin güddüyü əsil məqsədləri, Fransanın iqtisadiyyatına və müstəqilliyinə onun göstərə biləcəyi mənfi təsiri parlament üzvlərinə qabaqcadan bildirib, onu rədd etməyə çağırdılar. Parlamentdə kommunistlərlə yanaşı, digər partiyaların bəzi nümayəndələri də "Neft sazişi layihəsi" əleyhinə qəti çıxış etdilər.

Deputat De-Mondon öz çıxışında göstərdi ki, bu sazişin parlament tərəfindən qəbul edilməsi, Fransanın SSRİ ilə olan iqtisadi əlaqələrinin pisləşməsinə gətirib çıxaracaqdır. Çünki həmin saziş Fransaya sovet neftinin gətirilməsinin qadağan edilməsinə çalışan neft trestlərinin əlində bir silah olacaqdır[1].

Lakin Fransa parlamentində ölkənin siyasi və iqtisadi mənafeyini müdafiə etmək məqsədilə "Neft sazişi layihəsi" əleyhinə ucalmış bu səslər parlamentdə əksəriyyət təşkil edən mürtəce qüvvələrin bağırtıları içərisində eşidilmədi. Beynəlxalq aləmdə Sovet İttifaqı haqqında qaldırılmış hay-küy də burada öz təsirini göstərdi.

[1] "Вышка", № 83, 30 mart 1931-ci il



Parlament neft kapitalistlərinin sırf marağı üzərində qurulmuş "Neft sazişini" 165 – səsə qarşı, 305 səslə qəbul etdi[1].

Almaniyada da sovet neftinə qarşı mübarizəni təşkil etmək məqsədilə Deterdinq 1931-ci ilin yanvarında Berlinə getdi[2]. O burada öz planlarını həyata keçirməkdə hamıdan əvvəl maliyyə naziri Ditrixə arxalanırdı.

Bilavasitə Ditrixin köməyilə Deterdinqlə Almaniya hökumət nümayəndələri arasında "işgüzar" danışıqlar başlandı. Deterdinq Almaniyada benzin satmaq hüququnun tamamilə ona verilməsini irəli sürür, əvəzində isə Almaniyaya böyük məbləğdə borc verməyi vəd edirdi.

Deterdinqin Avropa səfərində Fransa və Almaniya ilə yanaşı, Rumıniya da özünə xüsusi yer tuturdu. 1929-1932-ci illərdə Rumıniya neft sənayesi ciddi böhran keçirirdi. Dünya iqtisadi böhranı nəticəsində neft sənaye məhsullarına olan tələbatın xeyli azalmasına baxmayaraq, burada hasilat nəinki aşağı düşməmiş, əksinə daha da artmışdı. Rumıniya neft sənayesi 1930-cu ildə 1929-cu il miqdarının 121,9 faizi qədər neft hasil etmişdi[3]. Bu, hər şeydən qabaq, onunla izah edilirdi ki, ölkənin neft sərvətlərinin əhəmiyyətli hissəsi "Standart oyl" və "Royal datç-şell" trestlərinin əlində cəmlənmişdi[4]. Rumıniya hökuməti onun əsil sahibi deyil, burada ikinci dərəcəli payçı hesab edilirdi. Ona görə də, böhran illərində Rumıniya neftinin

[1] "Вышка", № 83, 30 mart 1931-ci il
[2] Yenə orada, № 329, 2 fevral 1931-ci il
[3] Yenə orada
[4] RF XTMDA, f. 2309, siyahı 1, iş 324, vər. 32

coğrafi cəhətdən Avropa və digər bazarlarda daha yaxın olması, burada işçi qüvvəsinin ucuzluğu və rumın hökumətinin daha artıq güzəştlərə getməsi (1924-cü ildə Rumıniyada verilmiş qanuna əsasən əcnəbilərin rumın neft sənayesində iştirakı qadağan edilirdi. Doğrudur, bu qanun hökumət tərəfindən ciddi olaraq yerinə yetirilmirdisə də, lakin hər halda formal da olsa, dünya neft trestlərinin buradakı açıq və geniş fəaliyyətini məhdud edərdi. "Standart oyl" və "Royal datç-şell"in yaxından təhriki ilə 1929-cu ildə hökumət bu qanunu dəyişməyə məcbur oldu. Yeni qanunla əcnəbi şirkətlərin fəaliyyətindəki məhdudiyyətə son qoyuldu – Ə.Ə.) nəticəsində digər rayonlara nisbətən daha ucuz başa gələn rumın nefti hər iki tresti hərtərəfli təmin edirdi. Avropa, Orta və Yaxın Şərq bazarlarında onların arasında gedən rəqabət Rumıniyada neft hasilatını, buradan neft məhsulları ixracını daha da artırmışdı. Təkcə bunu göstərmək kifayətdir ki, Rumıniya 1930-cu ildə 1929-cu ilə nisbətən 139,5 faiz çox benzin; 121,4 faiz çox ağ neft, 112,7 faiz çox sürtkü yağı ixrac etmişdi. 1931-ci ildə isə ixrac edilən benzin 1929-cu il miqdarından 209,5 faiz, ağ neftin miqdarı 153,7 faiz, sürtkü yağının miqdarı 111,1 faiz çox idi[1]. Bunun nəticəsində rumın hökuməti əldə etdiyi neft məhsulları payını və özünün digər sahələrdə müstəqil əldə etdiyi nefti istər-istəməz aşağı qiymətlərə, dəyər-dəyməz qiymətə satmağa məcbur olurdu. Neft məhsulunun artması, ona olan tələbin azalması, bazarlarda yaranmış vəziyyət nəticəsində burada səhmlərin qiyməti aşağı düşmüş, ölkədə ciddi narazılıq başlanmışdı.

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 18



Rumın hökuməti başını itirmək dərəcəsinə gəlmişdi.

Deterdinq Rumıniyada yaranmış vəziyyətlə əlaqədar olaraq, rumın hökumətinə "öz yardım əlini uzatmaq" məqsədilə 1931-ci ilin martında buraya gəldi[1]. Deterdinqin Rumıniya səfəri xüsusi diqqət mərkəzində dururdu. Hətta burjua qəzetləri bu səfəri Rumıniya neftinin dünya bazarında müstəqilliyini itirməsi və ölkənin neft sənayesinin tamamilə "Royal datç-şell"ə tabe edilməsi kimi qiymətləndirilirdi[2]. Bir çox qəzetlər isə Mironesku hökumətinin istefasını açıqdan-açığa Deterdinqin gəlişi ilə əlaqələndirirdi[3]. deterdinqlə Rumıniya hökuməti arasında dərhal danışıqlar başlandı[4]. Danışıqlar həm siyasi, həm də iqtisadi mahiyyət daşıyırdı. Deterdinq Rumıniya hökumətini inandırmağa çalışırdı ki, dünya neft sənayesində, xüsusilə Rumıniya neft sənayesində yaranmış böhranlı vəziyyətin əsil müqəssiri Sovet İttifaqıdır. Deterdinqə görə, Sovet hökuməti nəinki Rusiya kimi geniş bazarı dünya neftinin üzünə bağlamış, həm də özünün ucuz neft məhsulları ilə digər bazarları da doldurmuşdur. Deterdinq rumın hökumətinə yaranmış vəziyyətdən çıxmaq üçün bir sıra "ağıllı məsləhətlər" verərək, onu əmin edirdi ki, "vəziyyətdən çıxmağın yolu olduqca sadədir. Sizə ancaq satış üçün bazar lazımdır. Belə bazar isə bildiyiniz kimi vardır. Birisi Uzaq Şərq, digəri isə qonşunuz Rusiya bazarıdır. Buna təkcə sovet sistemi mane olur ki, onu da aradan qaldırmaq lazımdır. Bununla siz həm özünüzə, həm də bütün dünyaya kömək etmiş olursunuz. Nə qədər ki, Rusi-

[1] "Вышка", № 87, 29 mart 1931-ci il
[2] RF XTMDA, f. 2309, siyahı 1, iş 324, vər. 32
[3] Yenə orada
[4] "Вышка", № 87, 29 mart 1931-ci il

yada bolşeviklər hakimiyyət başındadır, beynəlxalq böhran qurtarmayacaqdır"[1].

Deterdinq siyasi məsləhətlərlə yanaşı, rumın hökumətindən özünün iqtisadi mülahizələrini də "əsirgəmədi". O, rumın hökumətinə məsləhət gördü ki, sovet neftinin digər dünya bazarlarına keçib getməsi məhdudlaşdırılarsa, bununla da vəziyyət xeyli yaxşılaşmış olar. Deterdinq Rumıniya neft sənayesində yaranmış ciddi vəziyyətdən istifadə edib, onu tamamilə öz əlinə almaq üçün cəhd göstərməyi də unutmadı. O, Rumıniya hökumətinin əlində olan bütün səhmləri almağa və Rumıniya hökumətinə əlavə olaraq daha 2 milyon funt sterlinq (1931-ci ildə 1 funt sterlinq 9 rubl 45 kop. sovet puluna bərabər idi – Ə.Ə.) borc verməyə hazır olduğunu bildirdi[2].

Deterdinq tərəfindən qızışdırılmış rumın hökuməti sovet neftinə qarşı dərhal açıq mübarizəyə qalxdı. O, 1931-ci ilin mart ayının sonunda Dunay çayı ilə Avropa ölkələrinə göndərilən sovet neftinin Sulində başqa gəmilərə boşaldılıb-yüklənməsini qadağan etmək haqqında sərəncam verdi[3].

Lakin məlum olduğu kimi, rumın hökumətinin bu sərəncamı beynəlxalq hüquq qaydalarını pozmaq demək idi. Sulin limanı Rumıniya ərazisində yerləşsə də, o, beynəlxalq Dunay çay yolu tərkibinə daxil idi. Beynəlxalq Dunay çay yolu özünün müvafiq polisinə malik olan Avropa Dunay komissiyasının tabeliyində yerləşirdi. Komis-

[1] В.Бронштейн и В.Розенблюм. "Проблема нефти и мировом хозяйстве и мировой политике", с. 187
[2] "Вышка", № 87, 2 mart 1931-ci il
[3] RF XTMDA, f. 2309, siyahı 1, iş 324, vər. 32



siya İngiltərə, Fransa və İtaliya dövlətlətinin nümayəndələrindən təşkil edilmişdi. Məhz bütün bunlara görə də Rumıniya hökumətinin burada özbaşına sərəncam verməyə, komissiyanın işinə qarışmağa hüququ yox idi. Görünür, Deterdinq rumın hökumətinə bu barədə "məsləhət verərkən" ona həmin dövlətlərdən çəkinməməyi tövsiyə etmişdi.

Sovet hökuməti, Rumıniya hökumətinin gördüyü bu əsassız tədbirə qarşı dərhal ciddi etiraz etdi. Rumıniya hökuməti Sovet hökumətinin etirazına cavab olaraq qəti şəkildə bildirdi ki, "qadağan etmək işi nəinki ləğv edilməyəcəkdir, Rumıniya gələcəkdə də sovet neftinin öz ölkəsindən danışmasına hər cür müqavimət göstərəcəkdir"[1].

Lakin Rumıniya hökuməti öz mövqeyində çox qala bilmədi. SSRİ-dən neft məhsulları alan Avropa dövlətləri də, Sovet İttifaqı ilə yanaşı, Rumıniyanın bu qeyri-qanuni hərəkətinə ciddi etiraz etdilər. Rumıniya hökuməti 1931-ci il aprelin 10-da qərarını ləğv etməyə məcbur oldu[2].

Lakin Rumıniya hökumətinin məcburiyyəti qarşısında öz qərarını ləğv etməsi, heç də onun sovet nefti ilə barışması demək deyildi. O, Avropa bazarında sovet neftinə zərbə vurmaq üçün yeni-yeni yollar axtarmaqda davam edirdi.

Nəhayət, belə bir "qanuni" yol tapılmış oldu. 1931-ci ilin iyul ayında parlament Rumıniyadan sovet nefti daşıyan sindikatlar üzərinə 5 faiz gömrük vergisi qoydu[3].

[1] "Вышка", № 77, 19 mart 1931-ci il
[2] Yenə orada, № 102, 13 aprel 1931-ci il
[3] Yenə orada, № 201, 23 iyul 1931-ci il

Rumın milli bankının direktoru Manon Lesku hökumətin bu tədbirindən bəhs edərək, açıq-açığına göstərirdi ki, "bu tədbir gündən-günə artmaqda olan sovet neft ixracına zərbə vurmaq zərurətindən irəli gəlir"[1].

Dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracı sahəsində əldə edilən görkəmli nailiyyətlər Deterdinqin Avropa səfərinin müvəffəqiyyətsizliyini göstərən ən ədalətli ölçü vahidi idi. "Royal datç-şell" tresti Deterdinqin bu uğursuz səfərindən nəinki qazanmadı, əksinə küllü miqdarda ziyana düşdü. Tam olmayan hesablamalara görə, Deterdinq soevt neftinə qarşı mübarizə üçün, trestin özünün ayırdığı küllü miqdarda məbləğdən başqa, bu məqsədlə özbaşına daha 40 milyon qulden (1932-ci ildə 1 qulden 79 kop. sovet puluna bərabər idi) xərcləmişdi[2]. onun sovet neftinə qarşı mübarizədə Almaniyada etdiyi israf 68 milyon markaya bərabər idi[3]. Bundan başqa həmin məqsədlə o, Rumıniya baş naziri İorqa 20 min funt sterlinq (1932-ci ildə 1 funt sterliq 6 rubl 80 kop. sovet puluna bərabər idi), rumın kralına isə 5 milyon frank (1 frank 5 kop bərabər idi) rüşvət vermişdi.

Henri Deterdinqin bu maliyyə özbaşınalığı "Royal datç-şell"in digər payçılarının ciddi narazılığına səbəb oldu. O, 1932-ci ilin aprelində trestin prezidenti vəzifəsindən faktiki olaraq kənar edildi. Həmin vəzifə "Royal datç-şell" də digər görkəmli sima olan A.Keslerə tapşırıldı. Bununla da Sovet hakimiyyətinin və sovet neftinin ən

[1] "Вышка", № 201, 23 iyul 1931-ci il
[2] Yenə orada, № 98, 27 aprel 1932-ci il
[3] Yenə orada, № 44, 14 fevral 1931-ci il



qatı düşmənlərindən biri tarixin mübarizə səhnəsindən formal da olsa kənarda qaldı.

Dünya iqtisadi böhranı sovet təsərrüfat sisteminin həyatiliyini göstərən bir imtahan oldu. Böhran illərinə təsadüf edən birinci beşillikdə Sovet ölkəsinin iqtisadiyyatı özünün çiçəklənmə dövrünə qədəm qoymuşdu. SSRİ sənayesində əldə edilmiş uğurlu nəticələr özünü Azərbaycan neft sənayesində daha qabarıq şəkildə göstərirdi.

Birinci beşillik illərində SSRİ neft sənayesinin inkişafında əldə edilmiş tarixi müvəffəqiyyətləri göstərmək üçün, həmin dövrdə ölkənin ən əsas yanacaq rayonu olan Azərbaycan neft sənayesinin ayrı-ayrı sahələrinə aid bir neçə iqtisadi göstəriciyə nəzər salmaq kifayətdir.

Birinci beşillik illərində neft sənayesinin əsası hesab edilən qazma sahəsində tam yeni texnika hakim idi. 1931-ci ildə burada qazma işinin 98 faizi yeni, burma-qazma üsulu ilə aparılırdı[1].

Birinci beşillik illərində qazma sahəsində əldə edilmiş müvəffəqiyyətlər təkcə bunlardan ibarət deyildi. Kəşfiyyat qazması sahəsində elmin son nailiyyətləri müvəffəqiyyətlə sınaqdan keçirilmiş, bir çox yeni-yeni zəngin neft yataqları aşkar edilmişdi. Təkcə bu faktı göstərmək kifayətdir ki, birinci beşilliyin əvvəllərində Azərbaycan neft sənayesi milliləşdirilmiş neft sahələrindən ildə 1,4 milyon ton, yeni, Sovet hakimiyyəti illərində istifadəyə verilmiş meydançalardan isə 7,3 milyon ton neft hasil etdiyi halda, hələ 1931-ci ildə burada milliləşdirilmiş neft sahələrindən 1,2 milyon ton, sovet dövründə istifadəyə verilmiş sahələ-

[1] "Нефтяная промышленность СССР", М., 1958, с. 14

rindən isə 12,3 milyon ton neft hasil etmişdi[1]. Deməli, artıq birinci beşilliyin 4-cü ilində yeni aşkar edilmiş sahələrdən 5 milyon ton əlavə neft hasil edilmişdi ki, bu da respublika üzrə ümumi hasilatın 40 faizə qədərinə yaxın idi.

Beşillik illərində Azərbaycan neft sənayesinin hasilat sahəsində əldə etdiyi müvəffəqiyyətlər də fərəhli idi. 1928-29-cu təsərrüfat ilində 8,7 milyon ton, 1929-30-cu ildə 10,2 milyon ton, 1930-31-ci ildə 13 milyon ton, 1931-32-ci ildə 14,6 milyon ton və 1932-33-cü ildə isə 17,8 milyon ton olmaqla 1928-33-cü illərdə 64,3 milyon ton neft hasil edilmişdi ki, bu da birinci beşillik üzrə plan tapşırıqlarından xeyli çox idi[2]. Artıq 1930-cu ildə Azərbaycan neft sənayesindən əldə edilmiş neftin miqdarı həmin il bütün dünya üzrə hasil edilmiş neft məhsulunun 5,6 faizini təşkil edirdi[3].

Birinci beşillik illərində, neft sənayesinin heç bir sahəsi neft emalı sahəsində olduğu qədər texniki cəhətdən yenidən qurulmamışdı. Bu, onunla izah edilirdi ki, qazma və hasilat sahəsində texniki cəhətdən yenidənqurma işi birinci beşilliyin əvvəllərinə qədər əsasən başa çatdığı halda, emal sahəsində olduqca az iş görülmüşdü. Yalnız birinci beşillik dövründə, xüsusilə onun ikinci yarısında neft emalı sahəsinin texniki siması tam dəyişdirildmiş, bir sıra yeni tipli zavodlar, qurğular işə salınmışdı[4]. 1932-ci ilin ortalarında Azərbaycan neft emalı zavodlarının verdiyi ümumi məhsulun 91,6 faizi yeni qurulmuş müəssisələrdən

[1] "Азербайджанское нефтяное хозяйство", № 2, 1933, с. 17
[2] "Нефтяная промышленность СССР", с. 14
[3] "Азербайджанское нефтяное хозяйство", № 10, 1933, с. 1
[4] "Kommunist", № 23, 3 fevral 1933-cü il



alınırdı[1]. 1929-1932-ci illərdə Bakıda tikilmiş yeni neft emalı müəssisələri gün ərzində 5047,7 ton məhsul buraxmaq qabiliyyətinə malik idi[2].

Azərbaycan neft sənayesinə aid gətirilən bu konkret faktlar əyani surətdə göstərirdi ki, birinci beşillik illərində SSRİ-nin neft sənayesi coşğun surətdə inkişaf edərək, dövrün ən müasir və qabaqcıl sənaye sahələrindən birinə çevrilmişdir.

Dünya iqtisadi böhranı SSRİ neft sənayesinin ümumi inkişafına deyil, sovet neftinin dünya bazarındakı mövqe və imkanlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilmişdi. Dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracının vəziyyəti bir çox səbəblərə görə əvvəlki dövrdən xeyli fərqli idi.

Bu dövrdə sovet nefti, dünya bazarında əldə edilmiş mövqeyini daha gərgin bir şəraitdə qoruyub saxlamalı olurdu. Əvvəllər sovet nefti dünya bazarında əsasən, dünya trestlərinin müqavimətinə rast gəldiyi halda, indi iqtisadi böhranın dünya kapitalist təsərrüfatına vurduğu ziyanla əlaqədar olaraq daha yeni bir çətinlik qarşıya çıxmışdı. Dünya bazarında neft məhsullarına olan tələb xeyli azaldığı halda, ixracçıların sayı dəyişilməz qalmışdı. Məhz bunun nəticəsi idi ki, onların arasındakı mübarizə daha kəskin şəkil almışdı. İndi burada əsas mübarizə heç də əvvəllər olduğu kimi yeni mövqe əldə etmək uğrunda deyil, öz köhnə mövqeyini saxlamaq uğrunda gedirdi. Gündəngünə alıcılıq qabiliyyəti azalan bazarda buna yalnız başqa ixrac edən dövlət və trestləri sıxışdırmaq yolu ilə nail ob-

[1] "Азербайджанское нефтяное хозяйство", № 6, 1932, с. 2
[2] RF XTMDA, f. 4372, siyahı 30, iş 277, vər. 83

maq mümkün idi. Sovet neftinin vəziyyəti bir də ona görə çətinləşmişdi ki, əvvəllər Sovet dövləti, dünya trestləri arasında sovet neftinə qarşı o qədər də möhkəm birlik olmamasından istifadə edə bildiyi halda, indi bu imkan aradan qalxmışdı. Onlar öz aralarında qısa müddətli olsa da, ümumi dil tapa bilmişdilər. Beləliklə, dünya neft bazarında gedən mübarizənin əsas ağırlığı sovet nefti üzərinə düşürdü.

Bəhs edilən dövrdə dünya iqtisadi böhranının doğurluğu çətinliklər və kapitalist inhisar birliklərinin əlbir hərəkəti ilə yanaşı, beynəlxalq şərait özü də sovet neft məhsulları ixracı işini olduqca çətinləşdirirdi. Dünya iqtisadi böhranı nəticəsində daha da quduzlaşmış mürtəce qüvvələr SSRİ-ni müharibə ilə hədələyir, ona qarşı müdaxilə planları hazırlayır, açıqdan-açığa Sovet İttifaqını iqtisadi və siyasi cəhətdən təcrid etmək siyasəti yeridirdilər.

Belə bir şəraitdə sovet nefti beynəlxalq miqyasda nəinki köhnə mövqeyini qoruyub saxlamağı bacarmalı, hətta yeni-yeni bazarlar əldə etməli idi. Bu dövrün, ölkəmizdə sosializm quruculuğunun tələbi idi. Birinci beşilliyin əzəmətli vəzifələrinin yerinə yetirilməsi küllü miqdarda əlavə vəsait tələb edirdi. Ölkənin daxili tələblərinə müvəffəqiyyətlə cavab verən sovet nefti, bu sahədə də öz sözünü deməli idi.

Birinci beşillikdə xarici ticarət planının tərtibinə aid əsas dövlət sənədlərinin birində deyilirdi: "...Sənaye malları ixracını, xüsusilə neft məhsulları ixracını hərtərəfli olaraq genişləndirmək lazımdır"[1].

Neft məhsulları ixracı planının ilkin variantına

[1] RF MDA, f. 3912, siyahı 6, iş 71, vər. 144



əsasən (Bu plan sonradan dəyişdirilmiş və neft məhsulları ixracı illər üzrə daha da artırılmışdı), 1927-28-ci ilə nisbətən 1928-29-cu ildə 131 faiz, 1929-30-cü illərdə 158 faiz, 1930-31-ci ildə 190 faiz, 1931-32-ci ildə 235 faiz, 1933-cü ildə isə 272 faiz çox neft məhsulları ixrac edilməli idi[1].

Rəqəmlərdən göründüyü kimi, sovet neft məhsulları ixracına məsul olan təşkilat qarşısında olduqca çətin və məsul bir vəzifə dururdu.

Doğrudur, dünya iqtisadi böhranı illərində beynəlxalq vəziyyətdən fərqli olaraq, neft məhsulları ixracını artırmaq üçün ölkə daxilində daha əlverişli şərait yaradılmışdı. Neft sənayesinin başdan-başa yeni texnika ilə silahlanması nəticəsində neft hasilatı sürətlə artmış, məhsulun maya dəyəri xeyli aşağı düşmüş, əmək məhsuldarlığı əhəmiyyətli dərəcədə yüksəlmiş və s. bu kimi digər görkəmli iqtisadi müvəffəqiyyətlər əldə edilmişdi. Bütün bunlar sovet neftinə xarici bazarda geniş manevr etmək imkanı verirdi.

Sovet neft ixracı qarşısında duran çətin vəzifələrin müvəffəqiyyətli həlli üçün daha bir sıra iqtisadi-texniki təsərrüfat və təşkilatı tədbirlər də görülmüşdü. 1930-cu ilin fevralında 822 km uzunluğunda Bakı-Batumi neft kəmərinin istifadəyə verilməsi[2] xüsusilə böyük əhəmiyyətə malik idi. Bu "Sovet neft sindikatına" neft ixracı sahəsində üzərinə götürdüyü öhdəçiliyi yerinə yetirməyə imkan verməklə yanaşı, həm də neft ixrac edilən məhsullarının mAya dəyərinin xeyli aşağı düşməsinə səbəb olmuşdu. Neft

[1] RF XTMDA, f. 2309, siyahı 1, iş 191, vər. 20
[2] "Социалистическая индустрилизация Азербайджана", с. 107

kəməri ilə daşınan məhsul, dəmir yoluna nisbətən dövlətə 3,4 dəfə ucuz başa gəlir və ildə orta hesabla 16 milyon rubl vəsaitə qənaət etməyə imkan verirdi (Kəmərin çəkilişinə 49 milyon rubl vəsait sərf edilmişdi – Ə.Ə.). Beləliklə, kəmər özünün etdiyi qənaət hesabına ona çəkilmiş xərci[1] üç ilin müddətində ödəyə biləcəkdi[2].

Bakı-Batum neft kəməri vasitəsilə müntəzəm və ucuz qiymətli sovet neftinin ixrac edilməsi dünya bazarında sovet neftinin dünya neft trestləri ilə mübarizədə qalib çıxması və öz mövqeyini möhkəmləndirməsi cəhətdən də böyük əhəmiyyətə malik idi. Azərneftin rəisi Barinov Bakı-Batum neft əhəmiyyətindən bəhs edərkən, haqlı olaraq göstərirdi: "İndi biz neft kralları ilə mübarizə aparmaqda ən böyük bir əsasa malikik".

Lakin təkcə bununla kifayətlənmək olmazdı. Yeni istifadəyə verilmiş neft kəmərləri ilə ayrı-ayrı neft məhsulları deyil, ancaq xam neft daşınırdı. Lakin xarici bazarlar üçün xam neftə yanaşı, külli miqdarda digər neft məhsulları da (benzin, sürtkü yağı, ağ neft və s.) lazım idi. Tələb olunan miqdarda müxtəlif çeşidli neft məhsullarını neft rayonlarında emal edib, sonra isə onu ixrac məqsədilə limanlara gətirmək həm vaxt və həm də xeyli nəqliyyat vasitəsi tələb edirdi. Bundan başqa bu üsul iqtisadi cəhətdən də faydalı deyildi.

Bütün bunları nəzərə alaraq Sovet dövləti kəmərlərin çəkilişi ilə paralel olaraq neft emalı işini neft ixracı məntəqəsinə yaxınlaşdırmaq məqsədilə Batum limanında

[1] "Бакинский рабочий", № 36, 13 fevral 1930-cu il
[2] "Вышка", № 43, 13 fevral 1930-cu il



emal zavodlarının tikilməsini lazım bilmişdi.

Sovet dövləti neft ixracının müvəffəqiyyətini təmin etmək üçün bunlarla yanaşı, bir sıra təşkilati tədbirlər də gördü.

Avropa əvvəllər olduğu kimi, dünya iqtisadi böhranı illərində də sovet nefti üçün xüsusi əhəmiyyət kəsb edirdi. Rumıniya istisna olmaqla, onun coğrafi cəhətdən digər ixracçı dövlətlərə nisbətən SSRİ üçün əlverişli olması sovet neftinin müvəffəqiyyəti üçün az əhəmiyyətə malik deyildi. Faktlardan görünür ki, Avropa dövlətlərin böhran illərində istehlak etdikləri neft məhsullarının miqdarı dünyanın digər ölkələrinin (ABŞ buraya daxil deyildir – Ə.Ə.) böhrandan əvvəlki dövrdə işlətdikləri neft məhsullarının miqdarından xeyli çox idi. Avropa bazarının üstünlüyü bir də orasında idi ki, digər ölkələrdə əsasən, ağ neft istehlak edildiyi halda, burada ixracçı üçün daha faydalı olan başqa neft məhsullarına daha çox ehtiyac vardı.

Avropa bazarı Sovet dövləti üçün dünya böhranı illərində yalnız iqtisadi cəhətcə deyil, siyasi cəhətdən də böyük əhəmiyyətli idi. Əvvəllərdə olduğu kimi, bəhs edilən dövrdə də Sovet hakimiyyətinin varlığı əsasən, yenə də baradan hədələnirdi. Fransa və İngiltərə SSRİ-yə qarşı ciddi hərbi müdaxilə hazırlığına başlamışdı. Almaniyada mürtəce qüvvələr xeyli fəallaşmışdı. Sovet neftinin bu bazarda daha da möhkəmlənməsi, Avropa dövlətləri ilə iqtisadi əlaqələri qoruyub saxlamaqla yanaşı, həm də buradakı siyasi ehtirasların soyumasında da müəyyən rol oynaya bilərdi. Bundan başqa, neftinin burada müvəffəqiyyəti imperialist dövlətlərinin Sovet hakimiyyətinə qarşı yeni çıxışının fəal iştirakçılarından olan dünya neft maq-

natlarının, xüsusilə Henri Deterdinqin həm iqtisadi, həm də siyasi müvəffəqiyyətsizliyi olardı.

Məhz bütün bu mülahizələrə görə də, Sovet dövləti dünya iqtisadi böhranı illərində əsas diqqətini Avropa bazarına verməkdə həm iqtisadi və həm də siyasi cəhətcə haqlı idi.

Bəhs edilən dövrdə Avropada Sovet neftinin mövqeyini ilk növbədə Fransada qoruyub saxlamaq vacib idi. Təkcə ona görə yox ki, Fransa özünün xüsusi neftinə malik deyildi və yaxud o, digər ölkələrdən fərqli olaraq neft məhsulları istehlakını ildən-ilə artırırdı. Bir də ona görə ki, Parisdə yuva salmış və onu SSRİ-yə qarşı hərbi müdaxilənin mərkəzinə çevirmiş mürtəce qüvvələr, Sovet hakimiyyətinə qarşı burada daha fəal idilər. Deterdinqin Avropa səfərinin əhəmiyyətini məhz buradan heçə endirmək lazım idi.

Sovet dövlətinin yeritdiyi sülhsevər siyasət, "Sovet nefteksportun" gördüyü iqtisadi texniki-ticarət tədbirləri və Fransa mütərəqqi qüvvələrin hökumətə etdiyi təsir tezliklə öz müsbət nəticəsini göstərdi.

Deterdinqin və digər mürtəce qüvvələrin fitnəsilə sovet neftindən üz çevirmiş Fransa hökuməti öz səhvini çox keçməmiş başa düşdü. O, qəti yəqin etdi ki, Mosul nefti əldə edilənə qədər Fransanı, keyfiyyətcə sovet neftindən aşağı, qiymətcə isə xeyli baha olan İngiltərə neftilə, yəni "Royal datç-şell" və "İngilis-İran neft şirkəti" məhsulları ilə təmin etmək ölkənin iqtisadiyyatına açıqdan-açığa zərbə vurmaqdır. Bunu, hökumətlə yanaşı, neft ticarəti səlahiyyətini öz əllərinə almış kapitalistlər də artıq anlamışdır. Məhz bütün bunların nəticəsi idi ki, burada



sovet neftinə göstərilən siyasi və iqtisadi müqavimət uğurlu olmadı və Fransa bazarına onun axınının qarşısını ala bilmədi. Dünya iqtisadi böhranı illərində, beynəlxalq vəziyyətin olduqca gərgin olduğu şəraitdə sovet neftinin mövqeyi Fransada nəinki zəifləmədi, əksinə, daha da möhkəmləndi.

Faktlara müraicət edək.

1929-cu ildə SSRİ-nin Fransaya ixrac etdiyi neft məhsullarının ümumi miqdarı 374097 ton olduğu halda, bu 1930-cu ildə bu göstərici 550975 tona, 1931-ci ildə 837496 tona, 1932-ci ildə isə 867224 tona çatmışdı[1]. Deməli, dünya böhranı illərində buraya ixrac edilən sovet neft məhsulları nəinki azalmamış, əksinə 1932-ci ildə 1929-cu ildəki miqdara nisbətən 2 dəfədən də çox artmışdı. 1932-ci ildə Fransa idxalının 20,9 faizini təkcə sovet neft məhsulları təşkil etmişdi[2].

Fransa iqtisadiyyatında sovet neft məhsullarının özünə getdikcə daha möhkəm yer etməsini biz müqayisə edilən illərdə benzin məhsulunun tutduğu mövqedən də bir daha aydın görə bilərik. 1929-cu ildə Fransanın istehlak etdiyi benzinin ümumi miqdarından SSRİ-nin payına cəmi 11,7 faiz düşdüyü halda, 1930-cu ildə 16,1 faiz, 1931-ci ildə 23,8 faiz, 1932-ci ildə isə 28,7 faiz düşmüşdü[3].

Neft məhsullarının digər növləri üzrə də biz belə əhəmiyyətli halı müşahidə edirik. Məsələn, Fransanın 1931-ci ildə idxal etdiyi sürtkü yağının 11,9 faizini, qazoy-

[1] "Внешняя торговля СССР за 20 лет", с. 133
[2] RF XTMDA, f. "Союзнефтэкспорт", siyahı 2, iş 95, vər. 181-182
[3] Yenə orada

lun 11,2 faizini, mazutun 20,2 faizini sovet məhsulları təşkil etdiyi halda, 1932-ci ildə bu rəqəmlər artıb, müvafiq olaraq 13,4 faiz, 20,2 faiz və 31,9 faizə çatmışdı[1]. Bütün bu faktlar kifayət qədər aydın göstərir ki, Fransada sovet neftinin mövqeyi dünya iqtisadi böhranını illərində əvvəllərə nisbətən daha da möhkəmlənmişdi.

Dünya iqtisadi böhranı illərində Almaniyaya sovet neft məhsulları ixracı sahəsində əldə edilən nəticələr də sovet neftinin qələbəsi kimi qiymətləndirilməlidir. Buraya 1929-cu ildə 449350 ton, 1930-cu ildə 448939 ton, 1931-ci ildə 399302 ton, 1932-ci ildə isə 540369 ton sovet neft məhsulları göndərilmişdi[2]. Bu rəqəmlərdən aydın görünür ki, dünya iqtisadi böhranının ilk illərindən 1931-ci ilədək buraya ixrac edilmiş neft məhsullarının miqdarı müəyyən qədər azalmış və bunun əksinə olaraq, 1932-ci ildə isə birdən-birə xeyli artmışdı.

Almaniyaya ixrac edilmiş sovet neft məhsulları miqdarında baş verən bu azalma halları heç də burada sovet məhsullarına göstərilən müqavimətin artması, sovet neftinin mövqeyinin getdikcə zəifləməsi kimi deyil, Almaniya iqtisadiyyatına dünya böhranının göstərdiyi təsirlə xarakterizə edilir.

Dünya iqtisadi böhranı illərində Fransada neft məhsullarına olan tələb artdığı halda, Almaniyada böhranın təbii nəticəsi olaraq, bütövlükdə neft məhsulları istehlakının və idxalının getdikcə azalması müşhahidə edilirdi. Məsələn, 1929-cu ildə buraya 2512 min ton, 1930-cu

[1] RF XTMDA, f. "Союзнефтэкспорт", siyahı 2, iş 95, vər. 181-182
[2] "Внешняя торговля СССР за 20 лет", с. 132



ildə 3135 min ton neft məhsulları idxal edildiyi halda 1931-ci ildə bu göstərici 2776 min tona, 1932-ci ildə isə 2283 min tona enmişdi. Deməli, hələ 1931-ci ildə idxal 1930-cu ilə nisbətən orta hesabla 11,4 faiz azalmışdı[1].

Hesablamalar göstərir ki, böhran dövründə sovet neft məhsulları miqlarında olan bəzi azalma heç də ümumi miqdar etibarı ilə azalma deyildi. Əksinə böhran illərində bura ixrac edilən neft məhsulları nəinki azalmamış, hətta bir qədər artmışdı. Bunu sübut etmək üçün 1929-1932-ci illərdə bura ixrac edilmiş sovet neft məhsullarının ümumi miqdarını toplamaq kifayətdir. Əldə edilmiş 1837960 tonu biz 4 ilə bölmüş olsaq, o zaman illik orta ixrac miqdarı olan 459490 tonu alarıq ki, bu da 1929-cu ildə ixrac edilmiş 449350 tondan 10140 ton artıqdır. Deməli, buradan belə nəticə çıxarmaq olur ki, dünya iqtisadi böhranı illərindən nəticə etibarı ilə Almaniyaya sovet neft məhsulları ixracı nəinki azalmamış, hətta az da olsa artmışdı.

Böhran illərində Almaniyada sovet neftinin mövqeyinin daha da möhkəmlənməsini başqa bir faktdan da daha aydın görmək olar. 1932-ci ilin birinci yarısında 1931-ci ilin həmin dövrünə nisbətən Almaniyada benzin istehlakı 36,6 faiz, ağ neft istehlakı 39,15 faiz, qazoyl istehlakı 8,48 faiz, sürtkü yağı istehlakı 22,82 faiz azaldığı halda[2], Sovet İttifaqının həmin məhsullar üzrə etdiyi ixracın miqdarı əhəmiyyətli dərəcədə artmışdı. 1931-ci ilin birinci yarısında Almaniyanın idxal etdiyi benzinin 18,82

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 19
[2] Yenə orada, iş 258, vər. 23

faizini, ağ neftin 8,5 faizini, qazoylun 16,43 faizini və sürtkü yağının 24,9 faizini sovet məhsulları təşkil edirdisə[1], 1932-ci ilin birinci yarısında bu benzin üzrə 29,6 faizə, ağ neft üzrə 29,37 faizə, qazoyl üzrə 33,88 faizə və sürtkü yağı üzrə isə 39,25 faizə qalxmışdı[2].

Maraqlı burasıdır ki, Deterdinq böhran illərində nəinki "yad ölkələrdə" – Fransa və Almaniyada, hətta özünə "vətən" hesab etdiyi İngiltərədə də sovet neftini sıxışdıra bilməmişdi. İngiltərədə fəaliyyət göstərən Sovet neft təşkilatı "ROP"-un xüsusi ticarət şəbəkəsi böhran illərində, demək olar ki, bütün ölkəni bürümüşdü. Onun artıq 1930-cu ildə London, Bristol, Birmingem, Kardif, Plimus, Şeffild, Qreyt Yarmus, Dublin və Liverpul şəhərlərində 9 şöbəsi geniş fəaliyyət göstərirdi[3].

1929-cu ildə Almaniyanın istehlak etdiyi benzinin 50,4 faizi təkcə ABŞ-ın payına düşdüyü halda, 1931-ci ildə bu 40,1 faizə enmişdi. Müqayisə edilən illərdə isə SSRİ-nin payı 18,8 faizdən 22,1 faizə qalxmışdı. Yaxud həmin illərdə ABŞ-ın Fransaya ixrac etdiyi benzinin miqdarı 17,6 faiz, İtaliyaya ixrac etdiyi benzinin miqdarı isə 31 faiz azaldığı halda, SSRİ-nin həmin ölkələrə benzin ixracı göstərilən illərdə müvafiq olaraq 12,1 faiz və 6,1 faiz artmışdı[4].

Sovet nefti, 1929-1932-ci illərdə neft ixrac edən kapitalist dövlətlərini və trestlərini yalnız göstərilən ölkələr-

---

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 19
[2] Yenə orada
[3] В.И.Легат и П.М.Шох. "Нефтяной экспорт и его значение в советском хозяйстве", с. 36
[4] "Мировое хозяйство и мировая политика", № 7-8, 1932, с. 220



də və təkcə benzin məhsulu üzrə deyil, bütün Avropa ölkələrində, bütün məhsullar üzrə sıxışdırmışdı. Təkcə bu faktı gətirmək kifayətdir ki, 1928-ci ildə Avropaya ixrac edilmiş neft məhsullarının 38,8 faizi ABŞ-ın payına düşdüyü halda, 1932-ci ilin sonunda bu göstərici 18,6 faizə enmişdi. Həmin müddətdə isə Avropa ölkələrinin ixracatında sovet neftinin xüsusi çəkisi 8,4 faizdən 11,1 faizə qalxmışdı[1].

Avropada bazarlar üzərində gedən mübarizədən sovet nefti həmişə qələbə ilə çıxırdı. Mübarizəyə davam gətirməyən ixracçı dövlətlər və dünya trestləri geri çəkilməyə məcbur olurdular. Bu cəhətdən "Soyuznefteksport"un İtaliya nümayəndəsinin 1931-ci il hesabatındakı fakt olduqca xarakterikdir. Orada deyilirdi: "Dünya böhranı nəticəsində burada da neft məhsullarına olan tələbin azalması bazar uğrunda gedən mübarizənin kəskinliyini artırmışdır. Hər ton məhsulun satışı uğrunda, hər bir alıcı uğrunda inadlı mübarizə gedir. Dünya trestləri bu mübarizədə istənilən qədər vəsait sərf etməkdən çəkinmirlər...

Benzin uğrunda mübarizə və bizə qarşı çıxışlar daha xarakterikdir. 1931-ci ilin mayında "Soyuznefteksport" ilə "Acip" arasında benzin üzrə bağlanan müqavilədən sonra "Standart oyl"un nümayəndəsi bildirmişdi ki, onun mərkəzi aparatının göstərişi vardır ki, milyon dollar itirmək hesabına olsa da, burada bir qram da olsun əlavə sovet benzininin satılmasına yol verilməsin.

Bu mübarizədə "Standart oyl" və "Royal datç-şell" bizə qarşı birgə hərəkət edərək, qiymətləri xeyli aşağı sal-

---

[1] "Нефтяное хозяйсто", № 1, 1936, с. 64

dılar. Benzinin qiyməti 1930-cu ilin sonuna nisbətən 1931-ci ilin sentyabrında Neapolda, Milanda, Romada və Turində kəskin surətdə aşağı düşdü.

Bu qiymət mübarizəsində dünya trestləri küllü miqdarda itki verdikləri halda, İtaliya bazarında sovet neftinə qalib gələ bilmədilər. Çünki sovet nefti burada özünü möhkəmləndirmək üçün hər cür imkana malik idi. Buradakı bazarlar əsasən, onun agenti olan "Acip"in əlində idi. 6-7 aydan sonra dünya trestləri özləri məcbur oldular ki, mübarizəni dayandırsınlar.

1931-ci ilin sonunda "Standart oyl" və "Royal datç-şell" tresti ilə "Acip" arasında İtaliyada vahid qiymət tarifi haqqında saziş imzalandı"[1].

Faktlar göstərir ki, sovet nefti kapitalist neft inhisarları ilə mübarizədə təkcə Avropada deyil, digər bazarlarda da üstün gəlirdi. Bu cəhətdən, "Standart oyl" üçün iqtisadi və siyasi mülahizələrə görə çox qiymətli olan Türkiyə bazarı olduqca xarakterikdir.

Dünya bazarında kapitalist neft inhisarları ilə mübarizədə sovet neftinin əldə etdiyi müvəffəqiyyəti acı da olsa, dünya trestləri və onlara xidmət edən burjua mətbuatı da açıqdan-açığa etiraf edirdilər.

Yaponiyada çıxan "Sekuye dzixo" ("Neft") jurnalı hələ 1930-cu il tarixli nömrələrinin birində kapitalist neft inhisar birliklərinin dünya bazarındakı müvəffəqiyyətsizliklərindən bəhs edərək yazırdı: "...Amerika, İngiltərə və Rumıniya neft məhsulları tədricən özlərinin əvvəlki təsirlərini itirir və öz mövqelərini dünya bazarında getdikcə

[1] RF XTMDA, f. "Союзнефтэкспорт", siyahı 1, iş 273, vər. 3



möhkəmləndirməkdə olan sovet neftinə təslim edirdilər"[1].

Dünya bazarında kapitalist neft inhisar birlikləri ilə mübarizədə sovet neftinin müvəffəqiyyətini təmin edən başlıca amil nə idi?

Dünya iqtisadi böhranı illərində sovet neftinin beynəlxalq bazarda müvəffəqiyyətini təmin edən əsas səbəblər sırasında Sovet dövlətinin bu sahədə vaxtında gördüyü iqtisadi-siyasi və texniki xarakterli tədbirlərin həlledici rolu və əhəmiyyəti şübhəsiz böyük idi. Lakin bunlarla yanaşı, daha bir neçə obyektiv səbəblər də vardı ki, bu işdə onların rolunu qiymətləndirməmək əsla mümkün deyildir.

Dünya iqtisadi böhranının vurduğu zərbə nəticəsində daha da quduzlaşmış inhisar birlikləri hakim olduqları bazarlarda özbaşınalıqlarını daha da artırır və düşdükləri ziyanın müəyyən hissəsini öz istehlakçılarını soymaq hesabına ödəməyə cəhd edirdilər. Bu hal zəif, az inkişaf etmiş və asılı ölkələrdə daha çox hiss edilirdi. Həmin ölkələrin xalqları sovet neftinə öz xilaskarları kimi baxır, öz hökumətlərindən sovet dövlətilə neft əlaqəsinə girməyi tələb edir, sovet neftini öz ölkələrində rəğbətlə qarşılayırdılar. Məsələn, indiyədək "Royal datç-şell" və "Standart oyl" trestləri tərəfindən təchiz edilən Hicaz (Hicaz Qərbi Ərəbistanda bir dövlət idi. Hazırda Səudiyyə Ərəbistanının tərkibinə daxildir – Ə.Ə.), Həbəşistan (Efiopiya) və digər Afrika ölkələri 1931-ci ildə "Soyuzneftеksport"a müraciət edərək, həmin ölkələrə ağ neft və

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 114, vər. 1

benzin gətirilməsini ondan xahiş etmişdilər.[1] "Soyuznefteksport" Hindistan, Yeni Zelandiya, Kanada, Cənubi Mancuriya və bu kimi digər ölkələrdən də belə təkliflər almışdı[2].

Sovet neftinin həmin bazarlara çıxması dünya trestlərinin buradakı qiymət özbaşınalığına son qoyur, ölkənin iqtisadiyyatı və əhalisinin neft məhsulları ilə təmin edilməsi işini xeyli asanlaşdırırdı. Buna görə də istehlakçılar və ölkənin iqtisadi inkişafında yaxından marağı olan mütərəqqi qüvvələr burada sovet neftinin müttəfiqinə çevrilir, dünya trestlərilə mübarizədə ona hərtərəfli yardım göstərirdilər.

"Soyuzneftеksport"un Hindistandakı nümayəndəsinin 1932-ci ilə aid verdiyi rəsmi məlumatlarının birində deyilirdi: "...Sovet nefti, indiyədək Hindistan bazarında özbaşınalıq edən "Royal datç-şell" və "Standart oyl" trestləri tərəfindən süngü ilə qarşılandı. Burada böyük rəğbətlə qarşılanan sovet neftinin Hindistan bazarına daxil olması, dünya trestlərinin özbaşınalığının sonu demək idi.

Sovet neftinin gəlişi ilə indiyədək dözülməz olan qiymətlər birdən-birə xeyli aşağı düşdü. Təkcə bunu göstərmək kifayətdir ki, 1932-ci ilin avqustunda burada hər vaqon-sistern benzinin qiyməti 21,5 ann olduğu halda, həmin ilin sentyabrında bu 17 anna düşdü. Neft bazarında yaranmış bu vəziyyətə yerli, milli mətbuat böyük qiymət verir, sovet neftinin öz xilaskarı kimi alqışlayır. Mətbuat sovet neft məhsulları ticarəti ilə məşğul olan milli

[1] И.Гертик. "...По красному морю", М., 1933, с. 5
[2] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 3, iş 89, vər. 345



firmalara hərtərəfli kömək göstərir və dünya trestlərinin hücumlarından qorunmasına yardım edir"[1].

Sovet neftinin beynəlxalq müvəffəqiyyətini təmin edən obyektiv səbəblər təkcə bu və ya digər ölkədə kapitalist inhisar birliklərinin "neft əsarətindən" xilas olmaq üçün göstərilən səylərdən ibarət deyildi. Buraya iqtisadi və siyasi əsarətdən xilas olmaq səyləri də əlavə edilməlidir.

Adətən, bu və ya digər bazarı ələ keçirmiş kapitalist inhisar birliyi orada öz fəaliyyətini təkcə "neft məsələsilə" məhdud etmir, həmin ölkənin daxili işlərinə qarışmaq təşəbbüsü də göstərirdilər. Bu işdə inhisar birliklərinin mənsub olduqları dövlətlər də onlara yaxından kömək edir, neft məhsullarına ehtiyacı olan ölkələrə öz iradələrini qəbul etdirməyə çalışırdılar. Bu hala bəzi dövlətlər dözdükləri halda, bir çoxları etiraz edir və onların daxili işinə qarışmağın başlıca səbəbkarlarından olan həmin dövlətin neft məhsulundan imtina edirdi. Bununla da sovet nefti üzünə daha bir bazarın qapıları taybatay açılmış olurdu. Dünya trestlərinin neft məhsullarından imtina etmiş dövlət çox yaxşı bilirdi ki, "Sovet neft sindikat" təşkilatı neft məhsulları ixrac etməkdən başqa digər heç bir məqsəd güdmür.

1932-ci ildə Yuqoslaviyada yaranmış vəziyyət bu yuxarıda göstərilənlər üçün olduqca xarakterikdir. Bəhs edilən dövrdə Yuqoslaviya Avropada yeganə ölkə idi ki, buraya sovet neft məhsulları ixrac edilmirdi. Bazar "Standart oyl" və "Royal datç-şell" trestləri arasında bölüşdürülmüşdü. Onlar burada açıqdan-açığa hökmranlıq edir-

[1] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 2, iş 95, vər. 270

dilər. 1932-ci ildə iqtisadi böhranla əlaqədar olaraq büdcədə yaranmış kəsiri ödəmək məqsədilə Yuqoslaviya hökuməti ölkəyə gətirilən bütün mallar üzərinə gömrük vergisini bir qədər artırmağa məcbur oldu[1]. Yuqoslaviya neftlə yanaşı, həm də xeyli miqdarda digər məhsullar idxal edirdi. Yuqoslaviya hökumətinin gördüyü bu iqtisadi tədbirdən narazı qalmış ABŞ və İngiltərə hökumətləri onu pozmaq üçün öz neft trestlərini "köməyə" çağırdılar[2]. "Standart oyl" və "Royal datç-şell" buna cavab olaraq, Yuqoslaviya hökumətinin tədbirinə qarşı "tətil" elan etdilər[3]. Onlar ölkəyə neft məhsulları göndərməkdən boyun qaçırdılar. Yuqoslaviyada neft böhranı yarandı.

Hökumət vəziyyətdən çıxmaq üçün "Soyuznefteksport"a müraciət etdi[4]. O, bildirirdi ki, buraya gətiriləcək sovet neft məhsullarına qoyulacaq gömrük haqqında ayrıca danışmağa hazırdır. 1932-ci ilin sonlarında Dunay vasitəsilə Yuqoslaviyaya sovet neft məhsulları gətirmək barədə hökumət təşkilatları ilə "Soyuzneft eksport" arasında danışıqlar başlandı və tezliklə razılıq əldə edildi[5].

Bilavasitə Yuqoslaviyaya aid olan bu faktı biz öz müstəqilliyini saxlamağa səy edən Avropanın digər dövlətlərinə də (Çexoslovakiya, Belçika, Bolqarıstan və s.) şamil edə bilərik. Həmin dövlətlər dünya trestlərinin iqtisadi və siyasi şantajına imkan verməmək və öz müstəqilliklərini qoruyub saxlamaq sovet neftinə bir müttəfiq kimi

[1] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 2, iş 95, vər. 52
[2] Yenə orada
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada, vər. 53



baxır, dünya trestlərinin "xidmətindən" üz döndərərək, həvəslə sovet neftinə doğru meyil edirdilər.

Deməli, öz neftinə malik olmayan bu və ya digər ölkələrin öz müstəqilliyini saxlamaq uğrunda bilavasitə apardığı mübarizə, nəticə etibarilə, həm də burada sovet neftinə yol açmaq uğrunda gedən mübarizə idi.

Bütün bu yuxarıda gətirilən amillərin nəticəsində dünya iqtisadi böhranı illərində də sovet neftinə qarşı göstərilən ciddi müqavimətə baxmayaraq o, beynəlxalq miqyasda nəinki öz köhnə mövqelərini qorunub saxlaya bilmiş, hətta bir çox yeni bazarlar da əldə etmişdi.

SSRİ artıq 1929-1932-ci illərdə dünyanın 30 dövlətinə neft və neft məhsulları ixrac edirdi[1].

Maraqlı burasıdır ki, böhran illərində nefti olmayan, yaxud kifayət qədər olmayan dövlətlərlə yanaşı, Rumıniya, İran kimi zəngin neft yataqlarına malik dövlətlər də sovet neftindən imtina etməmişdilər[2]. Bu, sovet neftinin həm keyfiyyətcə yüksək, həm də qiymətcə ucuz olmasından irəli gəlirdi. Həmin ölkələrdə neft hasil edən trestlər ("Standart oyl", "Royal datç-şell", "İngilis-İran" şirkəti) əldə edilmiş məhsulu daha artıq fayda götürmək üçün digər bazarlara aparır, yaxud da onu elə oradaca xeyli baha qiymətə satırdılar. Buna görə də həmin ölkələr özləri üçün lazım olan neft məhsullarını Sovet İttifaqından almağa məcbur olurdular.

Beləliklə, yuxarıda göstərilən faktlardan belə bir ümumi nəticəyə gəlmək olar ki, kapitalist neft inhisar bir-

[1] Внешняя торговля СССР за 20 лет", с. 132-135
[2] Yenə orada

liklərindən fərqli olaraq dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracı xeyli artmışdı. 1929-cu ildə 3816,4 min ton, 1930-cu ildə 4803,1 min ton, 1931-ci ildə 5280,0 min ton, 1932-ci ildə isə 6054,9 min ton neft və neft məhsulu ixrac edilmişdi[1]. Deməli, 1929-cu ildə ixrac edilmiş sovet neft məhsulları 1928-ci il miqdarından 26,8 faiz, 1930-cu ildə 1929-cu il miqdarından 24,6 faiz, 1931-ci ildə 1930-cu il miqdarından 12,6 faiz, 1932-ci ildə isə 1931-ci il miqdarından 14,5 faiz çox idi[2].

SSRİ-nin neft ixracının ildən-ilə artdığını daha aydın təsəvvür etmək üçün başqa bir fakt gətirmək də mümkündür.

Sovet İttifaqının ixrac etdiyi neft məhsulları 1930-cu ildə ümumiyyətlə onun əmtəə ixracının 15,2 faizini təşkil etdiyi halda, 1932-ci ildə bu, 18,6 faizini təşkil edirdi[3].

Bu göstərilən illərdə SSRİ-nin ümumiyyətlə, əmtəə ixracının azalması nəticəsində deyil, neft məhsulları ixracının böyük həcmdə artması ilə izah edilməlidir.

Bütün bu faktlar əyani surətdə bir daha onu göstərirdi ki, sovet nefti hər cür müqavimətə baxmayaraq, dünya təsərrüfatında, dünya iqtisadiyyatında özünə möhkəm mövqe qazana bilmişdi. 1932-ci ildə bütün dünyada işlədilən benzinin 15,3 faizini, ağ neftin 19,8 faizini, sürtkü yağının 18,2 faizini, xam neftin 10,4 faizini Sovet İttifaqı ixrac edirdi[4].

---

[1] "Мировая нефтяная торговля", М.-Л., 1936, с.114.
[2] RF XTMDA, f. "Союзнефтэкспорт", siyahı 3, iş 89, vər. 51
[3] "Нефтяное хозяйсто", № 2, 1937, с. 30
[4] "Внешняя торговля", № 2, 1937, с. 30



1932-ci ildə İngiltərənin istehlak etdiyi neft məhsullarının 8,9 faizini, Fransanın 25,9 faizini, İspaniyanın 57,8 faizini və s. Sovet İttifaqı verirdi[1].

Hələ 1931-ci ildə SSRİ neft məhsulları ixracı həcminə görə dünya üzrə ikinci yerdə gedirdi[2]. Həmin il ölkədə hasil edilmiş neftin ümumi miqdarının 28,7 faizi dünya bazarlarına ixrac edilmişdi[3].

Dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracı sahəsində əldə edilən müvəffəqiyyətlər təkcə kəmiyyət göstəricilərindən ibarət deyildi. Bəhs edilən dövrdə neft məhsullarının növlərinə görə ixracında da ciddi dəyişiklik baş vermişdi. Gər 1924-25-ci ildə Sovet İttifaqının ixrac etdiyi neft məhsullarının ümumi miqdarında benzinin payına cəmi 20,1 faiz düşürdüsə, bu, 1930-cu ildə bu pay 30,6 faizə, 1931-ci ildə 33,8 faizə, 1932-ci ildə isə 33,1 faizə qalxmışdı[4]. Həmin müddətdə ağ neftin xüsusi çəkisi 31 faizdən 13,1 faizə, sürtkü yağının xüsusi çəkisi 7,1 faizdən 3,3 faizə enmiş, xam neftin çəkisi isə 36 faizdən 49,5 faizə qalxmışdı[5].

Sovet neft ixracında məhsul növlərinə görə baş vermiş bu dəyişikliklər dünya bazarındakı hansı məhsula daha çox tələbat olmasını əks etdirməklə yanaşı, həm də sovet neft sənayesinin inkişafını, Sovet dövlətinin dünya bazarında məhsulların növlərinə görə geniş manevr etmək imkanına malik olduğunu göstərirdi.

---

[1] "Мировая нефтяная торговля", с. 114
[2] "Известия", № 195, 16 iyul 1932-ci il.
[3] RF XTMDA, f. 7735, siyahı 12, iş 322, vər. 1
[4] "Мировая нефтяная торговля", с. 112
[5] Yenə orada

Dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracı sahəsində əldə edilmiş ən görkəmli müvəffəqiyyətlərdən biri də satış bazarlarında sovet neftinin xeyrinə gedən dəyişiklikdən ibarət idi.

Məlum olduğu kimi, "Soyuzneftekspört" dünya bazarında özü müstəqil çıxış etməklə yanaşı, həm də öz məhsullarının böyük bir hissəsini digər kanallar vasitəsilə ixrac edirdi. 1931-ci ildə Sovet dövlətinin ixrac etdiyi neft məhsullarından 20 faizi "Soyuzneftekspört"un xaricdəki xüsusi aparatı vasitəsilə, 48 faizi xarici dövlətlərin müstəqil satış formaları vasitəsilə, 22 faizi dünya trestləri vasitəsilə, 10 faizi isə xarici ölkələrin dövlət müəssisələri tərəfindən aparılmışdı[1]. 1932-ci ildə isə dünya trestləri tərəfindən satılan sovet neftinin ümumi miqdarı 22 faizdən 16 faizə enmiş, " Soyuzneftekspört"un öz xüsusi aparatı vasitəsilə satılan məhsulun miqdarı 20 faizdən 23 faizə, müstəqil firmalar vasitəsilə satılan miqdar isə 48 faizdən 51 faizə qalxmışdı. Xarici ölkələrin dövlət müəssisələri tərəfindən satılan neft məhsullarının miqdarı isə eyni səviyyədə qalmışdı[2].

Satış bazarlarında baş vermiş bu dəyişikliyin əhəmiyyəti hər şeydən əvvəl onda idi ki: a) "Soyuzneftekspört"un öz xüsusi apparatı vasitəsilə satdığı məhsulun miqdarı bir il ərzində 3 faiz artmışdı. Sovet neft məhsullarının bilavasitə öz markası ilə alıcılara çatdırılmasının qiymət cəhətdən verdiyi fayda bir tərəfdə dursun, həm də bu sovet neftinin istehlakçılar tərəfindən daha yaxşı tanınması-

[1] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 3, iş 89, vər. 327
[2] Yenə orada



na, dünya trestlərinin məhsullarına nisbətən onun keyfiyyət üstünlüklərini əyani göstərməyə imkan verirdi. Şübhəsiz ki, bu da beynəlxalq bazar üçün az əhəmiyyətə malik deyildi; b) dünya trestlərinin vasitəçiliyi ilə satılan məhsulların miqdarının 6 faiz azalması nəticəsində sovet nefti nəinki təkcə onların şıltaqlığından qismən yaxa qurtarmış, həm də xeyli əlavə gəlir əldə etmişdi (Sovet dövləti dünya trestlərinə neft məhsullarını özü bilavasitə dünya bazarında satdığı qiymətdən aşağı dəyərə verirdi – Ə.Ə.). Bu, həmçinin dünya bazarında kapitalist inhisar birliklərinin sovet neftinə qarşı mübarizə etmək imkanlarını da getdikcə azaldırdı; v) xarici dövlətlərin müstəqil firmaları vasitəsilə satılan sovet neft məhsulları miqdarının 3 faiz artması isə onlarla "Soyuzneftekspört"un işgüzar əlaqələrinin getdikcə möhkəmlənməsini göstərməklə yanaşı, həm də həmin firmaların dünya trestlərindən tədricən uzaqlaşdıqlarını sübut edirdi.

Dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracına dair yuxarıda qeyd edilən faktlar bizə belə bir konkret nəticəyə gəlməyə əsas verir ki, 1929-1932-ci illər kapitalist neft sənayesinin ağır, böhranlı dövrü, sovet neft sənayesinin isə çiçəklənmə, texniki tərəqqi, eninə və dərininə inkişaf illəri olmuşdur.

Sovet dövlətinin vaxtında gördüyü ciddi tədbirlər, Azərbaycan neftçilərin əmək xariqələri nəticəsində neft sənayesi nəinki ölkənin neft yanacağına gündən-günə artan tələbini ödəyə biləcək, hətta küllü miqdarda məhsul ixrac edə biləcək bir inkişaf səviyyəsinə çatdırılmışdı. Sovet neft sənayesinin belə coşqun inkişafı və vaxtında görülmüş digər mühüm tədbirlər beynəlxalq şəraitin sosialist

dövləti üçün xeyli mürəkkəb olmasına baxmayaraq, sovet neftinə dünya bazarında kapitalist inhisar birlikləri ilə qızın mübarizə gedişində öz mövqeyini qoruyub saxlamaq və onu daha da möhkəmləndirmək imkanı vermişdi.

Faktlar göstərir ki, dünya iqtisadi böhranı illərində Sovet İttifaqı neft məhsulları ixracını ildən-ilə artıran yeganə dövlət idi (Öz neft rayonlarını əsasən dünya trestlərinə təslim etmiş Rumıniya nəzərə alınmır – Ə.Ə.).

Dünya iqtisadi böhranı illərində kapitalist neft sənayesi böhran məngənəsi arasında sıxıldığı və dünya trestlərinə bundan milyonlarla ölçülən ziyan dəydiyi halda, böhrandan çox uzaq olan Sovet İttifaqında neft sənayesinin coşğun inkişafı, neft məhsulları ixracı sahəsində əldə edilmiş görkəmli müvəffəqiyyətlər göz qabağında idi.

Dünya neft maqnatları görürdülər ki, nə "Sovet dempinqi" haqqında xaricdə qaldırılmış çığır-bağırlar, nə beynəlxalq vəziyyətin Sovet dövləti üçün xeyli mürəkkəbləşməsi, nə imperialist dövlətləri tərəfindən hazırlanan və onların özlərinin fəal iştirak etdikləri hərbi müdaxilə "planı", nə Deterdinqin Avropa səfəri, nə də dünya bazarında sovet neftinə qarşı başlanan qiymət müharibəsi və s. heç də onların gözlədikləri nəticəni vermədi. Sovet nefti nəinki dünya bazarından sıxışdırılmadı, əksinə, o, daha yeni-yeni mövqelər əldə etdi.

Kapitalist inhisar birlikləri dünya iqtisadi böhranı illərində sovet neftinə qarşı mübarizə məqsədilə milyonlarla vəsait sərf etmələrinə baxmayaraq, sovet neftinin beynəlxalq nüfuzu daha da artmışdı.

İqtisadi böhran illərində dünya kapitalist təsərrüfatında və sosialist iqtisadiyyatında baş vermiş dəyişikliklərlə əlaqədar olaraq neft uğrunda beynəlxalq mübarizə xeyli genişlənmiş, onun forma və məzmunu da dəyişmişdi.



Bildiyimiz kimi əvvəllər dünya neft trestləri arasında gedən mübarizənin əsasını yeni neft mənbələri ələ keçirmək məqsədi təşkil edirdi. ABŞ hökuməti ölkənin neft ehtiyatının "tükənməsi təhlükəsi" pərdəsi altında xaricdə "Royal datç-şell"-ə nisbətən daha az hasilat rayonuna malik olan "Standart oyl"a hərtərəfli yardım edir, onun hansı yol ilə olur-olsun, yeni neft rayonu ələ keçirmək təşəbbüsünə tərəfdar çıxırdı.

"Nyu-York Tayms" öz nömrələrinin birində ABŞ hökumətinin neft uğrunda gedən beynəlxalq mübarizədə mövqeyini çılpaqlığı ilə şərh edərək yazırdı: "Dövlət katibi Yuz, indiki hökumətin hazırkı vəziyyətdə (neft uğrunda gedən mübarizə – Ə.Ə.) maraqlı olan yeganə üzvü deyildir. Ticarət naziri Huver Vaşinqton bürosunun müşavirəsində neft sənayeçilərinə bildirmişdi ki, onlar xaricdə öz paylarını artırmağa səy göstərməlidirlər. Əgər əvvəllər hökumət öz vətəndaşlarına bu sahədə açıq kömək etməyə ehtiyatla yanaşırdısa, indi belə bir mövqe tutur ki, onun bu işə həm hərbi, həm də diplomatik yol ilə kömək göstərəcəyinə hər cür ehtimal vardır"[1].

Huver, ABŞ hökumətinin öz vətəndaşlarına neft uğrunda mübarizədə köməyini ehtimal etdiyi halda, neft dairələrinə yaxın olan digər hökumət üzvü Trameri açıq-açığına bildirirdi ki, "Standart oyl" üzərinə kim hücum edirsə, o, eyni zamanda bilavasitə Vaşinqton üzərinə hücum edir. Artıq neft uğrunda gedən mübarizə... trestlər

---

[1] "Nyu-York Tayms", 23 mart 1924-cü il

arasında gedən mübarizə deyildir, bu dövlətlər arasında gedən mübarizədir"[1].

Məlum olduğu kimi, nefti olan bu və ya digər dövlətin neft sahələri əsasən, dünya trestləri tərəfindən tamamilə ya qismən ələ keçirildiyi halda (məsələn, Venesuela, İran, Rumınıya və s.), ABŞ-da neftçıxarma sahələri ayrı-ayrı ştatlara və xüsusi şəxslərə məxsus idi. 1930-cu ildə ABŞ-da neft hasilatı ilə məşğul olan 7000-ədəbiyyat qədər kompaniya, şirkət və ayrı-ayrı şəxslər var idi.[2] Beynəlxalq miqyasda isə ABŞ-ı əsasən "Standart oyl" təmsil edirdi.

Mövcud olan çoxsaylı faktlar aydın göstərir ki, Birinci dünya müharibəsindən sonra ABŞ ilə İngiltərənin münasibətlərində olan ziddiyyətlərdə neft uğrunda mübarizə heç də ikinci dərəcəli olmayıb, Amerika və İngiltərə imperialistləri arasında ölüm və həyat uğrunda gedən mübarizə idi.

Təsadüfi deyildir ki, Kommunist internasionalı İcraiyyə Komitəsinin 1925-ci ildə keçirilmiş V geniş plenumunun qətnaməsində göstərildiyi kimi, ABŞ ilə İngiltərə arasındakı əsas ziddiyyətlər içərisində neft uğrunda mübarizə əvvəlinci yerlərdən birini tuturdu.[3] Hərbi və hərbi dəniz qüvvələri, borclar, xammal və s. üzrə bu iki dövlətlər arasındakı ziddiyyətlər neft uğrunda mübarizədən sonra gəlirdi[4].

Gətirilən konkret faktlardan aydın olar ki, Birinci dünya müharibəsindən sonra neft uğrunda mübarizənin

[1] "Коммунистический интернационал", № 3, 1925, с. 50
[2] "Вопросы внешней торговли", 1931, № 4-5, с. 121
[3] "Коммунистический интернационал" № 12, 1930, с. 13-14
[4] Yenə orada



məzmununu, əsasən yeni neft mənbələri ələ keçirmək təşkil edirdi. Bundan başqa, həmin faktlar bizə digər ikinci bir mühüm nəticəni çıxarmağa əsas verir: Dünya müharibəsindən sonra neft rayonları, əsasən İngiltərənin əlində toplandığı (Burada "Royal datç-şell" və "İngilis-İran" neft kompaniyasının" sahələri nəzərdə tutulur – Ə.Ə.) və Rusiya nefti isə Sovet dövlətinin öz malı kimi toxunulmaz elan edildiyi üçün aydındır ki, "Standart oyl"un və ABŞ-ın mübarizəsi əsasən, İngiltərə və Sovet İttifaqına qarşı yönəlməli idi.

Maraqlı burasıdır ki, Sovet neftini ələ keçirməkdə "Royal datç-şell" tresti "Standart oyl"dan da çox maraqlı idi. Məhz buna görə də hər iki trest arasında gedən mübarizə ikitərəfli mübarizə hesab edilirdi. Əgər "Royal datç-şell" öz xüsusi neft sahələri uğrunda "Standart oyl" ilə müdafiə xarakterli mübarizə aparırdısa, sovet nefti uğrunda mübarizədə isə o həmişə hücum taktikasını seçirdi. Deterdinqin fikrincə, sovet neftinə "Standart oyl" deyil, "Royal datç-şell" məhz bu yol ilə sahib ola bilərdi. Neft uğrunda beynəlxalq mübarizədə Sovet dövləti də iki cəbhəyə qarşı – həm "Royal datç-şell"ə və həm də "Standart oyl"a qarşı vuruşmalı olurdu. Lakin Sovet dövlətinin neft uğrunda mübarizəsi, dünya trestlərinin mübarizəsindən kəskin surətdə fərqlənirdi. Dünya trestləri başqasının neft zənginliklərini ələ keçirmək uğrunda mübarizə apardıqları halda, Sovet dövlətinin mübarizəsi sırf özünü müdafiə xarakteri daşıyırdı.

Birinci dünya müharibəsindən sonra neft mənbələri uğrunda genişlənən mübarizə dünya iqtisadi böhranına qədər bütün qüvvəsilə davam edirdi. 1929-cu ildə başla-

yan dünya iqtisadi böhranı, yuxarıda qeyd edildiyi kimi, neft uğrunda gedən beynəlxalq mübarizənin forma və məzmununu qismən dəyişdi. Bu, neft uğrunda mübarizə cəbhəsində mövcud şəraitdən doğan qısa müddətli dəyişiklik idi.

Əvvəllər dünya neft ehtiyatlarını bölmək uğrundakı mübarizə ön planda getdiyi halda, dünya iqtisadi böhranı ilə əlaqədar olaraq bu, öz yerini əvvəllər arxa planda duran bazarlar uğrundakı mübarizəyə verdi. İndi dünya trestlərini yeni sahələr əldə etməkdən çox, mövcud sahələrdən alınmış küllü miqdarda neft məhsullarını satmaq daha artıq maraqlandırırdı. Dünya iqtisadi böhranı satış bazarları haqqında düşünməyi daha artıq vacib etmişdi. Lakin bu, heç də neft mənbələri uğrunda gedən mübarizənin nə zəifləməsi, nə də kəsilməsi demək idi. Bu mübarizə dünya iqtisadi böhranı illərində də davam edirdi. Lakin o, əsasən aşağıdakı səbəblərə görə özünə bir növ spesifik forma almışdı:

1. 1929-cu ilin əvvəllərinə yaxın dünya neft ehtiyatları, əsasən bölünüb başa çatmışdı. Yenidən bölüşdürmək məsələsi yaxın illərin problemi kimi irəli sürülə bilərdi. Şübhəsiz ki, "Standart oyl" "Royal datç-şell"in neft ehtiyatı hökmranlığına təsir göstərmək fikrindən əsla əl çəkə bilməzdi. Lakin bu dövrdə yeni satış bazarları əldə etmək məsələsi həm onun üçün, həm də "Royal datç-şell" üçün daha aktual məsələ idi. Dünya trestləri bu cəhətdən milyon dollarla gəlir itirməli olurdular.

2. Sovet neft sənayesinin yenidən qurulması sahəsində əldə edilmiş tarixi nailiyyətlər, dünya trestlərinin sovet neftinə sahib olmaq ümidinə qəti son qoymuşdu (Burada, əsasən konsessiya məsələsi nəzərdə tutulur – Ə.Ə.). İndi onların arasında hansının Bakı neftinə sahib olması uğrunda mübarizə gedə bilməzdi. Onlar sovet neft mənbələri uğrundakı mübarizəsini sovet neft bazarları uğrundakı mübarizə ilə əvəz etməli olmuşdular.



Bütün bunlar iqtisadi böhran illərində dünya trestlərinin neft uğrunda apardıqları mübarizəyə təsir göstərmiş, onun forma və məzmununda dəyişiklik etmişdi.

Neft bazarları məsələsinin ön plana keçməsi, bu sahədə əvvəllərdə də gedən mübarizəni kəskinləşdirməklə yanaşı, həm də onun iştirakçılarının sayını da xeyli artırmüşdı. Əgər neft mənbələri uğrunda gedən mübarizədə əsas iştirakçılar dünya trestləri və öz milli və neft müstəqilliyini qorumaq üzündən bu mübarizəyə zorla cəlb edilmiş bu və ya digər dövlət nəzərdə tutulurdusa, bazarlar uğrunda gedən mübarizədə dünya trestləri, milli firmalar, idxalçı dövlətlər, yaxından iştirak edirdilər. Bu və ya digər məqsədlə bazarla maraqlı olanlar şübhəsiz bu mübarizədən kənarda qala bilməzdilər. Böhran illərinin əvvəllərində dünya trestlərinin öz aralarında, onlarla müstəqil firmalar arasında, dünya trestləri ilə idxalçı dövlətlər arasında mübarizə daha da güclənmiş və kəskin xarakter almışdı.

"Standart oyl" ilə "Royal datç-şell" arasında bazarlar uğrunda mübarizə meydanı sanki məhdud imiş kimi, bu, hətta gətirilib ABŞ torpağına keçirilmişdi. "Royal datç-şell"in ABŞ-da yeni təşkil etdiyi və Amerika şirkəti kimi qələmə verdiyi "Şell UNİON K°"-nın açılması "Standart oyl"u daha da quduzlaşdırdı. O, "Royal datç-şell"ə qarşı neft məhsullarının qiymətini daxili bazarda

aşağı salmaqla mübarizəyə başladı. Ona görə də, amerikan bazarında dünya iqtisadi böhranı dövründə neft məhsulunun qiyməti digərlərindən çox-çox aşağı düşmüşdü. Doğrudur, bu hal təkcə trestlər arasında gedən qiymət mübarizəsinin nəticəsi deyildi. Buna dünya iqtisadi böhranı və ondan doğan digər amillər də ciddi təsir etmişdi. Lakin bir məsələ qəti surətdə aydındır ki, qiymətlərin aşağı düşməsində dünya trestləri arasında gedən bazarlar uğrunda mübarizə də böyük rol oynamışdı.

Dünya trestləri tərəfindən qiymətlərin süni surətdə aşağı salınmasını biz sovet neft məhsullarının ixracı nümunəsindən də görə bilərik.

Sovet neft ixracına dair əvvəllərdə göstərilən faktlardan aydın olur ki, dünya iqtisadi böhranı illərində sovet neft məhsulları ixracı nəinki azalmamış, hətta bir qədər artmışdı. Lakin buna baxmayaraq sovet neft ixracından əldə edilmiş gəlir isə ildən-ilə azalmışdı. Məsələn, 1930-cu ildə sovet dövləti neft məhsulları ixracından 520469 min rubl gəlir götürdüyü halda, bu göstərici 1931-ci ildə 380500 min rubla, 1932-ci ildə isə 348569 min rubla düşmüşdü[1].

Bu, hər şeydən əvvəl neft trestləri tərəfindən məhsulların qiymətinin süni surətdə aşağı salınmasının nəticəsi idi. Şübhəsiz ki, dünya bazarında neft məhsullarının qiyməti kəskin surətdə aşağı düşdüyü halda, sovet neft məhsulları özünün ixrac kanallarından asılı olmayaraq, sabiq qiymətdə qala bilməzdi.

Bütün bunlardan belə nəticə çıxır ki, bazarlar

[1] "Внешняя торговля СССР" за 1918-1940 гг", М., 1960, с. 129



uğrunda gedən mübarizə onun iştirakçılarına nəinki fayda verməmiş, əksinə, onlar bundan daha da itirmişdilər.

Bazarlar uğrunda mübarizə xırda, müstəqil satış firmaları üçün daha ciddi təhlükə təşkil edirdi. Bu mübarizədə onlar qüdrətli dünya trestlərinin rəqabətinə dözmürdülər. Bəziləri ya öz fəaliyyətlərini dayandırmağa məcbur olur, yaxud da küllü miqdarda ziyana düşürdülər. Varlıqları təhlükə altına düşmüş firmalar dünya trestlərinə qarşı mübarizədə öz hökumətlərindən yardım tələb edirdilər. Məsələn, ABŞ-ın xırda satış firmaları "Standart oyl"un buradakı rəqabətindən müdafiə olunmaq üçün, ölkəyə kənardan gətirilən (ABŞ-a xam neft gətirən əsasən "Standart oyl" idi. O, bunu Venesueladan gətirirdi – Ə.Ə.) xam neft üzərinə dövlət rüsumu qoyulması haqqında senata layihə təqdim etmişdilər[1]. İtaliyanın milli satış firması "Acip" rəqabətdən müdafiə olunmaq üçün müstəqilliyindən əl çəkmiş, hökumət tabeçiliyinə keçmişdi[2]. İspaniya milli firmaları isə hökumətdən neft məhsulları satışı üzərində dövlət inhisarı qoyulmasını tələb etmişdilər[3]. Dünya iqtisadi böhranı illərində bazarlar uğrunda mübarizənin daha da kəskinləşməsi gətirib onun iştirakçılarının qruplaşmasına çıxarmışdı. "Royal datç-şell", "Birma oyl" və İngilis-İran neft şirkəti" öz ticarət aparatlarını birləşdirmişdilər[4]. Rumıniyanın milli firmaları hesab edilən Kreditul, Minye, Petroblok, Syubsolyul və s. beynəlxalq

[1] "Проблемы экономики", № 7, 1930, с. 101
[2] RF XTMDA, f. 1, siyahı 11066, iş 114, vər. 42
[3] Yenə orada
[4] "Нефтяное хозяйсто", № 3, 1932, с. 183

bazarda əlbir hərəkət etmək haqqında razılığa gəldilər[1]. "Standart oyl" trestinin Şərqdə fəaliyyət göstərən filialı "Standart vakuum" ilə "Standart darto of Koliforniya" birləşdi. Onlar ikisi birlikdə 1 milyard dollara yaxın kapitala malik idilər[2].

Bazarlar uğrunda mübarizənin iştirakçılarının qruplaşması onların öz aralarında gedən əvvəlki mübarizəni tamamilə aradan götürməyə və yaxud da heç olmazsa zəiflətməyə, onalara maraqlı olduqları bazarlarda yekdil hərəkət etməyə, öz rəqiblərinə qarşı əlbir mübarizə aparmağa imkan verirdi. Mövcud birləşmələr və qruplaşmalar dünya bazarlarında gedən mübarizənin kəskinliyindən doğduğu kimi, eyni zamanda onların yaranması da bu mübarizəyə yeni məzmun, sərt xarakter verirdi. Məhz bunun nəticəsi idi ki, dünya neft sənayesində və satış bazarlarında "ümumi qayda yaratmaq" üçün nə 1929-cu ildə Amerika neft institutunun təşəbbüsü ilə çağırılmış beynəlxalq müşavirə[3], nə də Deterdinqin bu məqsədlə 1930-cu ildə ABŞ-a etdiyi səfər[4] heç bir müsbət nəticə vermədi. Bu müşavirə və səfərdən sonra bazarlar uğrunda mübarizə nəinki zəifləmədi, əksinə, yeni qüvvə ilə daha da kəskinləşdi[5].

"Standart oyl"un görkəmli nümayəndələrindən

---

[1] "Нефтяное хозяйство", № 3, 1932, с. 183
[2] Yenə orada
[3] ABŞ-da indiyə qədər trestlər əleyhinə 1911-ci il Şerman qanununa formal da olsa riayət edilirdisə, bu açıq və rəsmi birləşmə ilə ona da son qoyulmuş oldu. "Проблемы марксизма", №3, 1930, с. 87
[4] "Проблемы экономики", № 7, 1930, с. 87
[5] "Проблемы марксизма", № 3, 1930, с. 87



olan Valter Tiql dünya bazarında qruplar arasında gedən mübarizədən bəhs edərək göstərirdi ki, onların marağını barışdırmaq əsla mümkün deyildir[1].

Dünya iqtisadi böhranı illərində bazarlar uğrunda gedən mübarizədə sovet nefti dünya trestlərinin fəaliyyət mərkəzində dururdu. Bəhs edilən dövrdə imperialistlərin sovet neftinə qarşı apardıqları mübarizə öz spesifik xüsusiyyətinə görə, ümumiyyətlə beynəlxalq miqyasda gedən neft mübarizəsindən fərqlənirdi.

Dünya iqtisadi böhranı illərində beynəlxalq neft mübarizəsinin əsas obyektini bazarlar təşkil etdiyi halda, sovet neftinə qarşı mübarizə məfhumu altında, yenə də sovet neft mənbələrini ələ keçirmək məqsədi dururdu. İmperialist dövlətlər və onların neft trestləri bu məqsədə ciddi hazırlıq gördükləri hərbi müdaxilə vasitəsilə nail olmaq fikrində idilər. Bu vəziyyət 1931-ci ilin payızına qədər belə davam etmişdi. Lakin bu, heç də o demək deyildi ki, bu dövrdə dünya trestləri tərəfindən sovet neftinin beynəlxalq bazarlarda sıxışdırmaq cəhdi göstərilmir, sovet neft məhsulları ixracına laqeyd yanaşılırdı.

Sovet nefti dünya iqtisadi böhranı illərində əvvəlki illərdən daha ciddi mübarizə şəraitində ixrac edilirdi. Bu, onun nəticəsi idi ki, böhran nəticəsində bazarların alıcılıq qabiliyyətinin aşağı düşməsilə, onun uğrunda gedən mübarizə daha da kəskinləşmişdi. Əvvəllər sovet ixracını təsadüfi bir hal kimi qiymətləndirən və ona bəzən etinasız yanaşan dünya neft trestləri, indi sovet nefti simasında özlərinin əsas rəqiblərindən birini görürdülər.

---

[1] "Вышка", 5 aprel 1930-cu il

Bu dövrdə dünya trestlərinin sovet neftinə qarşı beynəlxalq bazarda apardıqları mübarizədə qarşıda duran məqsəd də əvvəlkindən fərqlənirdi. İndi sovet neftini "oğurluq neft" şüarı altında boykot etmək, dünya bazarına çıxmasına imkan verməmək və yaxud onu sıxışdırmaq yolu ilə ələ keçirməkdən söhbət belə ola bilməzdi. Bu, sovet neftinə qarşı imperialistlərin mübarizəsinin artıq keçilmiş və uğursuz mərhələsi idi. İndi imperialistlər dünya bazarında sovet neftinə qarşı mübarizə aparmaqla onu sıxışdırmaq yolu ilə ələ keçirmək deyil, ancaq burada öz hakim mövqelərini qoruyub saxlamaq məqsədini güdürdülər. Onların fikrincə, bu həm də Sovet dövlətinə ciddi maliyyə ziyanı vurmalı, hərbi müdaxilə işini asanlaşdırmalı və SSRİ-də genişlənən sosializm quruculuğu işini pozmalı idi.

Göründüyü kimi, bu yenə də nəticə etibarı ilə gəlib sovet neft mənbələri uğrunda mübarizəyə çıxarardı. Deməli, imperialistlərin dünya bazarında sovet neftinə qarşı apardıqları mübarizə, ümumiyyətlə sovet neftini ələ keçirmək uğrundakı mübarizəyə tabe olub, yardımçı xarakter daşıyırdı.

Lakin dünya iqtisadi böhranı illərində sovet neft ixracına aid əvvəllərdə gətirilən faktlardan aydın olur ki, imperialist dövlətləri və onların inhisar birliklərinin bu sahədəki mübarizəsi heç bir müsbət nəticə verməmiş, sovet nefti dünya bazarında öz mövqelərini daha da möhkəmləndirmişdi.

Məlum oldu kimi, Sovet İttifaqının yardımları ilə kapitalist ölkələri proletariatının inqilabı fəallığının artması, dünya iqtisadi böhranı və bununla əlaqədar olaraq



kapitalist dünyasındakı inqilabi və milli-azadlıq hərəkatının gündən-günə genişlənməsi, SSRİ ilə həmsərhəd olan dövlətlərdə siyasi vəziyyətin qeyri-sabitliyi, böyük imperialist dövlətlərinin öz aralarındakı ziddiyyətlərin daha da kəskinləşməsi və eləcə də Sovet dövlətinin yeritdiyi ardıcıl və çevik xarici siyasət nəticəsində dünya imperialistləri hərbi müdaxiləni qeyri-müəyyən vaxta qədər təxirə salmağa məcbur oldular.

SSRİ-yə qarşı hərbi müdaxilə imkanının aradan qalxması ilə sovet nefti uğrunda gedən mübarizə yeni mərhələyə daxil oldu. Onun məzmunu və xarakteri dəyişdi. 1931-ci ilin payızından başlayaraq dünya bazarından sovet neftini sıxışdırıb çıxarmaq müstəqil bir problem kimi dünya trestləri tərəfindən ön plana keçirildi.

Yeni mərhələdə kapitalist neft inhisarlarının sovet neftinə qarşı mübarizəsi ona görə daha təhlükəli və kəskin xarakter almışdı ki, onlar bu məqsəd uğrunda vahid cəbhədə birləşmişdilər.

Məlum olduğu kimi, əvvəllər dünya trestləri bu və ya digər bazarda sovet neftinə qarşı təklikdə çıxış edirdilər. Aralarında hökm sürən rəqabət onlara sovet neftinə qarşı birləşmək imkanı vermirdi. Dünya trestləri öz aralarında bazarlar uğrunda gedən mübarizədə hətta bəzən sovet neftindən istifadə etməyə məcbur olurdular. Məsələn, İngiltərənin inhisar birliklərinin hasilat rayonları Şərqi Avropa, Şərq və Yaxın Şərq bazarlarına, "Standart oyl" trestinə nisbətən daha yaxın olduqları üçün onlar burada xeyli üstünlüyə malik idilər. "Standart oyl" bu regionda təkcə Rumıniyadan neft əldə edirdi ki, bu özü də "Royal datç-şell"in buradan əldə etdiyi neftin miqdarından çox az

idi. 1930-cu ilin məlumatına görə Rumıniyada hasil edilmiş neftin 17,6 faizi "Royal datç-şell"ın filialı olan "Astra Romon" şirkətinin, 7,8 faizi isə "Standart oyl"un filialı "Romana Amerikane" şirkətinin payına düşürdü.[1] Ona görə də "Standart oyl" bu bazarlar uğrunda "Royal datç-şell"ə qarşı mübarizədə sovet neftinə arxalana bilərdi. Bu isə Sovet dövləti üçün olduqca faydalı idi. Bu amil ona vahid cəbhəni yarmaqla yanaşı, həm də böyük miqdarda neft məhsullarını dünya bazarına çıxarmağa imkan yaradırdı.

Lakin 1931-ci ilin sonlarına yaxın vəziyyət dəyişdi. Hərbi müdaxilə ilə sovet neftinə sahib olmaq ümidlərini itirmiş neft trestləri əsas diqqətlərini dünya bazarında sovet neftinə qarşı birgə mübarizənin təşkilinə yönəltdilər. Dünya iqtisadi böhranı nəticəsində kapitalist neft sənayesində və bazarlarda yaranmış vəziyyət onları məcbur etdi ki, sovet neftinə qarşı mübarizəni təklikdə deyil, vahid cəbhədə birləşməklə aparsınlar.

Belə bir şəraitdə restrikasiya ideyası[2] meydana gəldi. Bu ideyanın ilk təşəbbüsçüsü yenə də İngiltərə neft tresti "Royal datç-şell" idi[3].

"Royal datç-şell"in yeni rəhbəri Avqust Kessler 1931-ci ilin payızında mətbuatda "Neft sənayesi dünya miqyasında əməkdaşlığa ehtiyac hiss edir" adlı məqalə ilə

[1] Bax: "Voprosı vneşney torqovli". № 4-5, 1931, s. 124

[2] Restrikasiya talın sözü olub məhdudlaşdırmaq deməkdir. Bu, kapitalist ölkələrində istehsalı və ya ixracı məhdud etmək haqqında sazişə gəlmək məqsədi güdən inhisar birlikləri formalarından biridir.

[3] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 30



çıxış etdi[1]. Kessler yazırdı: "Hazırda neft sənayesinin düşdüyü vəziyyət onunla izah edilir ki, tələbdən çox neft hasil edilir. Lakin bu çətinlik çox ciddi olsa da, yeganə çətinlik deyildir. Neft sənaye məhsulları istehsalının potensialı o qədər böyükdür ki, bütün neft sənaye sahibləri əməkdaşlığa cəhd göstərməsələr, təkliflə tələb arasındakı bu uyğunsuzluq uzun illər davam edə bilər"[2].

Avqust Kessler yaranmış vəziyyətdən yeganə çıxış yolunu dünya neft dəllallarının sıx əməkdaşlığında görürdü. Lakin restrikasiya ideyası şəxsən Kesslerin özünə məxsus deyildi. Deterdinq hələ 1929-cu ildə restrikasiya yolu ilə sovet sənayesinin zəifləmək, digər müstəqil kompaniyaları öz nəzarəti altına almaq və sovet neftinə qarşı vahid cəbhə yaratmaq fikrində idi. O, hətta bu ideyanı bəyəndirmək üçün 1929-cu ilin aprelində ABŞ-a getmiş və "Standart oyl"un başçılarından biri olan Tiql ilə danışıqlar aparmışdı.[3] Lakin həmin vaxt "Standart oyl" ilə "Royal datç-şell" arasında gedən mübarizə bu ideyanın həyata keçirilməsinə mane olmuşdu.

Kesslerin planına görə ABŞ, Venesuela, Rumınyia kimi neft hasil edən dövlətlər arasında neft hasilatını 20 faiz azalmaq haqqında razılıq əldə edilməli idi. Müstəmləkə ölkələrində isə saziş burada neft mədənlərinə malik olan kompaniyalar arasında bağlanmalı idi. Kessler habelə dünya bazarında sabit vəziyyət yaratmaq və qiymət müharibələrinə son qoymaq üçün ümumi razılıq əldə

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 193,vər. 29

[2] Yenə orada

[3] Л.Денни "Америка зовоевывает Британию", М., 1931, с. 299

edilməsini də nəzərdə tuturdu[1].

Kesslerin planı ciddi və hərtərəfli tədqiq edildikdə onun arxasında duran gizli məqsədlər dərhal aydın olurdu. Bu planın həyata keçirilməsi, onun aşağıdakı məqsədlərə nail olması demək idi:

1. İdeyanın əsas təşəbbüsçüsü olmaq etibarı ilə "Royal datç-şell"in digər neft inhisarı birlikləri üzərində hakim mövqeyini təmin etmək;

2. Neft hasilatı və ixracı sahəsində özünün əsas rəqibi "Standart oyl"un fəaliyyətini məhdudlaşdırmaq;

3. Dünya bazarında sovet neftinə qarşı kapitalist inhisar birliklərinin vahid və yekdil cəbhəsini yaratmaq.

Kesslerin planı kapitalist ölkələrinin işgüzar dairələrində ciddi maraq oyatdı. İngiltərədə çıxan "Petroleum Tayms" yazırdı: "Kesslerin təklifi böyük üstünlüyə malikdir. Neft sənayesini beynəlxalq miqyasda çox yaxşı bilən bu şəxsin təklifi neft sənayesini hazırkı vəziyyətdən xilas etməyin ən münasib yoludur"[2].

Fransada çıxan "Revia petrolium" göstərirdi: Kesslerin planı neft hasilatı və dünya bazarlarını tənzim etmək məsələsində irəliyə atılmış əhəmiyyətli bir addımdır. Layihənin zəif yeri orasıdır ki, o, dünya bazarında layiqli və fəal amil olan Rusiyanı kənarda qoyur" [3].

"Kuryer de Petrol" isə Kesslerin planını ələ salaraq yazırdı ki o, SSRİ-nin daxil ola bilməyəcəyi yeni "Millətlər Cəmiyyəti" yaratmağa çalışır[4].

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 29
[2] RF XTMDA, f. "Союзнефтъэкспорт", siyahı 7341, iş 89, vər. 1
[3] Yenə orada
[4] Yenə orada



Rumınıya mətbuatı isə Kesslerin planını başqa cür qiymətləndirirdi. "Arqus" qeyd edirdi ki, hazırda Rumıniya neft sənayesi, ölkənin təbii sərvətindən çox, onun üçün ağır yükü olduğu bir dövrdə istehsalı azalda bilməz. Dünya bazarında neft məhsullarına olan tələbin azalmasına baxmayaraq, Rumıniyada hasilat getdikcə artırdı. Məsələn, 1929-cu ilin 1-ci yarısında hasilat 378 min ton tolduğu halda, bu 1930-cu ilin həmin dövründə 483 min tona qalxmışdı.[1] SSRİ Xarici Ticarət Elmi-tədqiqat institutunun 1930-cu il məlumatında göstərilirdi ki, burada hasilatı azaltmaq haqqında şirkətlər arasında razılığa gəlmək cəhdi də müsbət nəticə vermədi. Hətta Deterdinqin Rumıniya səfəri də bu sahədə dönüş yarada bilmədi.[2] Rumıniyada neft sənayesində yaranmış bu vəziyyət hər şeydən əvvəl onun nəticəsi idi ki, burada neft hasilatını əsasən öz əlinə almış əcnəbi şirkətlər arasında ciddi rəqabət gedirdi. ("Astara Romanın" kapitalı "Standart oyl"a, "Stea Romana" şirkətinin kaptalı isə Fransaya məxsus idi – Ə.Ə.). Məsələ burasında idi ki, öz xüsusi nefti olmayan Fransa nə hasilatın azalmasında, nə də qiymətlərin yuxarı qalxmasında maraqlı deyildi. "Standart oyl" isə Yaxın Şərqdə "Royal datç-şell"ə qarşı mübarizə üçün buradan daha çox neft əldə etməyə çaşlışırdı. Bundan başqa, həmin trestlər sovet neftinə qarşı mübarizədə də rumın neftinə maraqlı idilər.

Bununla belə xarici təzyiq artdıqca, ölkə mətbuatı qeyd edirdi ki, Rumıniyanın təklif edilən quruma qoşul-

[1] Bax: "Вопросы внешней торговли", № 4-5, 1931-ci il, s. 124
[2] Bax: RF XTMDA, f. 1, siyahı 11066, iş 205, vər. 1-2.

ması zəruridir[1]. Maraqlı dairələr texliklə Kesslerin planına rəsmi şəkildə öz münasibətlərini bildirdilər. Rumıniya neft sahibkarları cəmiyyəti 1931-ci ilin 30 oktyabr tarixli iclasında Kesslerin planına qoşulmaq haqqında qərar qəbul etdi[2]. Cəmiyyət Amerika Neft İnstitutuna dünya konfransı çağırmaq təklifilə müraciət etdi[3].

Kesslerin ideyası Amerikada, Rumıniyadan fərqli olaraq o qədər də rəğbətlə qarşılanmadı[4]. Amerika Neft İnstitutu trestlər əleyhinə "Şerman qanununu" əldə bəhanə tutaraq, Kesslerin planını müzakirə etmək üçün konfransda iştirak etməkdən boyun qaçırdı[5]. Amerika Neft İnstitutunun fikrincə beynəlxalq konfrans Kesslerin planını deyil, ümumiyyətlə dünya neft sənayesinin vəziyyətini müzakirə etsəydi, daha yaxşı olardı. O, belə konfransda iştirak etməyə razılıq verərdi[6].

Amerika Neft İnstitutunun Kessler planının müzakirəsindən imtina etməsinin əsil səbəbi "Royal datç-şell" ilə "Standart oyl" arasında gedən rəqabət mübarizəsi, İngiltərə trestinin bu konfransda rəhbər mövqe tutmasından ehtiyat etməsi və bu planın dolayı yolla da olsa "Standart oyl"a qarşı çevrilməsi idi. Yuxarıda göstərilənlər isə əslində bəhanə idi.

Maraqlı dairələr Sovet İttifaqının Kessler planın-

[1] RF XTMDA, f. "Союзнефтэкспорт", siyahı 7341, iş 89, vər. 1
[2] Yenə orada
[3] "Мировое хозяйство и мировая политика", № 78, 1932, c. 223
[4] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 30
[5] "Мировое хозяйство и мировая политика", № 78, 1932, c. 223
[6] RF XTMDA, f. 1, siyahı 11066, iş 193, vər. 30



dan kənarda qalmasından da razı deyildilər[1]. Onlar belə hesab edirdilər ki, "Rusiyanın iştirakı olmadan, qarşıya qoyulan məqsədə nail olmaq mümkün deyildir"[2].

Avqust Kessler öz planına aid alınmış təkliflər əsasında yenidən çıxış etdi. O, SSRİ-nin göstərilən qurumdan kənarda qalmasını bununla əsaslandırmağa çalışırdı ki, guya "sovet nefti, özünün həcmi və perspektivinə görə dünya bazarında o qədər əsas amil deyildir"[3]. Kesslerin fikrinə görə, dünya neft sənayesi və bazarını tənzim etmək üçün təkcə dünya trestləri və iri kompaniyaları dəvət etmək kifayətdir[4].

Əlbəttə, SSRİ neft sənayesinin inkişafında əldə edilmiş tarixi müvəffəqiyyətlərdən və sovet neftinin dünya bazarında əldə etdiyi nailiyyətlərdən Avqust Kessler xəbərsiz deyildi. Dünya bazarında sovet neftinə qarşı mübarizəyə həsr edilmiş müşavirənin təşəbbüsçüsünü, bu görkəmli neft mütəxəssisini belə bəhanə gətirməyə məcbur edən başqa şey idi. Lakin o həmin vaxt kartları qabaqcadan açıb, öz planının bilavasitə sovet neftinə qarşı çevrildiyin söyləyə bilməzdi.

Avqust Kessler bu mövqeyində çox da qalmadı. Kapitalist neft sənayesinə dünya böhranının getdikcə şiddətlənən təsiri, dünya bazarında neft məhsulları qiymətinin son dərəcə aşağıya düşməsi, enməsi, kapitalist neft inhisar birliklərinin düşdükləri fəlakətli vəziyyət və nəhayət sovet neftinin gündən-günə artmaqda olan beynəlxalq

[1] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 7341, iş 89, vər. 1
[2] Yenə orada, vər. 3, 342
[3] Yenə orada, vər. 342
[4] Yenə orada

nüfuzu Avqust Kessleri "güzəştə" getməyə məcbur etdi.

1932-ci ilin yazında Kesslerin ikinci planı meydana çıxdı[1]. Bu plana görə ABŞ, SSRİ, Venesuela, İran, Rumıniya, Meksika, Hollandiya Hindistanı, Peru, Trinidad, Polşa və Ekvador ölkələri neft hasilatı və bazarlarını tənzim etmək məqsədilə razılığa gəlməli idilər"[2].

Kesslerin yeni planında ABŞ-a xeyli güzəştlər edilmişdi. Lakin bu dəfə də, planının ABŞ tərəfindən pozulacağından ehtiyat edirdi. Bundan başqa "Standart oyl" tresti kənarda qaldığı halda, sovet neftinə qarşı mübarizənin müvəffəqiyyət qazanacağına Kessler özü də şübhə etməyə bilməzdi.

Kesslerin yeni planında ABŞ, neft hasilatını məhdud etməli olan dövlətlər sırasından çıxarılırdı. O, ancaq ABŞ-dan kənara neft məhsulları ixracını məhdud etməklə kifayətlənməli idi.[3]

Kessler öz yeni planında Sovet İttifaqına yer verməsini isə belə əsaslandırırdı: "Mən öz ilk planımda bir sıra mülahizələrə görə Sovet Rusiyasını nəzərə almamışdım. Lakin mənim planımla əlaqədar olaraq aldığım bir çox təkliflərdə göstərilirdiki, Sovet Rusiyasının iştirakı olmadan, qarşıya qoyulan məqsədə tam nail olmaq mümkün deyildir.

Ona görə də, indi mən təklif edirəm ki, Rusiya da neft istehsal edən digər ölkələrlə birlikdə irəli sürüləcək

[1] "Мировое хозяйство и мировая политика", № 7-8, 1932, c. 223
[2] Yenə orada
[3] Yenə orada



plan üzrə əməkdaşlıq etsin"[1].

Kesslerin yeni planında SSRİ-yə də, digər ölkələrlə birlikdə yer verilməsi onun sovet neftinə qarşı vahid cəbhə yaratmaq iddiasından əl çəkməsi demək deyildi. Burada da sovet neftini dünya bazarından sıxışdırıb çıxarmaq ideyası ana xətt kimi qalırdı. Təkcə sovet neftinə qarşı mübarizənin metodu dəyişmişdi. Əvvəlki plan üzrə sovet neftinə qarşı beynəlxalq qəsd onun özünün iştirakı olmadan təşkil edilməli ikən, indi sovet dövləti onun canlı şahidi olmalı, kapialist inhisar birlikləri qarşısında açıqdan-açıca tərksilah olunmağa məcbur edilməli idi.

Lakin neft imperializminin bu yeni planının arxasında nəyin durub-durmamasından asılı olmayaraq, böyük həcmdə neft hasil edən ölkə olmaqla Sovet İttifaqının dünya neft konfransına dəvət edilməsi böyük iqtisadi və siyasi əhəmiyyətə malik idi.

"Soyuznefteksport"un 1932-ci il üzrə illik hesabatında bu məsələdən bəhs edilərək göstərilirdi: "Sovet neft ixracının mövcud olduğu 11 ildən sonra onun dünya konfransına dəvət edilməsi... onu göstərir ki, sovet neft ixracının durmadan artması, bir sıra ölkələrdə xüsusi satış aparatının qüvvətlənməsi və genişlənməsi, müstəqil firmalar və dövlət müəssisələrilə işgüzar ticarət əlaqələrinin möhkəmləndirilməsi, yeni-yeni bazarlara çıxılması dünya trestlərini məcbur etdi ki, onlar sovet neft ixracı ilə hesablaşsınlar, onu dünya bazarının əsas amili kimi etiraf etsinlər"[2].

[1] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 7341, iş 89, vər. 3
[2] Yenə orada, siyahı 3, iş 89, vər. 341

Beynəlxalq neft konfransı dünya neft ictimaiyyətinin diqqət mərkəzində dururdu. Bir sıra burjua qəzetləri[1] konfransa neft sənayesini və dünya bazarını sağlamlaşdırmağın ən mühüm vasitəsi kimi baxırdılar. Konfransın məxfi aparılması haqqında ümumi razılığa baxmayaraq[2], qəzetlər onun əsas müzakirə obyektinin sovet nefti təşkil edəcəyini qabaqcadan söyləməkdən belə çəkinmirdilər[3]. Bir sıra burjua qəzetləri isə neft konfransının müvəffəqiyyət qazanacağına şübhə etmirdilər.

Dünya neft konfransında iştirak etmək üçün Nyu-Yorka gəlmiş "Royal datç-şell" trestinin direktoru A.Kessler verdiyi bəyanatda bildirirdi ki, o, dünya bazarında hökm sürən hərc-mərcliyə konfrans vasitəsilə son qoyulacağına əmindir. "Qoy neft sənayesi sahəsindəki əməkdaşlıq digər sənaye sahələri üçün də nümunə olsun"[4]. Avqust Kesslerin fikrincə: "Neft konfransının müvəffəqiyyətli nəticəsi, dünya iqtisadi böhranında dönüş nöqtəsi ola bilər"[5].

Dünya neft konfransının çağırılmasının həqiqətə çevrilməsi və onun gözəl perspektivi haqqında qabaqcadan xaricdə qaldırılan hay-küy neft dəllallarını yenidən iştaha gətirdi. Konfrans ərəfəsində səhmlərin dəyəri əvvəlki aya nisbətən əhəmiyyətli dərəcədə yuxarı qaldı.

"Frankfurter tseytunq" qəzeti qeyd edirdi ki, dünya

[1] "Finanşel Tayms", 19 may 1932-ci il; "Frankfurtor Tseytunq", 19 may 1932-ci il
[2] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 3, iş 89, vər. 341
[3] "Finanşel Tayms", 19 may 1932-ci il
[4] "Teqlibat Berixte", 14 may 1932-ci il
[5] Yenə oradal



bazarında neft məhsulları qiymətinin həddindən artıq aşağı düşməsi, təkcə neft istehsalçılarını və neft satıcılarını deyil, həm də neft məhsulları istehlakçılarını düşündürən məsələdir. Konfrans müvəffəqiyyət qazandığı təqdirdə, istehlakçıların bu işdə qurban getməməsi üçün də ciddi fikirləşmək lazımdır"[1].

Almaniyada çıxan qəzet və jurnalların dünya neft konfransı münasibətilə keçirdikləri bu həyəcanı başa düşmək çətin deyildi. Öz xüsusi neft məhsullarına malik olmayan və neft məhsullarına ehtiyacını əsasən idxal yolu ilə təmin edən dövlətlər dünya neft konfransının çağırılması ilə əlaqədar ciddi təşviş keçirirdilər.

Bunlar, dünya neft konfransına öz təsirini göstərməklə yanaşı, həm də Sovet dövlətinin konfransdakı nümayəndə heyətinin mövqeyi üçün də müəyyən material verməyə bilməzdi.

1932-ci il may ayının 15-də konfransın hazırlıq komitəsinin ilk iclası oldu[2]. Hazırlıq komitəsi konfransın müzakirə edəcəyi məsələ üzrə qabaqcadan tərəflərin konkret rəy və mülahizələrini öyrənməli və kapitalist neft inhisarı birliklərinin konfransa yekdil, vahid cəbhədə gəlməsini təmin etməli idi. Hazırlıq komitəsinə "Royal datç-şell", "Standart oyl", "İngilis-İran", "Birma oyl" neft cəmiyyətlərinin nümayəndələri daxil idi[3]. Burada rumın neft sənayesini "Royal datç-şell", "İngilis-İran" və "Birma oyl" təmsil edirdi[4].

[1] "Frankfurter tseytunq", 19 may 1932-ci il
[2] "Nyu-York Tayms", 16 may 1932-ci il
[3] Yenə orada
[4] Yenə orada

Hazırlıq komitəsinin tərkibi və fəaliyyəti dünya neft konfransının qarşısında duran əsil məqsədi aşkara çıxardı. O göstərirdi ki, dünya neft sənayesini və bazarı tənzim etmək pərdəsi altında çağırılan bu beynəlxalq yığıncaq ancaq sovet neft sənayesinin fəaliyyətini və neft məhsulları ixracını məhdudlaşdırmaq, sovet neftini dünya bazarından sıxışdırıb çıxarmaq məqsədi güdür.

Hazırlıq komitəsi, konfransda sovet nümayəndə heyətinə təqdim etmək üçün Amerika və Avropa neft inhisarı birlikləri adından vahid təklif hazırladı[1]. Həmin təklifə əsasən Sovet dövləti dünya neft bazarında müstəqil çıxış etməkdən imtina etməli, öz neft məhsullrını yaradılacaq beynəlxalq kartel vasitəsilə satmalı idi[2]. Bundan başqa burada Sovet İttifaqında neft hasilatının məhdudlaşdırılması məsələsi də nəzərdə tutulurdu[3].

Dünya neft konfransı 1932-ci il may ayının 18-də Nyu-Yorkda öz işinə başladı[4]. Konfransda "Royal datç-şell" trestini Avqust Kessler, "İngilis-İran" neft şirkətini Vilyam Frezer, Robert İrvinq və Vatson, "Birma oyl" və Şell-transport oyl" kompaniyasını Moffet, "Standart oyl of Nyu Cersi"ni Çarlz Arnot və Arnold Şits, "Sakoli" və "Vakuum oyl"u Tarkild Ribert, "Texas K°" və "Stanford-konsolideyted oyl K°"-nı Vilyan Ayroş, "Ailantik Rafayner K°" Qolf təmsil edirdi[5]. Konfransda Sovet İttifaqından isə SSRİ Xarici Ticarət Komissarlığının nümayəndəsi

[1] SSRİ XTNMA, f. 1, siyahı 11066, iş 270, vər. 9
[2] Yenə orada
[3] Yenə orada, iş 277, vər. 6
[4] Л.Денни. "Борьба за нефтяную монополию", М., 1934, с. 12
[5] RF XTMDA, f. 1, siyahı 11066, iş 219, vər. 1



Filipp Rabinoviç, "Soyuzneftteksport"un sədri Ryabov, "RON"un vitse-prezidenti Fridman və "Amtorq korpereyşin"in şöbə müdiri Santalov iştirak edirdi[1].

Konfrans özünün birinci iclasından əsil məqsədə keçdi. Hazırlıq komitəsi tərəfindən hazırlanmış saziş layihəsi sovet nümayəndə heyətinə verildi. Layihədə göstərilirdi ki, Sovet dövləti qarşıdakı on il müddətində ildə 5,1 milyon ton neft məhsulunu beynəlxalq kartel vasitəsilə dünya bazarına çıxarmalı, özünün bu və ya digər ölkələrdə olan müstəqil satış aparatını ləğv etməlidir[2]. Saziş 1932-ci ilin sentyabr ayından qüvvəyə minməli idi[3].

Şübhəsiz sovet nümayəndə heyəti kapitalist inhisar birliklərinin bu həyasız təklifini qəbul edə bilməzdi. Bu təklifi qəbul etmək təkcə müstəqil neft ixracından əl çəkmək və dünya bazarından könüllü imtina etmək deyildi. Bu, həm də ölkədə neft hasilatını məhdud çərçivəyə salmaq demək idi. Çünki yuxarıda göstərilən miqdardan əlavə neft məhsulları ixrac etməyə imkanın olmaması neft hasilatının azalmasına gətirib çıxarmalı idi. Digər tərəfdən, bu təklifin qəbul edilməsi dolayı yol ilə sovet neft sənayesini dünya trestlərinin nəzarəti altına vermək demək idi.

Deməli, kapitalist neft inhisarı birliklərinin fikrincə Sovet İttifaqı öz neft sənayesini və neft məhsulları ixracı imkanlarını "dünya bazarının sabitləşməsi" naminə qurban verməli idi.

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 219, vər. 1
[2] Yenə orada, iş 270, vər. 9
[3] Yenə orada

Sovet nümayəndə heyəti özünün əks-təkliflərini irəli sürdü. Burada göstərilirdi ki, sovet neft sənayesinin fəaliyyəti konfransda əsla müzakirə obyekti ola bilməz[1]. Neft məhsulları ixracına gəldikdə isə, Sovet dövləti üç il müddətinə beynəlxalq kartelə öz mülahizəsinə görə müəyyən miqdar məhsul satmağa hazırdır. Lakin bu onun xaricdə öz xüsusi aparatı vasitəsilə satdığı neft məhsulları miqdarını məhdud etməməlidir. Bundan başqa, sovet nümayəndə heyəti göstərirdi ki, "Soyuznefteksport" xarici ölkələrin dövlət təşkilatları ilə neft məhsulları satmaq haqqında bağladığı müqavilələrdən də imtina etmək fikrində deyildir[2].

Sovet nümayəndə heyətinin təklifilə konfransın qarşısında duran məqsədlər daban-dabana zidd olduğu üçün, şübhəsiz o qəbul edilə bilməzdi. Sovet təklifi üzrə razılığa gəlmək, dünya bazarında sovet neftini sıxışdırmaq deyil, ona daha geniş imkanlar açmaq demək idi. Onlar saqqal dalınca getdikləri halda, bığlarını da qoyub gəlmiş olardılar.

Ona görə də, Nyu-York konfransı heç bir iş görməyərək 1932-ci ilin iyun ayının 2-də öz işini "başa çatdırdı"[3].

Nyu-York konfransının müvəffəqiyyətsizliyi dünya bazarında sovet neftinə qarşı beynəlxalq miqyasda ilk dəfə vahid cəbhə ilə çıxış edən neft maqnatlarının böyük məğlubiyyəti idi.

Birinci Dünya neft konfransının müvəffəqiyyətsiz-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 9
[2] Yenə orada, vər. 15-16
[3] "Faynenşil Tayms", 3 iyun 1932-ci il



liyi maraqlı dairələrdə müxtəlif rəylərə səbəb oldu. "İngilis-İran neft şirkətinin" nümayəndəsi Vatson, neft konfransının təşəbbüsçüsü Kessler, konfransın sədri Arnot və başqaları öz məğlubiyyətlərini ört-basdır etmək məqsədilə konfransın işini "mühüm problemlərin həllində irəliyə doğru atılmış mühüm addım" hesab edir, ingilis və amerikan neft sahibkarları arasında "qəlb sazişi"nin bərpası kimi qiymətləndirirdilər[1].

Neft maqnatları Sovet İttifaqını dünya ictimaiyyətinin gözündən salmaq, bazarlarda sovet neftinə qarşı mübarizəni asanlaşdırmaq məqsədilə sübut etməyə çalışırdılar ki, dünya neft problemlərini həll etmək üçün xeyirxahlıq göstərməli olan Nyu-York konfransı sovet nümayəndə heyəti tərəfindən pozulmuşdur. Onların fikrinə görə, dünya neft sənayesində və bazarında yaranmış vəziyyətin günahkarı Sovet dövlətidir. Sovet dövləti yaranmış vəziyyətdən çıxmağa qəsdən süni yollarla mane olur[2]. Avqust Kessler "De teleqraf" agentliyi vasitəsilə verdiyi bəyanatda göstərirdi ki, "Rusların tutduqları mövqe nəticəsində hazırda heç bir razılığa gəlmək mümkün deyildir"[3]. Arnot hətta konfransda iştirak edən Sovet nümayəndə heyətinin bu və ya digər saziş bağlamağa səlahiyyətli olmalarını şübhə altına alırdı[4].

Bir sıra burjua qəzetləri, xüsusilə öz xüsusi neftinə malik olmayan ölkələrin mətbuatı, konfransın müvəffəqiyyətsizliyini, dünya trestləri və sovet nümayəndə heyəti-

[1] "Teqlixe Berixte", 8 iyun 1932-ci il
[2] "Faynenşil Tayms", 6 iyun 1932-ci il
[3] Yenə orada
[4] RF XTMDA, f. 1, siyahı 11066, iş 219, vər. 1

nin burada tutduqları mövqeyi bir növ obyektiv şərh edirdilər. Məsələn, Almaniyada çıxan "İndustrii und xandel" yazırdı ki, təkcə SSRİ nümayəndəsinin konfransda iştirak etməsi faktı göstərir ki, o, dünya neft bazarının bərpasına cəhd göstərir"[1]. Başqa bir alman qəzeti yazırdı ki, konfransın pozulması səbəblərini hər şeydən əvvəl dünya trestlərinin mövqeyində axtarmaq lazımdır. Sovet nümayəndə heyəti konfransda danışıqlara hazır olduğu göstərdi. Rabinoviçin bəyanatından aydın olur ki, gələcəkdə danışıqlar üçün müvafiq zəmin yaranarsa, sovet nümayəndələri buna hazırdırlar[2]. "Deytşe Alqemeyne saytunq" qəzeti də bu fikri təqdis edirdi[3]. "Deyli Herald" qəzeti göstərirdi: "Qiymətlərin sabitləşməsinə və tələbdən artıq neft hasil edilməsinə son qoyulacağına ümid edirik. Konfrans isə pozuldu. Çünki İngilis-Amerika nümayəndələri 10 ilin müddətinə saziş tələb etdilər. Halbuki ruslar 3 illik müddətə razılıq verirdilər. Konfransın müvəffəqiyyətsizliyi ölkəmizin sənayesi üçün böyük zərbədir"[4].

Nyu-York konfransında öz məqsədlərinə nail ola bilməyən neft maqnatları sovet neftinin dünya bazarından çıxarılmasının yeni yollarını axtarmağa başladılar. Onlar bu dəfə Avropanın müxtəlif ölkələrində görüşərək ayrı-ayrı bazarlar barədə razılıq əldə etmək və həmin bazarlarda sovet neftini sıxışdırmaq haqqında danışıqlar apardılar[5]. İndi onların arasında "Sovet dövlətinin iştirakı

[1] "İndustrii und xandul", 3 iyun 1932-ci il
[2] "Abendblat", 8 iyun 1932-ci il
[3] "Deytşe Alqemeyne Tsaytunq" 4 iyun 1932-ci il
[4] "Deyli Herald", 3 iyun 1932-ci il
[5] RF XTMDA, f. "Союзнефтьэкспорт", siyahı 3, iş 89, vər. 34



olmadan yeni dünya neft konfransı çağırmaqdan"[1] daha tez-tez söhbət gedirdi.

Kapitalist neft inhisar birliklərinin belə əl-ayağa düşməsi, Birinci dünya konfransı nümayəndələrinin hələ gedib öz yerlərinə çatmadığı halda, ikinci konfransın çağırılması zəruriyyətinin qarşıya qoyulması səbəbsiz deyildi. Kapitalist ölkələrində neft məhsullarına olan tələb aydan-aya əhəmiyyətli surətdə aşağı düşür, bazarlarda qiymətlər heç dərəcəsinə enir, neft şirkətləri milyon dollarla zərərə düşürdülər.

Parisdə çıxan "Kurye de petrol" jurnalının hesablamasına görə hələ 1932-ci ilin 1-ci yarısında, 1931-ci ilə nisbətən neft məhsullarına olan tələb ABŞ-da 7 faiz, Fransada 5 faiz, Hollandiyada 5 faiz, Belçikada 5 faiz, İngiltərədə 5 faiz, İtaliyada 15 faiz, İspaniyada 15 faiz, Almaniyada 23 faiz azalmışdı[2]. Onların əsas mübarizə hədəfi olan sovet nefti isə, əksinə olaraq dünya bazarında yeni-yeni mövqelər əldə edirdi.

Kapitalist neft inhisarı birliklərinin fikrincə Sovet İttifaqının iştirak etməyəcəyi yeni dünya neft konfransı, birincidən fərqli olaraq müvəffəqiyyət qazanmalı idi. Sovet nümayəndə heyətinin burada olmaması kapitalist neft inhisarlarının ona qarşı əlbir hərəkət etmək haqqında qəti razılığa gəlmək işini asanlaşdırmalı idi. Onların birgə hərəkəti sovet neft ixracı təşkilatlarını qorxutmalı və sovet dövləti dünya bazarında ona verilən təklifi qəbul etməyə

[1] "Teqlixe Berixte", 13 iyun 1932
[2] "Kurye de-Petrol" jurnalı, 4 iyul 1932-ci il

məcbur olmalı idi[1].

Deməli, konfrans sovet neft ixracına qarşı tərtib edilmiş planın bu iki variantından birini həll etməli idi:

1. Ya dünya bazarında vahid cəbhə yaratmaq yolu ilə sovet neftinin bazardan getməsinə nail olmaq;

2. Yaxud da qorxutmaq yolu ilə dünya trestlərinin iradəsini ona qəbul etdirmək[2].

Bundan başqa konfransda, dünya bazarına mənfi təsir göstərən Rumıniyada da neft hasilatının artımı qarşısını almaq da nəzərdə tutulurdu[3]. Rumıniya kapitalist ölkələri içərisində yeganə ölkə idi ki, burada 1931-ci ildə hasilat əvvəlki ilə nisbətən daha da artmışdı[4].

Yeni neft konfransının çağırılması maraqlı dairələr üçün günün aktual məsələsinə çevrilmişdi.

Parisdə çağrılması nəzərdə tutulan yeni dünya neft konfransı haqqında kapitalist ölkələrinin mətbuatında gedən materiallar içərisində sovet nümayəndə heyətinin bu konfransda iştirak edib-etməməsi məsələsi xüsusi yer tuturdu. Bir sıra qəzetlər sovet nümayəndə heyətinin konfransa dəvət edilməməsinin əsil səbəbini ört-basdır edərək göstərirdilər ki, bu, konfransın müvəffəqiyyətli nəticəyə gəlməsi üçün edilmiş ən ağıllı hərəkətdir.

Röyter agentliyi göstərirdi ki, Nyu-York konfransı Paris konfransının təşkilatçıları üçün bir dərs olmaya bilməzdi. Nyu-Yorkda məhz sovet nümayəndə heyətinin tutduğu mövqe bu konfransın işini gətirib müvəffəqiyyət-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 15
[2] Yenə orada
[3] Л.Денни, "Борьба за нефтяную монополию", с. 14
[4] "Teqlixe Berixte", 14 iyun 1932-ci il



sizliyə çıxardı[1].

Ağ mühacirlərin nəşr etdikləri "Ajans ekonomke finansyer", burjua qəzeti "Pari-Midi", Hollandiyada çıxan "Amsterdamer Hass bode" və s. digər qəzetlər sovet nümayəndə heyətinin konfransda iştirak etməməsini SSRİ-dəki hökm sürən maliyyə çətinliyi ilə izah edirdilər[2].

Kapitalist ölkələri mətbuatı bəzən SSRİ-nin konfransda iştirakı məsələsini öz oxucularına bir növ obyektiv şəkildə çatdırmağa cəhd edirdilər. Almaniyada çıxan "Deçye Berqverktsaytunq" qəzeti xəbər verirdi ki, Sovet dövləti konfransda iştirak etmək üçün heç də dəvətnamə almamışdır. Moskva ancaq belə bir konfransın çağırılması xəbərini kənar mənbələrdən öyrənmişdir[3]. Sovet nümayəndə heyətinin konfransda iştrak etmək üçün dəvət edilməməsini "Petreleum Tayms" da təsdiq edirdi. Qəzetin redaktoru Leçetta yazırdı ki, sovet nümayəndəsinin konfransda iştirakına dair müxtəlif və ziddiyyətli rəylər vardır. Bəziləri onların Parisə gəlib çatdıqlarını, bəziləri isə yolda olduqlarını göstərir. Əslində isə, bunlar hamısı şayiə olub, heç bir əsasa malik deyildir. Sovet dövləti konfransa dəvət edilməmişdir[4].

Konfransda sovet nümayəndə heyətinin iştirak etməməsinin əsil səbəbi həqiqətən də onun bura dəvət edilməməsi idi[5]. Bundan başqa konfransın əsil məqsədini yaxşı başa düşən Sovet dövlətinin özü də burada iştirak

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 29
[2] Yenə orada, vər. 24
[3] "Deyçe Berqvertsaytunq", 29 iyun 1932-ci il
[4] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 28
[5] Yenə orada, f. "Союзнефтьэкспорт", siyahı 3, iş 89, vər. 341

etməkdə o qədər maraqlı deyildi. Sovet dövləti öz arzusu ilə yenidən tərksilah olunmaq təklifini dinləmək fikrində deyildi.

Dünya mətbuatı sovet nümayəndə heyətinin konfransda iştirak etməməsini müxtəlif mövqelərdən qiymətləndirirdilər.

Dünya trestlərinə yaxın olan qəzetlər konfransda Sovet dövləti nümayəndəsinin iştirak etməməsini SSRİ-nin boynuna atmağa, dünya neft sənayesi və bazarında yaranmış böhranlı vəziyyətin əsil səbəbkarı kimi göstərməyə və nəhayət gələcəkdə sovet neftinə qarşı vahid cəbhə ilə ediləcək hücuma haqq qazandırmağa çalışdıqları halda, öz xüsusi nefti olmayan ölkələrin nisbətən vətənpərvər əhval-ruhiyyəli qəzetləri isə buna işarə ilə də olsa şərik olmadıqlarını bildirirdilər.

Fransada çıxan neft jurnalı "Kurye de-Petrol" yazırdı ki, konfransın həqiqi məqsədi neft məhsullarının qiymətini qaldırmaqdan ibarətdir. Konfransın təşkilatçıları Rusiyanın boğazına ipəkdən hörülmüş kəndir keçirmək fikrindədirlər. Onlar dünya neft sənayesinin bütün bədbəxtliyində rus neftini təqsirləndirirlər. Lakin ruslar hələ Nyu-Yorkda başa düşdülər ki, belə konfranslar nə iyi verir[1].

İtaliyada çıxan "Stampa" qəzeti göstərirdi ki, dünya trestləri sovet neftinə ciddi təsir göstərməyə cəhd edirlər. Sovet nefti hasilatının məhdudlaşdırılması və neft məhsulları qiymətinin qalxması İtaliya üçün böyük itkidir.

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 32



"Sovet nefti bizim üçün həyati zərurət təşkil edir"[1].

Yeni beynəlxalq neft konfransının çağırılmasına gedən hazırlıq, bu münasibətlə maraqlı dairələrdə baş verən çaxnaşma Sovet dövlətindən gizli deyildi. Sovet dövləti çox yaxşı bilirdi ki, onun iştirak edib-etməməsindən asılı olmayaraq konfrans bilavasitə sovet neftinə qarşı çevriləcəkdir. Sovet dövləti çox haqlı olaraq neft konfransını kapitalist inhisar birliklərinin sovet neftinə qarşı hazırladıqları yeni beynəlxalq təcavüz kimi qiymətləndirirdi.

Bütün bunların nəticəsi idi ki, "Soyuznefteksport" gələcəkdə sovet neft məhsulları ixracının müvəffəqiyyətini təmin etmək və dünya neft maqnatlarının səylərini heçə endirmək məqsədilə bir sıra tədbirlər gördü. "Petrofin" ilə neft məhsulları satmaq haqqında yenidən danışıqlar başlandı və 2-5 il müddətinə onu benzin, xam neft və s. digər məhsullarla təmin etmək haqqında razılıq əldə edildi[2]. İtaliyada fəaliyyət göstərən dövlət təşkilatı "Acip" ilə əvvəllər bağlanmış müqavilə daha 4 il müddətinə yenidən uzadıldı[3]. Mazut satmaq haqqında "Soyuzneftеksport" ilə İtaliya Dəniz nazirliyi arasında müqavilə bağlandı[4]. Fransa və Belçikadan hərbi donanma üçün mazut alınması haqqında yeni sifariş alındı[5] və s. Beləliklə də, Nyu-York konfransı ilə yeni beynəlxalq neft konfransı arasındakı qısa müddətə "Soyuzneftеksport" ilə müstəqil firmalar və xarici ölkələrin dövlət müəssisələri arasında ticarət əlaqə-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 28
[2] RF XTMDA, f. "Союзнефтъэкспорт", siyahı 3, iş 89, vər. 341
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada

ləri xeyli genişləndi. Bunlar dünya bazarında sovet neftinin mövqeyinin möhkəmlənməsi üçün böyük əhəmiyyətə malik idi. Çünki dünya trestləri sovet neftini diz çökdürmək və ona öz iradələrini qəbul etdirmək üçün, indiyə qədər onunla bağladıqları neft məhsulları alınması haqqındakı müqavilələri pozmaq fikrində idilər. Bu çox sarsıdıcı zərbə olardı. Çünki, Sovet dövləti 1929-1932-ci illərdə öz neft məhsullarının təxminən 20 faizə qədərini dünya trestləri vasitəsilə ixrac edirdi.

İkinci beynəlxalq neft konfransı 1932-ci il 29 iyunda Parisdə öz işinə başladı[1]. Burada kapitalisit neft inhisarı birliklərinin 40-a qədər nümayəndəsi iştirak edirdi[2].

Paris konfransında "Royal datç-şell" trestini Kessler və Vilkinson, "Saklni Vakuum korpereyşen" kompaniyasını Arnold Kross, "Sinkler Rifayninq" şirkətini Standford, "Franko-Amerikеn Raffinej" cəmiyyətini Boris A.Finali, "Standart oyl" trestini Bedford Zeydler, "İngiltərə-İran" cəmiyyətini Frezer və İvs, "Birma oyl" kompaniyasını Vitson, "Teksos oyl" kompaniyasını isə kapitan Reyber təmsil edirdilər[3]. Rumıniya tərəfindən isə konfransda iştirak etməyə Ositseanu, Otto Ştern, Masterson, Marinesku, Konstantinesku və Moriatti vəkil edilmişdilər[4]. Rumın nümayəndə heyətinə mühəndis Ositseanu başçılaq edirdi[5].

Paris konfransı öz iclaslarını ciddi olaraq məfi şə-

[1] Л.Денни. "Борьба за нефтяную монополию", с. 14
[2] RE XTMDA, f. 1, siyahı, 11066, iş 270, vər. 23
[3] "Kurye de-Petrol", № 4, 1932, s. 76
[4] "Teqlixe Berixte", 16 iyun 1932-ci il
[5] Yenə orada



kildə keçirirdi[1]. Konfransın gündəliyində duran əsas məsələ "dünya neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq və bazarlarda neft məhsulları qiymətinin sabitliyini təmin etmək" pərdəsi altında sovet neft ixracına qarşı vahid cəbhədə çıxış etmək və Rumıniyada neft hasilatını məhdudlaşdırmağa nail olmaqdan ibarət idi.

Rumıniya nefti konfransın gündəliyində müstəqil məsələ kimi deyil, Sovet neftinə qarşı mübarizədə bilavasitə rumın neftindən istifadə edildiyi üçün o, yardımçı xarakter daşıyırdı. Deməli, konfransın qarşısında duran yeganə məsələ kapitalist neft inhisarı birliklərinin sovet neftinə qarşı əlbir mübarizəsini təşkil etmək və rəsmiləşdirməkdən ibarət idi.

Bununla bərabər imperialist neft dəllalları yaxşı bilirdilər ki, onlar təzyiq göstərmək yolu ilə sovet neft hasilatını azaltmaq və sovet neftini dünya bazarından qovub çıxarmaq iqtidarına malik deyillər.

Sovet neft sənayesinin inkişafında son illərdə əldə edilmiş görkəmli nəticələr və dünya bazarında sovet neftinin məğlubedilməz mövqeyi insanlardan gizli deyildi. Kapitalist neft inhisarı birlikləri yaxşı bilirdilər ki, onların sovet nefti üzərinə bir başa hücumu gözlənilən nəticəni verməyəcəkdir. Məhz buna görə də onlar bu dəfə sovet neftinə qarşı mübarizənin başqa yolunu seçdilər. Neft maqnatlarına bu işdə məhz rumın nefti yaxından kömək etməli idi.

Bilavasitə sovet neftinə qarşı çevrilmiş Paris konfransı 3 həftəlik müzakirə və mübahisələrdən sonra belə

[1] "Finanşiel Tayms", 30 iyun 1932-ci il

qərara gəldi ki, Rumıniyada sutkalıq hasilat 18500 tona endirilməli[1], Rumıniya öz payına düşən neftin əhəmiyyətli hissəsini dünya trestlərinə verməlidir[2].

Rumıniya nümayəndə heyəti ilə dünya trestləri arasında yuxarıdakı məzmunda əldə edilmiş saziş bilavasitə rumın nefti əleyhinə deyil, sovet neftinə qarşı çevrilmişdi. Dünya trestləri Rumıniyada hasilatı məhdudlaşdırmaqla dünya bazarında öz fəaliyyətlərini bir qədər yaxşılaşdırmağa nail olmaqla yanaşı, həm də Sovet dövlətini də Rumıniya kimi hərəkət etməyə – neft hasilatını məhdud çərçivəyə salmağa məcbur etməyə çalışırdılar. Bundan başqa onlar rumın neftini tamamilə öz əllərinə almaqla dünya bazarında, xüsusilə Avropa, Yaxın Şərq və Şimali Afrika bazarlarında onun vasitəsilə sovet neftini sıxışdırmaq istəyirdilər. Kapitalist neft inhisarı birlikləri fikrinə görə, bu kimi tələb və təzyiqdən sonra Sovet dövləti onların iradəsini ya qəbul etməli, yaxud da zor gücünə dünya bazarlarından çıxarılmalı idi.

Rumın nümayəndə heyətinin belə bir sazişə girməsi təsadüfi deyildi. Əvvəlan, burada neft sənayesinin əhəmiyyətli hissəsi onsuz da dünya trestlərinin nəzarəti altında idi. Onların öz aralarında razılıq əldə edildiyi halda, Rumıniya bundan kənarda qala bilməzdi. Onun dünya trestləri ilə nə ölkə daxilində, nə də xaricdə rəqabət aparmağa imkanı yox idi. Bundan başqa həmin sazişin nəticə etibarı ilə sovet neftinə çevrilməsi də Rumıniyanı bu işdə maraqlı edirdi. Rumıniya yuxarıda göstərilən bazarlarda

[1] Л.Денни. "Борьба за нефтяную монополию", с. 14
[2] Yenə orada



əsasən sovet neftilə üz-üzə gəlirdi. Dünya trestləri rumın nümayəndə heyətini əmin etmişdilər ki, bu saziş nəticəsində sovet nefti sıxışdırılıb çıxarılmış bazarlar gələcəkdə, müqavilə müddəti bitdikdən sonra, ancaq rumın neftinin sərəncamına veriləcəkdir[1].

Lakin Paris konfransı neft maqnatlarının ifadəsincə "müvəffəqiyyətlə başa çatmasına" baxmayraq, nəticə etibarı ilə o da qarşıya qoyulan məqsədi – sovet neft sənayesinin inkişafını ləngitmək və sovet neftini dünya bazarından vurub çıxarmaq məqsədini həyata keçirə bilmədi.

Sovet dövləti iştirakçısı olmadığı və bilavasitə onun özünə qarşı yönəlmiş Paris konfransının qərarını yerinə yetirə bilməzdi. Bunu ondan tələb etmək də çətin idi. Sovet dövləti neft sənayesini inkişaf etdirərkən və xaricə neft məhsulları ixrac edərkən, heç də bu və ya digər dünya trestlərinin mülahizəsini deyil, ölkənin daxili tələbini, sosializm quruculuğu mənafeyini əldə rəhbər tuturdu. Məhz buna görə də Rumıniyada neft hasilatının məhdud edilməsilə dünya trestlərinin Sovet dövlətinə göstərdikləri müxtəlif təzyiqlər nəticəsiz qaldı. Sovet neft sənayesinin vüsəti və neft məhsulları ixracı daha da artırıldı. Dünya trestləri bazarlarda özünə möhkəm yer etmiş sovet neftinə rumın nefti vasitəsilə təsir göstərə bilmədilər.

"Teqlixe Terixte" qəzeti müvəffəqiyyətlə qurtarmış" Paris konfransının heç bir müsbət nəticə verməyəcəyindən hələ avqust ayında bəhs edərək yazırdı: "Moskva Parisdə neft konfransında qəbul edilmiş qərarı rədd edir. "Sovet

[1] Л.Денни. "Борьба за нефтянуюу монополию", с. 14

neft sindikatı" bildirmişdir ki, Paris neft konfransında əldə edilmiş sazişdə onun iştirakı olmadığı üçün o, SSRİ barədə heç bir qanuni qüvvəyə malik deyildir. "Sovet neft sindikatı" konfransın qəbul etdiyi qərarlardan asılı olmayaraq, öz xüsusi siyasətini yeritməkdə yenə də davam edəcəkdir"[1].

Berlində çıxan "Fissişe tseytunq" qəzeti Paris konfransından sonra sovet neft sənayesinin vəziyyətini şərh edərək göstərirdi: "SSRİ... dünya trestlərinin rəyilə hesablaşmayaraq öz neft istehsalını getdikcə artırır... SSRİ-də son illərdə neft hasilatının artımı göstərir ki, Sovet İttifaqı bu sahədə nə qədər irəli getmişdir... O, neft hasilatına görə dünya üzrə ikinci yeri tutur.

Görünür, Sovet İttifaqı öz sistemi və təsərrüfat marağından doğmayan şərtləri qəbul etməyəcək, neft hasilatı və ixracını artırmaqda davam edəcəkdir"[2].

A.Y.Moklyur Amerikada çıxan neft jurnalı "Oyl end qz Djernal"ın 1932-ci ilin son nömrələrindən birində nəşr etdirdiyi məqaləsində Paris neft konfransının nəticəsində qiymətlərin sabitləşməsi məsələsindən və bu işdə SSRİ-nin rolundan bəhs edərək yazırdı: "SSRİ-də yeni neft emalı zavodlarının və neft kəmərinin istifadəyə verilməsi haqqında alınan məlumat bir daha sübut edir ki, o, öz neft hasilatını azaltmaq fikrində deyildir. Xarici bazarlarda ticarət əməliyyatının fasiləsiz inkişafı da SSRİ-dən neft ixracının məhdud edilmədiyini göstərir. Sovet İttifaqı özünün xaricdə satış təşkilatlarını genişləndirməkdə davam edir.

[1] "Teqlixe Berixte", 5 avqust 1932-ci il
[2] "Fossişe tseytunq", 30 iyul 1932-ci il



Rumıniya ilə razılıq əldə edilməsi nə hasilat, nə də qiymətlər sahəsində öz əhəmiyyətini göstərə bilmişdi"[1].

Paris konfransının sovet neftindən yan keçməsi, onun dünya bazarında qüdrətli amil olmasına laqeyd yanaşması tezliklə özünü başqa sahədə göstərdi. Konfransın qiymətlərin sabitləşməsi barədə "gördüyü tədbirlərin" təsiri iclas salonundan kənanra çıxmadı. Dünya bazarında neft məhsulları qiymətinin aşağı düşməsi Paris konfransından sonra da davam edirdi. 1932-ci ilin yanvarında yüngül benzinin hər tonu orta hesabla 16,80 dollar idisə, bu göstərici həmin ilin sentyabrında 16,52 dollara düşmüşdü. Müqayisə edilən dövrdə ağ neftin hər tonu 0,58 dollar, mazutun hər tonu isə 0,50 dollar aşağı düşmüşdü[2].

Paris konfransının qərarları Rumıniya neft sənayeçiləri tərəfindən də o qədər rəğbətlə qarşılanmadı. Onların 30 faizi konfransın neft hasilatını məhdud etmək haqqındakı qərarına əməl etmir, əməl edənlərdə isə tərəddüd getdikcə güclənirdi[3].

Bütün bunların nəticəsi idi ki, "Rumıniya neft sənayeçləri cəmiyyəti" 1932-ci ilin sentyabrında neft hasilatının məhdud edilməsi sahəsində onlara möhlət verilməsi haqqında konfrans təşkilatçılarına müraciət etmişdi[4]. Rumıniya neft sənayeçiləri arasında tədricən qüvvətlənməyə başlayan bu əhval-ruhiyyə Paris konfransı təşkilatçılarını ciddi narahat etməyə bilməzdi. Onlar Rumıniya-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 310, vər. 24
[2] "Нефтяное хозяйство", № 11-12, 1932, с. 314,
[3] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 118
[4] "Нефтяное хозяйство" № 10, 1932, s. 252

nın bu mövqeyinə, sovet neftinə dolayı yardım kimi baxırdılar.

1932-ci ilin noyabrın sonlarında dünya trestlərinin Parisdə çağırılmış təcili müşavirəsində "Royal datç-şell" tərəfindən Kessler, "İngilis-İran neft şirkəti" tərəfindən Teylor, "Standart oyl" tərəfindən Bedford, Rumıniya tərəfindən isə Ositseanu iştirak edirdi. Paris müşavirəsi Rumıniyaya təzyiqi davam etdirmək istiqamətində onlara heç bir kömək etmədi. Əksinə, Rumıniyada gündəlik neft hasilatı əvvəllər 18500 tonla məhdud edildiyi halda, 1932-ci ilin sonlarında bu artırılaraq 24 min tona çatmışdı[1].

Rumıniya neft sənayeçiləri getdikcə başa düşməyə başlayırdılar ki, "dünya neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq və bazarlarda neft məhsullarının qiymətini sabitləşdirmək haqqında" Paris konfransının gördüyü "tədbirlərin" əsas ağırlığı onların üzərinə düşmüşdür. Onlardan neft hasilatını məhdud etmək tələb edildiyi halda, buradakı dünya trestləri özləri buna nəinki əməl etmir, əksinə öz hasilatlarını artırmağa daha da səy göstərirlər. Bundan başqa Rumıniyanın milli neft şirkətləri artıq bunu da qəti yəqin etmişdilər ki, sovet neft ixracı təşkilatı heç də dünya trestlərinin güman etdiyi kimi, dünya bazarından getmək fikrində deyildir. Dünya trestləri, vəd etdikləri kimi, nəinki Rumıniyaya yeni bazarlar vermir, əksinə bu və ya digər bazarlarda hətta onun özünü sıxışdırırlar. "Standart oyl"un İspaniya ilə neft məhsulları ixracını artırmaq haqqında 1933-cü ilin əvvəllərində bağladığı yeni müqavilə buna əyani sübut idi. Məlum olduğu kimi, İspaniyaya Sovet İttifaqı ilə yanaşı Rumıniya da neft məhsulları ixrac edirdi.

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 270, vər. 118



Bütün bu səbəblər zəminində Rumıniya neft sənayeçilərində yaranmış ümumi narazılıq daha da güclənərək, 1933-cü ilin ortalarında özünün yüksək nöqtəsinə çatdı. "Rumıniya neft sənayeçiləri cəmiyyəti" 1933-cü ilin 1 iyulunda neft hasilatını məhdud etmək haqqında Paris konfransı qərarını yerinə yetirməkdən imtina etdiklərini rəsmi şəkildə bildirdilər[1]. Bununla da dünya neft maqnatlarının vaxtı ilə böyük ümid bəslədikləri Paris konfransının rol və əhəmiyyəti qəti olaraq heçə endirildi. İmperialistlərin bu konfrans vasitəsilə sovet neftinə qarşı vahid cəbhə təşkil etmək üçün göstərdikləri sonuncu cəhd də, bu məqsədlə əvvəllər tərtib edilmiş saysız-hesabsız planlar kimi onları məyus etdi.

Paris konfransı sosialist inqilabının qələbəsindən sonra imperialistlərin sovet neftinə qarşı apardıqları mübarizə silsiləsində sonuncu ən böyük cəhd idi.

Paris konfransının uğursuz taleyi imperialistlər üçün ciddi bir dərs olmalı idi. Konfransın acı nəticəsi V.İ.Leninin vaxtı ilə böyük uzaqgörənliklə irəli sürdüyü belə bir müddəanı təsdiq edirdi ki, kapitalist inhisar birliklərinin böhranları aradan qaldıra bilməsi iddiası, kapitalizmə nə olursa-olsun bəzək-düzək verməyə çalışan iqtisadçıların uydurmasıdır[2]. Paris sazişinin pozulması kapitalizmdəki iqtisadi qanunauyğunluğun labüd nəticəsi idi. Bu, bir daha göstərdi ki, kapitalist təsərrüfatını planlı,

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 315, vər. 11
[2] V.İ.Lenin. Əsərləri, 22-ci cild, s. 218

mütəşəkkil, rəqabətsiz, mübarizəsiz idarə etmək mümkün deyildir.

Paris konfransının müvəffəqiyyətsizliyindən çıxan digər ən mühüm nəticə bundan ibarət idi ki, Sovet İttifaqı imperialist dövlətlərinin ona göstərdiyi müxtəlif iqtisadi, siyasi, diplomatik təzyiq və təsirlərə baxmayaraq, qısa müddətdə nəinki öz iqtisadiyyatının əsaslı yüksəlişinə nail ola bilmiş, həm də dünya təsərrüfatının tənzim edilməsində də əhəmiyyətli rol oynayacaq amilə çevrilmişdi. Beynəlxalq iqtisadi problemlərin həllində SSRİ-dən yan keçmək, onun rolunu lazımi dərəcədə qiymətləndirməmək vaxtı artıq keçmişdir. Onunla hesablaşmadan görülən hər hansı beynəlxalq iqtisadi tədbir müvəffəqiyyət qazana bilməz.

Nəhayət, Paris konfransının gördüyü "tədbirlərin" boşa çıxması imperialistləri və onların hökumətlərini bir daha əyani surətdə başa saldı ki, SSRİ-yə qarşı iqtisadi və siyasi mübarizəni köhnə qaydada – açıq şəkildə davam etdirmək faydasızdır. Sovet hökuməti hələ lap gənc ikən və öz iqtisadi-texniki inkişafına görə dolayı da olsa qabaqcıl kapitalist ölkələrindən qismən asılı olduğu dövrdə belə bir mübarizə imperialistlərə müvəffəqiyyət qazandırmadığı halda, bundan sonra – Sovet İttifaqının iqtisadi, siyasi və hərbi qüdrətinin artdığı bir dövrdə həmin taktikanı davam etdirmək ancaq ağılsız və donkixotçuluqdan başqa bir şey deyildir. Bütün bunlar ictimai müxtəlif sistemlərin dinc yanaşı yaşaması və əməkdaşlıq etməsinin mümkünlüyünü imperialistlərin etiraf etməsini zəruri edirdi.



# V FƏSİL

## 30-cu İLLƏRİN ORTALARINDA NEFT İXRACININ ƏSAS YEKUNLARI

Sovet İttifaqı birinci beşillik planı müvəffəqiyyətlə yerinə yetirərək, xalq təsərrüfatının yenidən qurulmasını başa çatdırmaq dövrünə qədəm qoydu. Yeni dövrün siyasi və iqtisadi vəzifələrini özündə əks etdirən ikinci beşillik plan, sosializm quruculuğunun yeni şərtlərinə görə bir çox cəhətdən birinci beşillikdən əsaslı şəkildə fərqlənirdi. Ölkədə yeni cəmiyyətin iqtisadi təməli qoyulmuş, xalq təsərrüfatının bütün sahələrinin texniki cəhətdən yenidən silahlanmasının əsası olan qüdrətli ağır sənaye yaradılmış, kənddə kolxoz quruluşu əsasən qalib gəlmişdi. Məhz buna görə də ikinci beşilliyin qarşısında duran başlıca vəzifə birinci beşillik illərində müvəffəqiyyətlə qoyulmuş bu təməl üzərində sosializm quruculuğu işini daha da inkişaf etdirmək və ölkədə onun qələbəsini əsasən təmin etməkdən ibarət idi. Lakin sosializm quruculuğunun vahid bir ictimai proses olmasına baxmayaraq, onun keçirdiyi tarixi mərhələlər öz qarşısında duran vəzifələrə görə bir-birindən fərqlənirdi. Başqa sözlə desək, bu tarixi proses özünün hər yeni mərhələsində irəliyə daha yeni vəzifələr sürürdü.

Yeni şəraitdən doğan yeni vəzifələrə uyğun olaraq Sovet dövlətinin təsərrüfat siyasətində də iqtisadi qanunauyğun dəyişiklik baş verməyə bilməzdi. Bu yeni siyasət sovet neft məhsulları ixracı sahəsində də özünü göstərirdi.

Birinci beşillik planın əzəmətli vəzifələrinin müvəf-

fəqiyyətlə yerinə yetirilməsi nəticəsində Sovet İttifaqının iqtisadiyyatında tarixdə misli görünməmiş dəyişikliklər baş verdi. Sovet İttifaqı geridə qalmış, xırda kəndli ölkəsindən texniki-iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrin ilk sıralarına keçdi. Bu dövrdə Maqnitaqorskstroy, Kuznetskstroy, Uralmaş kombinatı, Ridder polimetall kombinatı kimi nəhəng qara və əlvan metallurgiya müəssisələri, Stalinqrad və Xarkov traktor zavodları, Moskvada, Qorkidə, Yaroslavda avtomobil zavodları kimi maşınqayırma nəhəngləri, digər kənd təsərrüfat maşınları istehsal edən sənaye müəssisələri işə salındı[1]. Ümumiyyətlə, təkcə birinci beşillikdə SSRİ-də 1500 iri sənaye müəssisəsi istifadəyə verildi.

Bütün bunların nəticəsində ölkənin iqtisadiyyatında sənayenin xüsusi çəkisi xeyli artaraq, 1928-ci ildəki 48 faizdən, 1932-ci ildə 70 faizə çatdı[2]. 1932-ci ildə SSRİ-də olan müəssisələri 1928-ci il səviyyəsinə nisbətən 219 faiz, 1913-cü il səviyyəsinə nisbətən isə 334 faiz artıq məhsul istehsal edirdilər[3]. Bundan başqa, birinci beşillik dövründə ikinci bir mühüm tarixi vəzifə – xırda, fərdi, dağınıq kəndli təsərrüfatını iri sosialist əkinçiliyi yoluna keçirmək vəzifəsi də müvəffəqiyyətlə həyata keçirilmiş və Sovet İttifaqı ən iri əkinçilik ölkəsinə çevrilmişdi. Bəhs edilən dövrdə sosialist sənayesinin sürətli inkişafı kənd təsərrüfatını traktor və digər ən yeni kənd təsərrüfatı maşınları ilə təchiz etməyə imkan yaratmışdı. Birinci beşillik dövründə

[1] Sov. İKP... qətnamələri, III hissə, s. 196
[2] Yenə orada, s. 197
[3] Yenə orada



kənd təsərrüfatına 120 mindən artıq yeni traktor və 1600 milyon rubl dəyərində digər maşınlar verilmişdi[1]. Ölkədə son dörd ildə 2446 maşın-traktor stansiyası təşkil edilmiş və müasir texnika ilə təchiz edilmişdi[2].

Ölkənin iqtisadi həyatında baş vermiş bu ciddi keyfiyyət dəyişiklikləri öz əksini Sovet dövlətinin yeritdiyi neft siyasətində tapmaya bilməzdi. Ona hökmən yenidən baxılmalı və yeni tələblərə uyğun istiqamət verilməli idi.

Sovet dövləti özünün neft siyasətinə yenidən baxaraq belə bir həqiqəti müəyyən etdi ki, sovet neft məhsullarıı ixracı daha bundan sonra əvvəllər olduğu kimi davam etdirilə bilməz. Bu sahədə qarşıya qoyulmuş məqsəd əsasən həyata keçirilmişdir. Sovet nefti kapitalist neft inhisarları ilə mübarizə şəraitində nəinki dünya bazarında öz köhnə mövqeyini bərpa etmiş, hətta bundan çox-çox irəli getmiş, kapitalist dövlətlərilə Sovet İttifaqının iqtisadi əlaqələrinin yaranmasında və genişlənməsində mühüm rol oynamış, SSRİ-nin siyasi nüfuzunun artmasına yaxından yardım etmiş, sosializm quruculuğunun tələb etdiyi vəsaitin əldə edilməsində əsas mənbə kimi özünü müvəffəqiyyətlə doğrultmuşdu. İndi onu tamamilə daxili vəzifələrin həllinə yönəltmək lazım idi. Sovet nefti indi ölkəyə xarici bazardan daha çox, daxildə böyük fayda verə bilərdi və verməli idi. İctimai inkişafın indiki mərhələsində onun daxili rolu əvvəllərə nisbətən qat-qat artmışdı. Bu dövrdə qarşıda duran bütün təsərrüfat vəzifələrinin müvəffəqiyyətli həlli neft yanacağı ilə təchizatdan bilavasitə asılı idi.

[1] Sov. İKP... qətnamələri, III hissə, s. 198
[2] Yenə orada, s. 199

Bütün bunlarla yanaşı, ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsi məsələsi də sovet neft məhsulları ixracının azaldılmasını tələb edirdi. "Soyuznefteksport" təşkilatı 1933-cü ildən etibarən məhz bu yeni neft siyasətinə əsasən fəaliyyət göstərməyə başladı.

İkinci beşillik dövründə sovet neft məhsulları ixracı ildən-ilə məqsədyönlü şəkildə azaldılmağa başlandı. 1932-ci ildə Sovet İttifaqı 6054,9 min ton[1] neft məhsulları ixrac etdiyi halda, 1933-cü ildə bu göstərici 4807 min tona, 1934-cü ildə 4160 min tona, 1935-ci ildə 3161 min tona, 1936-cı ildə 2499 min tona və 1937-ci ildə isə 1860 min tona endirildi[2]. İkinci beşillikdə neft məhsulları üzrə sovet ixracının azalmasını daha konkret şəkildə belə bir faktdan görmək olar ki, əgər birinci beşillik illərində Sovet dövlətinin ixrac etdiyi neft məhsullarının ümumi miqdarı 22962 min ton[3] təşkil edirdisə, ikinci beşillikdə bu 16437 min tona[4] enmiş, başqa sözlə 6525 min ton azaldılmışdı.

Birinci beşilliyin sonunda SSRİ-nin dünya bazarına çıxardığı neft məhsulları SSRİ-nin ümumi ixracının 18,7 faizini təşkil etdiyi halda, ikinci beşilliyin sonunda bu artıq 11,8 faizə enmişdi[5].

Bu faktlar ikinci beşillik dövründə sovet neft məhsulları ixracının ildən-ilə azaldığını sübut etməklə yanaşı, həm də onu göstərirdi ki, azalma birdən-birə deyil, tədricən həyata keçirilmişdir. Bu isə bir çox iqtisadi və siyasi

---

[1] "Мировая нефтяная торговля", с. 258
[2] "Внешняя торговля СССР за 1918-1940 гг", с. 163
[3] "Мировая нефтяная торговля", с. 258
[4] "Внешняя торговля СССР за 1918-1940 гг", с. 163
[5] RF XTMDA, f. 1562, siyahı 23, iş 3, vər. 20



mülahizələrdən irəli gəlirdi.

Birincisi, Sovet dövləti dünya neft bazarından tamamilə uzaqlaşmaq fikrində deyildi. Ona görə də, neft məhsulları ixracını bir neçə ölkəyə göndərdiyi məhsullar hesabına azalda bilməzdi. Bu ixtisar, bütün idxalçı dövlətlər üzrə az-çox proporsional qaydada aparılmalı idi. Məhz bunun nəticəsi idi ki, ikinci beşillikdə ixrac edilmiş neft məhsulları birinci beşilliyə nisbətən xeyli az olduğu halda, bazarların sayı demək olar ki, azalmamışdı. Sovet dövləti ikinci beşillikdə 27 ölkəyə neft məhsulları ixrac edirdi[1]. Təkcə Rumıniya, Argentina və Bolqarıstana neft məhsulları ixracı tamamilə dayandırılmışdı ki, bu da müxtəlif səbəblərin nəticələri idi. Rumıniya kifayət miqdarda öz neft məhsullarına malik olduğu üçün sovet neftindən imtina etmişdi. Argentina sovet nefti üçün uzaq və qeyri-əlverişli olduğu üçün buraya ixrac "Soyuznefteksport"un təşəbbüsü ilə dayandırılmışdı. Bolqarıstana gəldikdə isə neft bazarı olmaqla o, sovet nefti üçün o qədər də mühüm əhəmiyyət kəsb etmirdi.

İkincisi, Sovet dövləti neft ixracını əsasən onun üçün daha az əlverişli olan təşkilat və firmalarla bağladığı müqavilələr hesabına azaldırdı. Məlum olduğu kimi, dünya iqtisadi böhranı illərində Sovet dövləti öz neft məhsullarını müxtəlif kanallar vasitəsilə ixrac edirdi. Lakin bu kanalların heç də hamısı sovet nefti üçün eyni dərəcədə əhəmiyyətli deyildi. Məsələn, dünya trestləri sovet neftini və ya digər bazarda nisbətən ucuz qiymətə olaraq, "Soy-

---

[1] Faktlar "Внешняя торговля СССР за 20 лет" Statistik məlumt kitabının 49-cu səhifəsindəki cədvələ əsasən hesablanmışdır.

uzneftеksport"un bu ölkədə mövcud olan xüsusi satış təşkilatı ilə rəqabət aparırdı.

Xarici ölkələrin mətbuat səhifələrində sovet neftinin ixracının ildən-ilə azaldılması müxtəlif səbəblərlə izah edilirdi. Burjua mütəxəssisləri sovet neftinin dünya bazarlarına getdikcə az çıxarılmasının başlıca səbəbini Sovet İttifaqında neft ehtiyatının tükənməsi nəticəsində hasilatın aşağı düşməsində, neft emalının texniki cəhətdən yararsızlığında, yükdaşıma nəqliyyat vasitələrinin çatışmamasında və nəhayət, sovet neftinin dünya bazarından kapitalist neft inhisar birlikləri tərəfindən ciddi sıxışdırılmasında görürdülər[1]. Kapitalist ölkələrində neft dairələrinə yaxın olan mətbuat sovet neft məhsulları ixracının azalmasını dünya neft trestlərinin tarixi qələbəsi kimi qiymətləndirirdilər[2].

Lakin sovet neft məhsulları ixracının azaldılmasını zəruri edən səbəblər və bunlara aid mövcud olan küllü miqdarda faktlar, xaricdə sovet nefti ətrafında qaldırılmış bu növbəti hay-küyün tamamilə əsassız olduğunu sübut etməyə imkan verir.

Dünya neft imperialistləri, ikinci beşillikdə sovet neft məhsulları ixracı ildən-ilə azaldığı dövrdə belə, onunla öz mübarizə silahlarını yerə qoymamışdılar. Doğrudur, indi onlar heç də əvvəlki kimi böyük vəsait və qüvvə sərf etmirdilər. Sovet dövləti bu işi özü, planauyğun suratdə apardığı halda, buna heç ehtiyac da yox idi. Onlar yalnız sovet dövlətini və onun neftini müxtəlif uydurmalarla

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 310, vər. 24-28
[2] "Внешняя торговля", № 2, 1937, c. 31



dünya ictimaiyyətinin gözündən salmağa, sovet neftinin "etibarsızlığı" haqqında vaxtı ilə qaldırdıqları hay-küyə haqq qazandırmağa və bununla da dünya neft bazarında öz yerlərini möhkəmləndirməyə səy edirdilər.

Bu, bəhs edilən dövrdə neft trestlərinin sovet neftinə qarşı apardıqları mübarizənin yeni forması idi.

Əslində isə, sovet neft məhsulları ixracının azalması ölkəmizdə sosializm quruculuğunun yeni tələblərindən doğub, konkret səbəblərin nəticəsi idi.

1935-ci ildə çağırılmış VII Ümumittifaq Sovetlər qurultayı sovet neft məhsulları ixracının azalmasından hələ o zaman bəhs edərək göstərirdi ki, "Bizim ixracımızın azalması dünya iqtisadi böhranının nəticəsi olmayıb, sovet təsərrüfatının yüksəlişindən, kapitalist dünyasından asılı olmamağımızdan və Sovet İttifaqının daxili tələbinin artmasından irəli gəlir"[1].

İkinci beşillik dövründə SSRİ-nin iqtisadi həyatında yaranmış ciddi dəyişikliklər – yeni sənaye müəssisələrinin tikilməsi, genişləndirilməsi, mövcud müəssisələrin məhsul buraxılışının əvvəlki illərə nisbətən xeyli artması, neft məhsulları ilə qırılmaz suratdə əlaqədar idi. Neft məhsullarına ehtiyacı olan sahələr sürətlə artır və inkişaf edirdi. SSRİ Xalq Ağır Sənaye Komissarlığının VII Ümumittifaq Sovetlər qurultayına verdiyi hesabatda deyilirdi: "...Ağ neftə, benzinə, yağa olan tələb ildən-ilə artır və artacaqdır. Ölkəmizin traktorlaşması və avtomobilləşdirilməsi, bizim təyyarələrimiz, paroxodlarımız, domna sobalarımız bu gün daha çox neft yanacağı tələb edir.

[1] "СССР 7-ой Съезд Советов". Стенограф. Отчет. M., 1935, c. 25

1934-cü ildə biz ölkəyə 72 min avtomobil verdik. ...Lakin bu hələ dənizdə damla kimidir"[1]. 1913-cü ildə ölkə daxilində vur-tut 4,8 milyon ton neft məhsulları istehlak edildiyi halda, bu göstərici 1932-ci ildə 14,4 milyon tona, 1937-ci ildə isə 4 dəfə artaraq 19,7 milyon tona çatmışdı[2].

1937-ci ildə SSRİ dünyada neft məhsullarının işlədilməsinə görə ABŞ-dan sonra ikinci yeri tuturdu. Həmin il o, dünya üzrə hasil edilmiş neftin 11,2 faizini verdiyi halda, onun 8,1 faizini istehlak edirdi[3].

Məhz yuxarıda göstərilən bu amil – daxildə neft məhsullarına olan tələbin ciddi surətdə artması SSRİ-dən neft məhsulları ixracının ildən-ilə azalmasına səbəb olmaya bilməzdi. Ölkənin neft sənayesinin sürətlə inkişafına baxmayaraq, o, ölkə daxilində neft məhsullarına gündən-günə artan tələbdən geri qalırdı. VII Ümumittifaq Sovetlər qurultayının materiallarında hələ 1934-cü ilə dair faktlara əsasən göstərilirdi ki, ağır sənaye məhsulları istehsalının artımı neft hasilatı və emalı sahəsindəki artımdan qabağa gedir. Məsələn, 1934-cü ildə ağır sənaye müəssisələrində məhsul istehsalı 1933-cü ilə nisbətən 27 faiz artdığı halda, müqayisə edilən müddətdə isə neft hasilatının artımı 12,8 faiz olmuşdu[4].

İkinci beşillikdə xaricə benzin ixracı böyük həcmdə azaldıldı. Lakin bu, ölkədə benzin istehsalının azalması ilə deyil, ölkənin sənayeləşdirilməsi nəticəsində daxildə olan

---

[1] "СССР 7-ой Сьезд Советов". Бюллетень, № 7, 1935, с. 15
[2] С.М.Лисичкин. "Очерки развития нефтяной промышленности СССР", с. 203
[3] "Внешняя торговля", № 2, 1937, с. 28
[4] "СССР 7-ой Сьезд Советов". Бюллетень, № 10, 1935, с. 12



ehtiyacın artması ilə izah edilirdi.

1933-1937-ci illərdə benzinin Sovet dövlətinin ümumi neft məhsulları istehlakında yeri 4,5 faizdən 12,3 faizə qalxmışdı[1].

Bu cəhətdən aşağıdakı fakt daha maraqlıdır. 1913-cü ildə çar Rusiyasında əldə edilmiş benzinin 97 faizi ixrac edilir, qalan 3 faizi isə daxili ehtiyaclara sərf edilirdi. 1935-ci ildə isə əldə edilmiş benzinin 21,4 faizi ixrac edilmiş, qalan 78,6 faizi ölkə daxilində istehlak edilmişdi. Müqayisə edilən illərdə isə benzin istehsalı 20 dəfə artmışdı[2].

SSRİ-nin 1935-ci ildə ixrac etdiyi benzinin miqdarının özü də çar Rusiyasının 1913-cü ildə ixrac etdiyi benzindən qat-qat çox idi. 1913-cü ildə ixrac edilmiş benzin cəmi 152 min ton olub, ümumi məhsulun 1,7 faizini təşkil etdiyi halda, 1935-ci ildə ixrac edilmiş benzin 658 min tona bərabər idi. Bu isə, ümumi benzin istehsalının 21,4 faizini təşkil edirdi[3].

Bütün bu yuxarıda göstərilən faktlar parlaq surətdə sübut edir ki, ikinci beşillikdə SSRİ-dən neft məhsulları ixracının azalması heç də Sovet İttifaqının dünya bazarlarından sıxışdırılması, onun ayrı-ayrı neft məhsulları istehsalının azaltmasının deyil, ölkə daxilindəki iqtisadi inkişafın qanunauyğun yekunu idi.

SSRİ Xalq Xarici Ticarət Komissarlığının orqanı "Внешняя торговля" jurnalı 1937-ci ildə bu münasibətlə yazırdı: "Son illərdə sovet neft məhsulları ixracının azal-

---

[1] С.М.Лисичкин. "Очерки развития нефтяной промышленности СССР", с. 204
[2] "Внешняя торговля", № 11, 1936, с. 9
[3] Yenə orada

dılması heç də sovet neftinin dünya bazarından sıxışdırılması demək deyildir. Bu, SSRİ-nin xalq təsərrüfat yüksəlişinin, daxili tələbinin artmasının nəticəsidir"[1].

İkinci beşillik illərində sovet neft məhsulları ixracının azalması qismən də sırf iqtisadi mülahizələrdən irəli gəlirdi. Əldə olun rəsmi sənədlər və təkzibedilməz konkret faktlar göstərir ki, 1933-cü və 1934-cü illərdə dünya neft sənayesi və beynəlxalq neft bazarı iqtisaldi böhranın göstərdiyi güclü təsirdən nəinki xilas ola bilməmiş, əksinə həmin illərdə burada vəziyyət daha da mürəkkəbləşmişdi. "Soyuznefteksport" 1934-cü ilə dair öz hesabatında həmin il neft məhsullarının qiymətlərinin əvvəlki dövrlə müqayisədə kəskin surətdə aşağı düşməsi, bazarların daha da pozulması və bazarlar uğrunda gedən mübarizədə rekord ili kimi qiymətləndirirdi[2].

1934-cü il dünya bazarında vəziyyətin daha da pisləşməsi bir də onun nəticəsi idi ki, həmin ildə dünya bazarına yeni bir rəqib – İraq nefti daxil olmuşdu 1933-cü ildə Londonda çağırılmış beynəlxalq neft konfransında İraq neftinin dünya bazarına çıxarılmasını məhdud normaya salmaq cəhdi baş tutmamışdı. Bu, İraq neftinin şərikləri arasında gedən mübarizənin bilavasitə nəticəsindən doğurdu. Həmçinin Bəhreyn adalarında istehsal edilən neftin mövqeyi dünya bazarında daha da güclənmişdi. Digər tərəfdən isə, Mancuriya və Bolqarıstanda neft inhisarı tətbiq edilməyə başlanmış, Yaponiyada lisenziya sistemi müəyyən edilmiş, bir sıra ölkələrdə, xüsusilə Almaniyada

[1] "Внешняя торговля", № 2, 1937-ci il, s. 31
[2] RF XTMDA, f. 1, siyahı 11066, iş 237, vər. 1



avtarkiya meyli xeyli güclənmişdi[1].

1934-cü ili xarakterizə edən bütün bu faktlar dünya neft sənayesində və bazarında onsuz da yaxşı olmayan vəziyyəti daha da pisləşdirməyə bilməzdi. Məhz bütün bunların nəticəsi idi ki, 1933-cü və 1934-cü illərdə dünya üzrə neft hasilatı, neft məhsullarına olan tələbdən çox-çox qabağa getmişdi. 1933-cü ildə dünya üzrə (SSRİ buraya daxil deyildir – Ə.Ə.) 209,6 milyon ton neft hasil edildiyi halda, 195,2 milyon ton məhsul işlənmişdi. 1934-cü ildə hasil edilən neft isə ona həmin il olan tələbdən 15,3 milyon ton çox olmuşdu[2].

Rəqəmlərdən göründüyü kimi, təkcə 1933-cü və 1934-cü illərdə dünya üzrə mövcud tələbdən 29,7 milyon ton artıq neft istehsal edilmişdi. Bunun nəticəsində dünya bazarında onsuz da çox aşağı olan neft məhsullarının qiyməti daha da aşağı düşmüşdü. Bəhs edilən dövrdə dünya bazarında mazutun və dizel yanacağının hər tonunun qiyməti orta hesabla 39 dollar, qazoylun qiyməti 71 dollar, ağ neftin qiyməti 92 dollar, solyarın qiyməti 94 dollar, benzinin qiyməti 114 dollar idi[3] və s. Neft məhsullarının bu göstərilən qiyməti 1931-ci və 1932-ci il qiymətlərinə nisbətən xeyli aşağı idi[4].

İxrac əməliyyatlarına, ölkənin idxal etdiyi əmtəələrin haqqının ödənilməsi vasitəsi kimi baxan Sovet dövləti, şübhəsiz dünya bazarındakı bu vəziyyəti nəzərə almaya bilməzdi. O, öz neft məhsulunu dəyər-dəyməz satmaq-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 357, vər. 1
[2] Yenə orada
[3] Yenə orada, "Soyuzneftekspört", siyahı 8703, iş 352, vər. 58
[4] Yenə orada

dansa, onu ölkənin daxili ehtiyacına daha gen-bol sərf etməyi üstün tuturdu. Bunun əvəzinə isə dünya bazarına digər, daha çox fayda verən əmtəələr çıxarmaq məqsədəuyğun idi. Şübhəsiz bu fakt da sovet neft məhsulları ixracının azalmasında öz təsirini az-çox göstərmişdi.

İkinci beşillikdə sovet neft məhsulları ixracının azalması yuxarıda göstərilən səbəblərlə yanaşı, həm də SSRİ-yə qarşı müharibə təhlükəsinin artması ilə ölkənin müdafiə qüdrətinin möhkəmləndirmək üçün görülən tədbirlərlə də sıx surətdə əlaqədar idi.

Məlum olduğu kimi, 1929-1933-cü illərdəki dünya böhranının ardınca, adətən iqtisadi böhranlardan sonra əmələ gələn yüksəliş baş vermədi. Bu dəfə böhrandan sonra dünya kapitalist təsərrüfatında uzun müddətli durğunluq baş verdi. Bu proses 1937-ci ilə qədər davam etdi. 1937-ci ildən başlayaraq kapitalist iqtisadiyyatı növbəti böhrana məruz qaldı.

Bir çox ölkələrdə kapitalist inhisarları özlərinin nicat yolunu faşist rejiminin – inhisarçı kapitalın ən irticaçı ünsürlərinin açıq terrorçu diktaturasının qurulmasında görməyə başladılar. Onlar bundan dünyanı yenidən bölüşdürmək uğrunda müharibəyə başlamaq üçün istifadə etmək fikrində idilər. Artıq bəhs edilən dövrdə Uzaq Şərqdə və Avropanın lap mərkəzində yeni müharibə ocaqları yaranmışdı.

Kommunist partiyası və Sovet dövləti yeni dünya müharibəsinin yetişdiyini irəlicədən görürdü. Partiyanın Mərkəzi Komitəsinin Sov. İKP XVII qurultayına verdiyi hesabatda qeyd edilirdi: "Xarici bazarlar uğrunda mübarizənin qüvvətlənməsi, azad ticarətin son qalıqlarının



məhv edilməsi, qadağanedici gömrük rüsumları qoyulması, ticarət müharibəsi, valyutalar müharibəsi, dempinq və qoruyucu iqtisadi siyasət... bir çox başqa bu kimi tədbirlər ölkələr arasındakı münasibətləri son dərəcə kəskinləşdirmiş, hərbi toqquşmalar üçün zəmin yaratmış, dünyanın və nüfuz dairələrinin daha qüvvətli dövlətlər faydasına yenidən bölünməsi vasitəsi olmaq etibarı ilə müharibəni qarşıya qoymuşdur.

İş açıq-aydın yeni müharibəyə doğru gedir"[1].

Getdikcə gərginləşməyə başlayan beynəlxalq vəziyyət Sovet hakimiyyətindən ölkənin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsini tələb edirdi. Bunun üçün hər şeydən əvvəl Sovet dövlətinin silahlı qüvvələrini, döyüş texnikasının say və qüvvəsini artırmaq lazım idi.

Bu məsələ ikinci beşillikdə Sovet dövlətinin xüsusi diqqət mərkəzində dururdu. Məhz bunun nəticəsi idi ki, həmin illərdə müdafiə sənayesinin buraxdığı məhsulların artma sürəti ölkənin bütün sənayesinin artım sürətindən artıq olmuş, Sovet ordusunun ən yeni növ və müasir tipli silahlarla təchiz edilməsi xeyli yaxşılaşmışdı.

Təkcə bunu göstərmək kifayətdir ki, hələ 1935-ci ildə SSRİ-də 1931-ci ilə nisbətən 330 faiz çox hərbi təyyarə, 2475 faiz çox kiçik tanklar, 760 faiz çox yüngül tanklar, 792 faiz çox orta tanklar istehsal edilmişdi[2]. Müqayisə edilən illərdə istehsal edilmiş qayıqlar 635 faiz, gözətçi gəmilər 1100 faiz, torpeda katerləri isə 470 faiz artıq idi[3].

---

[1] İ.V.Stalin. Əsərləri, 13-cü cild, s. 306-307

[2] "7-ой съезд Советов". Стенограф. Отчет, с. 32

[3] Yenə orada, s. 33

Hərbi sənayenin digər sahələrində əldə edilən istehsal göstəriciləri də bunlar kimi yüksək idi.

Ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsi üçün görülən tədbirlər nəticəsində döyüş texnikasının belə sürətli artımı küllü miqdarda əlavə neft məhsullarının olmasını tələb edirdi. Bunlarsız istehsal olunan hərbi texnika metal yığınından başqa bir şey deyildi.

Bundan başqa Sovet dövləti təkcə mövcud hərbi texnikanın tələb etdiyi qədər neft məhsullarına malik olmaqla da kifayətlənə bilməzdi. Hərbi nöqteyi-nəzərdən bu, işin bir tərəfi idi. Digər daha mühüm tərəf isə, cari tələblə yanaşı küllü miqdarda neft məhsulları ehtiyatına malik olmaq idi. Görkəmli mütəxəssislərin, o cümlədən fransız iqtisadçısı Serani De Bulyar, Ferdinand Fraydenburq və başqalarının apardığı hesablamalara görə müharibəyə cəlb olunmuş hər bir dövlət dinc dövrə nisbətən ildə orta hesabla 2-3 dəfə artıq neft məhsulları işlətməli olurdu[1].

*Müharibə təhlükəsinin yaxınlaşdığını* açıqdan-açığa görən Sovet dövləti şübhəsiz bu faktı nəzərə almaya bilməzdi. Dinc quruculuq dövründə ölkə daxilində işlənən neft məhsullarının miqdarına əsasən aparılan bu hesablamalara görə, müharibə şəraitində Sovet İttifaqı ildə 45-50 milyon ton neft məhsullarına malik olmalı idi. Halbuki, hələ ikinci beşilliyin sonunda SSRİ-nin istehsal etdiyi neftin orta illik miqdarı 28,4 milyon tona bərabər idi[2]. Deməli, Sovet dövləti öz təhlükəsizliyini təmin etmək

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 490, vər. 1
[2] "Мировая нефтяная торговля", с. 251



məqsədilə nəinki neft istehsalını daha sürətlə artırmalı, həm də bu sahədə yaranmış boşluğu ixrac əməliyyatlarını məhdudlaşdırmaq hesabına doldurmalı idi.

Sovet dövləti neft məhsulları ixracını ölkəmizin təhlükəsizliyini təmin etmək nöqteyi-nəzərincə azaldarkən bu işdə təkcə daxili amilləri deyil, həm də xarici amilləri nəzərə alırdı. İmperialist dövlətlərinin dünya müharibəsinə ciddi hazırlaşdıqları göz qabağında idi. Bu, dünyanın yenidən bölünməsinin ilk təşəbbüsçüsü kimi çıxış edən Almaniyada və onun müttəfiqlərində daha açıq-aydın hiss edilirdi. İngiltərə və Fransa bu hazırlıqda gizli olsa da, onlardan geri qalmaq istəmirdilər.

Sovet dövləti yaxşı bilirdi ki, gec-tez bu dövlətlərin biri və ya bir neçəsi ilə üz-üzə gələcəkdir. Ona görə də, həmin ölkələrə onların istədikləri qədər neft məhsulları vermək, təcavüzkar dövlətin müharibə planının həyata keçirilməsini dolayı yolla sürətləndirmək demək idi.

İkinci dünya müharibəsi sözün əsil mənasında, motorlar müharibəsi olacağı nöqteyi-nəzərindən neft məhsulları indi Almaniya, İtaliya, İngiltərə, Fransa və s. üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki onlar istənilən qədər yüksək tipli müasir döyüş texnikasına malik olduqları halda, bu texnikanı hərəkətə gətirə biləcək başlıca qüvvəyə – neftə möhtac idilər. 1935-ci ildə dünya üzrə hasil edilmiş neftin 71,7 faizi ABŞ ilə SSRİ-nin payına, 28,3 faizi isə yerdə qalan bütün dünya dövlətlərinin payına düşürdü[1]. Almaniya, Fransa, İtaliya və İngiltərənin öz xüsusi ərazilərindən əldə etdikləri neft məhsulları heç də-

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 419, vər. 3

rəcəsində idi.

Bu yuxarıda göstərilənləri əsaslandırmaq üçün İkinci dünya müharibəsi ərəfəsində Almaniya, Fransa, İtaliya və İngiltərənin neft məhsulları istehsalı və istehlakına konkret nəzər salmaq kifayətdir.

Almaniya 1938-ci ildə istehlak etdiyi 6616,1 min ton neft məhsullarından vur-tut 2355 min tonunu özü istehsal etmişdi ki[1], bunun da 1,5 milyon tonu süni yol ilə – daş kömürdən alınırdı[2]. Deməli, o hələ dinc quruculuq dövrünün tələb etdiyi neft məhsulları ixracının 64 faizdən çoxunu bu və ya digər dövlətdən alırdı[3]. Həmin il buraya ixrac edilmiş neft məhsullarının 39,27 faizini Hollandiya Hindistanı, 23,91 faizini ABŞ, 8,71 faizini Meksika, 6,63 faizini Rumıniya, 5,65 faizini Venesuela, 3,78 faizini İran və s. ölkələr vermişdi[4].

Fransanın vəziyyəti daha ağır idi. O, 1938-ci ildə 6993,8 min ton neft məhsulları istehlak etdiyi halda, öz ərazisində vur-tut 8 min ton neft istehsal etmişdi[5]. Bununla onun dinc dövrdə neft məhsullarına olan tələbinin ancaq 4,7 faizini ödəmək mümkün olmuşdu[6]. Mosul neftindən 23,75 faiz aldığı pay[7] və süni yol ilə əldə etdiyi 247 min ton[8] neft məhsulları da əgər buraya əlavə edilərsə, bunlar dinc dövrdə Fransanın ehtiyacları üçün kifayət

[1] RF XTMDA, f. 1, siyahı 11066, iş 496, vər. 1
[2] "Внешняя торговля", № 12, 1940, с. 28
[3] RF XTMDA, f. 1, siyahı 11066, iş 496, vər. 1
[4] Yenə orada, f. "Soyuzneftekspоrt", siyahı 8704, iş 374, vər. 13
[5] Yenə orada, vər. 7
[6] "Нефтяное хозяйство", № 4-5, 1940, с. 17
[7] Yenə orada, s. 15
[8] Yenə orada



deyildi. O, 1938-ci ildə 8157,7 min ton əlavə neft məhsulları idxal etmişdi[1]. Bunun 40,40 faizini İraq, 21,47 faizini ABŞ, 8,65 faizini Venesuela, 8,06 faizini Rumıniya, 5,59 faizini Peru, 5 faizini Kolumbiya, 2,46 faizini İran və s. ölkələr vermişdi[2].

İtaliyaya gəldikdə isə o, 1938-ci ildə istehsal etdiyi 2834,7 min ton neft məhsulunun demək olar ki, hamısını idxal yolu ilə əldə etmişdi[3]. İtaliyanın neft məhsullarına olan ehtiyacın 27,53 faizini ABŞ, 19,97 faizini Rumıniya, 15,87 faizini Mərkəzi Afrika ölkələri, 12,74 faizini İran, 3,08 faizini Kolumbiya, 2,6 faizini Hollandiya Hindistanı, 8,55 faizini İraq və s. ölkələr ödəmişdi[4].

İngiltərənin vəziyyəti isə bu yuxarıda göstərilən dövlətlərdən xeyli fərqlənirdi. O, 1938-ci ildə öz daxilində cəmi 0,5 milyon ton nefti əvəz edən məhsul istehsal etmiş[5], 11945,8 min ton neft məhsulu isə işlətmişdi[6]. Bunun 11829,8 min tonu idxal hesabına olmuşdu.[7] Maraqlı burasıdır ki, təkcə İngiltərə özü deyil, onun dominion və müstəmləkələri də öz ölkələrindən əldə etdikləri neft ilə özlərini ödəyə bilmirdilər. 1938-ci ildə həmin ölkələrdə cəmi 6,8 milyon ton neft məhsulu istehsal edildiyi halda, 15,8 milyon ton istehlak edilmişdi[8]. Müstəmləkə və dominionlardan gətirilmiş neft məhsulları İngiltərənin ümumi

[1] RF XTMDA, f. "Soyuzneftekspоrt", siyahı 8704, iş 374, vər. 7
[2] Yenə orada, vər. 10
[3] Yenə orada, vər. 7
[4] Yenə orada, vər. 11
[5] "Внешняя торговля", №12, 1940, s. 30
[6] RF XTMDA, f. "Soyuzneftekspоrt", siyahı 8704, iş 374, vər. 7
[7] Yenə orada
[8] "Внешняя торговля", №12, 1940, с. 30

idxalında cüzi yer tuturdu. Belə ki, 1938-ci ildə həmin ölkələrdən İngiltərəyə cəmi 960 min ton neft məhsulları gətirilmişdi.

Lakin bunlarla bərabər qeyd etmək vacibdir ki, İngiltərə şirkətinə məxsus kapital dünya neftinin əhəmiyyətli hissəsini öz nəzarəti altına ala bilmişdi. "Royal datç-şell", "İngilis-İran neft şirkəti" ölkənin neft məhsulları ilə təmin edilməsində başlıca qüvvə idilər. Onlar 1938-ci ildə orta hesabla Venesuelada 11,4 milyon ton, İranda 10,4 milyon ton, ABŞ-da 7,7 milyon ton, Hollandiya Hindistanında 5,4 milyon ton, Rumıniyada 2,5 milyon ton, İraqda 2,1 milyon ton, Meksikada 1,1 milyon ton və s. olmaqla 41,3 milyon ton neft məhsulları istehsal etmişdilər[1]. Bunun da 84 faizi ancaq İngiltərəyə gətirilmişdi[2]. Göründüyü kimi, İngiltərənin neft üzrə vəziyyəti yuxarıda adları çəkilən dövlətlərin vəziyyətindən xeyli fərqlənirdi. Lakin məsələ burasında idi ki, onun dinc dövrdə özünün neft məhsullarına olan tələbi gen-bol ödəməyə malik olması imkanı heç də, eynilə müharibə dövrünə şamil etmək olmazdı. İngiltərənin kapitalı ilə əlaqədar olan neft rayonları onun öz ərazisindən çox-çox uzaqlarda olub, demək olar ki, dünyanın bütün qitələrinə səpələnmişdi. Müharibə isə onlardan istifadə etmək imkanını xeyli çətinləşdirməyə bilməzdi.

Yuxarıda gətirilən faktlardan göründüyü kimi, Almaniya, Fransa, İtaliya və İngiltərə neft məhsullarına olan ehtiyaclarını öz hesablarına ödəmək imkanına malik

---

[1] "Внешняя торговля", №12, 1940, с. 31
[2] Yenə orada



deyildilər. Onlar lazım olan neft məhsullarını əsasən idxal yolu ilə əldə edirdilər.

Əgər həmin dövlətlərin dinc dövrdə istehlak etdikləri neft məhsulları üzərinə mütəxəssislərin hesablamalarına əsasən, müharibə dövrünün tələb etdiyi miqdar da əlavə edilərsə, o zaman onların neftlə təmin olunma vəziyyətlərinin nə qədər çətin olduğunu açıq-aydın gözə çarpar.

Bütün bunları diqqətlə izləyən Sovet dövləti həmin ölkələrə neft məhsulları ixracını əhəmiyyətli surətdə azaltmaya bilməzdi. Bununla o, həm qismən öz təhlükəsizliyini təmin etmiş olur, həm də kapitalist dövlətlərinin müharibə hazırlığını müəyyən dərəcədə də olsa ləngidirdi.

Təkcə bunu göstərmək kifayətdir ki, 1937-ci ildə SSRİ-nin payına İngiltərənin idxal etdiyi neft məhsulları miqdarından 2,43 faiz, Fransanın idxalından 2,59 faiz, İtaliyanın idxalından 3,03 faiz, Almaniyanın idxalından isə 1,59 faiz düşürdü[1]. Bunlar isə vaxtı ilə bağlanmış və hələ müddəti qurtarmamış müqavilələr üzrə ixrac öhdəlikləri ilə əlaqədar idi. 1937-ci ildən sonra həmin ölkələrə sovet neft məhsulları ixracı daha da azaldıldı.

İkinci dünya müharibəsi ərəfəsində isə Sovet dövlətinin təkcə yuxarıda göstərilən ölkələrə deyil, ümumiyyətlə, xaricə neft icracını daha da azaltdı. 1938-cı ilə SSRİ-nin ixrac etdiyi bütün neft məhsullarının miqdarı 0,5 milyon tondan da az idi[2].

Bütün bu yuxarıda göstərilən faktlar qəti olaraq

---

[1] RF XTMDA, f. "Soyuznefteksport", siyahı 8704, iş 374, vər. 26
[2] "Внешняя торговля", №12, 1940, с. 30

sübut edir ki, 30-cu illərin sonuna doğru sovet neft ixracının azalması onun kapitalist neft inhisar birlikləri tərəfindən sıxışdırılmasının deyil, Sovet dövlətinin yeritdiyi yeni neft siyasətinin nəticəsi idi. Göstərilən illərdə sovet nefti dünya bazarından tədricən, planauyğun və mütəşəkkil surətdə geri çəkilməyə başlamışdı.

Sovet neft ixracı təşkilatının strukturasında və ixrac əməliyyatının aparılma qaydasında edilən dəyişikliklər də bunu bir daha sübut edirdi.

1934-cü ildə "Soyuznefteksport"un xaricdə 8 qarışıq cəmiyyəti (İngiltərədə "ROP", Almaniyada "Derunaft" və "Derop", İsveçrədə "ABN", İtaliyada "Petrlea", Fransada "Naftryusse", Finlandiyada "Finaft", İranda "Persazneft" cəmiyyətləri), 9 şöbəsi (Norveçdə, Danimarkada, Estoniyada, Latviyada, Litviyada, Türkiyədə, Mancuriyada, Monqolustanda və Çində) və 6 müvəkkilliyi (ABŞ-da, Yaponiyada, Cənubi Amerikada (Montovideo) Fransada, İsveçrdə və İtaliyada) olduğu halda[1], 1935-ci ildə isə o xaricdə neft ixracı ilə məşğul olan 14 təşkilata malik idi[2]. Bu, ancaq onun nəticəsi idi ki, vaxtı ilə həmin cəmiyyətlər, şöbələr və müvəkkilliklər sovet neftinin dünya bazarında möhkəmlənməsini təmin etmək üçün zəruri olduqları halda, indi daha onlara ehtiyac yox idi. Sovet nefti üçün bazar və müştəri arzu olunandan daha çox idi. Ona görə də, Sovet dövləti 1935-ci ilin ikinci yarısından başlayaraq "Soyuznefteksport"un xaricdə olan bütün mü-

[1] RF XTMDA, f. "Soyuznefteksport", siyahı 3295, iş 12, vər. 2
[2] "Мировая нефтяная торговля", c. 112



vəkkilliklərini ləğv etdi[1]. Neft ixracı ilə əlaqədar olaraq bütün təşkilatı məsələləri həll etmək və həyata keçirmək üçün "Soyuznefteksport"un tərkibində 5 direktorluq (Anqlo-Sakson ölkələri üzrə direktorluq (ABŞ, İngiltərə, Yeni Zellandiya), Skandinaviya və Baltikyanı ölkələr üzrə direktoruq (İsveç, Norveç, Danimarka, Estoniya, Latviya, Litva); Fransa-Roma ölkələri üzrə direktorluq (İtaliya, Fransa, İspaniya, Belçika, Hollandiya); Mərkəzi Avropa üzrə direktorluq (Almaniya, Avstriya, Macarıstan, Çexoslovakiya); Şərq ölkələri üzrə direktorluq (Çin, Mancuriya, Koreya, İran, Türkiyə və s.) yaradıldı[2]. Bu direktorluqlar əhatə etdikləri ölkələr üzrə neft ixracı əməliyyatını həmin ölkələrdə olan sovet ticarət nümayəndəliyi vasitəsilə həyata keçirirdilər.

SSRİ XKS-nin 27 iyul 1935-ci il tarixli qərarı ilə xarici ticarətin bütün sahələri kimi neft ixracı əməliyyatının təşkili də ölkə daxilinə keçirildi. İndi neft məhsulları ixracı haqqında müqavilə onun iştirakçısı olan dövlətin ərazisində deyil, bilavasitə Moskvada bağlanırdı. Bu, daha sovet neftinin deyil, əksinə müştərinin sovet neftinin ayağına gəlməsi demək idi.

İxrac əməliyyatı sahəsində yaranan bu vəziyyət "Soyuzneftеksport"un strukturunda yeni dəyişikliyə səbəb oldu. SSRİ XXTK-nın 14 iyun 1936-cı il tarixli 322 nömrəli əmri ilə "Soyuznefteksport"un tərkibindəki direktorluqlar ləğv edildi[3]. İndi bütün neft ixracı işinə sadə quru-

[1] RF XTMDA, f. "Soyuzneftеksport", siyahı 6070, iş 212, vər. 9
[2] Yenə orada
[3] Yenə orada, siyahı 6, iş 146, vər. 29

luşlu bir idarə rəhbərlik edə bilərdi.

Deməli, sovet neft ixracı təşkilatının strukturunda və ticarət əməliyyatı formalarında son illərdə gedən ciddi dəyişikliklər də bir daha göstərirdi ki, sovet nefti dünya bazarından zor və təzyiq gücünə deyil, könüllü çəkilməyə başlamışdı. Əks halda, Sovet dövləti xaricdə fəaliyyət göstərən ixrac təşkilatları və orqanlarını nəinki azaltmaz, ləğv etməz, əksinə, kapiatlist neft inhisar birliklərinin müqavimətini dəf etmək üçün onları daha da möhkəmləndirirdi.



# NƏTİCƏ

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra ta Sovet İttifaqının Vətən müharibəsinə qədərki illərdəki SSRİ-də əldə edilmiş siyasi və iqtisadi nailiyyətlər təkzibedilməz surətdə göstərir ki, bu işdə Azərbaycan neftinin rolu əvəzedilməz olmuşdur.

Sovet dövləti öz fəaliyyətinin ilk günlərində istər daxili və istərsə də xarici xarakterli mühüm iqtisadi və siyasi məsələlərin həllində haqlı olaraq bilavasitə Azərbaycan neftinə arxalanırdı.

Gənc Sovet hakimiyyətinə qatı düşmən münasibət bəsləyən bir sıra kapitalist ölkələri sovet neftinə olan ehtiyacı üzündən nəinki bir çox iqtisadi məsələlərdə, hətta bəzi diplomatik məsələlərdə də öz mövqeyindən geri çəkilməyə məcbur olmuşdu. Kapitalist dövlətlərinin Sovet İttifaqını tanıması və onunla diplomatik münasibət yaratması işində də Azərbaycan nefti ən dəyərli stimul rolunu oynamışdı.

Azərbaycan neftinin iqtisadi roluna gəldikdə isə, o, qüdrətli ağır sənayeyə malik olan Sovet ölkəsini durru yanacaqla gen-bol ödəməklə yanaşı, həm də yeni cəmiyyət quruculuğu işi üçün tələb olunan vəsaitin əldə edilməsində də ən başlıca mənbələrindən biri idi.

Sosializm quruculuğu illərində Azərbaycanda hasil edilmiş neft məhsulları miqdarının orta hesabla 18-20 faizini təşkil edən neft ixracından 5 milyard rubldan çox gəlir əldə edilmişdi. Sovet dövləti həmin vəsaitlə ölkənin qarşısında duran iqtisadi xarakterli sosialist tədbirlərinin həyata keçirilməsində xeyli yüngüllük hiss etməyə bilməzdi.

Bunu, SSRİ-nin sosializm quruculuğu illərində idxal etdiyi maşın və texniki avadanlığa sərf etdiyi məbləğlə müqayisə etsək, o zaman neft ixracından əldə edilmiş gəlirin əhəmiyyətini daha aydın görə bilərik.

Neft ixracından əldə edilmiş gəlirin sovet dövləti üçün oynadığı rolu daha aydın təsəvvür etmək üçün aşağıdakı fakta müraciət edək.

Birinci beşillik dövründə ən böyük sənaye nəhəngləri olan Maqnitoqorskstroy, Kuznetskstroy, Dneprostroyun inşası üçün 93,8 milyon rubl, traktor zavodlarının tikintisi üçün 68 milyon rubl olmaqla cəmi 161,8 milyon rubl xərclənmişdisə[1], həmin dövrdə təkcə neft ixracından 2 879 693 min rubl gəlir əldə edilmişdi[2].

Deməli, SSRİ-də ağır sənaye müəssisələrinin inşası bilavasitə Azərbaycan neftinin dünya bazarında satılması, əldə edilən vəsaitin ağır sənaye, xüsusən də, maşınqayırma sahəsi üçün dəzgah və avadanlıqlar alınmasına yönəldilməsi hesabına baş vermişdi. 30-cu illərin ikinci yarısından etibarən isə Azərbaycan nefti Sovet dövlətinin daxili ehtiyaclarına, onun müdafiə qabiliyyətinin artırılması işinə sərf edilirdi. Başqa sözlə, Azərbaycan nefti sonrakı dövrdə də Sovet İttifaqının iqtisadi, siyasi, həmçinin hərbi sahədə qarşıya qoyduğu vəzifələrin həllində böyük rol oynamaqda davam edirdi.

---

[1] Bax: "История СССР Эпоха социализма", М., 1958, с. 415

[2] "Внешняя торговля СССР за 20 лет", с. 49



# MÜNDƏRİCAT

Müəllimim haqqında bir neçə söz ............ I-IV
«Azərbaycan nefti dünya bazarında (XX əsrin 20-30-cu illəri)» adlı monoqrafiya haqqında ............ 3
GİRİŞ ............ 5
I FƏSİL. Azərbaycan neftini ələ keçirmək uğrunda beynəlxalq imperializmin mübarizəsi ............ 12
II FƏSİL. İmperialistlərin neft blokadasına qarşı mübarizə. Azərbaycan neftinin dünya bazarına çıxması ............ 68
III FƏSİL. İmperialistlərin yeni hücumlarının müvəffəqiyyətsizliyi ............ 173
IV FƏSİL. Dünya iqtisadi böhranlı illərində Azərbaycan neftinin beynəlxalq bazarda uğurları ............ 245
V FƏSİL. 30-cu illərin ortalarında neft ixracının əsas yekunları ............ 329
NƏTİCƏ ............ 351

ƏLİ ƏLİYEV

# AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINDA

## (XX əsrin 20-30-cu illəri)

Bakı – «Elm» – 2011

«ELM» REDAKSİYA-NƏŞRİYYAT
VƏ POLİQRAFİYA MƏRKƏZİ

Direktor: **Şirindil Alışanlı**
Mətbəənin müdiri: **Əhməd Məmmədov**
Texniki redaktor: **Tariq Ağayev**

Korrektor: **Könül Əliyeva**
Kompüter tərtibçisi: **Azadə İmanova**

Formatı: 60x84 1/16. Həcmi: 22,5 ç.v.
Tirajı: 200. Sifariş № 05.
Qiyməti müqavilə əsasında

«Elm» RNPM-nin mətbəəsində çap edilmişdir
(İstiqlaliyyət, 8).